

*Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

25 fevral 2026-cı il

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2026**
**1 (93)**

**BAKI – 2026**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Elvin Əzizbəyov, Namiq Əliyev, İsaxan Vəliyev, Azər Əmiraslanov, Hikmət Məmmədov, Gülnarə Qurbanova, Elçin Əhmədov, Nigar Ələkbərova, Xatirə Hüseynova, Firdovsiyyə Əhmədova, Sevil Məmmədova, Leyla Sultanova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən, ildə dörd dəfə olmaqla nəşr edilir.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2026, №1(93).*
*Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının nəşri, 2026, 336s.*

*© Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, 2026*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2026
1 (93)

BAKU – 2026

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Elvin Azizbayov, Namig Aliyev, Isakhan Valiyev, Azer Amiraslanov, Hikmat Mammadov, Gulnara Gurbanova, Elchin Ahmadov, Nigar Alakbarova, Khatira Huseynova, Firdovsiyya Ahmadova, Sevil Mammadova, Leyla Sultanova***

*The scientific-theoretical journal has been published quarterly since 2003.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2026, №1(93)*
*Baku, Publication of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2026, 336p.*

*© The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2026*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Yanvar - fevral - mart 2026-cı il*

## *Yanvar*

**4 yanvar**
- ABŞ nümayəndə heyətini qəbul etmişdir.

**5 yanvar**
- Yerli televiziya kanallarına müsahibə vermişdir.
- Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik etmişdir.

**8 yanvar**
- Bakıda, "Gülüstan" sarayında keçirilən Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.

**9 yanvar**
- Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri – Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul etmişdir.

**12 yanvar**
- Onun sədrliyi ilə keçirilən Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə çıxış etmişdir.

**13 yanvar**
- Tərtər elektromexanika zavodunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Əvvəlcə Ulu Öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoymuşdur.
- Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra kəndə köçən Kəmalə Dadaşovanın ailəsinə baş çəkmiş və yaşayış şəraiti ilə maraqlanmışdır.
- Ağdərə rayonunun Qozlukörpü kəndində "Qozlukörpü" Su Elektrik Stansiyasının (SES) açılışında iştirak etmişdir.
- Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra kənd sakini Sarvan Abbasovun ailəsinə baş çəkmiş, yeni evdə yaradılmış şəraitlə tanış olmuş, məşğulluq imkanları ilə maraqlanmışdır.
- Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olmuşdur.
- Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra kəndə köçmüş Verdi Abdullayevin evinə baş çəkmiş, ailənin yaşayış şəraiti ilə maraqlanmışdır.
- Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra kəndə köçmüş Anar Rüstəmovun ailəsinə baş çəkmiş, yeni evdə yaradılmış şəraitlə tanış olmuşdur.
- Ağdərə şəhərinin Baş planı ilə tanış olmuşdur.
- Baş planla tanış olduqdan sonra müvafiq tapşırıq və göstərişlərini vermişdir.
- Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşmüşdür.
- Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoymuşdur.

**18 yanvar**
- Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad etmiş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

**19 yanvar**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ümumdünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfərə gəlmişdir.
- Davos Ümumdünya İqtisadi Forumu çərçivəsində Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin sədri Andre Esteves ilə görüşmüşdür.
- Davosda "Vestas Wind Systems" şirkətinin marketinq, kommunikasiya, davamlılıq və ictimaiyyətlə əlaqələr üzrə qrupunun baş vitse-prezidenti Morten Dirholm ilə görüşmüşdür.
- Davosda Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus ilə görüşü olmuşdur.
- Davosda dünyanın ən böyük liman operatorlarından biri olan "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşmüşdür.

- Davosda “Carlsberg Group” şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşmüşdür.

**20 yanvar**

- 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.
- 20 Yanvar faciəsi ilə əlaqədar Şəhidlər xiyabanını ziyarəti barədə sosial şəbəkə hesablarında videoçarx paylaşmışdır.
- Davosda İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə görüşmüşdür.
- Davosda Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşmüşdür.
- Davosda dünyanın aparıcı qlobal maliyyə institutlarından biri olan Amerika Birləşmiş Ştatlarının “J.P. Morgan” şirkətinin sədri və baş icraçı direktoru Ceymi Daymon ilə görüşmüşdür.
- Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşmüşdür.
- Davosda Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani ilə görüşmüşdür.
- Davosda “Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi” mövzusunda panel iclasında iştirak etmişdir.
- Davosda “Euronews” televiziyasına müsahibə vermişdir.
- Davosda “Euronews” televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə iştirak etmiş, tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırmışdır.

**21 yanvar**

- Davosda “Brookfield Asset Management” şirkətinin prezidenti Konnor Teski ilə görüşmüşdür.
- Davosda Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşmüşdür.
- Davosda dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının “Dell Technologies” şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüşmüşdür.
- Davosda İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla görüşmüşdür.
- Davosda qızı Leyla Əliyeva ilə birlikdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə keçirilən panel iclasda iştirak etmişdir.
- Davosda Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşmüşdür.
- Davosda “Vitol” şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşmüşdür.
- Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycan Respublikasını dəvət etdiyi məktuba görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa təşəkkür etmişdir.

**22 yanvar**

- Sosial media hesablarında “Qarabağ” futbol klubunun qələbəsi ilə bağlı paylaşım etmişdir.
- Davosda “Sülh Şurasının Nizamnaməsi” (“Board of Peace Charter”) sənədinin imzalanma mərasimində iştirak etmişdir.
- Sonra tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları ilə birlikdə “Sülh Şurasının Nizamnaməsi” (“Board of Peace Charter”) sənədini imzalamışdır.
- Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olmuşdur.
- Ümumdünya İqtisadi Forumunun İllik toplantısı çərçivəsində keçirdiyi görüşlərlə bağlı sosial şəbəkə hesabında paylaşım etmişdir.
- “Sülh Şurasının Nizamnaməsi” sənədinin imzalanması mərasimində iştirakı və ABŞ Prezidenti ilə görüşünə dair sosial media hesablarında videoçarx paylaşmışdır.

**23 yanvar**

- Ölkəsinin milli bayramı münasibətilə Avstraliya İttifaqının General-Qubernatoru Samanta Mostini təbrik etmişdir.

**26 yanvar**

- İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul etmişdir.

**27 yanvar**

- Sumqayıt Sənaye Parkında “Azermirror” MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Sumqayıt Sənaye Parkında “Bakı Karton və Qutu Fabriki” MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Sumqayıt Sənaye Parkında “Nun” MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoymuşdur.

**30 yanvar**

- Yunanıstan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinunu qəbul etmişdir.
- İndoneziya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul etmişdir.
- Norveç Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul etmişdir.
- Avstraliya İttifaqının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Salli-Ann Vinsenti qəbul etmişdir.

- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edərək, bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə etmiş, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirmiş, həmçinin ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulamışdır.

## *Fevral*

**2 fevral**
- 2 fevral – Gənclər Günü münasibətilə Azərbaycan gənclərini təbrik etmişdir.
- Sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlmişdir.
- Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olmuşdur.
- Sonra Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənədin imzalanması mərasimində iştirak etmişdir.

**3 fevral**
- Əbu-Dabi şəhərində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olmuşdur.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla birlikdə iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təlimini izləmişdir.

**4 fevral**
- Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşmüşdür.
- Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində təltif olunduğu nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində iştirak və çıxış etmişdir.

**5 fevral**
- Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri başa çatmışdır.
- Sosial media hesabında Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri ilə bağlı videoçarx paylaşılmışdır.

**6 fevral**
- İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Qarşıdan gələn Bahar bayramı münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.

**9 fevral**
- ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianı təbrik etmişdir.

**10 fevral**
- Rəsmi qarşılanma mərasimindən sonra Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Bakıda Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Bakıda Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimində iştirak etmiş, Xartiyanı imzalamışdır.
- Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.

**11 fevral**
- Sosial media hesabında Azərbaycanda rəsmi səfərdə olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) Vitse-prezidenti Cey. Di. Vens ilə görüşü barədə videoçarx paylaşılmışdır.
- Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Onun sədrliyi ilə keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə çıxış etmişdir.

**12 fevral**
- Ölkəsinin milli bayramı münasibətilə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçi təbrik etmişdir.

**13 fevral**
- Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Almaniya Federativ Respublikasına səfərə gəlmişdir.

- Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşmüşdür.
- Münxendə Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüşmüşdür.
- Münxendə dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-ın “Oracle” korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşmüşdür.
- Münxendə Azərbaycan telekanallarına müsahibə vermişdir.
- Münxendə “France 24” telekanalına müsahibə vermişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Litva Respublikasının Prezidenti Gitanas Nausedanı təbrik etmişdir.

**14 fevral**

- Münxendə Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə görüşmüşdür.
- Münxendə Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva ilə birlikdə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi” mövzusunda keçirilən panel müzakirələrdə iştirak etmişdir.
- Münxendə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşmüşdür.
- Münxendə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur.
- Münxendə “The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşmüşdür.

**15 fevral**

- Sosial media hesablarında Münxen Təhlükəsizlik •Konfransı çərçivəsində keçirdiyi görüşləri ilə bağlı paylaşım edilmişdir.
- Sosial media hesablarında Almaniyaya səfəri ilə bağlı paylaşım edilmişdir.
- Serbiya Respublikasına rəsmi səfərə gəlmişdir.
- Belqrad şəhərinin Nikola Tesla Hava Limanında onu və Birinci xanım Mehriban Əliyevanı Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşılamışdır.
- Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Belqraddakı Taşmaydan parkında Ümummilli Lider Heydər Əliyevin və görkəmli serb yazıçısı Milorad Paviçin abidələrini ziyarət etmiş, abidələrin önünə əklil qoymuşdur.
- Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü keçirilmişdir.
- Belqradda Serbiya Prezidenti Aleksandar Vuçiç ilə Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasında iştirak və çıxış etmişdir.
- Sonra Aleksandar Vuçiç ilə Serbiya Respublikası və Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasının Qərarını imzalamışdır.
- Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimində iştirak etmişdir.
- Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.

**16 fevral**

- Belqradda Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə birlikdə qeyri-rəsmi səhər yeməyində iştirak etmişdir.
- Serbiya Respublikasına rəsmi səfəri başa çatmış, Belqrad şəhərinin Nikola Tesla Hava Limanında onu Serbiya Prezidenti Aleksandar Vuçiç yola salmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qambiya Respublikasının Prezidenti Adama Barrounu təbrik etmişdir.

**17 fevral**

- 95 illiyi münasibətilə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Nəriman Həsənzadəni təbrik etmişdir.
- Azərbaycan Respublikası ilə Sloveniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sloveniya Respublikasının Prezidenti xanım Nataşa Pirts Musarı təbrik etmişdir.

**18 fevral**

- Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdə olmuşdur.
- Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşmüşdür.

**19 fevral**

- Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində keçirilən Sülh Şurasının ilk iclasında iştirak etmişdir.
- Sosial media hesablarında Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclası ilə bağlı paylaşım edilmişdir.
- Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri başa çatmışdır.
- Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**20 fevral**
- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitonu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bruney-Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiahı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Estoniya Respublikasının Prezidenti Alar Karisi təbrik etmişdir.

**23 fevral**
- İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-Sabahı təbrik etmişdir.

**25 fevral**
- Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocavənd şəhərində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocavənd şəhərinə köçmüş İlqar Həsənovun evində olmuş və söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocalı rayonunun Xanabad kəndində görülmüş işlərlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə kəndə köçmüş Əmrah Sahiblinin evində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb söhbət etmişdir.
- Sosial media hesablarında Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı paylaşım edilmişdir.

**26 fevral**
- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak etmiş, Memorialın önünə əklil qoymuşdur.
- Sonra Memorialın xatirə kitabına ürək sözlərini yazmışdır.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Sosial şəbəkə hesablarında Xocalıya səfəri ilə bağlı videoçarx paylaşılmışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulamışdır.

**27 fevral**
- Rəsmi qarşılanma mərasimindən sonra Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə təkbətək görüşü olmuşdur.
- Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli ilə geniş tərkibdə görüşü olmuşdur.
- Daha sonra Efiopiyanın Baş naziri Abiy Əhməd Əli ilə Azərbaycan Respublikası ilə Efiopiya Federativ Demokratik Respublikası Hökuməti arasında əməkdaşlıq haqqında sənədlərin imzalanması mərasimində iştirak etmişdir.
- Onun və Birinci xanım Mehriban Əliyevanın adından Efiopiyanın Baş naziri Abiy Əhməd Əlinin və birinci xanım Zinaş Tayaçevin şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bolqarıstan Respublikasının Prezidenti xanım İliyana Yotovanı təbrik etmişdir.

## *Mart*

**1 mart**
- İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin faciəvi vəfatı ilə əlaqədar İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı vermişdir.

**2 mart**
- Bakı Ekspo Mərkəzinin həyətində məişət tullantıları daşıyan texnikalarla tanış olmuşdur.
- Rusiya Federasiyası Hökuməti Sədrinin müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul etmişdir.

**3 mart**
- Bakı Konqres Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak və çıxış etmişdir.
- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak edən Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qana Respublikasının Prezidenti Con Dramani Mahamanı təbrik etmişdir.

**4 mart**

- İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olmuş, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı vermişdir.

**5 mart**

- Onun sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, İran İslam Respublikası tərəfindən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına edilən dron hücumunu qınadığını demiş, qardaş Azərbaycan xalqına dəstəyini ifadə etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ona zəng edərək, İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə hücumunu pisləmiş, hadisə zamanı yaralananların tezliklə şəfa tapmasını diləmişdir.
- Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ona zəng edərək, İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycan ərazisinə törətdiyi hücumu qətiyyətlə pislədiyini bildirmiş, baş vermiş hadisə ilə bağlı Azərbaycan dövləti və xalqı ilə həmrəy olduğunu vurğulamış, hücum nəticəsində yaralananların tezliklə şəfa tapmalarını diləmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ona zəng edərək, İranın pilotsuz uçuş aparatları vasitəsilə Azərbaycana qarşı törətdiyi hücumları qətiyyətlə qınamış, Özbəkistanın Azərbaycana tam dəstəyini ifadə etmiş, ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu vurğulamışdır.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidze ona zəng edərək, İran İslam Respublikasının pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qətiyyətlə pisləmiş, Azərbaycan dövləti və xalqı ilə həmrəy olduqlarını vurğulamış, hücum nəticəsində xəsarət alanların tezliklə sağalmalarını arzulamışdır.

**6 mart**

- 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik etmişdir.
- Moldova Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoini qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ona zəng edərək, İranın Azərbaycana qarşı hərbi hücumunu və terror aktlarını qınadığını bildirmiş, bu çətin gündə Pakistan dövləti və ordusunun Azərbaycan dövləti və ordusunun yanında olduğunu qeyd etmiş, həmçinin Azərbaycan-Pakistan dostluğu və qardaşlığının davam edəcəyini vurğulamışdır.
- İranın Naxçıvana etdiyi dron hücumlarından sonra Azərbaycana göstərdiyi dəstəyə görə Albaniya Respublikasının Baş naziri Edi Ramaya minnətdarlıq etməsi ilə bağlı "X" hesabında paylaşım edilmişdir.
- Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç arasında telefon danışığı olmuş, söhbət zamanı Yaxın Şərqdəki mövcud vəziyyət barədə fikir mübadiləsi aparılmış, vəziyyətin daha da gərginləşməsindən narahatlıq ifadə olunmuş, həmçinin İran tərəfindən Naxçıvana qarşı törədilən dron hücumları pislənilmişdir. Bununla yanaşı, söhbət zamanı Serbiyanın dövlət başçısını ad günü münasibətilə təbrik etmişdir.
- İranın Naxçıvana dron hücumlarından sonra Azərbaycana verdiyi dəstəyə görə Çex Respublikasının Baş naziri Andrey Babişə minnətdarlığını bildirməsi ilə bağlı "X" hesabında paylaşım edilmişdir.

**7 mart**

- Sosial media hesablarında 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə “Hörmətli xanımlar! Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram” sözlərinin yer aldığı paylaşım edilmişdir.
- İranın Naxçıvana dron hücumlarından sonra prinsipial mövqeyinə və həmrəyliyə görə Slovakiya Prezidenti Peter Pelleqriniyə minnətdarlığını bildirməsi ilə bağlı "X" hesabında paylaşım edilmişdir.
- İranın Naxçıvana dron hücumlarından sonra dəstəyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığını minnətdarlığını bildirməsi ilə bağlı "X" hesabında paylaşım edilmişdir.
- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ona zəng edərək, İranın pilotsuz uçuş aparatları ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumunu qınadığını bildirmişdir.
- Liviya Dövləti Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi ona zəng edərək, İranın Azərbaycana qarşı həyata keçirdiyi hava hücumunu qınamışdır.
- Efiopiyanın Baş naziri Abiy Əhməd Əli ona zəng edərək, İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hava hücumunu qınadığını vurğulamışdır.
- Macarıstanın Baş naziri Viktor Orban ona zəng edərək, İranın pilotsuz uçuş aparatları ilə Azərbaycana qarşı həyata keçirdiyi hücumu qınadığını vurğulamış, ölkəmizlə tam həmrəy olduğunu bildirmiş, Macarıstanın hər zaman Azərbaycanın yanında olduğunu demişdir.

**8 mart**

- Fransa Respublikasının Prezidenti Emmanuel Makron ona zəng edərək, İranın Azərbaycana hava hücumu ilə əlaqədar ölkəsinin Azərbaycanla həmrəyliyini və dəstəyini ifadə etmiş, həmçinin İrandakı Fransa vətəndaşlarının Azərbaycan vasitəsilə təxliyəsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ona zəng edərək, onun İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar İranın Azərbaycandakı səfirliyinə gələrək başsağlığı verməsinə, həmçinin İrana humanitar yardımla bağlı niyyətinə görə minnətdarlığını bildirmiş, eyni zamanda Naxçıvanın havadan atəşə tutulması ilə bağlı insidentin İranla əlaqəsi olmadığını deyərək, hadisənin araşdırılacağını vurğulamışdır.

**9 mart**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınamış, qardaş Türkiyə xalqına dəstəyini ifadə etmişdir.
- İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Müctəba Hüseyni Xamenei həzrətlərini təbrik etmişdir.

**10 mart**

- Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ona zəng edərək, İranın Azərbaycanın Naxçıvan Muxtar Respublikasına hücumu ilə əlaqədar ölkəmizə dəstəyini ifadə etmişdir.
- Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ona zəng etmişdir. Telefon danışığı zamanı Yaxın Şərq regionunda yaranmış gərginlikdən narahatlıq ifadə olunmuş, region dövlətlərinin təhlükəsizliyinə və sabitliyinə mənfi təsir göstərə biləcək addımların qarşısının alınmasının zəruriliyi bildirilmiş, eyni zamanda Azərbaycan-Suriya ikitərəfli münasibətlərinin möhkəmləndirilməsində, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində hər iki tərəfin maraqlı olduğu vurğulanmışdır.

**11 mart**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ona zəng edərək, Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir.
- Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə təkbətək görüşü olmuşdur.
- Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə rəsmi nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.

**12 mart**

- Bakıda, "Gülüstan" sarayında onun himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda keçirilən XIII Qlobal Bakı Forumun açılış mərasimində iştirak və çıxış etmişdir.
- Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşmüşdür.

**16 mart**

- Qazaxıstan Respublikasının yeni Konstitusiyası üzrə referendumun müvəffəqiyyətlə başa çatması münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.

**17 mart**

- Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts ilə telefon danışığı olmuşdur. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunmuş, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılmışdır.

**18 mart**

- Birinci xanım Mehriban Əliyeva ilə Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kəndə köçmüş Bəybala Qasımovun evində olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xanobaya qayıdan kənd sakinləri ilə görüşmüşdür.
- Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə kənd sakinləri ilə söhbət etmişdir.
- Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Sosial media hesablarında Novruz bayramı ilə bağlı video paylaşılmışdır.
- Bütün Gürcüstanın Katalikos-Patriarxı, zəmanəmizin görkəmli din xadimi II İlya həzrətlərinin vəfatı ilə əlaqədar Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə başsağlığı vermişdir.

**19 mart**

- Müqəddəs Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə telefon danışığı olmuşdur. Telefon

söhbəti zamanı onlar qarşıdan gələn müqəddəs Ramazan və Novruz bayramları münasibətilə qarşılıqlı təbriklərini ifadə etmiş, hər iki xalqa ən xoş arzularını çatdırmışlar.

- 23 Mart – Pakistan Günü münasibətilə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Yunanıstan Respublikasının Prezidenti Konstantinos Tasoulası təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Banqladeş Xalq Respublikasının Prezidenti Məhəmməd Şahabuddini təbrik etmişdir

**20 mart**

- Sosial media hesablarında Ramazan bayramı münasibətilə paylaşım edilmişdir.
- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə telefon danışığı olmuşdur. Telefon söhbəti zamanı onlar bir-birini müqəddəs Ramazan bayramı münasibətilə təbrik etmiş, hər iki xalqa firavanlıq və yeni-yeni uğurlar arzulamışlar.

**23 mart**

- Şamaxı rayonuna səfər etmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.
- Şamaxı rayonunda "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak etmişdir.
- Sonra müəssisənin əməkdaşları ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Heydər Əliyev Fondu tərəfindən inşa edilmiş Şamaxı Avropa liseyinin yeni binasının açılışında iştirak etmişdir.

**25 mart**

- "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "Abşeron" Batareya Enerji Saxlanc Mərkəzinin açılışında iştirak etmişdir.

**27 mart**

- Əlamətdar hadisə – Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Musiqili Dram Teatrının genişmiqyaslı yenidənqurmadan sonra açılışı münasibətilə Teatrın bütün kollektivini təbrik etmişdir.
- Gürcüstanın ölkəmizdəki səfirliyində olmuş, Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin vəfatı ilə əlaqədar başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.

**31 mart**

- Sosial media hesablarında 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilmişdir.

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.205

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *ABŞ nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smit, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Cekson, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panetta daxildir.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirən qonaqlar Bakıda gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdıqlarını dedilər.

Qonaqlar ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdılar.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğuladı. Azərbaycan Prezidenti regional sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini bildirdi. Dövlətimizin başçısı artıq Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin yaradıldığını deyərək, bu xüsusda Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyini, həmçinin Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana ixracının həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı "Azadlığa Dəstək Aktı"na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun olmadığını dedi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən bu düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirərək, onun tamamilə ləğv edilməsi istiqamətində konqres üzvlərinin də bundan sonra səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğuladı.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi, iqtisadi, enerji, müdafiə və müdafiə sənayesi, təhsil, informasiya texnologiyaları, süni intellekt və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

### *"Zayed İnsan Qardaşlığı Mükafatı" ilə bağlı nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalamı, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvləri - Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişeli və Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Fakini qəbul edib.

Azərbaycana həmişə məmnunluqla səfər etdiklərini deyən qonaqlar qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Onlar 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə Prezident İlham Əliyevə təqdim olunacağını bildirərək, bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə mükafatın təntənəli təqdimat mərasiminin keçiriləcəyini dedilər, həmin tədbirdə fəxri qonaq qismində iştirak üçün dəvət məktubunu Prezident İlham Əliyevə təqdim etməkdən şərəf hissi duyduqlarını vurğuladılar.

Qeyd olundu ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunub və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, sabiq Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsini və dəyərlərini təşviq edir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi, eyni zamanda, Müsəlman

Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibin, Roma Papası XIV Leonun və münsiflər heyətinin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvlərinin ötən il dünya üzrə bütün sülh modellərinin araşdırılmasından sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin modelinin münaqişə və müharibə olan digər bölgələrdə də tətbiqi üçün gözəl nümunə olması barədə qərar qəbul etdikləri bildirildi.

Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam: Münsiflər heyətinin adından demək istərdim ki, sülh sazişi üzrə uğurun əldə olunması üçün Zati-alinizin gördüyü işlər bizim hamımızı ruhlandırır və dünyanın müxtəlif yerlərində mövcud münaqişə bölgələri üçün sülhün möhtəşəm bir nümunəsidir.

Biz və bütün dünya bunu dəyərlər baxımından yüksək qiymətləndiririk, çünki dünyanın həqiqətən buna ehtiyacı var. Həmin mükafatın Sizə təqdim edilməsi sazişin sülh, barışıq və regional sabitliyin bərqərar edilməsi baxımından əhəmiyyətini göstərir. Cənab Prezident, Sizə həqiqətən təşəkkürümüzü bildiririk.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Avropa İttifaqı Şurasının sabiq Prezidenti Şarl Mişel: Hesab edirəm ki, Sizin Ermənistanla birgə icra etdiyiniz sülh razılaşması dünya ölkələri üçün çox güclü bir siqnaldır. Yəni çətinliklərə, keçmiş və indiki iztirablara baxmayaraq, gələcəyə kiçik də olsa, nikbinliklə və ümidlə baxmaq üçün ortaq iradə var. Bu da bizim təşviq və müdafiə etmək istədiyimiz dəyərlərə bağlıdır. Çünki biz hesab edirik ki, bu dəyərlər gələcəkdə daha çox təşviq olunmalıdır. Bir daha qeyd etmək istəyirəm, biz Sizin liderliyinizi, bu sülh razılaşmasını təqdir edirik. Mükafatla bağlı verdiyimiz qərarla biz bu sülh razılaşmasının reallığa çevrilməsi üçün Sizin göstərdiyiniz bütün səylərə dəstək olduğumuzu nümayiş etdirmək, region və Cənubi Qafqaz, həmçinin daha geniş bölgə üçün müsbət ümidlər və perspektivlər arzulamaq istəyirik.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın münsiflər heyətinin üzvü, Afrika İttifaqı Komissiyasının sabiq sədri Musa Faki: Düşünürəm ki, sülh və sabitlik çox zəruridir. Fikrimcə, baxışlarınız və rəhbərlik keyfiyyətləriniz çox yüksək dəyərləndirilir. Münsiflər heyətinin üzvü kimi Sizi təbrik etmək istəyirəm və görüşümüzdə iştirak etmək üçün razılıq verdiyinizə, bütün dünyaya və region xalqlarına sülhün və cəsarətin nədən ibarət olduğunu göstərdiyinizə görə minnətdaram. Qeyd etdiyiniz kimi, son vaxtlara qədər qətl və qan tökülməsi müşahidə olunurdu. Lakin indi irəliyə doğru getmək, sülhü və sabitliyi bərqərar etmək cəsarətini nümayiş etdirdiniz. Zati-aliləri, təbrik edirəm.

Xoş sözlərə və dəvətə, həmçinin regionda sülhün bərqərar olunması istiqamətində Azərbaycanın səylərinin yüksək qiymətləndirilməsinə görə münsiflər heyətinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdiyini vurğuladı.

Sülhün regional sabitlik və firavanlıq baxımından önəminə toxunan Prezident İlham Əliyev dedi ki, işğal zamanı xalqımızın üzləşdiyi əziyyətlərə, verdiyi qurbanlara baxmayaraq, Azərbaycan dayanıqlı sülhün bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirib. Prezident İlham Əliyev sülh razılaşmasının məhz Azərbaycan tərəfindən hazırlanaraq Ermənistana təqdim olunduğunu və bu istiqamətdə səylərin davam etdiriləcəyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev: "Sizin də düzgün qeyd etdiyiniz kimi, sülh bütün regiona sabitlik və firavanlıq gətirəcək. Yaxın keçmişə nəzər salsaq, bizim məsələmizin bir növ nadir olduğunu görərik. Yaxın keçmiş deyərkən, son onilliyi nəzərdə tuturam. Son qanlı döyüşlərdən sülhə gedən yol iki il zaman apardı. Əziyyətə və qurbanlara baxmayaraq, biz sülhün birdəfəlik bərqərar olunması üçün güclü siyasi iradə nümayiş etdirdik və artıq bunun bəhrəsini görürük".

Dövlətimizin başçısı cəmi beş ildir sülh şəraitində yaşadığımızı qeyd edərək vurğuladı ki, son aylar sülh artıq ticarət sahəsi də daxil olmaqla, praktik müstəviyə keçib. Azərbaycan Prezidenti bu xüsusda 2025-ci il avqustun 8-də Vaşinqton görüşündə sülh gündəliyi ilə bağlı əldə olunmuş razılaşmaların tarixi əhəmiyyətini qeyd etdi, bu məsələdə ABŞ Prezidenti Donald Trampın səylərini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev: "Sülh şəraitində yaşamağa öyrəşirik. İnanın mənə, bu, xoş hissdir. Hiss edirsiniz ki, müharibə artıq yoxdur, əlavə qurbanlar yoxdur, qan artıq tökülmür. Siz xalq, ölkə və inkişaf, rifah, sabitlik üçün daha çox işlər görə bilərsiniz. Yenə də düşünürəm ki, Azərbaycan ilə Ermənistan arasında əldə olunmuş razılaşma və bu cür mötəbər şəxslərdən ibarət qrupun verdiyi qiymət həqiqətən göstərir ki, sülhə nail olmaq üçün sizdə güclü siyasi iradə lazımdır. Bunu ürəkdən arzulamalısınız. Bunu sözdə yox, əməldə etməlisiniz. Bu cür səylər dəyərləndirildiyi halda Siz daha da həvəslənirsiniz və qlobal xəritədə insanların hələ də müharibədə öldüyü digər yerlərə də sülh mesajını verirsiniz".

"Zayed İnsan Qardaşlığı Mükafatı"ndan danışan dövlətimizin başçısı bildirdi ki, mərhum Şeyx Zayed bin Sultan Al Nəhyanın xatirəsinə dünyada böyük rəğbət

bəslənilir. Prezident İlham Əliyev, eyni zamanda, onun xələfi, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla qardaşlıq münasibətlərinin olduğunu qeyd etdi. Bu xüsusda dövlətimizin başçısı mükafata layiq görülməsinin onun üçün ikiqat şərəf olduğunu dedi. Prezident İlham Əliyev regionda sülh gündəliyi ilə bağlı əldə olunmuş nailiyyətlərə göstərdikləri dəstəyə və onun fəaliyyətinə verdikləri qiymətə görə, həmçinin Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxinə və Roma Papasına minnətdarlığını çatdırmağı xahiş etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı

***İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarın qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib.

Söhbət zamanı bir neçə gün əvvəl Davosda Azərbaycan və İsrail prezidentlərinin görüşü məmnunluqla xatırlandı, həmin görüş əsnasında ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirə olunduğu bildirildi.

Ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulandı, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edildi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

Eyni zamanda, hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulandı.

Gideon Saar onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində keçiriləcək Azərbaycan-İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***Yunanıstan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinusun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Yunanıstan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maria K.Papakonstantinusu qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis ilə COP29 çərçivəsində ölkəmizdə, ötən ilin sentyabrında BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında, həmçinin digər beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladı, həmin görüşlər əsnasında ikitərəfli əlaqələrimizin müxtəlif aspektləri ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı, bu dialoqun münasibətlərimizin inkişafı üçün çox önəmli olduğunu dedi.

Ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən bu gün qlobal təhlükəsizlikdə mühüm amil olan enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq etdiklərini deyən Azərbaycan Prezidenti gələcəkdə biznes nümayəndələri arasında daha çox təmasların olacağına, qarşılıqlı investisiya qoyuluşunun həyata keçiriləcəyinə, tərəfdaşlığımızın inkişaf etdirilməsində hər iki ölkənin səfirlərinin vacib rol oynayacaqlarına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Maria K.Papakonstantinus ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, yaşıl enerji, kənd təsərrüfatı və digər sahələrdə ikitərəfli əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi. Səfir ölkələrimiz arasında birbaşa hava əlaqəsinin olmasının önəminə toxundu.

Söhbət zamanı siyasət, iqtisadiyyat, energetika, investisiyalar, nəqliyyat, mədəniyyət, incəsənət, təhsil, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

### *İndoneziya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helminin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da İndoneziya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Berlian Helmini qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı İndoneziya Prezidenti ilə Davosda və Şarm Əl-Şeyxdə təmaslarını xatırladı, onu ölkəmizə rəsmi səfərə dəvət etdiyini bildirdi.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) bu qurumun təsis edilməsindən sonra üzv qəbul edilən ilk ölkə olmasının bizim üçün böyük şərəf olduğunu deyən Prezident İlham Əliyev bu məsələdə təşkilata üzv bütün dövlətlərə, o cümlədən İndoneziyaya minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı bunu Azərbaycana olan hörmətin və qardaşlığın təcəssümü kimi qiymətləndirdi.

Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev siyasət, iqtisadiyyat, qarşılıqlı investisiya qoyuluşu, biznes təmasları sahələrində əməkdaşlığı daha da möhkəmləndirməyin önəmini qeyd etdi.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Berlian Helmi fəaliyyəti dövründə dövlətlərimiz və xalqlarımız arasında dostluğun və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi üçün səylə çalışacağını dedi.

Söhbət zamanı Azərbaycan-İndoneziya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Norveç Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Norveç Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Andreas Qaarderi qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Moderatorun sualını cavablandıran Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan bildirib ki, Ermənistan ilə Azərbaycanın siyasi rəhbərliyi prinsipial razılığa gəlməsəydilər, müharibə davam edəcəkdi: Cənab Prezident İlham Əliyevlə razıyam ki, əks təqdirdə, bu müharibə davam edəcəkdi. Uzun-uzadı davam edəcəkdi. Yəni heç bir gələcək vəd etməyən hadisə olacaqdı. Ona görə də mən müharibəyə, insan itkilərinə gətirib çıxaran heç bir siyasi yanaşmanı qəbul etmirəm.

Ermənistan Prezidenti qeyd edib ki, hər iki ölkə lideri sülh və xalqlarımızın rifahı yolunu seçdi. Bu isə ən ümdə məsələdir. “Mən nikbinəm ki, biz uğur qazanacağıq”, – deyən V.Xaçaturyan bildirib ki, iki ölkə arasında birgə iqtisadi və mədəni layihələr olacaq. Bu məqamla bağlı presedent də var. İki ölkənin vətəndaş cəmiyyətlərinin nümayəndələri artıq görüşüblər. Yaxın gələcəkdə işgüzar insanlar, biznes icmaları da görüşəcəklər. O, həmçinin deyib: Artıq Ermənistanda insanlar avtomobillərinə Azərbaycan benzinini doldururlar. Əvvəllər bu məsələ ilə bağlı düşmənçilik mövqeyi sərgilənirdi. Amma bu, yeni reallıqlardır.

* * *

Türkiyənin “Limak Holdinq” şirkətinin İdarə Heyətinin sədri Ebru Özdemir regionda yaşanan proseslərdən söz açaraq bildirib ki, Azərbaycan ilə Ermənistan arasında çox müsbət işlər görülür. Türkiyə də bu mənada vasitəçi rolu oynayacaq, sərhədlər açılacaq. O deyib: “Azərbaycan bizim qardaş, dost ölkəmizdir. Gürcüstanı da qeyd etməliyik. Bu paneldə biz daha çox regional investisiyalardan danışırıq. Nələri əvvəllər etməmişik? Nələri hazırda həyata keçirməliyik? Nələr daha çox həyata keçirilə bilər? Sülh, sabitlik varsa, niyə də investisiya gəlməsin?”.

* * *

Moderator: Çox maraqlı dinamikadır. Avrasiya regionu və burada təmsil etdiyiniz ölkələr region naminə əməkdaşlığı gücləndirdiyi bir vaxtda, sizin də qeyd etdiyiniz kimi, qlobal geosiyasi mənzərə tamamilə fərqli görünür. Burada parçalanma nəzərə çarpır. Yekun şərh olaraq hər birinizin fikrini öyrənmək istərdim. Həmin parçalanan və həssas qlobal mənzərədə Avrasiyanı necə görürsünüz? Prezident Əliyev, buyurun.

* * *

Prezident İlham Əliyev: Avrasiya çox böyük bir coğrafi məkandır. Biz öz regionumuzu, bilavasitə qonşularımızı düşünürük. Şadam ki, müstəqillik illərində biz bütün qonşularımızla çox yaxın işgüzar münasibətlər qura bilmişik. Burada istisna Ermənistandır və bunun

səbəbləri hər kəsə məlumdur. Lakin de-fakto sülh bərqərar olduğu üçün biz iqtisadi əməkdaşlığa və ixrac əməliyyatlarına başlamışıq. Azərbaycan Qazaxıstandan və Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Bizə artıq Ermənistandan Rusiyaya yüklərin nəql edilməsi ilə bağlı müraciət daxil olub. Yəni biz de-fakto birtərəfli qaydada dəhlizləri açdıq. Bəli, bu gün bu daşımalar Gürcüstan vasitəsilə həyata keçirilir. Ancaq bir gün bu, Ermənistan ərazisindən həyata keçiriləcək. Bir gün Ermənistana məxsus yüklər birbaşa Azərbaycan vasitəsilə daşınacaq və həmin gün çox da uzaqda deyil.

Bizim üçün qardaş ölkə olan Türkiyə ilə çox sıx müttəfiqlik münasibətləri qurmuşuq, Türkiyəyə nəhəng sərmayələr yatırmışıq. Bizim Türkiyəyə sərmayələrimizin həcmi 20 milyard dollardan çoxdur. Hazırda biz Gürcüstana ən böyük sərmayə qoymuş ölkələr sırasındayıq. Gürcüstan ərazisindən keçən dəhlizlərlə yanaşı, Amerika Birləşmiş Ştatlarının himayəsi altında həyata keçirilən və TRIPP adlanan bağlantı layihəsi Xəzər dənizindən keçərək Asiyadan Azərbaycana, Ermənistana, Azərbaycanın bir parçası olan Naxçıvandan Türkiyəyə, oradan isə Avropaya qədər uzanan yeni bir nəqliyyat dəhlizi olacaqdır. Marşrutların çoxluğu istehlakçıların, təchizatçıların və tranzit ölkələrin xeyrinədir.

Ölkə olaraq biz hər zaman diqqətimizi regional gündəliyimizə yönəldirik. Biz regionda istədiyimizə nail ola bilmiriksə, qlobal məqsədlərdən söhbət gedə bilməz. Ancaq bu gün biz paralel şəkildə gedən Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə yaxınlaşmasından bəhs edirik. Bu, mütləq paralel şəkildə və eyni vaxtda Türkiyə ilə Ermənistan və Azərbaycan ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulması ilə nəticələnəcək. Bununla da biz geniş coğrafi ərazidə, Avrasiyanın bir hissəsində bağlantı, enerji təhlükəsizliyi, sülh və sabitlik baxımından olduqca əhəmiyyətli addım atırıq. Bu, uzun illər davam edən müharibələrin əməkdaşlığa və tərəfdaşlığa çevrilməsinin nümunəsidir.

* * *

Sonra Ermənistan Respublikasının Prezidenti Vaaqn Xaçaturyan bildirib ki, əslində, Prezident İlham Əliyevdən sonra nəsə demək çox çətindir.

"Çünki Prezidentin söylədiklərini təkrar etməliyəm. Prezident İlham Əliyevin söylədiyi fikirlər bizim fikirlərimizlə, prinsiplərimizlə üst-üstə düşür. İstər Orta Dəhliz marşrutu olsun, istər Cənubi Qafqazın yeni logistika imkanları getdikcə daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Odur ki, bizim regionumuzun əhəmiyyəti də istər Avropa İttifaqı, Avropa ölkələri üçün ayrı-ayrılıqda, həmçinin Uzaq Şərqdə getdikcə artmaqdadır", - deyən Ermənistan Prezidenti sonda vurğulayıb ki, Prezident İlham Əliyevin də söylədiyi kimi, uzunmüddətli və davamlı sülh olmalıdır.

* * *

"Mən Cənubi Qafqazdakı dostlarıma görə çox sevinirəm", - deyən Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycanın Serbiyaya yatırdığı sərmayədən söz açıb. Həmçinin bildirib ki, Belqradla Bakı, eləcə də Tbilisi ilə birbaşa aviareys nəzərdə tutulur, Ermənistanla da belə birbaşa uçuşlar təşkil edilə bilər. "Beləliklə, biz gələcəkdə Qərblə yanaşı, Şərqə doğru da əməkdaşlığımızı genişləndirəcəyik, dostlarımızla münasibətlərimizi gücləndirəcəyik", - deyə o əlavə edib.

Serbiya Prezidenti deyib: "Cənab Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: o, həqiqətən də müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

Çıxışının sonunda Aleksandar Vuçiç ümid etdiyini vurğulayıb ki, Serbiya Azərbaycan, Türkiyə, həmçinin Ermənistan kimi mehriban, dost ölkələrin dəstəyi sayəsində çətinliklərin öhdəsindən gələ biləcək.

* * *

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un baş icraçı direktoru Larri Fink və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşüb.

Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "BlackRock" arasında mövcud əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, həmçinin Azərbaycanda infrastruktur sahəsində potensial investisiya imkanları müzakirə olundu.

Dövlətimizin başçısının Davosa səfəri çərçivəsində Dövlət Neft Fondu ilə "BlackRock" və bu şirkətin tərkibinə daxil olan, qlobal infrastruktur investisiya idarəetmə şirkəti olan "Global Infrastructure Partners" arasında uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun imzalanmasının əhəmiyyətinə toxunuldu. Sənəd mövcud əməkdaşlığın uzunmüddətli, strateji çərçivədə davam etdirilməsini, eləcə də beynəlxalq infrastruktur investisiya platforması çərçivəsində Azərbaycanda potensial investisiya imkanlarının araşdırılmasını nəzərdə tutur. Niyyət protokoluna əsasən, ARDNF-nin "GIP" tərəfindən idarə olunan infrastruktur fondlarına və birgə investisiya imkanlarına 3-4 il müddətində 1,5 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının nəzərdən keçirilməsi planlaşdırılır. Əməkdaşlıq çərçivəsində Azərbaycanda regional bulud və süni intellekt tələbatına xidmət edən məlumat mərkəzləri və infrastruktur üzrə potensial investisiya imkanlarının dəyərləndirilməsi, hava limanı infrastrukturu sahəsində "Global Infrastructure Partners"in əməliyyat və idarəetmə təcrübəsi nəzərə alınmaqla tərəfdaşlığın perspektivlərinin araşdırılması nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycanda və ya ölkəmizlə əlaqəli infrastruktur aktivlərinə dair investisiya imkanla-

rının dəyərləndirilməsi də əməkdaşlığın əsas istiqamətlərindəndir. Niyyət protokolu Dövlət Neft Fondunun qlobal investisiya ekosistemində mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın daha da genişləndirilməsinə və Azərbaycanın strateji əhəmiyyətli infrastruktur sahələrində uzunmüddətli investisiya imkanlarının formalaşdırılmasına töhfə verəcək.

Görüşün sonunda Azərbaycan Prezidentinin iştirakı ilə niyyət protokolunun mübadiləsi mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani ilə görüşüb.

Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Görüşdə əlaqələrimizin mövcud səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığın bir çox istiqamətlər üzrə, o cümlədən iqtisadi-ticari müstəvidə inkişafı üçün geniş potensialın olduğu vurğulandı, ölkələrimiz arasında mövcud sıx münasibətlərin gələcəkdə daha da möhkəmlənəcəyinə əminlik bildirildi.

ARDNŞ tərəfindən Azərbaycan qazının Suriyaya çatdırılması vasitəsilə bu ölkənin enerji təchizatının bərpası işində ölkələrimizin uğurlu əməkdaşlığı qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Yanvarın 20-də Prezident İlham Əliyev Davosda "Euronews" televiziyasına müsahibəsindən sonra bu telekanalın təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarını cavablandırıb.

**Moderator:** Sabahınız xeyir, Zati-aliləri, xanımlar və cənablar.

Bu səhər çox xüsusi tədbirdə xoş gördük. Burada Azərbaycan və daha geniş bölgə üçün regional rifahın təmin edilməsi, iqtisadi imkanların yaradılması mövzusunda Azərbaycan rəhbərliyi ilə Davosda ilk səhər yeməyinə xoş gəlmisiniz. Bu gün biz daşımalar, energetika və əlbəttə ki, iqtisadi inkişaf üzrə regional qovşaq kimi Azərbaycanın artan rolunu araşdırmaq məqsədilə Sizi, hökumət rəsmilərini, biznes rəhbərlərini və sərmayədarları salamlayırıq. İndi isə bu sessiyada regional daşımalar, strateji sərmayə prioritetləri və Azərbaycanın dayanıqlı inkişafla bağlı planlarını nəzərdən keçirməyə çalışacağıq. Əvvəlcə, mən böyük məmnuniyyətlə açılış nitqi üçün "Euronews" kanalımızın sədri cənab Pedro Varqas Davidi səhnədə salamlayıram. Xoş gəlmisiniz, Pedro.

**Pedro Varqas:** Sağ olun. Sabahınız xeyir. Beləliklə, ilk növbədə, icazənizlə deyim ki, "Euronews" burada - Davosda Azərbaycan rəhbərliyi ilə ilk səhər yeməyini təşkil etməkdən fərəh hissi duyur. Azərbaycan çox sürətli templə dəyişir və düşünürəm ki, auditoriyada bu qədər mötəbər qonaqları qəbul etmək və bir araya toplamaq məqsədilə "Euronews"la Azərbaycan arasında birlik Azərbaycanla müzakirə etmək, onunla birgə işləmək marağını, iradəsini göstərir və həqiqətən, gələcəkdə bu ölkənin ən parlaq ulduzlardan birinə çevrilməsi fürsətini ehtiva edir. Lakin, əvvəla, mən tarixi məqamla başlamalıyam. Çoxsaylı azərbaycanlı dostlarımız və Zati-aliləri, cənab Prezident buradadırlar. Biz, həmçinin Bakının işğalı zamanı sovetlərin müdaxiləsi nəticəsində 130-dan artıq azərbaycanlının həyatını itirdiyi Qara Yanvarın 36-cı ildönümünü bu gün qeyd edirik. Bu gün elə dünyada yaşayırıq ki, geriyə qayıtmağa, tarixə nəzər salmağa və yad etməyə ehtiyac duyuruq. O vaxt baş vermiş faciəli hadisələrə görə Sizə başsağlığı veririk.

İndi isə 2026-cı ildə Azərbaycan sülh içində yaşayır. Azərbaycan bütün ərazi bütövlüyünü bərpa etmiş, inkişafa çalışan, növbəti addımlarını planlaşdıran bir ölkədir. Cənab Prezident, Sizin rəhbərlik keyfiyyətləriniz liderin öz ölkəsinin gələcəyinə necə təsir edə biləcəyini, sülhə necə nail olacağını göstərir. Hətta təklif edərdim ki, Sizə və ermənistanlı həmkarınıza sülh mükafatı verilsin. Məsələ ilə bağlı müzakirə açmaq istəməzdim, lakin əminliklə deyə bilərəm ki, Siz ən mühüm sülh mükafatını artıq əldə etmisiniz - xalqınızın sülh mükafatını qazanmısınız, ədalətin və rifahın təmin edilməsi tanınır, gördüyünüz işlər sayəsində sülhün bərqərar olunduğu etiraf edilir. Bunlar yəqin ki, istənilən təşkilatın hər hansı qızıl medalından və ya digər mükafatından daha dəyərlidir. Əlbəttə ki, mən FIFA-nı nəzərdə tuturdum.

Cənab Prezident, Siz fərəh hissi duyan ölkəyə, öz gələcəyinə əmin olan ölkəyə rəhbərlik edirsiniz. Siz də hiss edə bilərsiniz ki, Azərbaycan dünyada öz mövqeyindən əmindir. "Euronews"dan əlavə olaraq, xarici investor kimi biz özəl kapitalımızla Azərbaycana sərmayə yatırmaqdan şadıq və icazə verin, Azərbaycanın hazırkı mövqeyinin uğurunun təməlində dayanan üç sahəni qeyd edim. Birinci yerdə Sizin diplomatik keyfiyyətləriniz, beynəlxalq diplomatiyanız dayanır. Sizin ölkəniz çox mürəkkəb coğrafiyada salınmış bir körpüdür. Mən Portuqaliyadanam. Bizim üçün çox asandır, İspaniyadan olan qardaşlarımız var. Lakin Sizə deyim ki, onlar da heç də hər zaman qardaşımız olmayıb. Biz beş əsr onlarla vuruşmuşuq. Hər zaman Cənubi Qafqazdakı dostlarıma deyirəm ki, baxın, sərhədlərin olmaması mümkündür. Bildirmək istəyirəm ki, biz, demək olar, ölkələr arasında fərqlərin müəyyən edilməsində çətinlik çəkirik. Onlar günortalar yatır, qalan vaxtda isə çox səs-küylü olmaqda davam edirlər. Əlbəttə, biz futbolda da qarşılaşırıq. Ümid edirəm ki, yaxın zamanlarda biz Bakıda Azərbaycan ilə Ermənistan arasında futbol

meydançasında qarşılaşmanı, 11 oyunçunun digər 11 oyunçu ilə mübarizə aparmasını görə biləcəyik və deyəcəyik, qoy güclü aparsın. Bununla belə, ümidvaram ki, son illərdə Portuqaliyanın töhfəsi o qədər yaxşı olmasa da, biz yaxın vaxtlarda təkmilləşəcəyik.

Cənab Prezident, mən düşünürdüm ki, bu ilin Davos tədbirində İran məsələsinə dair müzakirələr aparacağıq. Amma görünür, bu tədbir Qrenlandiya ilə bağlı müzakirələrlə keçəcək. Təbii ki, qonşunuz Rusiyadırsa, İrandırsa, qonşuluqda tarixən ərazi iddiaları olan ölkələr varsa, baş çıxarmaq asan deyil. Sizə güc və diplomatiyanın kombinasiyası lazımdır. Məncə, Siz buna nail olmusunuz. Digər tərəfdən, düşünürəm ki, Mərkəzi Asiya ilə münasibətlərinizdə Siz çox mühüm dəyişiklik etdiniz. Əlbəttə, tarixi köklərə gəldikdə, Siz türkdilli ölkəsiniz. Lakin beşliyə, indi isə altılar qrupuna qoşulmağınız vacib an idi və həmin məsələdən dünyanın qalan hissəsi də yararlanmalıdır. Mənim üçün hazırda sərmayələr baxımından bölgəniz ən yaxşı regionlardan və risk-gəlir nisbətinə görə ən yaxşı yerlərdən biridir. Daha çox qərbyönümlü sərmayədarlar üçün bu regiona diqqət yetirmək, burada bazarların imkanlarını araşdırmaq məqsədəuyğundur. Bütün küləkləri ilə Bakı heç vaxt bu qədər sakit olmayıb. Siz nəinki körpü saldınız, həmçinin buxta yaratdınız. Həmin buxtada müsəlmanlar, xristianlar və yəhudilər ahəngdarlıq məkanı tapıblar. Əfsuslar olsun ki, bugünkü dünyada normal vəziyyət hər yerdə artıq nadir hadisə hesab edilir. Ölkəniz Xəzər ilə Qara dənizi birləşdirən dünyəvi dövlətdir. Xüsusən də burada - Avropada strateji meyarlar haqqında danışdıqda, həmin iki dəniz gələcəyimiz üçün çox önəmlidir.

İkincisi, Siz etibarlı iqtisadi tərəfdaşsınız. Ölkədə həyata keçirdiyiniz və davam edən islahatlarla Azərbaycan hazırda xarici sərmayəni qəbul edən, ona açıq olan ölkədir. Düşünürəm ki, imkanların olacağı çox mühüm üç sahəni qeyd etmək olar. Orta sinfə və yerli bazarlara nəzər salsaq, həmin orta sinfə və artıma innovasiya gətirmək, sərmayə yatırmaq üçün bir çox sektorlarda, həqiqətən, imkanlar var. Həcmlərin azaldığını görürük, lakin işlərin miqyası birmənalı olaraq, bu azalmanı tamamlayır. Bir sözlə, Azərbaycanda orta sinfin inkişafında böyük imkan var. İngilis dilində danışan ali təhsilli gənc nəsil var. O, İT sahəsində daha çox ixtisaslaşır. Bu, yekun nəticədə istər texnologiyalarda, istər digər İT sektorlarında imkanlar açacaq.

Nəhayət, infrastruktur barədə danışaq. Əlbəttə, Tramp marşrutu və həyata keçirdiyiniz islahatlarla Azərbaycan həm hava və dəniz limanlarında, həm fiberoptikada, həm də böyük məlumat mərkəzləri baxımından iri infrastruktur sərmayələri üçün təbii qovşağa çevriləcək. Yeri gəlmişkən, mən istəməzdim, böyük məlumat mərkəzləri sahəsində hər hansı digər sərmayədar irəliyə bizdən daha sürətlə getsin. Enerji tarifləri, strateji mövqeyi baxımından Azərbaycan üçün kifayət qədər böyük fürsət yaranacaq. İndi isə rəqəmlərin növbəsi çatdı. Bir halda ki, mən ixtisasca iqtisadçıyam və biz Davosdayıq, gəlin, bəzi rəqəmləri səsləndirək.

Keçən il Sizin qeyri-neft sektorunda ÜDM 2,7 faiz artıb. Əlbəttə, hamımız ötən il enerji sektorunda nələrin baş verdiyini yaxşı bilirik, lakin Azərbaycan digər sahələrdə əhəmiyyətli artımı davam etdirir. Son məlumatlara əsasən, ölkədə adambaşına düşən ÜDM 7 400 dollara çatıb. Ehtimal ki, bunlar ötən həftənin göstəriciləridir.

Mənim heç bir şübhəm yoxdur ki, Azərbaycan biznes üçün açıqdır. Biz deyirik ki, pullarınızı bəyəndiyiniz yerə yatırmalısınız, elə deyilmi? Məhz buna görə də bu gün böyük məmnuniyyətlə elan edirik ki, Alpac Azərbaycan, Özbəkistan və digər regionlar üçün yeni fondumuzun ilk bağlanışını həyata keçirir və buna nail olur.

Bu fond bizim müzakirə etdiyimiz bir çox sahələrə investisiya yatıracaq. Biz fond üçün 250 milyon avro hədəfi üzərində razılığa gəlmişik və görürük ki, yaxın 4-5 il ərzində bu, ölkəyə yarım milyard avroya qədər investisiya cəlb olunmasına gətirib çıxara bilər. Ona görə də dediyimiz kimi, vəsaitlərinizi bəyəndiyiniz yerə yatırmalısınız.

Düşünürəm ki, bizi izləyən bütün insanları və burada olan hər kəsi dəvət edirik: Bakıya gəlin, Azərbaycanı ziyarət edin, vaxt keçirin, komandalarınızı göndərin, bazarı tanıyın. İmkanlar mövcuddur, hökumət əməkdaşlığa hazırdır. Region, şübhəsiz ki, gələcək üçün strateji əhəmiyyət daşıyır.

Biz tərəfdaşlarımızla qürur duyuruq, Sizin liderliyinizdən ilham alırıq və sülh, dünyəvilik, təhlükəsizlik və güclü iqtisadi inkişaf məkanı olan bu torpaq üçün ümidliyik. Bu gün bizimlə birlikdə olduğunuz üçün çox təşəkkür edirik. İndi isə söhbətin maraqlı hissəsini sizə təqdim edirəm.

**Moderator:** Çox sağ olun, xanımlar və cənablar, cənab Varqas. Pedro, çox təşəkkür edirəm.

Bildiyiniz kimi, bu gün çox xüsusi bir qonağımız var və onu yenidən səhnədə salamlamaq mənim üçün böyük şərəfdir - Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Moderator:** Cənab Prezident, mən düşünürəm ki, əvvəlcə Sizə qısa bir sual verim, sonra isə sözü auditoriyaya verək. Xahiş edirəm, fikirlərinizi cəmləyin və öz suallarınıza hazır olun.

Davosda sərmayədarlar getdikcə daha çox sabitliyə, davamlılığa və uzunmüddətli gəlirlərə diqqət yetirirlər. Bu gün Azərbaycanın əsas strateji investisiya prioritetləri hansılardır?

**Prezident İlham Əliyev:** Əvvəla, məni dəvət etdiyinə və bu möhtəşəm tədbiri təşkil etdiyinə görə "Euronews"a təşəkkür etmək istərdim. Həmçinin ölkəmiz və əldə olunan nailiyyətlər barədə deyilən xoş sözlərə görə minnətdaram. Şübhəsiz ki, biz islahatlar yolunda irəliləməyə davam edəcəyik və "Euronews" ilə

güclü tərəfdaşlığımız Azərbaycanın olduğu kimi təqdim edilməsi, nailiyyətlərimizin nümayiş etdirilməsi və potensial sərmayədarların cəlb edilməsi üçün bir fürsətdir.

İnvestisiya prioritetlərinə gəldikdə, uzun illər ərzində bizim üçün əsas prioritet enerji sektoru olub. Çünki resurslarımız bizə iqtisadi nailiyyətlərimizi artırmağa və insanların həyat səviyyəsini yaxşılaşdırmağa imkan verib. Bu gün enerji layihələrinin böyük hissəsi artıq tamamlanıb. Bəli, biz fəaliyyətimizi davam etdiririk və beynəlxalq bazarlara təqdim edəcəyimiz daha çox imkanlarımız olacaq. Lakin əsas prioritet artıq qeyri-enerji sektoru, yəni neft və qazdan kənar sahələrdir.

İqtisadiyyatın şaxələndirilməsi ölkəmiz üçün birinci prioritetdir. Praktik baxımdan bu gün biz bərpaolunan enerji sahəsinə artan marağı görürük. Artıq iki iri bərpaolunan enerji elektrik stansiyasını istismara vermişik və növbəti 6 il ərzində Günəş və külək enerjisi üzrə istehsal gücümüzü əhəmiyyətli dərəcədə artıracağıq.

Başqa sözlə, 2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə etməyi gözləyirik. Günəş və külək potensialımız çoxdur və biz böyük imkanlar görürük. Biz artıq bir neçə layihə üzrə müqavilələr bağlamışıq və hazırda enerji toplanması qurğuları barədə düşünürük. İlk yer artıq müəyyən edilib.

Biz ötürücü xətlərə investisiya qoyuluşunu gözləyirik, çünki məqsədimiz yaşıl enerjinin ixracıdır. Məlumat mərkəzlərinə gəldikdə isə hesab edirik ki, Azərbaycan sərmayədarlar üçün əsas mərkəzlərdən birinə çevrilə bilər. Birincisi, enerji ucuzdur. İkincisi, əlavə potensialımız var. Hətta bu gün istifadə etmədiyimiz və ötürmə imkanlarının məhdudluğu səbəbindən ixrac edə bilmədiyimiz 2 giqavat elektrik enerjimiz mövcuddur.

Altı il ərzində bu göstərici 8 giqavata çatacaq və regionumuzda heç bir ölkə bu qədər əlavə gücə malik deyil. Əksər ölkələr idxaldan asılıdır. Bəziləri hətta enerji çatışmazlığı ilə üzləşir. Məhz buna görə də məlumat mərkəzləri üçün maksimum səmərəliliyin əldə oluna biləcəyi yer Azərbaycandır.

Biz bu istiqamətdə fəal işləyirik, o cümlədən Davosda keçirdiyim görüşlər və nümayəndə heyətlərinin təmasları vasitəsilə. Beləliklə, beynəlxalq əməkdaşlıq axtardığımız iki əsas investisiya sahəsi bunlardır.

Üçüncü sahə isə mədənçilikdir. Bu sahə nisbətən yenidir. Çünki nadir metallarımızın əksəriyyəti son beş və iki il ərzində Ermənistanın işğalından azad edilmiş ərazilərdə yerləşir. Hazırda ən müasir texnologiyalardan istifadə etməklə fəal tədqiqat mərhələsindəyik ki, potensialımızı dəqiq müəyyən edək. Potensialın mövcudluğu sovet dövründə aparılmış araşdırmalardan məlumdur, lakin o texnologiyalar tamamilə köhnə idi.

Mədənçilik, bərpaolunan enerji, süni intellekt və məlumat mərkəzləri xarici investisiyaların cəlb olunması üçün əsas hədəflərdir.

**Moderator:** Müşahidə olunan geosiyasi parçalanma və sanksiyaların təsiri altında münasibətlərin yenidən qurulması şəraitində bağlılıq təşəbbüslərinin dayanıqlığını necə təmin etmək olar? İqtisadi əməkdaşlıq və əlaqəlilik təşəbbüsləri gərgin siyasi münasibətlər olsa belə neytral bir platforma rolunu oynaya bilərmi?

**Prezident İlham Əliyev:** Biz neft və qaz kəmərlərinin tikintisi üzrə bağlılıq məsələsi ilə məşğul olmuşuq, çünki quru ilə əhatə olunmuş ölkəyik. Neft və qazı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçməliyik. Biz Bakıdan başlayaraq genişmiqyaslı və mürəkkəb boru kəməri layihələrindən birini uğurla həyata keçirmişik. Bakıdan İtaliya sahillərinə qədər uzanan, ümumi uzunluğu təxminən 3500 kilometr olan və bir neçə ölkədən keçən, yəqin ki, ən mürəkkəb qaz kəməri layihələrindən birini uğurla reallaşdırmışıq.

Təsəvvür etdiyiniz kimi, bunu etmək asan deyildi. Çünki biz boru kəmərinin keçdiyi bütün ölkələrin hökumətləri ilə ev sahibi ölkəsi müqavilələrini, kommersiya şərtlərini və tarifləri razılaşdırmalıydıq. Biz bunu etdik. Artıq boru kəməri 5 ildir ki, fəaliyyət göstərir. Neft boru kəməri bundan əvvəl çəkilmişdir. Biz 2006-cı ildə Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan əsas ixrac boru kəmərinin açılışını etdik. Beləliklə bu, ilk bağlılıq layihəsi idi. Sonra artıq qonşu ölkələrlə qurulmuş münasibətlər əsasında biz nəqliyyat sahəsində bağlılıq layihələrinə sərmayə yatırmağa başladıq. Biz başlanğıcını Azərbaycandan götürən, Gürcüstan və Türkiyə ərazisindən keçən, oradan Avropaya və Aralıq dənizi limanlarına gedən dəmir yolu xəttinə investisiya yatırdıq. Beləliklə, bu layihə qismən Azərbaycandan Qərbə doğru ərazini əhatə edirdi. İndi isə biz Azərbaycandan Şərq istiqamətində layihə haqqında düşünürük.

Artıq burada qeyd olunduğu kimi, biz keçən il Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olduq. Bu, beş Mərkəzi Asiya ölkəsinin prezidentləri tərəfindən qəbul olunmuş Beşlik formatını Altılıq formatına çevirmək məqsədilə yekdil qərar idi. Biz bunu Azərbaycana hörmət əlaməti, göstərdiyimiz səylərin qiymətləndirilməsi kimi qəbul edirik. Həmçinin bunu müdriklik əlaməti kimi də qəbul edirik, çünki bu gün Azərbaycandan yan keçmək o deməkdir ki, siz sanksiyalar altındakı ərazilərdən keçməlisiniz. Digər iki variant da mövcuddur, lakin onların hər ikisi Azərbaycandan Şimala və Cənuba - sanksiyaların qüvvədə olduğu zonalardan keçir ki, bu da həm mal göndərənlər, həm də, ilk növbədə, alıcılar üçün rahat deyil. Beləliklə iş elə gətirib ki, Azərbaycan Avropa üçün Mərkəzi Asiya ilə bağlantı yaratmaq məqsədi daşıyan yeganə etibarlı, təhlükəsiz və xoşməramlı təyinat ölkəsidir.

Bizim Avropa İttifaqının "Qlobal Qapılar" adlanan layihəsi haqqında məlumatımız var. Bu layihə Avropanı Mərkəzi Asiya ilə birləşdirəcək və əlbəttə ki,

Azərbaycan burada önəmli rol oynayır. Bu vaxtadək biz əsasən öz nəqliyyat infrastrukturumuza - dəniz limanlarına, hava limanlarına, dəmir yollarına, magistrallara sərmayə yatırmağa nail olmuşuq. Beləliklə demək olar ki, hər bir şey artıq hazırdır. Lakin yüklərin həcmi o qədər sürətlə böyüyür ki, biz Dəniz Limanımızın ötürmə qabiliyyətini artırmaq qərarına gəldik. Beləliklə nəqliyyat əlaqələri, o cümlədən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsi, həmçinin Ermənistanı da Mərkəzi Asiyanın daha geniş regional nəqliyyat şəbəkəsinə daxil edəcək, sülh işinə töhfə verəcək. Çünki Ermənistanın yolları açılacaq, o, tariflərdən faydalar qazanacaq, daha geniş beynəlxalq əməkdaşlıqda iştirak edəcək. Onlar artıq faydaları görürlər, çünki Ermənistanla sülhə nail olduqdan sonra Azərbaycan yüklərin daşınması ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb və Azərbaycanın ərazisindən Ermənistana gedən, Qazaxıstandan və Rusiyadan gələn ilk yüklər artıq göndərilib. Bundan əlavə, biz Ermənistana onların əldə edə biləcəyi qiymətdən çox ucuz olan mühüm neft məhsullarını təchiz etməyə başlamışıq. Bütün bu məsələlər bir-birinə bağlıdır - nəqliyyat əlaqələri, qonşularla yaxşı münasibətlər, sülh, yəqinlik və qarşılıqlı maraq.

**Moderator:** Təşəkkür edirəm, cənab Prezident.

İndi isə söz auditoriyanındır. Sizdən cənab Prezidentə ilk sualı kim vermək istəyir? Əllərinizi qaldırmısınız? Əminəm ki, çoxlu suallar var. Utanmayın. Pedro, sizin sualınız varmı?

**Pedro Varqas:** Cənab Prezident, Azərbaycana səfər edəndə məni həmişə təsirləndirən məsələlərdən biri daşınmaz əmlakdır, orta seqmentə aid olan insanlardır. İnsanların həyatının daha da yaxşı olduğunu görürük, alıcılıq qabiliyyətinin daha da artdığını görürük. Ümumi götürsək, bu tendensiyanın gələcəkdə necə olacağını görürsünüz və daşınmaz əmlak, nəqliyyat kimi sektorlara, xarici sərmayəyə nə qədər açıqsınız? Bu, orta seqment üçün bir fürsətdir və hesab edirəm ki, gələcək illərdə bu sahədə bir sıçrayış yaşanacaq. Bir çox investor və burada iştirak edən şəxslər bu sektorda xaricilərin iştirakı barədə Sizin mövqeyinizi bilmək istərdilər.

**Prezident İlham Əliyev:** İnvestisiya və islahatlar siyasətimizə uyğun olaraq, biz işsizlik və yoxsulluq səviyyələrinə aid olan məsələyə ciddi yanaşırdıq və onların hər ikisini beş faiz səviyyəsinə azaltmağa nail olduq. Beləliklə, orta seqment hesab olunanların sayı artır və biz Azərbaycanda artan alıcılıq qabiliyyətini görürük.

Bu gün Bakıda bir neçə irimiqyaslı şəhərsalma layihəsi həyata keçirilir. Onlardan biri "Ağ Şəhər"dir. Bu, şəhərin içində olan bir şəhərdir. Gələcək bir neçə ildə burada təxminən 50 min insan məskunlaşacaq. Digəri isə həm də turizm məkanı olan "Sea Breeze" adlanır. Bu layihənin tərkibinə əyləncə xarakterli obyektlər, hotellər və yaşayış binaları daxildir. Layihə hazırda 6 kilometrdən çox sahə boyunca uzanır və hətta daha da böyüyəcək. Digər tikinti layihələrini nəzərə almadan, sadəcə, bu iki layihədə satış göstəriciləri onu nümayiş etdirir ki, böyük tələbat var. Mənzil və evləri alanların 70 faizindən çoxu yerlilərdir. Bu, iqtisadi islahatlara və iqtisadi inkişafa görə insanların alıcılıq qabiliyyətinin artdığını göstərir. Eyni zamanda, bu nisbət onu da göstərir ki, Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub. Çünki bu gün sərmayədarlar özlərini rahat və təhlükəsiz hiss edəcək yerlərin axtarışındadırlar. Bu nöqteyi-nəzərdən, - bunu həm də Pedro qeyd etmişdir, - multikulturalizm, mədəni və etnik müxtəliflik, qarşılıqlı fəaliyyətin və birgəyaşayışın çox müsbət ruhu, bütün etnik mənsubiyyəti olan insanlar və bütün ənənəvi dinlərin nümayəndələri arasındakı qarşılıqlı hörmət həqiqətən də bu ruhu yaradır ki, insanlar Bakıda ev, mənzil almaq, yay fəslini, tətilini gəlib burada - dəniz sahilində keçirmək, həmçinin investisiya yatırmaq istəyirlər. Çünki siz tikinti mərhələsində investisiya yatırdıqda artıq layihə başa çatdıqdan sonra onu ikiqat qiymətə sata bilərsiniz.

Bu, faktiki olaraq iqtisadi fəaliyyətin ən yaxşı göstəricisidir. Təəssüf ki, Azərbaycanda neft ehtiyatlarının təbii azalması səbəbindən iqtisadiyyatımız sürətlə inkişaf edə bilmir. Lakin qeyd etdiyiniz kimi, qeyri-neft sektoru 2 faizdən çox artıb və neft-qazla əlaqəli olmayan sənaye isə ötən il 5,5 faiz artıb. Prezident olaraq mənim üçün bunlar əsas göstəricilərdir.

Enerji sektoruna gəlincə, biz qaz hasilatını artırırıq, neft hasilatını azaldırıq. Lakin neft hasilatını sabitləşdirmək, hətta artırmaqla bağlı planlarımız var. Ola bilsin ki, indi bu barədə danışmaq tezdir. Ancaq əgər beynəlxalq enerji şirkətləri tərəfindən həyata keçirilən kəşfiyyat layihələri yaxşı nəticələr versə, Azərbaycanda ikinci mühüm neft bumunu yaşaya biləcəyimizə dair çox haqlı ümidlərimiz var. Biz məhz buna ümid edirik.

**Moderator:** Çox sağ olun. Başqa sual var?

**Cenni Conson:** Cənab Prezident, Sizə bir qədər əyləncəli sualım var. Bildiyimə görə, Siz xizək sürürsünüz. Azərbaycanda xizək sürmək mənə də nəsib oldu. Təbrik edirəm, orada ən müasir qurğularınız var. Bildiyimə görə, martda Dünya çempionatı keçirəcəksiniz. Bir qədər bu barədə danışa bilərsinizmi?

**Prezident İlham Əliyev:** Bəli. Mənim xizəkçi olduğumu sizdən eşitmək qızıl medal almaq kimidir. Çünki Cenni həqiqi çempiondur. Çox şadam ki, o, Azərbaycanda xizək sürməkdən zövq alıb. Tədbir başlamazdan əvvəl biz söhbət etdik və mən söylədim ki, bu il Şahdağda Dünya çempionatı keçiriləcək. Beynəlxalq Xizək Federasiyası ilə bizim əlaqələrimiz başlayıb və bu tədbir artıq təqvimə salınıb. Beləliklə, hər il bizdə azı bir tədbir - ya Dünya çempionatı, ya da Avropa çempionatı keçiriləcək. Bu, artıq 10 ildən çoxdur ki, böyük maraq cəlb edən və turistlərin sayının artmasında mühüm rol oynayan yay tədbirimizlə – Formula 1-lə müəyyən dərəcədə balans yaradacaq. İlk Formula 1-dən sonra artım 20 faiz oldu. Bu rəqəm

COVID-dən əvvəl davamlı olaraq artırdı. COVID hər şeyi məhv etdi. İndi yenidən artır. Bu, ölkənin təqdimatı idi, çünki bu, şəhər halqası idi. Necə deyərlər, şəhər ətrafında idi, tarixi hissələr, müasir hissələr.

İndi Şahdağda Dünya çempionatı Azərbaycanın qış təqdimatı olacaq. Yeni hotellərin, yeni obyektlərin tikilməsini nəzərə alsaq, ümidvaram ki, bir çox insan xizək sürmək üçün bu məkanı seçəcək. Bu gün yamacların uzunluğu artıq 45 kilometrdir, iki-üç ilə 55 kilometr olacaq. Sözsüz ki, İsveçrə ilə müqayisə oluna bilməz. Lakin bizim regionumuzda ən böyük və ən rahat xizək kurortlarından biri olacaq. Bildiyimiz kimi, biz xizəkçilər üçün ən mürəkkəb hissə ondan ibarətdir ki, avtobusa minirsən, stansiyaya çatırsan, kabinəyə daxil olursan, 15 dəqiqə gözləyirsən ki, səni yamaca aparsın. Siz Şahdağda birbaşa hoteldən xizəklə düşə bilərsiniz. Siz minimum 30 dəqiqəyə qənaət edirsiniz və bu, sizi daha çox sevindirir. Bunu xatırlatdığınıza görə təşəkkür edirəm. Mənə bu barədə auditoriyanı məlumatlandırmaq imkanı verdi. Bir daha Şahdağa xoş gəlmisiniz!

**Cenni Conson:** Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Yeri gəlmişkən, biz razılaşdıq ki, birlikdə xizək sürək.

**Moderator:** Söz verilir ön sırada əyləşən cənaba. Salam.

**Demian Potter:** Salam, mən "H/Advisors"dan Demian Potterəm. Cenni, sualına görə təşəkkür edirəm. Gələcək planlarla bağlı məni qabaqladın. Keçmişə nəzər salsaq, Siz Avroviziya mahnı müsabiqəsinə uğurla ev sahibliyi edə bildiniz, həmçinin COP29-a uğurla ev sahibliyi etdiniz. İndi iki mühüm idman tədbiriniz var – xizəksürmə və Formula 1. Artıq ev sahibliyi etdiyiniz tədbirlərdən hansı dərsi çıxardınız və gələcəkdə başqa hansı tədbirlərə ev sahibliyi etmək arzusundasınız?

**Prezident İlham Əliyev:** İlk dərs o oldu ki, müxtəlif dairələrin bu tədbirlərə qarşı çıxmasına baxmayaraq, siz ölkə üçün doğru olanı etməlisiniz. İstər Avroviziya, istər COP-la bağlı biz əsassız tənqidlərlə üzləşdik. Xüsusilə COP-la bağlı bizi günahlandırdılar ki, neft istehsal edən ölkəyik, neft istehsal edən ölkə necə COP-a ev sahibliyi edə bilər. Baxmayaraq ki, Azərbaycandan əvvəl və sonra Azərbaycandan xeyli çox neft istehsal edən ölkələr olub. Lakin sual bizimlə bağlı idi və mən söylədim ki, neftə sahib olmaq bizim günahımız deyil. Biz buna görə günahlandırılmamalıyıq. Bizi neft sərvətimizi necə idarə etməyimiz, onu cəmiyyətdə ədalətli şəkildə necə paylaşdırdığımızla bağlı qiymətləndirmək lazımdır. Beləliklə, çıxardığımız dərslərdən biri bu idi. Çünki səmimi desək, COP-a birillik hazırlıq müddətində bu macəraya qoşulduğumuza görə mən dəfələrlə peşman oldum. Çünki həqiqətən də bəzi media qurumlarında tənqid, aqressiyanın səviyyəsi o qədər yüksək idi ki, insanı demək olar, ruhdan salırdı. Buna baxmayaraq, biz yaxşı tədbir keçirmək əzmində idik və bu, təşkilatçılıq baxımından, daha vacibi isə nəticələr baxımından həqiqətən də yaxşı tədbir oldu. Biz 10 il ərzində əldə edilməsi mümkün olmayana nail olduq. Karbon bazarının fəaliyyəti ilə bağlı razılığa gəldik, İtki və Zərər Fondu fəaliyyətə başladı, həmçinin iştirakçı sayı boykotu təbliğ edənlərə yaxşı cavab oldu. Ermənistandan başqa, bütün ölkələr iştirak etdi. 70 dövlət və hökumət başçısı iştirak etdi. Beləliklə, boykot taktikası uğursuzluğa düçar oldu. Bu, dərs oldu ki, əgər nəyinsə doğru olduğunu düşünürsünüzsə, buna əminsinizsə, bütün müqavimətə, etiraza, bəzən bütün düşmənçiliklərə baxmayaraq bunu etməlisiniz. Bundan əlavə, bu, bizə öz mövqeyimizi təqdim etməyə imkan verdi. Eyni vaxtda neft və qaza sahib olmaqla yanaşı, artıq qeyd etdiyim kimi, biz bərpaolunan enerjiyə böyük sərmayə yatırırıq və bu, bizim məsuliyyətimizin bir hissəsidir. Biz bərpaolunan enerjiyə ona görə sərmayə yatırmırıq ki, enerjiyə ehtiyacımız var, ona görə sərmayə yatırırıq ki, məsuliyyətli insanlarıq və ən azı ölkəmizi, regionumuzu yaşayış üçün daha uyğun bir yerə çevirmək istəyirik. Çirklənmə, karbon emissiyaları - bütün bunları biz gözlərimizlə görə bilmirik, lakin əfsuslar olsun ki, biz və uşaqlarımız bunu hiss edirik. Düşünürəm ki, qazıntı yanacağı ilə zəngin olan ölkələr bərpaolunan enerjiyə sərmayə yatıranda onlara hörmət və rəğbətlə yanaşılmalıdır.

Ev sahibliyi etdiyimiz beynəlxalq əhəmiyyətli tədbirlər haqqında danışarkən birini də qeyd etmək istərdim. Ötən il ilk dəfə Bakıda, aparıcı idmançıların iştirakı ilə UFC turniri keçirildi. Bu tədbir də bütün əsas televiziya kanalları vasitəsilə yayımlandı. Ümid edirəm ki, UFC turnirinə ev sahibliyi etmək də bir ənənəyə çevriləcək. ABŞ-dan başqa bu turnirə ev sahibliyi edən ölkələrin sayı o qədər də çox deyil və bu turnir vasitəsilə Azərbaycanın dünya xəritəsində yer alması bir daha ölkəmizin imkanlarını, beynəlxalq idman və əyləncə gündəliyinə inteqrasiya olunmağımızı nümayiş etdirir.

**Moderator:** Təşəkkür edirəm. Metyu Armstronq, Amerikanın qlobal enerji texnologiyaları şirkəti "Baker Hughes"in dövlət qurumları ilə əlaqələr şöbəsinin rəhbəri.

**Metyu Armstronq:** Cənab Prezident, Siz COP29 haqqında danışdınız, mən də şirkətimiz adından həmin tədbirdə iştirak etmək şərəfinə nail oldum. Mən COP29-dan əvvəlki və sonrakı tədbirlərdə iştirak etmişəm və Sizin də qeyd etdiyiniz kimi, onlara neft hasil edən ölkələr ev sahibliyi edib. Sizi əmin edə bilərəm ki, Azərbaycanda keçirilən tədbir fantastik və təsirli oldu. Sizin tənqidlərə açıq və məsuliyyətli cavablarınızı təqdir edirəm. Biz buna bənzər təkamül prosesini keçmişik, - molekullar əhəmiyyətlidir, elektronların vacibliyi artmaqdadır, - ancaq ölkəniz hər ikisini istehsal edir və bununla da firavanlıq gətirir.

Avropa ilə qarşılıqlı bağlantı getdikcə əhəmiyyətini artırır. Faydalı qazıntı enerji növləri ilə bağlı bəzi tənqidlərə baxmayaraq, Siz Avropaya qaz ixracını iki dəfə artırmısınız, nəqliyyat və çatdırılma dəhlizlərini genişləndirirsiniz. Sualım belədir: Xəzər dənizi hövzəsində neft və qaz layihələrinə birbaşa Avropa sərmayə-

lərinin qoyuluşunu necə görürsünüz? Sizin praqmatik yanaşmanızın açıq bazarlarda və kapitalın formalaşmasında öz əksini tapmasını görürsünüzmü? Biz Sizin nikbinliyinizi paylaşırıq və hesab edirik ki, Xəzərdə SOCAR və digər şirkətlər tərəfindən hasil ediləcək kifayət qədər neft və qaz ehtiyatları var. Siz Avropadan belə sərmayələrin qoyuluşunu gözləyirsiniz, yoxsa bu sahədə hələ görüləcək işlər var?

**Prezident İlham Əliyev:** Təəssüflər olsun ki, nə faydalı qazıntı enerji növlərinə, nə də bərpaolunan enerjiyə biz Avropadan əhəmiyyətli sərmayə qoyuluşunu görmürük. Bərpaolunan enerji sahəsində bizim əsas tərəfdaşlarımız BƏƏ, Səudiyyə Ərəbistanı, Çin, Böyük Britaniya və Azərbaycandan olan şirkətlərdir. Sərmayədar olmağa maraq göstərən Avropa şirkəti yoxdur.

Faydalı qazıntı növlərinə gəldikdə, ənənəvi olaraq ABŞ və Britaniya şirkətləri bu sahəyə maraq göstərib. bp və AMOCO şirkətlərinin birləşməsindən sonra bu, artıq Britaniya şirkəti hesab olunur. Yəni çox az Avropa şirkəti var - biri Fransa şirkətidir, digəri isə başqa ölkədən. Səmimi desək, biz Avropa şirkətlərindən sərmayə qoyuluşu ilə bağlı böyük maraq görmürük. Halbuki bu haqda artıq danışdım, Avropa bizim təbii qazımız üçün əsas istiqamətdir.

Keçən il biz 25 milyard kubmetrdən artıq təbii qaz ixrac etmişik. Bu həcmin təqribən 13 milyard kubmetri Avropaya ixrac edilib və bu rəqəm artacaq. Bu, Avropa İttifaqının xahişi əsasında edilib. Rusiya-Ukrayna müharibəsinin başlamasından sonra Avropa İttifaqı Komissiyasının Prezidenti Bakıya səfər etdi və biz enerji sektorunda strateji tərəfdaşlıqla bağlı sənəd imzaladıq. Biz Avropaya qaz təchizatının həcminin iki dəfə - ovaxtkı 8 milyard kubmetrdən 16 milyard kubmetrə qədər artırmaqla bağlı razılığımızı bildirdik.

Beləliklə, 3 ildən artıq bir dövrdə biz bu rəqəmi təxminən 13 milyard kubmetrə çatdırmışıq və həcm artacaqdır. Birincisi, bizim ixtiyarımızdakı mövcud və yeni qaz yataqlarından əldə ediləcək həcmlər olacaq və bununla bağlı razılaşma əldə edilib. Digər tərəfdən, bərpaolunan enerjinin istehsalı bizə böyük qaz həcmlərinə qənaət etməyə imkan verəcək. Yəni 8 giqavat həcmində bərpaolunan enerji bizə 3-4 milyard kubmetr qaza qənaət etmək imkanı verəcəkdir ki, həmin qaz da Avropaya nəql edilə bilər.

Budur hazırkı vəziyyət. Hesab edirəm ki, bu gün Azərbaycana faydalı qazıntı növlərinə, bərpaolunan enerjiyə, süni intellektə və məlumatlar mərkəzlərinə sərmayə qoyuluşu Avropa şirkətlərinin marağındadır. Strateji tərəfdaşlıq nizamnaməsinin hazırlanması ilə bağlı işçi qrupun yaradılması haqqında mən və Prezident Tramp tərəfindən tarixi sənədin imzalanmasından sonra Amerika şirkətləri ilə bizim əməkdaşlığımız heç zaman olmadığı qədər intensivləşib. Biz demək olar ki, həmin sənədi, yəni strateji tərəfdaşlıq xartiyasını yekunlaşdırırıq və ümid edirəm ki, bu, növbəti ay baş tutacaqdır.

Bərpaolunan enerji mövzusu orada öz əksini tapmayıb, - bunun nə ilə bağlı olduğunu anlayırıq, - ancaq məlumat mərkəzləri, süni intellekt, bağlantı, enerji və bir sıra digər sahələr həmin xartiyaya daxildir. Biz avqust ayının 8-dən etibarən Vaşinqtona və digər şəhərlərə artıq 4 nümayəndə heyəti göndərmişik. Onların hamısı yaxşı nəticələrlə geri qayıdıb və hesab edirik ki, biz ABŞ ilə yeni mərhələyə qədəm qoyuruq - siyasi, iqtisadi, enerji və hətta müdafiə sahəsində. Bu, Azərbaycan üçün Amerika Birləşmiş Ştatlarından birbaşa sərmayə cəlb etməkdə böyük imkanlar yaradacaqdır və ümid edirəm ki, bizim avropalı tərəfdaşlarımız bu məsələdə geri qalmayacaqlar.

**Moderator:** Cənab Prezident, bizim 3 dəqiqəmiz var və ilk sırada əyləşən cənabın sualı var, sonuncu çox qısa sual.

**Uilyam Lin:** Cənab Prezident, burada olmaqdan şərəf duyuram. Mən Londonda bp-də çalışıram. Mən sual deyil, qısa şərh vermək istərdim. Cənab Prezident enerji sektoru ilə bağlı çox təfərrüatlı danışdı və burada əlavə etməli bir məsələ qalmadı. Mən, sadəcə, demək istərdim ki, bp şirkəti, yəni əvvəlki AMOCO şirkəti olaraq biz Sizin rəhbərliyinizlə möhtəşəm tərəfdaşlığın bir parçası olmuşuq. Cənab Prezident, Siz əsl tərəfdaşlıq üçün sərmayədarlara çox münbit şərait yaratmısınız. Siz artıq neft və qaz sahəsində Avropa istiqamətində birgə həyata keçirdiyimiz çoxsaylı böyük enerji və infrastruktur layihələri haqqında danışdınız. Bildiyiniz kimi, biz də öz növbəmizdə bərpaolunan enerjiyə sərmayə yatırırıq. Bunlardan biri də yeni ərazilərdə yaradılan Günəş enerjisi layihəsidir və biz hesab edirik ki, bu sahədə daha böyük imkanlar var. Bu, təkcə Azərbaycanın və ətraf mühitin mühafizəsi baxımından vacib deyil. Bu, həm də karbonsuzlaşdırma mənasında bp-nin özünə lazımdır, çünki bizim də belə bir öhdəliyimiz var.

Burada qeyd olunmayan iki məsələni də əlavə etmək istərdim. Bizim Azərbaycan və SOCAR ilə əməkdaşlığımız ölkə hüdudlarını aşır. Biz SOCAR ilə beynəlxalq səviyyədə əməkdaşlıq etmək arzusundayıq və bununla bağlı SOCAR-ın rəhbərliyə ilə olduqca uğurlu müzakirələr aparırıq. Digər məsələ texniki imkanlar və bacarıqla bağlıdır. Azərbaycanda çox böyük istedadlar var və biz bundan bp daxilində də faydalanırıq. Biz də həmin istedadları yetişdirərək dünyaya təqdim edirik. Bizim bir sıra çox yüksəksəviyyəli nümayəndələrimiz azərbaycanlılardır. Onlar böyük hazırlığa malikdirlər, bp daxilində beynəlxalq karyera qura biliblər, ölkəni, bp-ni və bizi qlobal səviyyədə dünyada güclü şəkildə təmsil edirlər. Əlavə etmək istədiyim bu qədərdir.

**Moderator:** Xoş sözlərə görə təşəkkür edirəm. Təəssüflər olsun ki, cənab Prezidentin bu gün çox gərgin qrafiki var, ancaq bu səhər bizimlə bir yerdə olduğuna görə gəlin, onu alqışlayaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Brookfield Asset Management" şirkətinin prezidenti Konnor Teski ilə görüşüb.

Söhbət zamanı "Brookfield Asset Management"in real aktivlərə yönəlmiş qlobal investisiya fəaliyyəti nəzərə alınmaqla, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə investisiya baxımından maraq doğuran sahələr və mümkün layihələr barədə fikir mübadiləsi aparıldı.

Görüş çərçivəsində ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolu imzalandı.

Sənəd mövcud strateji münasibətlərin institusional əsasda daha da dərinləşdirilməsini, Fondun qlobal miqyasda nüfuzlu investisiya platformalarına çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. Bununla yanaşı, ARDNF-nin "Brookfield" tərəfindən idarə olunan fondlara və birgə investisiya layihələrinə 3-4 il müddətində ümumilikdə 1,4 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının dəyərləndirilməsi planlaşdırılır.

Əməkdaşlıq çərçivəsində Azərbaycanda investisiya potensialı olan əsas sahələr, o cümlədən enerji keçidi və saxlancı, bərpaolunan enerji, rəqəmsal infrastruktur və digər sahələr üzrə imkanların araşdırılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Çex Respublikasının Baş naziri Andrey Babişlə görüşüb.

Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, maşınqayırma, nəqliyyat və digər sahələri əhatə edən əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Münasibətlərimizin dərinləşdirilməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu.

Azərbaycan Prezidenti və Çexiyanın Baş naziri əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Andrey Babiş Prezident İlham Əliyevi Çexiyaya rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı da öz növbəsində Çex Respublikasının Baş nazirini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Hər iki dəvət məmnunluqla qəbul olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda dünyanın IT texnologiyaları üzrə nüfuzlu şirkətlərindən biri olan Amerika Birləşmiş Ştatlarının "Dell Technologies" şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə prezidenti Adrian Makdonald ilə görüşüb.

Söhbət zamanı Azərbaycanda mövcud əlverişli investisiya mühitinin xarici sərmayədarlar üçün də cəlbedici olduğu vurğulandı. "Dell Technologies"in Azərbaycanda fəaliyyəti və bu şirkətin iştirakı ilə ölkəmizdə superkompüter mərkəzinin yaradılması qeyd edildi, onun resurslarının süni intellekt və qərar qəbuletmə sahələrində tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə, həmçinin IT infrastrukturun qurulması və modernləşdirilməsi, şəbəkə avadanlıqları, məlumat mərkəzləri və bulud infrastrukturu layihələri, o cümlədən qabaqcıl məlumat mərkəzlərinin layihələndirilməsi və tətbiqi ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda İsrail Dövlətinin Prezidenti İsxak Hersoqla görüşüb.

Söhbət zamanı İsxak Hersoqun ölkəmizə səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycan-İsrail münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı vurğulandı. İqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edildi.

Azərbaycan və İsrail prezidentləri əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etdilər.

Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 21-də Davosda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp xüsusi müraciətlə çıxış edib. Sonra Donald Trampın iştirakı ilə panel iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosla görüşüb.

Söhbət zamanı Marta Kosun ötən il Azərbaycana, o cümlədən Qarabağa səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. Marta Kos işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəlilədilməsi ilə bağlı fikir mübadiləsi aparıldı. Eyni zamanda, enerji, regional nəqliyyat bağlantıları, humanitar minatəmizləmə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu.

Marta Kos Avropa İttifaqının Azərbaycanın humanitar minatəmizləmə sahəsində fəaliyyətinə, həmçinin Naxçıvanın dəmir yolu xəttinin bərpası layihələrinə dəstək göstərməyə hazır olduğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında bir çox sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu vurğulandı və bu istiqamətdə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda "Vitol" şirkətinin baş icraçı direktoru Rassel Hardi ilə görüşüb.

Söhbət zamanı Azərbaycanda həyata keçirilən neft strategiyası barədə məlumat verildi, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində roluna toxunuldu. Bu xüsusda bir neçə Avropa ölkəsinin, o cümlədən Avropa İttifaqına bir sıra üzv dövlətlərin Azərbaycan qazı ilə təchiz edilməsi vurğulandı.

Görüşdə ölkəmizlə bu şirkət arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, baş ofisi Rotterdam şəhərində yerləşən "Vitol" dünyanın aparıcı neft ticarəti şirkətlərindən biridir. 1966-cı ildə qurulan "Vitol" qrupu dünyanın üç əsas xam neft broker şirkəti sırasına daxildir.

Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzaladılar.

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.

Görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxundu. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirdi. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğuladı.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunuldu, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.

## *Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər*

**Prezident İlham Əliyev:** Bəli, siz haqlısınız. Bu olmasa, sülh sazişi imzalanmayacaq. Mən normallaşmanı rəsmi sülh sazişindən ayırardım, çünki normallaşma artıq baş verir. Qeyd etdiyim kimi, müsbət məcrada inkişaf edən bütün hadisələr bunu göstərir. Lakin Ermənistanın Konstitusiyasında, - hansı ki, Qarabağın işğal altında olduğu dövrdə, uzun müddət bundan öncə qəbul olunmuşdur, - Ermənistanın İstiqlaliyyət Bəyannaməsinə istinad var. Orada da “qondarma Dağlıq Qarabağ və Ermənistan birləşməlidir” məzmunlu paraqraf var. Beləliklə, bu, Azərbaycana ərazi iddiasıdır. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra uzun illər ərzində bizim mövqeyimiz çox aydın olub. O dəyişilməlidir. Mən bildiyimə görə, Ermənistan referendum keçirməyi planlaşdırır. Bu olan kimi sülh sazişinin rəsmi imzalanmasına heç bir maneə qalmayacaq. Lakin yenə də vurğulamaq istəyirəm ki, Azərbaycan üçün sülh əldə olunub. Normallaşma prosesi uğurla irəliləyir və ümid edirəm ki, formal xarakter daşıyan bu hüquqi məsələlər tamamlanan kimi bizdə rəsmən sülh olacaq.

**Müxbir:** Bu il?

**Prezident İlham Əliyev:** Sözsüz ki.

**Müxbir:** Vitse-prezident Cey. Di. Vens hər iki ölkəyə səfər edib. Strateji tərəfdaşlıq münasibətləri elan edilib və bu tərəfdaşlıq çərçivəsində ABŞ indi Azərbaycana bütün növ silahları satacaq. Həmçinin TRIPP layihəsi, yaxud Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu var. Bu, Ermənistandan keçən və eksklavınız olan Naxçıvana gedən magistral yol və dəmir yoludur. Bu, sadəcə boş ümidlərdir, yoxsa həqiqətən baş verəcək və dinamikanı dəyişəcək?

**Prezident İlham Əliyev:** Məndə bunun baş verəcəyinə dair heç bir şübhə yoxdur. Bunun səbəblərindən biri də odur ki, Amerika Birləşmiş Ştatları bu prosesdə çox vacib rol oynayır. Azərbaycanın iki ərazisini Ermənistan ərazisindən birləşdirəcək və hətta Avropa qitəsinə qədər uzanacaq marşrut Prezident Trampın adını daşıyır. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutudur. Düşünürəm ki, ABŞ Prezidentinin şəxsən öz üzərinə götürdüyü bu öhdəlik və ABŞ hökumətinin gündəliyi TRIPP-in inşa olunacağını göstərir. Bu, böyük məsafə deyil, cəmi 40 kilometrdən çoxdur. Yeri gəlmişkən, demək istərdim ki, hazırda Azərbaycanın paytaxtdan Ermənistan sərhədinədək inşa etməkdə olduğu dəmir yolu təxminən 400 kilometrdir. Üstəlik demək olar ki, 200 kilometrlik hissə bizim Naxçıvan eksklavında bərpa olunacaq. Beləliklə, bizim adlandırdığımız kimi, Zəngəzur dəhlizinin Ermənistan seqmenti çox qısadır. Əminəm ki, bu, həyata keçiriləcək.

Vitse-prezident Vensin səfəri ilə bağlı suala gəldikdə isə bəli, bu, çox mühüm bir səfər idi. Birləşmiş Ştatların Vitse-prezidentinin səfəri özlüyündə istənilən ölkə üçün əhəmiyyətlidir. Hazırkı vəziyyətdə bu, Birləşmiş Ştatlar və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması ilə əlamətdar oldu. Beləliklə, biz dünyanın ən güclü ölkəsinin rəsmi strateji tərəfdaşı olduq və bunu ölkəmiz üçün böyük uğur hesab edirik.

Bu Strateji Xartiya mətbuatda dərc olundu, o, müxtəlif bölmələrdən ibarətdir. Onlardan biri müdafiə məhsullarının satışı ilə bağlıdır, amma təkcə bu deyil. Buraya enerji, bağlantı, süni intellekt, investisiya və ticarət daxildir, həmçinin Azərbaycana silah tədarükü ilə bağlı bütün məhdudiyyətlər aradan qaldırılıb.

**Müxbir:** Ölkənizdə hərbi məhkəmənin Qarabağ bölgəsinin 13 şəxsinə ağır həbs cəzaları, o cümlədən keçmiş liderinə ömürlük həbs cəzası verməsinə dair qərarına toxunmaq istəyirəm. ABŞ Vitse-prezidentinin bu məsələ ilə bağlı danışdığı və bölgədə sülhə nail olunması məqsədilə Sizdən bəlkə də onları əfv etməyinizi istədiyi barədə məlumatlar var idi. O, bunu edibmi və Siz bunu edəcəksinizmi?

**Prezident İlham Əliyev:** Vitse-prezidentlə bir neçə saat davam edən görüş zamanı digər məsələlərlə yanaşı, bu məsələ də onun tərəfindən qaldırıldı və mən bu məsələ ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim, vəssalam. Biz, əsasən, ikitərəfli əlaqələri, regional inkişafı, TRIPP və Ermənistanla rəsmi sülh perspektivlərini müzakirə etdik. Qeyd etdiyiniz bu insanlara gəldikdə isə, onlar bizim ərazimizdə, Ermənistan da daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren Azərbaycan dövlətinin ərazisində qanunsuz fəaliyyət göstərən separatçı rejimin liderləridir.

Bu insanlar uzun illər ərzində azərbaycanlılara və Azərbaycana qarşı törədilən bütün müharibə cinayətlərinin təşkilatçıları olublar və məsuliyyətə cəlb ediliblər. Onlar bizim həyata keçirdiyimiz hərbi əməliyyat nəticəsində Qarabağda saxlanılıb məsuliyyətə cəlb olunublar. Onlar vəkillərlə təmin ediliblər. Məhkəmə prosesi tamamilə şəffaf keçib. Onların cinayətləri şahid ifadələri, çoxsaylı ifadələrlə sübuta yetirilib, hər hansı qanun pozuntusundan söhbət gedə bilməz.

**Müxbir:** Cənab Prezident, bəs Siz bununla bağlı nə isə edə bilərsinizmi?

**Prezident İlham Əliyev:** Siz nəyi nəzərdə tutursunuz?

**Müxbir:** Yeni səhifə açıb onları əfv edə və ya buna bənzər nə isə bir jest edə bilərsiniz. Bu, Sizin səlahiyyətiniz daxilindədir.

**Prezident İlham Əliyev:** Bilirsiniz, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin.

**Müxbir:** Bu, Sizin üçün eyni şeydir?

**Prezident İlham Əliyev:** Bəli, tamamilə. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət

İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi.

**Müxbir:** Bəs, yeni səhifə açmaq baxımından, sonuncu müharibə nəticəsində Qarabağı tərk etmək məcburiyyətində qalan ermənilərə qarşı bir az mərhəmət hiss edirsinizmi?

**Prezident İlham Əliyev:** Bizim bu məsələ ilə bağlı mövqeyimiz çox aydın olub. Bizim Qarabağda yaşayan bütün ermənilərə vətəndaşlıq və ya iş icazəsi üçün müraciət etməyi təklif etdiyimiz dəfələrlə səsləndirilib, o cümlədən veb-saytda dərc olunub. Qarabağ ermənilərinin nümayəndələri ilə bir neçə dəfə görüşlərimiz oldu, lakin onlar Ermənistana getmək seçimini üstün tutdular. Bugünkü Ermənistan ərazisindən deportasiya edilmiş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlımız var, lakin Ermənistan hökuməti onların geri qayıtması üçün heç vaxt heç bir təklif irəli sürməyib. Düşünürəm ki, bu məsələyə qarşılıqlı nöqteyinəzərindən yanaşmalıyıq. Qayıdış hüququ universal bir hüquqdur və əlbəttə ki, bizə belə bir müraciət olarsa, Azərbaycan bu hüquqa mütləq əməl edəcək. Lakin, eyni zamanda, 30 il Ermənistanla müharibə şəraitində olduğumuzu və 30 il ərzində onların ərazimizi işğal altında saxladığını nəzərə alsaq, Qərbi azərbaycanlılar adlandırdığımız yüz minlərlə azərbaycanlıya qarşı da eyni münasibəti gözləyirik ki, bugünkü Ermənistana qayıda bilsinlər.

Müxbir: Mən qısaca olaraq, Fransa ilə münasibətlərə keçmək istəyirəm. Əlaqələr, xüsusən də son müharibə zamanı çox pis olub. Siz Fransanı Yeni Kaledoniyada, Korsikada müstəmləkə ölkəsi olaraq, çox ağır sözlərlə tənqid etdiniz. Bir neçə ay əvvəl, Fransa vətəndaşı Teo Klerk azad edildi. Hazırda digər vətəndaşın məhkəməsi gedir. “Avropa Siyasi Birliyi”nin Zirvə Görüşü çərçivəsində Sizin Fransa Prezidenti ilə qısa görüşünüz oldu. Deyə bilərsinizmi, münasibətlər öz məcrasına qayıdıb və ya Azərbaycan ilə Fransa arasında hələ problemlər qalır?

**Prezident İlham Əliyev:** Bilirsiniz, Fransa ilə problemlərin kökü bizdən gəlmir. İkinci Qarabağ müharibəsindən əvvəl Fransa ilə çox yaxşı münasibətlərimiz var idi. Prezident Sarkozinin, Prezident Ollandın səfərləri olmuş, mənim Fransaya rəsmi səfərlərim həyata keçirilmişdir. Eyni zamanda, mən Prezident Makronun hakimiyyəti dövründə Fransaya səfər etmişəm. Bizim çox mehriban münasibətlərimiz olub, çox biznes fəaliyyəti aparılıb, 10-dan artıq qardaşlaşmış şəhərlərimiz olub. İkinci Qarabağ müharibəsi başlayan zaman biz ərazi bütövlüyümüzün bərpasına start verdik. Əfsuslar olsun ki, Fransanın mövqeyi heç cür anlaşılan deyildi. Çünki Fransa bir tərəfdən, ölkələrin ərazi bütövlüyünü müdafiə edir, - o, öz ərazi bütövlüyünü müdafiə etməyə səy göstərir, hazırda Danimarkanın, Ukraynanın ərazi bütövlüyünü müdafiə edir, - lakin əfsuslar olsun ki, onlar separatçıların tərəfini tutdular. Milli Assambleya və Senat separatçılara dəstək məqsədilə 10-dan artıq qətnamə qəbul edib və Ermənistanın özü tanımasa belə, sizin parlament hətta qondarma “Dağlıq Qarabağ”ı tanıyıb. Həmçinin hökumətlə münasibətlər gərgin idi. Lakin bir daha deyirəm, biz həmin gərginliyin mənbəyi olmamışıq. Biz, sadəcə öz suverenliyimizə hörmətlə yanaşmanı istəyirdik.

**Müxbir:** Axı, Siz çox ağır sözlərdən istifadə etdiniz…

**Prezident İlham Əliyev:** Bilirsiniz, ağır sözlərdən istifadəni mən başlamamışam. İstəyirəm tam əmin olasınız, Azərbaycanın atdığı addımlar yalnız cavab idi. Bizdə Fransa Prezidentinin və bir çox fransız rəsmilərinin, o cümlədən Senatınızın sədrinin, Milli Assambleyanızın sədrinin, tanınan şəxslərin dövlətimizi və şəxsən məni təhqir etmək üçün istifadə etdikləri ağır sözlərdən kataloqumuz var. Bundan əlavə, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra və 2023-cü ildə antiterror əməliyyatından əvvəl xanım Pekres, cənab Barnye, cənab Retayyo kimi çox tanınan şəxslər, – bütün bu adlar auditoriyaya yaxşı məlumdur, – Qarabağa qeyri-qanuni səfərlər etmiş və separatçılara dəstək vermişlər. Bu, Azərbaycan dövlətçiliyinə açıq təhqir və tam hörmətsizlik əlaməti idi. Bizim tərəfimizdən deyilmiş sözlərin və ya atılmış addımların hamısı cavab olaraq baş vermişdir. Bəlkə də bu, ağır tərzdə olmuşdur. Ölçmək asan deyil. Lakin düşünürəm ki, bizim üçün vacib odur ki, qeyd etdiyiniz kimi, ötən ilin sonunda Prezident Makron ilə görüşüm oldu. Görüş çox müsbət keçdi və biz hər şeyi yenidən başlamaq razılığına gəldik. Biz buna hazırıq. Bizə hər hansı ölkə, o cümlədən Fransa ilə heç bir problem lazım deyil. Bir daha deyirəm, bu, bizim təşəbbüs deyildi, lakin indi düşünürəm ki, hər iki tərəf, xüsusən də Ermənistan ilə Azərbaycan arasında artıq əldə olunmuş sülhdən sonra normal münasibətlərə daha çox hazırdır.

**Müxbir:** Beləliklə, nəticə olaraq, biz yaxın gələcəkdə Fransa Prezidenti ilə Sizin görüşünüzü gözləyə bilərikmi?

**Prezident İlham Əliyev:** Bəli, birmənalı olaraq. Yeri gəlmişkən, Kopenhagendə görüşümüz çox dostcasına keçdi. Əlbəttə ki, görüş baş tutduqdan bir neçə ay sonra heyətlərimiz arasında xeyli təmaslar olub. Onlar müntəzəm olaraq əlaqədədirlər. Bir neçə görüş baş tutub. Bəli, bəzi məsələlər hələ də qalır. Prezident Makron və mən onların hər iki tərəfdən həll olunmasını qeyd etmişik. Lakin bir daha anlamaq vacibdir ki, bu hərəkət qarşılıqlı olmalıdır. İki suveren dövlət kimi biz bir-birimizə hörmət etməliyik, hüquq sistemlərimizə hörmətlə yanaşmalıyıq və bir-birimizin işlərinə qarışmalı deyilik. Əgər sizin sözdən istifadə etsəm, Kaledoniya və sairə məsələləri biz birinci ortaya atmadıq. Məhz Fransa Qarabağ kimi daxili məsələmizə müdaxilə etməyə başladı. Bu, nəinki həmin mövzuya, hətta siyasi gündəliyimizə də şamil edildi. Bir sözlə, buna son qoyulmalıdır. Düşünürəm ki, hər iki tərəf bunu necə etməyi bilir.

**Müxbir:** Prezident Əliyev, qonağımız olduğunuza görə çox sağ olun. "France-24" kanalında "Üzbəüz" verilişinə baxdığınıza görə hamınıza minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşetlə görüşüb.

Söhbət zamanı dövlətimizin başçısının Armin Laşetlə görüşləri məmnunluqla xatırlandı.

Armin Laşet Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi, sülhün əldə olunmasının bütövlükdə regionun inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini dedi.

Görüşdə Azərbaycanın regional sülh və əməkdaşlıq təşəbbüsləri barədə söhbət açıldı.

Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi-ticari, enerji və digər sahələrdə inkişaf etdiyi vurğulandı.

Avropanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı mühüm rola toxunuldu, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə Azərbaycanın dinlərarası və mədəniyyətlərarası dialoqda oynadığı rol vurğulandı, bu təcrübənin beynəlxalq çərçivədə bölüşülməsinin əhəmiyyəti qeyd edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.

Azərbaycanda keçirilmiş Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etdiyini vurğulayan Bolqarıstan Prezidenti mədəniyyətimizlə yaxından tanış olduğunu, Novruz bayramı adət-ənənəmizin və muğam musiqimizin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyi xatırladaraq, buna görə minnətdarlığını ifadə etdi.

O, Azərbaycanın ali təhsil müəssisələrində bolqar dilinin tədrisi və bolqar mədəniyyətinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Söhbət zamanı bir neçə gün əvvəl Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti və Veliko Tırnovo Bələdiyyəsi arasında Bolqarıstanın Veliko Tırnovo şəhərində "Şuşa" parkının salınması və yenidən qurulması üzrə əməkdaşlıq haqqında Sazişin imzalanması məmnunluqla qeyd olundu.

Ölkələrimiz arasında enerji, elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Bolqarıstanın Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına verdiyi dəstək yüksək qiymətləndirildi.

Bu ilin mayında Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi vurğulanaraq, Bolqarıstanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağı bildirildi.

Fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələr keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva müzakirələrdə iştirak ediblər.

Moderator Helqa Mariya Şmid: Mən üç il əvvəl Sizinlə birgə panel sessiyasında iştirak şərəfinə nail oldum. O vaxt mən ticarət marşrutlarının rəqəmsallaşması yolu bağlantılarını təşviq edən ATƏT-in Baş katibi idim. Ölkəniz Orta Dəhlizə xeyli sərmayə yatırıb. İcazənizlə bir sual verim: Rusiya ərazisi ilə Şimal marşrutu kimi alternativ marşrutlarla müqayisədə Avropa ilə Asiya arasında gələcəkdə ticarəti nəzərə alsaq, dayanıqlılıq və şaxələndirmə baxımından nə kimi imkanlar var?

Prezident İlham Əliyev: Çox sağ olun. Sonuncu dəfə panel sessiyasında görüşdükdən sonra regionumuzda dəhlizlər və bağlantılar baxımından xeyli dəyişikliklər olub. Həmin dövrdə Azərbaycan fiziki infrastruktura, o cümlədən dəniz limanları, dəmir yolları, magistral və hava yolları ilə yüklərin daşınmasına böyük sərmayələr yatırıb. Birmənalı olaraq, regional daşımalar qovşağına çevrilmək üçün sizin qonşularınızla yaxşı münasibətləriniz olmalıdır və Azərbaycanda həm Qərb, həm də Şərq istiqamətlərində belədir.

Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi üstünlükdür, lakin fiziki infrastruktursuz onun mənası çox deyil. Ötən il biz Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdik. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir. Biz bu məqsədlə artıq dəniz limanımızın genişləndirilməsinə başlamışıq və hazırda orada sərmayələr yatırılır.

Regional bağlantı layihələri. Söhbət təkcə dəmir yollarından getmir, həmçinin fiber-optik kabellər də nəzərdə tutulur. Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarımızla sıx işləyirik. O, bu il hazır olmalıdır və Ermənistanla sülh qurulduqdan sonra yeni imkanlar əldə olunub. Azərbaycandan Ermənistana və oradan Avropa istiqamətində gedən dəhlizin yük həcmi baxımından böyük potensialı var. Azərbaycan hazırda öz ərazisində dəmir yolunun çəkilməsinə sərmayə yatırır. Azərbaycan ərazisində - ölkəmizin əsas hissəsi və eksklav Naxçıvanda çəkiləcək və bərpa olunacaq

dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistanda həmin yolun uzunluğu 40 kilometrdən bir az çoxdur. Çəkilən kimi biz Azərbaycan vasitəsilə Orta Dəhlizin iki hissəsinə malik olacağıq. Bu, Qərb ilə Şərq üçün faydalı olacaq və təbii ki, Cənubi Qafqazda yerləşən ölkələrə də fayda verəcək.

* * *

Ermənistan və Azərbaycanla qlobal bir marşrut yaranması istiqamətində əməkdaşlıq əlaqələri qurulduğunu diqqətə çatdıran Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos deyib: "Ermənistan ilə Azərbaycan arasında sülh prosesi yeni qapılar açır və əvvəlcə icrası inanılmaz olan bunlara indi artıq bizdə inam yaranır. Prezident Əliyevə təşəkkürümüzü bildiririk ki, o, Avropa İttifaqının da bununla bağlı planlarına həmişə öz dəstəyini vermişdir".

Marta Kos əlavə edib: "Çindən Avropaya gedən istiqamətə gəldikdə, biz istərdik ki, bu, şaxələndirilmiş formada olsun. Özəl şirkətlər qısa müddət ərzində daha çox yük çatdıra bilmələri üçün seçim etmək istəyirlər. Yekun nəticədə 2030-cu ilə qədər Trans-Xəzər marşrutu ilə daşımalarda üç dəfə artım ola bilər. Bu, artıq böyük yüklərin daşınması deməkdir ki, o da bizneslər üçün cəlbedicidir".

"Çinin Azərbaycanla, Mərkəzi Asiya ilə və həmin bölgədəki digər ölkələrlə münasibətləri hər zaman vacib olubdur", - deyən Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti, Çin Xalq Respublikasının keçmiş dövlət müşaviri Vanq Huiyao "Bir kəmər, bir yol" təşəbbüsündən danışaraq deyib: "Bu strategiya elə bir məqsədə yönəlib ki, həmin marşrutla həyata keçirilən daşımalar sadələşsin. Əlbəttə ki, Çin yeni dəhlizlərin genişləndirilməsinə töhfə verməyi, yeni layihələrin olmasını istəyir".

Vanq Huiyao bildirib ki, "Bir kəmər, bir yol" təşəbbüsü, əslində, Trans-Xəzər regionuna aid ölkələri də əhatə edir. "Trans-Xəzər marşrutu da vacibdir", - deyə o əlavə edib.

Çin və Qloballaşma Mərkəzinin təsisçisi və prezidenti deyib: "Bildiyiniz kimi, Çin çox yaxşı addımlar atır ki, maneələr azalsın, bağlantılar mümkün olsun. Ona görə bütün bu yaxşı nailiyyətlərin hamısı faydalıdır. Azərbaycan dost ölkədir. Mən Bakı forumlarında dəfələrlə iştirak etmişəm və əlbəttə ki, biz həmişə Azərbaycanın "yumşaq gücü"nə heyran olmuşuq".

Moderator: Ötən ilin avqust ayında Siz Ermənistanın Baş naziri və ABŞ Prezidenti ilə Birgə Bəyannaməyə imza atdınız. Orada "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" qeyd olunur. Bu, "TRIPP layihəsi" adlanır. Beləliklə, istərdim Sizdən soruşum, bu layihə geniş Trans-Xəzər əməkdaşlıq çərçivəsinə necə uyğundur? Bu məqamda, həmçinin Ermənistanla sülh prosesinin mərhələsi ilə bağlı sual verməyə bilmərəm. Bağlantı layihəsi etimadın qurulması tədbiri kimi hansı rol oynayır? Daha sadə desək, bu il Siz sülh sazişini imzalayacaqsınızmı?

Prezident İlham Əliyev: Ümid edirəm ki, biz bu il sülh müqaviləsini imzalayacağıq. Mən bu haqda artıq dəfələrlə danışmışam və bildirmişəm ki, sülh sazişinin Ağ Evdə ABŞ Prezidentinin iştirakı ilə paraflanması, Ermənistanın Baş naziri və öz tərəfimdən, Prezident Trampın da şahid qismində bəyannamənin imzalanması söyləməyə əsas verir ki, sülh artıq əldə olunub. Avqustdan bəri biz nəinki sərhədimizdə tamamilə yeni vəziyyət yaratmışıq, o cümlədən orada artıq nə atışma, nə ölənlər, nə yaralananlar, nə də ki, problemlər müşahidə olunur. Bununla bərabər, biz Ermənistanla fiziki əməkdaşlığa da başlamışıq. Azərbaycandan keçən yüklərin daşınmasında bütün məhdudiyyətləri götürmüşük. Biz gürcü dostlarımıza minnətdarıq ki, onlar Azərbaycana daxil olan yüklərin Gürcüstan vasitəsilə çox mühüm tranzitini təmin edirlər. Biz, həmçinin Ermənistan üçün çox mühüm olan neft məhsullarının təchizatına başlamışıq.

Beləliklə, qarşılıqlı ticarət əslində başlayıb. Yəni imzalanacaq rəsmi sülh sazişi baxımından, hər şey Azərbaycana qarşı üç onillik ərzində mövcud olan ərazi iddiasının Ermənistan Konstitusiyasından çıxarılmasını nəzərdə tutan dəyişiklikdən asılıdır. O, baş verdikdən sonra növbəti gün sülh sazişi rəsmən imzalanacaq. Bununla belə, yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" tamamilə yeni vəziyyət yaradacaq. Çünki qeyd etdiyim kimi, Çindən başlayan daşımalar Mərkəzi Asiya, Trans-Xəzər regionu, Azərbaycan, Ermənistan, eksklav Naxçıvan, Türkiyə və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq. Marşrut boyunca bütün ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və həmin addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq. Çünki sülh həqiqi sülh prosesi getdikdə əldə oluna bilər. Sənədin imzalanması vacibdir. O, bünövrədir. Lakin sonra gördüyünüz işlərin də əhəmiyyəti heç də az deyil.

Azərbaycan ilə Ermənistan arasında sonuncu qanlı toqquşmadan Vaşinqton Sammitinə qədər çəkən müddət iki ildən az olub. Düşünürəm ki, bütün münaqişələri, xüsusən də üç onillik çəkən münaqişələri götürsək, bu, rekord göstəricidir. Bir sözlə, hər iki tərəf güclü siyasi iradə göstərdi ki, toqquşmaya son qoyulsun və sülh səhifəsi açılsın. Biz cəmi altı aydır ki, sülh içində yaşayırıq və inanın ki, bu, çox xüsusi hissdir, çox yaxşı hissdir və Azərbaycan əhalisi bunları bölüşür. Əminəm ki, Ermənistan əhalisi də. Bağlantı layihələri və dəhlizləri bizi daha sıx birləşdirəcək, bir-birimizdən daha asılı edəcək, Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaradacaq və bu halda Azərbaycan, Gürcüstan və Ermənistan üçtərəfli qaydada nəhayət qarşılıqlı fəaliyyətə başlayacaqlar.

* * *

Növbəti suala cavab verən Avropa Komissiyasının Genişlənmə üzrə komissarı Marta Kos deyib: "Bizim

Azərbaycan, Ermənistan və Türkiyə üçün gündəlikdə olan konkret layihələrimiz tərtib edilib. Siz TRIPP layihəsi haqqında danışdınız, onu da prioritet hesab edirik. O, cəmi 42 kilometri əhatə edir və nəinki TRIPP layihəsini həyata keçirmək, həmçinin digər layihələri də həyata keçirərik. Belə olmasa onun əhəmiyyəti olmaz. Məsələn, Naxçıvandan dəmir yolu vasitəsilə yeni çıxışın əldə edilməsi, həmçinin bu da bütün təsisatları maraqlandıran bir məsələdir. Hesab edirəm ki, özəl sektor da bu əsaslar üzrə təkliflərlə çıxış edə biləcək".

"Bilirsiniz, bəzi hallarda Avropa İttifaqında qərarların qəbul edilməsi prosesi o qədər də asan deyil. Lakin bu dövrdə Naxçıvan istiqamətində TRIPP layihəsinin həyata keçirilməsi bütövlükdə şəraiti dəyişəcək, daha sonra isə Türkiyəyə çıxış əldə olunacaq", - deyə o vurğulayıb.

Moderatorun 15 il sonra yüklərin həcm baxımından Orta Dəhlizin Şimal marşrutunu üstələyə biləcəyi ilə bağlı sualına cavabında Vanq Huiyao deyib: "Mənə elə gəlir ki, bütün tərəflər rifah əldə edəcəkdir. Mərkəzi Asiyadakı ölkələr də çox sürətlə inkişaf edir. Çin isə onların bir qonşusu olaraq ümumi daxili məhsulu da artırmaqdadır. Ticarət daha da arta bilər. Düşünürəm ki, yeni dəhlizlər əlavə fəaliyyətlərə təkan verəcək. Ona görə düşünürəm ki, bu, dəyərlidir, səmərəlidir və bəlkə də növbəti orta bir dəhliz layihəsi meydana çıxacaq. Mən kifayət qədər nikbin baxıram. Ticarət, iqtisadi əlaqələr və turizm - bütün bu sahələr çox zəruri hesab ediləcək. Əslində, biz turizmi daha yeni marşrutlar vasitəsilə inkişaf etdirə bilərik. Tutaq ki, siz Çinə səfər etdikdə müxtəlif marşrutlardan istifadə edə bilərsiniz. Burada dəmir yolu bağlantısı nəzərdə tutula bilər. Düşünürəm ki, bu, bizə daha çox imkanlar yaradacaq və cənab Prezidentin söylədiyi kimi, bizə sabitlik və dayanıqlı sülh lazımdır. Belə olan halda daha çox iqtisadi təmaslar qurulacaq. İstənilən bu və ya digər marşrut faydalı olacaq. Ən vacibi odur ki, iqtisadi baxımdan təcrübə toplansın".

* * *

Sonra panel iştirakçıları sualları cavablandırıblar.

Sual: Təşəkkür edirəm. Belə bir maraqlı söhbətə görə minnətdaram. Mən Türkiyənin millət vəkiliyəm və həmçinin gənc liderlər sırasındayam. Orta Dəhlizin gələcəyi daha çox ABŞ-nin maraqlarından asılıdır. Biz ötən ildən etibarən görürük ki, ABŞ-nin maraqları yeni administrasiya vasitəsilə xeyli dəyişir. Birincisi, bu Orta Dəhliz hansı dəyişikliklər gətirəcəkdir və İranın gələcəkdə buna təsiri necə ola bilər?

Prezident İlham Əliyev: Düşünürəm ki, TRIPP-in Prezident Trampın adını daşıması faktı o deməkdir ki, bu dəhliz bu administrasiya üçün və bəlkə də bu administrasiyanın müddətindən sonra da vacib olacaq. Əks halda, Prezident öz adını verməzdi. Adın verilməsi onun həyata keçiriləcəyi deməkdir və ad təsdiqləndikdən sonra biz tamamilə əminik ki, Birləşmiş Ştatlar bunun bir hissəsi olacaq.

Hazırda əlimizdə olan məlumata görə, ABŞ ilə Ermənistan fiziki tikinti və investisiya hüququna malik olacaq şirkətin fəaliyyət parametrlərini müzakirə edirlər. Bu, artıq açıq mənbələrdən götürülüb. Biz bilirik ki, şirkətin 76 faizi ilk 49 il ərzində ABŞ-yə, 24 faizi isə Ermənistana məxsus olacaq, sonra isə daha 49 il olacaq. Başqa sözlə, bu format bir əsr ərzində işlək olacaq.

İkincisi, düzgün qeyd etdiyiniz kimi, Amerika administrasiyasından regionumuzdakı bağlantı layihələrinə fərqli yanaşmalar olub və yalnız Prezident Tramp hakimiyyətə gələndə biz böyük bir maraq görməyə başladıq. Başqa sözlə, region ölkələri, Azərbaycan, Gürcüstan, Xəzərin o tayında Mərkəzi Asiyadakı qonşularımız tərəfindən görülən bütün işlər Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib. Beləliklə, biz bunu Türkiyə ilə birlikdə özümüz etdik. Biz Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçən neft kəmərini, Avropaya uzanan qaz kəmərini, Bakı-Tbilisi-Qars dəmir yolunu qeyd edə bilərik ki, bunların hamısı Amerikanın heç bir praktiki iştirakı olmadan həyata keçirilib. Beləliklə, biz bunu özümüz etdik. Bu gün Prezident Tramp administrasiyasının diqqətini cəmləşdirdiyi böyük bir resursa sahib olduğumuz halda, əlbəttə ki, bu genişmiqyaslı layihələrin həyata keçirilməsi potensialı daha böyükdür.

Bir məqamı da vurğulamaq istəyirəm, biz region ölkələri haqqında danışdıq və Xəzər dənizinin o tayında Mərkəzi Asiyadakı qonşularımızı unutmamalıyıq. Çünki onlar olmadan Çindən Avropaya heç bir yük daşımaq mümkün olmayacaq. Beləliklə, Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Avropa - coğrafiya budur və Azərbaycan artıq Mərkəzi Asiya ölkələri ilə çox fəal qarşılıqlı əlaqədədir. Ötən ilin noyabrında Azərbaycan rəsmi olaraq Mərkəzi Asiya beşliyinə daxil edildi, Mərkəzi Asiya beşliyi altılığa çevrildi. Bu, misli görünməmiş bir hadisədir, çünki biz Cənubi Qafqaz ölkəsiyik, amma Mərkəzi Asiya Məşvərət Şurasının üzvüyük.

Biz bağlantı sahəsində çox işlər görürük, Mərkəzi Asiya ölkələri ilə Çin arasında da bağlantı sahəsində çox işlər görülür. Xanım Helqanın vurğuladığı mövcud yollarla yanaşı, Çin tərəfindən tikilməkdə olan və maliyyələşdirilən başqa bir yol da var - Xəzərə aparan daha bir yol. Çindən Qazaxıstan vasitəsilə Xəzərə uzanan mövcud yoldan əlavə olaraq. Çin hazırda Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər yolunu maliyyələşdirir. Yenə də yol Xəzər dənizinə gedir. Bu o deməkdir ki, o, Azərbaycana və sonra Cənubi Qafqazdan keçərək Avropaya çatacaq. Beləliklə, xeyli geosiyasət, xeyli beynəlxalq münasibətlər, xeyli diplomatiya həyata keçirilir. Azərbaycan bir çox ölkələrin marşrutu boyunca keçən, hamısı ilə yaxşı münasibətlər quraraq Bakıdan Aralıq dənizinə neft

kəməri, Bakıdan İtaliyaya qaz kəməri kimi transmilli layihələrə start verən və onlara rəhbərlik etməyi bacaran bir ölkədir. Beləliklə, bu, Avrasiyanın çox geniş coğrafiyasında əməkdaşlıq üçün daha bir çox güclü siyasi zəmanət olacaq.

* * *

Şirkətlərin cəlb olunmasının, siyasi iştirakçıların fəal rolunun, tərəfdaşlar arasında etimadın qurulmasının, yeni marşrutların İran istiqamətində açılmasının və Türkiyə tərəfindən dəmir yolu layihələrinə hazırlıq göstərilməsinin bütövlükdə imkanların genişlənməsinə xidmət etdiyini bildirən Marta Kos əlavə edib: "Əsrlər keçir, lakin biz bu dəyişikliklər haqqında indidən düşünməliyik. Bəlkə də bizə keçmişdə bu, inanılmaz görünürdü, lakin gələcək üçün yollar açılır və region liderləri bunu anlayırlar ki, biz bundan necə faydalana bilərik, Avropa necə faydalana bilər və bu baxımdan, əlbəttə ki, Azərbaycan üçün də bu, faydalıdır. Bu, belə də olmalıdır. Bu, Avropa üçün yaxşıdır, çünki Çinə daha yaxşı çıxış əldə olunacaq. Bu çıxış Mərkəzi Asiya vasitəsilə təmin ediləcək. Bütün bu münaqişələrin və geosiyasi çağırışların həlli asan məsələ deyil".

Vanq Huiyao isə deyib: "Cənab Prezidentin qeyd etdiyi həmin marşruta gəldikdə düşünürəm ki, Çin hazırda Mərkəzi Asiya ölkələrinə yardım göstərir və Qafqaz vasitəsilə Türkiyəyə çıxışın əldə edilməsi planlaşdırılır. Burada sırf həmin marşrut yox, həmçinin energetika sahəsində əməkdaşlıq nəzərdə tutulur. Təbii ki, bunun nəticəsində istehsal daha da inkişaf edə bilər, sərmayələr cəlb olunar. Bir sözlə, bu, yaxşı bir nümunədir. Düşünürük ki, bunun artıq dayanıqlı bir infrastrukturu mövcuddur".

Sual: Təşəkkür edirəm. Mənim adım Stepan Safaryandır. Mən Ermənistandan gələn Münxen gənc liderlər qrupunun üzvüyəm. Cənab Prezident, sual verməzdən əvvəl qeyd edim ki, haqqında danışdığınız və bəzi narahatlıqlarınızı ifadə etdiyiniz Ermənistanın müstəqillik bəyannaməsinin müddəası effektiv deyil. Sizin administrasiyanız, təkcə administrasiyanız deyil, digər hökumətlər də Konstitusiya Məhkəməsinin bu məsələ ilə bağlı qərarı ilə kifayət qədər yaxşı tanışdırlar. Hazırda Ermənistanda aparılan Konstitusiya dəyişikliklərinin bu iddialar və qorxularla heç bir əlaqəsi yoxdur. Lakin icazə verin, Sizə ötən il avqustun 8-də Vaşinqtonda imzalanmış təşəbbüsdən əvvəl Baydenin administrasiyası dövründə imzalanmış digər mühüm təşəbbüsü xatırladım. Söhbət "Sülh yolu kəsişməsi" təşəbbüsündən gedir və komissar tamamilə haqlıdır. TRIPP təxminən 42 kilometrdir. Lakin bu təşəbbüs – "Sülh yolu kəsişməsi" bütün təşəbbüslərin, bağlantı təşəbbüslərinin nizamlanması baxımından olduqca maraqlı bir təşəbbüsdür. İstər "İpək yolu", istər "Bir kəmər və yol", istər Trans-Xəzər dəhlizi, istərsə də Körfəz-Qara dəniz dəhlizi olsun. Buna görə də o, çox inklüzivdir. Gürcüstanı və regiondakı digər ölkələri əhatə edir. Bəs, Sizin bu çox mühüm məqama münasibətiniz necədir? Bu layihəni bu dinamikaya nə gətirir, xüsusən də onun Vaşinqtondakı hər iki administrasiya tərəfindən uzun müddətə, təkcə dördillik müddətə deyil, yüz il və hətta daha çox müddətə dəstəkləndiyini nəzərə alsaq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Ermənistan Konstitusiyasının hüquqi məsələsinə gəldikdə, çox təfərrüatlara varmaq istəməzdim. Amma sizin şərhiniz məni sadəcə onu deməyə məcbur etdi ki, Azərbaycana birbaşa ərazi iddiasını ehtiva edən Ermənistanın müstəqillik bəyannaməsi sizin Konstitusiyanızın bir hissəsidir və bəli, Konstitusiyanın preambula hissəsindədir. Gəlin indi, tədbiri bitirməzdən əvvəl Vikipediyadan yoxlayaq. Konstitusiya Məhkəməsinin heç bir qərarı Konstitusiyadan üstün deyil. Mən hüquqşünas deyiləm, lakin hətta mən də bunu bilirəm. Buna görə də Ermənistan Konstitusiyasından müstəqillik bəyannaməsinin çıxarılması sülh müqaviləsinin imzalanması üçün yeganə qalan ilkin şərtdir. Düşünürəm ki, Ermənistan və Azərbaycan rəhbərlikləri arasında hansı addımların atılması və bunların hansı ardıcıllıqla edilməsi barədə xeyli anlaşma var. "Sülh yolu kəsişməsi"nə gəlincə, bilirsiniz, Prezident Tramp yenidən hakimiyyətə qayıdanda o, TRIPP layihəsinə start verdi. Odur ki, Prezident Bayden qayıdanda sizin "Sülh yolu kəsişməsi" layihəsini yenidən başladar.

* * *

Monqolustanın nümayəndəsinin 14-16 ölkənin sərhədindən keçən marşrutlarda gömrük prosedurlarının sadələşdirilməsi, tranzitin səmərəliliyini artırmaq üçün hansı real addımların atılması və bu prosesdə Dünya Bankı ilə Avropa Yenidənqurma və İnkişaf Bankının oynaya biləcəyi fəal rolla bağlı sualına cavabında Marta Kos deyib: "Düşünürəm ki, bütün nazirlər bu istiqamətdə addım atmalıdırlar, hökumətlər işləməlidir və bütün ölkələr, o cümlədən Avropa İttifaqının 27 ölkəsi, Azərbaycan, Ermənistan, Türkiyə, Mərkəzi Asiya dövlətləri düşünməlidir ki, biz həmin maneələri aradan qaldırmaq üçün nə etməliyik? Necə çalışmalıyıq ki, bu işlər beynəlxalq səviyyədə qarşılıqlı şəkildə görülsün. Ona görə belə bir platforma olarsa, biz nəinki hökumət rəsmiləri arasında, o cümlədən biznes strukturları və təsisatlar arasında qarşılıqlı əlaqəni yarada biləcəyik. Əgər biz buna müvəffəq olsaq, işlər daha asan şəkildə gedəcək və beləliklə, biz həmin maneələri çox rahat şəkildə aradan qaldıracağıq".

Sual: Rusiya hücumları təkcə Ukraynanın enerji infrastrukturunu hədəfə almır. Eyni zamanda, Ukraynada Azərbaycan şirkətlərinə məxsus olan enerji obyektləri hücuma məruz qalır. Beləliklə, mənim sualım belədir, Siz bu məsələni şəxsən Putin qarşısında qaldırmısınız və bu hücumları necə görürsünüz? Bu, Bakı üçün bir siqnaldırmı və ya başqa cür desək, sizin Rusiya ilə münasibətlərinizdə nə baş verir?

Prezident İlham Əliyev: Əlbəttə ki, bu məsələ Xarici İşlər nazirlikləri və Prezident administrasiyaları səviyyəsində rəsmilərimiz arasında çoxsaylı təmaslar zamanı dəfələrlə qaldırılmışdır. Ukraynada təkcə Azərbaycanın enerji infrastrukturuna hücumlar olmayıb. Eyni zamanda, Azərbaycanın Ukraynadakı səfirliyi üç dəfə hücuma məruz qalıb.

Birinci hücumdan sonra biz düşündük ki, bu, təsadüfən baş verib və rusiyalı həmkarlarımıza Azərbaycanın diplomatik nümayəndəliklərinin, o cümlədən konsulluq idarəsinin, mədəniyyət mərkəzlərinin və səfirliyimizin bütün koordinatlarını təqdim etdik. Bütün bunlara baxmayaraq, iki əlavə hücum oldu. Beləliklə, bu, Azərbaycanın diplomatik nümayəndəliyinə qəsdən edilmiş bir hücum idi və biz xüsusi bəyanat yaydıq, Rusiya səfiri dəvət olundu və ona diplomatik nota verildi. Biz yalnız diplomatik yolla hərəkət edirik. Bundan başqa heç nə edə bilmərik. Lakin, əlbəttə ki, bu hərəkətlər Azərbaycana qarşı dostyana hərəkət hesab edilmir. Mən sizin sualınızı başa düşürəm və sadəcə sizə məlumat vermək istəyirəm ki, Azərbaycan hökuməti tərəfindən bütün zəruri diplomatik addımlar atılıb.

* * *

Moderator: Bununla da biz gəlib sona çatdıq. Düşünürəm ki, çox maraqlı panel sessiyamız oldu, çox maraqlı və güclü mesajlar verildi. İndi bütün auditoriyadan xahiş edərdim ki, iştirakçılarımızı bir daha salamlayaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas ilə görüşüb.

Söhbət zamanı Kaya Kallasın ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı.

Avropa İttifaqının Azərbaycanla münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğu bildirildi.

Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanaraq, bu xüsusda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi mühüm töhfələrə toxunuldu.

Ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsi ilə yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının perspektivləri, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin olunması, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Münxendə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi humanitar dəstəyə, xüsusilə ukraynalı uşaqlara olan diqqət və qayğıya görə minnətdarlığını ifadə etdi.

Azərbaycan və Ukrayna prezidentləri ölkələrimiz arasında ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Münxendə "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşüb.

Görüşdə ölkəmizlə şirkət arasında 2010-cu ildən bəri həyata keçirilən uğurlu tərəfdaşlığa toxunuldu, əlaqələrin mövcud vəziyyəti müzakirə olundu.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə ölkəmizlə "The Goldman Sachs Group Inc." arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə "The Goldman Sachs Group Inc." şirkətinin uğurlu tərəfdaşlığının əhəmiyyəti vurğulandı.

Qeyd edək ki, mənzil-qərargahı ABŞ-nin Nyu-York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." 1869-cu ildə təsis edilib. Şirkət investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində çalışan dünyanın aparıcı qlobal maliyyə institutlarından biridir və hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir. O, müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

## *Serbiyaya rəsmi səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Serbiya Respublikasına rəsmi səfərə gəlib.

Belqrad şəhərinin Nikola Tesla Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç qarşıladı.

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiyanın paytaxtı Belqradda rəsmi qarşılanma mərasimi olub.

Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və Serbiyanın Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Serbiya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə, Azərbaycanın dövlət və hökumət nümayəndələri isə Prezident Aleksandar Vuçiçə təqdim edildi.

Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşü keçirilib.

Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin iştirakı ilə Azərbaycan-Serbiya sənədlərinin mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın maliyyə naziri Sahil Babayev və Serbiyanın kənd təsərrüfatı, meşəçilik və su təsərrüfatı naziri Draqan Qlamoçiç mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz-turbin elektrik stansiyasının layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Serbiyanın mədən və energetika naziri xanım Dubravka Djedoviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Serbiya Respublikasının İqtisadiyyat Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Serbiya Baş nazirinin birinci müavini, iqtisadiyyat naziri xanım Adriyana Mesaroviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Serbiya Respublikasının İnformasiya və Telekommunikasiya Nazirliyi arasında media və kommunikasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın maliyyə naziri Sahil Babayev və Serbiyanın informasiya və telekommunikasiya naziri Boris Bratina mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Serbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2026-2030-cu illər üçün mədəniyyət sahəsində Əməkdaşlıq Memorandumu"nu Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və Serbiyanın mədəniyyət naziri Nikola Selakoviç mübadilə etdilər.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Serbiya Respublikasının İdman Nazirliyi arasında idman sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov və Serbbiyanın idman naziri Zoran Qayiç mübadilə etdilər.

"Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Serbiya Respublikasının Milli Tibbi Sığorta Fondu arasında tibbi sığorta sistemləri sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Serbiyadakı səfiri Kamil Xasıyev və Serbiya Milli Tibbi Sığorta Fondunun direktoru xanım Saniyya Radojeviç mübadilə etdilər.

Fevralın 15-də Belqradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Serbiya Prezidenti bəyanatla çıxış etdi.

**Prezident Aleksandar Vuçiçin bəyanatı**

-Hörmətli Prezident Əliyev, əziz dostum.

Bu səfərə görə Sizə təşəkkür edirəm. Sizin iş qrafikinizin nə qədər vacib və sıx olduğunu bilirəm. Sizdən özünüzü evinizdəki kimi hiss etməyinizi rica edirəm.

Çinli dostlarımız deyirlər ki, belə yağış olanda, bu, böyük bir işin başlanılmasına hər zaman yaxşı işarədir. Ümidvaram ki, pis hava şəraitinə baxmayaraq, biz bu hadisəni özümüz üçün mümkün olan ən yaxşı şəkildə qəbul edəcəyik və həm Serbiyanın, həm də Azərbaycanın qarşısında necə parlaq gələcəyin olduğunu görəcəyik. Ən azından ikitərəfli münasibətlərimizdən söz açdıqda.

Mən Azərbaycan xalqına, şəxsən Sizə möhtərəm cənab Prezident, böyük ehtiramımı ifadə etmək istəyirəm. Həmçinin Serbiya xalqı qarşısında və əlbəttə, Azərbaycan xalqı qarşısında söyləmək istəyirəm ki, hər dəfə Sizinlə danışanda çox şey öyrənirəm, bir çox məsələləri təcrübəli dövlət xadimi, həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram. Buna görə hər zaman öz biliyinizi mənimlə paylaşdığınıza, mənim ölkəmin, rəhbərlik etdiyim ölkənin çox yaxşı mətləblər öyrənməli olduğu bizimlə belə əlaqələr qurduğunuza görə Sizə təşəkkür edirəm.

Bu gün Prezident Əliyevlə dünyadakı və Avropadakı bütün mühüm məsələlərlə bağlı danışdım. Biz bir-birimizlə məsləhətləşdik, mən ondan öyrəndim. Bəzi prosesləri özüm müşahidə etdiyimdən daha yaxşı, daha dərindən dərk etdim. Bizim elə əlaqələrimiz var ki, nə vaxt böhran baş versə, bir-birimizə açığıq və bir-birimizlə danışırıq. Bizim əməkdaşlığımız həyatın hər bir sahəsində inkişaf edir. 2012-ci illə müqayisədə xidmətlər sahəsində ticarət dövriyyəmiz əvvəlkindən 16 dəfə, 16 faiz deyil, 16 dəfə çoxdur. Həmçinin strateji tərəfdaşlıq sayəsində biz Azərbaycanla yeni əlaqələr, mümkün olan ən yaxın əlaqələr qurmuşuq. Mən hesab

edirəm ki, bu, Serbiya Respublikası və onun vətəndaşları üçün olduqca vacibdir.

Bizim sosial həyatın müxtəlif sahələrində əməkdaşlığımız daha mühüm və daha böyük ola bilər və olmalıdır. Mən hesab edirəm ki, daha çox iş və səylərlə, bizim tərəfimizdən daha çalışqan yanaşma ilə gələcəkdə hətta daha yaxşı nəticələrə nail olacağıq. Bu vaxtadək biz 57 sənəd imzalamışıq və bunun üstünə bu gün imzalanmış onlarla digər sənədi də əlavə edə bilərik. Həmin sənədlər sosial həyatın bütün sahələrində münasibətlərimizin yaxşılaşdırılması üçün möhkəm zəmin rolunu oynamalıdır.

Biz sentyabr ayında Azərbaycanda keçiriləcək investisiya forumunda iştirakı müzakirə etdik və bundan əvvəl mən Azərbaycana səfər edəcəyəm. İnanıram ki, bu, bizim biznes dairələrimiz, bankçılarımız və nümayəndələrimiz üçün Azərbaycanı ziyarət etmək fürsətidir və bu da ölkəmiz üçün EXPO-nu təqdim etmək imkanı olacaq. Çünki həmin ərəfədə EXPO-nun keçirilməsinə bir neçə ay qalacaq. Bu tədbir Serbiyada 2027-ci ildə keçiriləcək ən böyük tədbirdir və bizim üçün ən önəmli tədbirdir. Biz "EXPO 2027"də iştirakını təsdiqlədiyi üçün Azərbaycana minnətdarıq və mən əminəm ki, onlar öz gözəl ölkələrini mümkün olan ən yaxşı şəkildə 2027-ci ildə burada - Belqradda təqdim edəcəklər.

Eyni zamanda, diqqətinizi bəzi faktlara da yönəltmək istəyirəm. İki ölkə arasında turizmin artması və mayın 3-də Belqrad və Bakı arasında "Air Serbia" vasitəsilə həyata keçiriləcək birbaşa reysin açılması buna xüsusi töhfə verəcək. Mən Serbiyanın bütün vətəndaşlarına şəxsən deyə bilərəm ki, Bakı gözəl şəhərdir. Onlar orada bir çox yeniliklər görə bilərlər. Şəhər Xəzər dənizinin sahilində yerləşir. O, təmiz, səliqəli şəhərdir. Mən nə zaman Bakıya səfər edirəm, yeni möcüzələr görürəm, Prezident Əliyevin Azərbaycan hökuməti ilə bir yerdə inşa etdiyi yeni və gözəl yerləri görürəm. Orada möhtəşəm muzeylər var. Bulvarlar, mehriban insanlar, təhlükəsizlik mümkün olan ən yüksək səviyyədədir. Beləliklə, bu, Serbiya vətəndaşlarına Azərbaycana səfər etmək üçün açıq bir dəvətdir. Mən Azərbaycan vətəndaşlarını Serbiyanı ziyarət etməyə, bu ölkəni sevməyə dəvət etmək istəyirəm. Serbiya Avropa qitəsində təhlükəsizliyi ən yüksək səviyyədə olan ölkələr sırasındadır. Bizim Azərbaycan xalqı ilə qardaş və dost münasibətlərimiz var. Düşünürəm ki, ölkəmizdə ziyarət edə biləcəyiniz çox yer var. Mən təkcə Belqradı yox, digər şəhərləri, dağ istirahət mərkəzlərini, gölləri və digər yerləri nəzərdə tuturam.

Biz iqtisadi əməkdaşlıq, kənd təsərrüfatı, eləcə də kənd təsərrüfatı məhsullarının mübadiləsi haqqında danışdıq. Azərbaycanın Zirə kəndində yetişdirilmiş pomidor və xiyarı ilk dəfə dadanda və hətta bundan öncə Azərbaycanın xüsusi bölgəsi olan Naxçıvandan da məhsulların dadına baxanda onlar mənim çox xoşuma gəldi. Mən onları çox xoşlayıram və eşitmişəm ki, digər mənbələrdən daxil olan məhsulların qiyməti ilə müqayisədə Azərbaycan xeyli endirimlə təchiz edir. Mənə maraqlıdır, xalqımıza həmin məhsulları bu qədər aşağı qiymətlə təqdim etmək mümkündürmü?! Əgər hökumətdə əyləşən şəxslər bu haqda düşünməyiblərsə, düşünsünlər. Mən sizə müraciət edərək deyirəm ki, vətəndaşlara azərbaycanlı dostlarımızdan daha münasib qiymətlə keyfiyyətli malların təchiz olması məsələsini həll etsinlər. Eyni zamanda, biz də öz mallarımızı beləcə təqdim etməliyik. Hələ ki, bu, baş vermir. Əminəm ki, biz, həmçinin Azərbaycana çox məhsullar təqdim edə bilərik. Lakin bunu hələ etməmişik və diqqətlə yanaşmamışıq. Münasibət belədir. Vaxt keçir, biz isə heç nə haqqında düşünmürük.

Ən mühüm mövzulardan biri də o faktla bağlıdır ki, qarşımızda elektrik enerjisi dövrü başlayıb. Mən Prezident Əliyevdən xahiş etdim ki, bu layihədə bizə yardım göstərmək üçün şəxsən iştirak etsin. Belə olarsa, biz işləri daha sürətlə bitirə bilərik. Burada insanlar düşünə bilər ki, elektrik enerjisi hələ 20 il əvvəl də var idi. Amma həmin vaxtlar siz qablarda yanacaq alırdınız. O zaman 6 saat ərzində elektrik enerjisi verilirdi, sonrakı 6 saatda enerji məhdudiyyətlərlə verilirdi. Bugünkü vəziyyətə gəldikdə, ölkəmizdə heç zaman olmadığı nizam-intizam yaranıb. Lakin eyni vəziyyət sabah olmaya da bilər. Elektrik enerjisi dövrü başlayır və bizə elektrik enerjisinin çox sayda mənbələri lazımdır. Daha çox elektrik enerjisi istehsal etməliyik. Azərbaycanın giqavatlarla ölçülən elektrik enerjisi olacaq. Lakin məsələ belədir ki, onun idxalı üçün lazımi ötürücü xətlər olacaqmı?! Biz Azərbaycan tərəfi ilə mühüm məsələlər üzərində razılığa gəldik. Bu gün Serbiyanın qaz şirkəti və SOCAR bu mövzuda söhbət aparıblar və əməkdaşlıq sazişi imzalanıb. Çalışacağıq hər bir məsələni iki və ya üç ay ərzində həll edək ki, dərhal sonra layihə sənədləri hazırlansın və tikinti başlanılsın. Tikinti iki ildən artıq çəkəcək. İnanırıq ki, biz 2029-cu ilə qədər qazla işləyən elektrik enerjisi stansiyasını açacağıq. Niş şəhərinin ətrafında üç yer seçilib. Söhbət təmiz enerjidən gedir. Avropa İttifaqı da bunu etiraf edir. Bir sözlə, tikintinin ya Tripale, Kruşti, ya da Nişka Banyada aparılması gözlənilir. Lakin düşünürəm ki, Kruşti ən münasibdir. Stansiyanın 500 meqavatlıq enerji istehsalı gücü olacaq. Prezident Əliyev mənə söz verdi ki, şəxsən həmin məsələ ilə məşğul olacaq. Bəlkə inanmayacaqsınız, lakin ikiillik müddətdə onlar 1890 meqavatlıq ümumi enerji istehsalı gücünü yarada biliblər.

Bəlkə də Azərbaycan xalqı bunu bilmir, həmin güclər mümkün qədər qısa müddətdə yaradılıb. Azərbaycan şirkətləri burada nəzarət işlərini həyata keçirəcək. Serbiya şirkətləri işlərə qoşulacaq. Hər iki tərəf 50 faizlə işləyəcək. Qazla işləyən 500 meqavatlıq elektrik enerjisi stansiyası tikiləcək. Bu, yaxşı nümunə olacaq. Gələcəkdə biz daha çox qazla işləyən elektrik enerjisi stansiyalarını tikməliyik. Kiçik modul tipli reaktorlar quraşdırılacaqdır. Məlumat mərkəzləri olacaq

və digər məsələlər həll ediləcək. Mən amerikalılarla müzakirəyə başlamışam və əgər onlar Monteneqronun Bar limanından başlayaraq, neft və qaz kəmərlərini çəksələr, məlumat mərkəzlərini tiksələr, Priyepoledən Zlatibor dağlarından keçərək Belqrada qədər bu işləri icra etsələr, yaxşı olar. Məlumat mərkəzləri yaradılmalıdır. Süni intellektin imkanlarından istifadə etməsək, biz bir ölkə olaraq geridə qalacağıq. İlon Mask deyir ki, iki aydan sonra hər şey kəskin dəyişəcək. Sadəcə insanlar bunu hələ görmür və bilmir. Bu səbəbdən, işlər sürətləndirilməlidir və biz azərbaycanlı dostlarımıza dəstəyə görə minnətdarıq.

O vaxt bu düzəlişin təbii ki, böyük təsiri var idi. Çünki Azərbaycan çox kasıb ölkə idi, xəzinə boş idi, valyuta ehtiyatlarımız yox idi. Bizi yardımdan məhrum etmək, əlbəttə ki, bizə böyük bir zərbə idi. Nəzərə alsaq ki, o vaxt minlərlə, on minlərlə köçkün artıq ağır şəraitdə yaşayırdı və bu, həm siyasi cəhətdən ədalətsiz idi, həm praktik nöqteyi-nəzərdən çox təsirli idi. Biz uzun illər çalışırdıq ki, bu 907-ci düzəlişi ləğv etdirək. Ancaq bu, çox çətin proses idi və sadəcə olaraq, 11 sentyabr 2001-ci il hadisələrindən sonra Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı və bu, 2024-cü ilə qədər davam edirdi. Çünki

Əfqanıstandakı əməliyyatlarda Azərbaycan Amerikaya lazım idi, həm nəqliyyat, logistika, həm də digər məsələlərlə əlaqədar. Ancaq əfsuslar olsun ki, Amerikanın Əfqanıstandakı missiyası başa çatandan sonra, - hamımız onu xatırlayırıq necə başa çatıb, bu, Bayden-Blinken administrasiyasının növbəti rəzaləti sayıla bilər, onların Əfqanıstandan belə xaotik qaçışı və öz yaxın müttəfiqlərini orada faktiki olaraq, taleyin ümidinə buraxması, - Bayden administrasiyası bu düzəlişin aradan qaldırılmasını dayandırdı. Yəni artıq Azərbaycan onlara lazım deyildi, Əfqanıstandakı missiya başa çatmışdı və beləliklə, bu düzəliş yenidən tətbiq edilmişdi. Əlbəttə, bunun bizim iqtisadi inkişafımıza heç bir təsiri yoxdur və ola da bilməz. Ancaq bu, Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını bir daha göstərir. O vaxt administrasiyanın yüksəkvəzifəli şəxsləri ilə söhbət əsnasında mən demişdim ki, gün gələcək və biz sizə bir daha lazım olacağıq. Amma onda bizim qapımızı döyməyin. Əgər o administrasiya və onun nümayəndələri bu gün hakimiyyətdə qalsaydı, biz onların bir xahişini də yerinə yetirməyəcəkdik.

Tramp administrasiyası hakimiyyətə gəldi və vəziyyət tamamilə dəyişdi. Təbii ki, qeyd etdiyim kimi, indi Amerika-Azərbaycan münasibətləri yeni səviyyəyə qalxmışdır və əlbəttə, biz gözləyirik ki, Konqres bu ədalətsiz, keçmişdən qalan, bu gün tamamilə absurd sayılan düzəlişi aradan qaldıracaq. Çünki nə o vaxt blokada var idi, nə bu gün blokada var. Əksinə, bu gün Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir, yollar açıldı və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Hansı blokadadan söhbət gedə bilər?! Əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu yoxdur bu gün. Ona görə əlbəttə, biz gözləyirik ki, Tramp administrasiyası öz imkanlarından istifadə edərək Konqres üzvlərini, xüsusilə Respublikaçılar partiyasının üzvlərini inandıra biləcək ki, bu düzəliş tamamilə aradan qaldırılmalıdır və buna ümid etmək üçün bizim kifayət qədər səbəblərimiz var. Bu gün bu, yenə də simvolik xarakter daşısa da, necə deyərlər, masanı tamamilə keçmişin bu qalıqlarından təmizləmək üçün Konqres bunu birdəfəlik ləğv etməlidir.

**İctimai Televiziyadan Murad Hüseynov:** *Cənab Prezident, Birləşmiş Ştatlarla münasibətlərdən, - artıq toxundunuz, – burada əldə olunan uğurlardan danışdınız. Azərbaycanın xarici siyasəti üçün 2025-ci ildə uğur gətirən digər hadisə və prosesləri xarakterizə etməyinizi xahiş edərdim.*

**Prezident İlham Əliyev:** Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər.

Digər tərəfdən, biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur. Azərbaycan nə əhali, nə iqtisadiyyat baxımından böyük ölkə sayıla bilməz. Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik.

Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə Görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Təbii ki, coğrafi nöqteyi-nəzərdən digər marşrutlardan da istifadə oluna bilər. Ancaq mövcud geosiyasi vəziyyəti nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Qərb üçün alternativ marşrutlar məqbul sayıla bilməz. Ona görə bizim rolumuz, yəni canlı körpü və etibarlı tərəfdaş kimi, artıq böyük layihələri icra edə bilən ölkə kimi təbii ki, artacaq və biz bunu artıq praktik həyatda görürük. Ərazimizdən keçən yüklərin sayı artır. İlk dəfə olaraq artıq 100 min konteyner Azərbaycan ərazisindən keçib. Bu ancaq başlanğıcdır, onların sayı dəfələrlə artacaq və hazırda biz öz nəqliyyat infrastrukturumuzu genişləndirmək üçün fəal işləyirik. Halbuki hesab edirdik ki, yaratdığımız infrastruktur uzun illər ərzində bizə kifayət edəcək, ancaq görürük ki, yox. Ona görə əlavə vəsait qoyulur və qoyulacaq, burada təkcə yüklərdən söhbət getmir. Bildiyiniz kimi, 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və

Özbəkistan prezidentləri Bakıda enerji kabelinin tikintisi ilə bağlı müqavilə bağlamışlar. Yəni bu bağlantılar da olacaq - fiber-optik kabelin Xəzərin dibi ilə çəkilməsi və bir çox digər layihələr. Ona görə Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir.

Bir çox xarici səfərlərim olub, səhv etmirəmsə, 20-yə yaxın, bəlkə də çox. Bir çox xarici dövlət, hökumət başçıları Azərbaycana gəlmişlər. Ölkəmizdə beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında təbii ki, Xankəndidə keçirilən ECO Zirvə Görüşünü qeyd etməliyəm. Əsas tədbir orada - Xankəndidə keçirilmişdir, amma işğaldan azad edilmiş digər şəhərlərdə - Şuşada, Laçında, Ağdamda bizim təşəbbüsümüzlə üç forum keçirilmişdir: Biznes Forum, Gənclər Forumu, Qadınlar Forumu. Yəni biz istəyirdik ki, gələn qonaqlar azad edilmiş torpaqların bütün olmasa da, böyük hissəsini görsünlər və biz buna hazır idik. Doqquz dövlət və hökumət başçısını biz Xankəndidə, Ağdamda, Şuşada qəbul etməyə hazır idik. Mövcud olan infrastruktur, konfrans zalları, hotellər və digər lazım olan amillər bu imkanı bizə yaratmışdır.

Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü də xüsusilə qeyd etməliyəm. Bu, bir daha Türk dünyasının birliyini əks etdirən bir Zirvə idi və bildiyiniz kimi, bizim təşəbbüsümüzlə qeyri-rəsmi Zirvə görüşləri də keçirilməyə başlamışdır. Birinci qeyri-rəsmi Zirvə Şuşada keçirilmişdir, rəsmi Zirvə Qəbələdə və bu ənənəni indi digər ölkələr də davam etdirirlər. Artıq qeyri-rəsmi Zirvə Görüşü Macarıstanda keçirilmişdir. Yəqin ki, bu il də keçiriləcək. Yəni xarici siyasət istiqamətində yekunlarla bağlı çox danışmaq olar. Bu yaxınlarda xarici işlər naziri mətbuat konfransı keçirmişdir, daha geniş məlumat vermişdir. Mən isə sadəcə olaraq, əsasən vacib hesab etdiyim məqamları işıqlandırmaq istədim.

**Murad Hüseynov:** *Daha bir sual verim, Qəbələdə Türk Dövlətləri Təşkilatının Sammitində Sizin çıxışınızda türk dövlətləri arasında hərbi əməkdaşlıq elementi xüsusilə hiss olundu. Bu, Sizin təklif idi?*

**Prezident İlham Əliyev:** Bəli.

**Murad Hüseynov:** *Yaşadığımız müasir dünyada bu əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?*

**Prezident İlham Əliyev:** Bəli, tamamilə haqlısınız. Mən bunu qeyd etdim. Birinci dəfə deyil ki, mən bu Zirvə görüşlərində bu məsələyə toxunuram. Çünki bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm. Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda, məsuliyyətimiz göz önündədir. Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki, bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki, bizim ərazilərimiz viran olunub, necə ki, bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik. Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq. Bunu güclü tərəf dayandırmalıydı və hətta bu artıq mətbuata da getmişdir, Prezident Trampın müşaviri cənab Vitkof müsahibəsinin birində demişdi ki, Ağ Evdə Prezident Tramp da məndən də soruşdu "Niyə siz dayandınız? Siz güclüydünüz". Mənim cavabımı da yəqin ki, eşitmisiniz. Ona görə, buna baxmayaraq, hərbi gücün olmalıdır ki, heç kim sənə xor baxmasın, heç kim sənə ziyan vurmasın. Hətta heç kim düşünməsin ki, sənə ziyan vura bilər və bunun cavabını ödəməyəcək.

Ona görə biz gücümüzü artırırıq, o cümlədən hərbi gücümüzü. Biz Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq edirik, o cümlədən hərbi müttəfiqlik, o cümlədən bir-birinə hərbi yardım çərçivəsində. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik. Əgər görsək ki, təlim keçirilmədi, deməli, gərək sual verəsiniz "Kim bunu

dəstəkləmədi?". Amma mən ümid edirəm ki, bütün üzv ölkələr bunu dəstəkləyəcək.

**CBC Televiziyasından Elmira Musazadə:** *Cənab Prezident, CBC rus dilində yayımlanan beynəlxalq kanaldır. İcazənizlə sualımı rus dilində verəcəyəm.*

**Prezident İlham Əliyev:** Buyurun.

**Elmira Musazadə:** Cənab Prezident, xarici siyasətdə prioritetlərdən danışarkən, Siz Çin Xalq Respublikasının əhəmiyyətini qeyd etdiniz və həqiqətən də son illərdə bizim ikitərəfli münasibətlərimiz xeyli güclənib. Bu, həm ən yüksək səviyyədə səfərlər, həm də müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, nəqliyyat, logistika və texnologiyalar üzrə razılaşmalarda özünü göstərir. Siz bu razılaşmaların əhəmiyyətini necə qiymətləndirirsiniz və onların Azərbaycanın regional və qlobal proseslərdə roluna təsiri nədən ibarətdir?

**Prezident İlham Əliyev:** Zənnimcə, bizim aramızda imzalanan həmin siyasi sənədlər, - onların sayı isə ikidir və biri haqqında artıq danışmışam, - bu, hərtərəfli strateji tərəfdaşlıqdır, bundan bir il əvvəl isə biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul etmişik. Yəni bir il ərzində strateji, sonra isə hərtərəfli strateji tərəfdaşlıq haqqında iki sənəd imzalanıb, bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib. İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük.

Biz əmtəə dövriyyəsinin artdığını görürük. O, rekord həddə - 4 milyard dollara çatıb, hətta 20 faiz artaraq 4 milyard dolları da keçib. Bu, yəqin ki, bizim hər hansı bir ölkə ilə əmtəə dövriyyəmizdə ən böyük artımdır. Biz imzalanmış investisiya xarakterli müqavilələri görürük, Çin şirkətləri Azərbaycana fəal şəkildə investisiya qoymağa başlayıb, əvvəllər bu yox idi. Ayrıca investisiya layihələri var idi, amma belə böyük sayda və dövlət strukturları ilə bu cür koordinasiya şəraitində biz bunu müşahidə etmirdik. Yəni bu ondan xəbər verir ki, qarşılıqlı fəaliyyəti genişləndirmək üçün çox ciddi siqnal və impuls verilib.

Artıq indi Çin şirkətləri bərpaolunan enerji mənbələrinə investisiyalar qoyur. Elektrik, Günəş, külək stansiyalarının tikintisinə başlanılır və bu stansiyaların sayının artırılması üzrə müraciətlər var.

Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrik avtobuslarının yığılmasına başlanılıb. Bununla bağlı deməliyəm ki, bu, Azərbaycan tərəfinin strateji qərarı olub, çünki biz təkcə yaşıl energetikanı deyil, həm də yaşıl nəqliyyatı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik.

Bu seçim, həmçinin artıq qeyd etdiyim razılaşmaların nəticəsi idi və təbii ki, layihənin icrasının peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqlədi. Buna görə də Bakıda gördüyümüz yaşıl avtobusların bəziləri satın alındı və onların yığılmasına bu il başlanacaq, gələcəkdə isə lokallaşdırma artacaq.

Nəqliyyat sektorunda artıq bəhs etdiyim fəal əməkdaşlıq fonunda yükdaşımaların əsas artım mənbəyi təbii ki, Çin olacaq. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur. Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək.

Sözsüz ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə. Həmişə həcm üçün, rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativə sahib olmaq daha yaxşıdır.

Bu, bizim qarşılıqlı fəaliyyətimizin çox böyük sektorudur və təbii ki, belə olan halda düşünürəm, həm əmtəə dövriyyəsinin həcmi nöqteyi-nəzərindən, potensial baxımdan və belə demək mümkünsə, həm də Cənubi Qafqazdan axını sonrakı istiqamətlər üzrə bölüşdürəcək ölkə kimi, Çin Xalq Respublikası üçün burada, bu regionda Azərbaycan prioritet tərəfdaşdır.

Bu axınlar isə hamımızın bildiyi kimi, bir çox istiqamətdə hərəkət edə bilər. Buradan iki istiqamətdə qərbə, bir istiqamətdə və daha sonra iki istiqamətdə - yenidən Zəngəzur dəhlizi vasitəsilə cənuba, Yaxın Şərqə, Fars körfəzinə və əlbəttə ki, şimal istiqamətinə doğru axın olacaq ki, bu istiqamət də tam istifadəyə veriləcək.

Buna görə də Azərbaycan, belə demək mümkünsə, kommersiya səmərəliliyinə və bir çox digər amillərə əsaslanaraq, yükdaşımaların artmasına kömək edən, özünün və qonşu ölkələrin infrastrukturuna investisiya qoyan, axınların təminedicisi olacaq ölkə rolunu oynamalıdır. Bu səbəbdən də xüsusən də açıq dənizə çıxışı olmayan Azərbaycanın nəqliyyat mərkəzi kimi rolu təbii olaraq artacaq.

Əlbəttə ki, burada daha bir yeni əməkdaşlıq istiqamətini qeyd etməyə bilmərəm. Bu, hərbi-texniki əməkdaşlıqdır. Ona da, həmçinin əldə olunmuş siyasi razılaşmalar çərçivəsində başlanılıb. Bu, Çin və Azərbaycan arasında yeni bir qarşılıqlı fəaliyyət sahəsidir. Bu əməkdaşlığın bir hissəsi hərbi paradda nümayiş etdirilib, amma bu, yalnız başlanğıcdır.

Biz bu halda böyük qarşılıqlı maraq görürük. Bundan əlavə, hərbi texnikanın əldə olunması ilə kifayətlənməyərək, biz müştərək müəssisələrin yaradılması üzərində işləyirik və bu sahədə işlər artıq başlayıb. Bu, ümumiyyətlə, ictimaiyyətin diqqətindən gizli saxlanılır, necə ki, belə də olmalıdır, amma həm də hər iki ölkə tərəfindən verilən strateji xarakterli ciddi siyasi qərardır və böyük potensiala malikdir. Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Bu, təbii ki, Azərbaycana böyük fayda gətirəcək.

**AnewZ Televiziyasından Nadia Cani:** *Cənab Prezident. Mən beynəlxalq ingilisdilli AnewZ kanalını təmsil edirəm. Ona görə bu sualı Sizə ingilis dilində ünvanlayacağam.*

*Azərbaycanın iqtisadi və regional inkişafından, xüsusilə Ermənistanla yeni sülh müqaviləsi kontekstində danışa bilərsinizmi? Bu, gələcək illərdə ölkə üçün nə məna kəsb edir? Azərbaycanın Cənubi Qafqazda əsas iqtisadi lider kimi mövqe tutmasına kömək etmiş bəzi nailiyyətlərini sadalaya bilərsinizmi?*

**Prezident İlham Əliyev:** Bəli, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda, böyük imkanlar açır. Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda, Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz əsasən qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk. Eyni zamanda, Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, IT mərkəzinə çevrilməkdir və hesab edirəm ki, bizim buna nail olmaq üçün potensialımız var. Biz indi tərəfdaşlarımızla məlumat mərkəzlərinin yaradılması üzərində çalışırıq. Bildiyiniz kimi, məlumat mərkəzlərinin çoxlu elektrik enerjisinə ehtiyacı var. Bu gün daha geniş regionda elektrik enerjisi üzrə əlavə imkanı olan yeganə ölkə Azərbaycandır. Beləliklə bu gün daxili məqsədlər üçün istifadə etmədiyimiz ixrac və ya burada istehlak oluna bilən əlavə 2000 meqavat və ya 2 giqavat həcm varımızdır.

Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var - biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda, Azərbaycanda təlimlər təşkil edirik - hədəfimiz, bağlılıqla yanaşı, süni zəka və IT üçün bir haba çevrilməkdir. Potensial mövcuddur. Güclü siyasi iradə mövcuddur. Əlbəttə ki, biz Amerika şirkətlərini əsas tərəfdaşlarımız hesab edirik. Qeyd etmək istəyirəm ki, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması üzrə Prezident Trampla Anlaşma Memorandumunu imzaladıqdan sonra Avropanın bir neçə aparıcı ölkəsi bizimlə strateji tərəfdaşlıq münasibətləri qurmaq üçün müraciət etmişdir. Beləliklə, müəyyən mənada bu, Vaşinqtondan daxil olan siqnal idi. Buna baxmayaraq, bu vaxtadək biz demək olar ki, 30 ölkə ilə strateji tərəfdaşlıq üzrə bəyanat və müqavilə imzalayıb və bağlamışıq, – bu ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür, – lakin Vaşinqtondan daxil olmuş bu güclü mesaj ABŞ-ın müttəfiqi olduğu ölkələrdə yaxşı qarşılanmışdır.

İqtisadi fəaliyyətimizlə bağlı, ölkəmiz iqtisadi cəhətdən tamamilə müstəqil olduğuna və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə bugünkü vəziyyət bizi qane edir. Bir neçə il bundan əvvəl mən xarici borcumuzu azaltmaq üçün hökumətin qarşısına vəzifə qoydum və buna nail olduq. Biz borc götürməyi tamamilə dayandırdıq və beynəlxalq maliyyə təsisatları ilə bütün münasibətlərimizi, aktiv münasibətlərimizi bitirdik. İndi bizim xarici borcumuz ÜDM-in 6+ faizini təşkil edərək tarixdə ən aşağı səviyyədədir. Biz yenə də məhdud məbləğlərdə borc götürməyə başladıq. Lakin biz maliyyələşdirməyə ehtiyacı olan layihələri dəstəkləmək üçün yenə də 2-3, bəlkə də 4 milyard ABŞ dolları məbləğində borc götürməyə qərar vermişdik. Biz sosial sahəyə maliyyələşməni kəsmək istəmirik. Biz müdafiə sahəsinə, Qarabağın yenidən qurulmasına maliyyələşməni kəsmək istəmirik. Lakin bizə nəqliyyat layihələrimiz, su-kanalizasiya sistemi üçün və əsasən bağlılıq məsələlərində maliyyələşmə lazımdır. Bunun üçün biz borc götürəcəyik. Lakin bu gün bizim xarici borcumuz tarixdə ən aşağı səviyyədədir, hesablamalardan asılı olaraq ÜDM-in 6,3-6,4 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcu 16 və ya 17 dəfə üstələdiyinə görə xarici borcumuzu geri ödəyə bilərik. Nəyə görə bir rəqəmi qeyd etmirəm, çünki ötən il biz həm də qızıl ehtiyatlarımızı artırmaq üçün strateji qərar qəbul etdik. Biz geosiyasi müstəvidə cərəyan edən hadisələri açıq-aydın görürdük və mən tamamilə əmin idim ki, qızılın qiyməti artacaq və qiymət kəllə-çarxa çıxdı. Beləliklə, bu qərar bizə çoxlu pul qazandırdı. Qızıl ehtiyatlarımızı artıraraq Dövlət Neft Fondu yalnız buna görə 10 milyard ABŞ dollarından artıq vəsait qazandı. Lakin qızılın qiyməti aşağı düşərsə, əlbəttə ki, bizim ehtiyatlarımız da azalacaq. Beləliklə, bu gün bizim ehtiyatlarımız hər gün dəyişir. Bu gün ola bilsin 84 və ya 83 milyarddır. Sabah 85 olacaq. Buna baxmayaraq, bu, dünyada adambaşına düşən ehtiyatlar nöqteyi-nəzərindən istənilən ölkədə olan ən yüksək göstəricilərdən biridir, 83-84 milyard ABŞ dolları.

Nəhəng investisiya layihələrini və Qarabağın yenidən qurulmasını nəzərə alsaq, bu, həqiqətən iqtisadiyyatımızın güclü dayanıqlılığını nümayiş etdirir. İki aparıcı reytinq şirkəti bizim kredit reytinqimizi yenilədi. Bunlar “Moody’s” və “Fitch” şirkətləri idi və burada reytinq investisiya səviyyəsi yenilənərək, proqnoz da sabitdən müsbətə doğru yenilənmişdir. Mən

tamamilə əminəm ki, bizim kredit reytinqi üzrə göstəricimiz olduğundan daha aşağı qiymətləndirilir, çünki bizim böyük ehtiyatlarımız var, aşağı xarici borcumuz var, özünü təmin edən iqtisadiyyatımız var və hesab edirəm ki, bir çox digər amillər bizə daha yüksək reytinqə malik olmağa imkan verir. Bizim müvafiq dövlət təsisatları fəaliyyətimiz haqqında daha çox məlumat vermək üçün bu reytinq agentlikləri ilə çalışır ki, Azərbaycanın həqiqi reytinqi lazımi şəkildə əks olunsun. Çünki bu, təkcə prestij məsələsi deyil, baxmayaraq ki, belədir. Bu, həm də bizə, xüsusilə indi borc götürməyə qərar verdiyimiz bir dönəmdə daha yaxşı şərtlərlə borc götürməyə imkan verir. Odur ki, mən hökumətə borc götürməyi dayandırmağı tapşıranda hədəfim xarici borcu ÜDM-in 10 faizindən daha aşağı səviyyəyə gətirmək idi və indi o, ÜDM-in 6,3-6,4 faizini təşkil edir.

Əlbəttə ki, bu baxımdan daha çox vəsait regional inkişafa ayrılacaq. Bu gün bizim iki investisiya proqramımız var - biri ənənəvi proqramdır, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçündür. Hər ikisi yüksək səviyyədə icra olunaraq uğurla həyata keçirilir. Biz bağlılıq, nəqliyyat məsələlərində daha çox iş görməliyik. Artıq qeyd etdiyim kimi, mən düşünürdüm ki, dəniz limanları və dəmir yolları ilə bağlı gördüyümüz işlər bir çox illər üçün kifayət edəcək. İndi isə görürəm ki, artan yükdaşımaların həcminə görə bunlar kifayət etməyəcək.

Biz tezliklə Bakı, Sumqayıt və Xırdalanın, bütün Abşeron yarımadasının su-kanalizasiya sistemləri üzrə irimiqyaslı proqram qəbul edəcəyik, çünki buna tələbat böyükdür. Bir çox iş görülüb, lakin hələ də çatışmazlıqlar var. Hələ də güclü yağışlar olanda problemlərlə üzləşirik. Beləliklə kanalizasiya-su sistemlərinin idarə olunması və içməli su, o cümlədən Azərbaycanda ilk dəfə qurulacaq duzsuzlaşdırma qurğusu içməli suya olan böyük tələbatı qarşılayacaq. Kənd təsərrüfatını daha çox su ilə təmin etmək məqsədilə yeni kanalların tikintisi, həmçinin, əlbəttə ki, Bakının nəqliyyat problemləri həll olunacaq.

Hamımız yaxşı bilirik ki, - bəlkə siz bunu məndən də yaxşı bilirsiniz, - yol hərəkəti bu gün həqiqətən də ciddi problemdir. Əvvəlki illərdə biz çox iş görmüşük, 50 tunel, 50-yə yaxın körpü inşa etmişik, yolları genişləndirmişik. Təkcə Bakıda 2500 kilometr yol salınmışdır. Təsəvvür edin, şəhərin daxilində 2500 kilometr yol. Hamımız, - bəlkə hamımız yox, - amma Mirşahin və mən buradan Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O vaxt cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində yeddi stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik.

Mən, ümumilikdə, iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda, biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu, mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır.

Bilirsiniz, mən dəfələrlə Ermənistanı güclü şəkildə dəstəkləyən və daim Ermənistan üçün geosiyasi baxımdan çətinliklərdən, guya bəzi ölkələrin onun maraqlarına zərər vurmaq istəməsindən şikayət edən bir qrup ölkənin liderləri ilə görüşərkən həmişə deyirəm: “ÜDM-ə baxın və Rusiya ilə ticarət dövriyyəsinə baxın”. Rusiya–Ukrayna müharibəsi başlayanda Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi təxminən 2 milyard ABŞ dolları idi. İki il sonra isə bu rəqəm 12 milyard dollara çatdı. Bu, artıq hər şeyi açıq şəkildə göstərir.

Bu, sanksiyalardan yayınma mexanizmidir - onların dediyi kimi, paralel idxal və ya “boz zona” idxalıdır. Lakin nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurası Parlament Assambleyasında heç kim bu barədə bir söz belə demədi, nə Ermənistanı qınadı, nə də ümumiyyətlə, sanksiyalar mövzusuna toxundu. Çünki onlar üçün sanksiyalardan yayınma kanalı olmaq qəbuledilləndir. Bizim ÜDM-in artması isə kiməsə sanksiyalardan yayınmağa kömək etdiyimizə görə deyil, - biz bunu etmirik, - o, iqtisadi fəaliyyətimizin real nəticələri hesabına artır.

Rəqəmlərlə bağlı daha bir məqamı da qeyd etmək istərdim. Rəqəmlər, əlbəttə ki, vacibdir, lakin ən önəmlisi insanların gündəlik həyatı və ölkənin iqtisadi imkanlarıdır. Həmçinin aydındır ki, iqtisadiyyat nə qədər böyükdürsə, hər bir faiz artımının dəyəri də bir o qədər yüksək olur. Belə ki, iqtisadiyyatın həcmi təxminən 70–80 milyard ABŞ dolları olduqda, hər bir faiz artımı demək olar ki, 1 milyard dollar edir. Bu 1 milyard dolları cəmi bir il ərzində əldə etmək isə asan məsələ deyil. Bununla belə, mən hesab edirəm ki, göstəricilər daha yaxşı ola bilər. Neft hasilatı sabitləşdikdən sonra ÜDM üzrə daha yüksək rəqəmləri görəcəyimizi düşünürəm. Amma yenə də mənim üçün bu, nə rəqabətdir, nə də yarış. Əsas odur ki, iqtisadiyyatımız bizə inkişaf etməyə, əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmağa, azad edilmiş əraziləri bərpa etməyə, müdafiə qabiliyyətinə investisiya qoymağa və ümumilikdə, iqtisadiyyatımızı daha da gücləndirməyə imkan versin.

**Mümtaz Xəlilzadə:** Təşəkkür edirik, cənab Prezident. Siz Azərbaycan dövlətinin xarici siyasəti, regional inkişafı, iqtisadi göstəriciləri haqqında

fikirlərinizi bölüşdünüz. Mənim növbəti sualım dövlətin sosial siyasətinin nəticələri ilə bağlı olacaq. Xahişim odur ki, həm 2025-ci ildə dövlətin sosial siyasətinin nəticələri, eyni zamanda, bu ildən tətbiqi nəzərdə tutulan, xüsusən də cəmiyyətin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək layihələr barədə məlumat verəsiniz.

**Prezident İlham Əliyev:** Bu, həmişə bizim siyasətimizin ana xəttini müəyyən edən istiqamətdir. Çünki mən uzun illərdir deyirəm və bunu əməli işlərdə də biz görürük ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır. Əgər olmasa, onda heç bir ölkə uğur qazana bilməz, bu birincisi. İkincisi, həmişə çalışmışam və bu gün də çalışıram populizmdən uzaq olum və mümkün olmayan vədləri verməyim. Mümkün olan inkişafla bağlı Azərbaycan ictimaiyyətini müntəzəm olaraq məlumatlandırıram. Əgər son 20 ilin statistikasına baxsaq, təkcə onu demək kifayətdir ki, minimum əməkhaqqı Azərbaycanda 40 dəfədən çox artıb. Düzdür, ilkin baza çox aşağı idi, amma bu artım da əldə edilmiş vəsait hesabına mümkün olmuşdur. Yəni biz iqtisadi islahatları apararaq, neft-qaz layihələrini icra edərək, ilk növbədə əldə edilən gəlirləri sosial sahəyə yönəldirdik və bu gün də belədir. İşğal dövründə bizim əsas xərclərimiz hərbi təyinatlı xərclər idi, ondan sonra təhsil xərcləri idi, ondan sonra məcburi köçkünlər üçün nəzərdə tutulan xərclər idi. Yəni biz işğal dövründə 300 mindən çox köçkünü yeni evlərlə, mənzillərlə təmin etmişdik, 100-dən çox şəhərcik inşa olunmuşdur. Yəni bu, niyyətimizi əyani şəkildə göstərir və bu gün insanların rifah halını yaxşılaşdırmaq üçün sosial siyasət daha dəqiq aparılır. Yəni vaxtilə bu sahədə olan pozuntular aradan qaldırılır, ədalətsizliklər aradan qaldırılır, şəffaf mexanizm tətbiq olunur. Bu, bizə imkan verib ki, biz bir neçə ciddi sosial islahat paketi icra etmişik, daha doğrusu, son yeddi il ərzində 5 sosial islahat paketi icra edilmişdir. Bu islahatların əhatə dairəsi 4 milyon insandır və təqribən 8 milyard manata yaxın olan vəsaitdir. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Yəni maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Əlbəttə, istərdik ki, daha da çox olsun. Amma bir atalar sözü var: “Gərək ayağını yorğanına görə uzadasan”. Yenə də deyirəm, biz heç vaxt populizmlə məşğul olmamışıq, heç vaxt həlli mümkün olmayan vədlər verməmişik, heç vaxt gələcək nəsilləri borca salmaq üçün haradansa böyük məbləğdə pul alıb onu paylamamışıq. Biz strateji inkişafla bağlı tam, necə deyərlər, aydın mənzərəyə sahibik. Ona görə ölkə iqtisadiyyatı inkişaf etdikcə, ölkənin valyuta ehtiyatları artdıqca, əlbəttə ki, sosial sahəyə daha da böyük vəsait ayrılacaq.

Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub. Yəni cəmiyyətdə ələbaxımlılıq olmamalıdır. Bunu tam aradan qaldırmışıq? Yox, yenə də var. İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə. İşsizlik aşağı səviyyədədir, ancaq işsizlər var və bu, hər bir ölkədə var. İnkişaf etmiş ölkələrdə bizdən də böyük faizlə ölçülən işsizlik var. Amma mənim sözüm odur ki, bu gün Azərbaycan kimi ölkədə, geniş imkanları olan ölkədə iş tapmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq, bəziləri bəlkə də onlara təklif olunan işlərlə razı deyillər, ona görə iş axtarmağa davam edirlər. Özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər.

Son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmişdir. Burada da Azərbaycan qədər bu sahəyə diqqət yetirən ikinci ölkə yoxdur. Müharibələr olub, İkinci Dünya müharibəsi, ondan sonrakı müharibələr. Mən bilmirəm hansı ölkədə şəhid olanlara dövlət tərəfindən mənzillər verilir, bəlkə verilir, amma mən bilmirəm, eşitməmişəm. Minik avtomobilləri verilir. Biz müharibə zamanı əlil olmuş hərbçiləri dövlət tərəfindən ən müasir protezlərlə təmin etmişik. Beş yüzdən çox insan protezlərlə təmin edilib və normal həyata qayıdıblar. Bu, ən son model protezlərdir. Müntəzəm olaraq onlara xidmət göstərilməlidir, dəyişdirilməlidir. Çünki bunu fizioloji nöqteyi-nəzərdən dəyişməyə ehtiyac var. Əlbəttə, biz bunu edirik, o insanlar qarşısında bizim vətəndaşlıq borcumuzdur. Bir sözlə, bu istiqamətdə mən hələ sosial infrastruktur layihələrini qeyd etmirəm. Son 20 il ərzində Azərbaycanda 3 min 600 məktəb, yüzlərlə xəstəxana tikilib və əsaslı təmir edilib. Yəni bu, bizim siyasətimizin, o cümlədən iqtisadi siyasətin ayrılmaz hissəsidir və yenə də deyirəm, iqtisadiyyatımız nə qədər artsa, ilk növbədə o qədər də sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq.

**Murad Hüseynov:** Cənab Prezident, Siz Qarabağın və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövlətinin ən prioritet istiqamətlərindən biri elan etmisiniz. Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrasını necə qiymətləndirirsiniz? İşğaldan azad edilən ərazilərin Azərbaycanın iqtisadi zəncirinə cəlb olunması üçün yeni institusional addımların atılması planlaşdırılırmı?

**Prezident İlham Əliyev:** Bəli, təbii. Çünki, ilk növbədə, biz gərək bu bölgələr arasında bağlantılar yaradaydıq. Çünki işğal dövründə oradakı vəziyyət acınacaqlı idi. Siz hamınız - Azərbaycan vətəndaşları o bölgələrdə olarkən, xüsusilə işğaldan azad ediləndən sonrakı ilk aylar ərzində görürdük ki, vəziyyət çox acınacaqlı idi. Hətta mən özüm də dəfələrlə orada olarkən özümə sual verirdim: bəs bu qədər milyonlar, yüz milyonlarla telemarafonlar, - ermənilər hər il yüz

milyonlarla pul yığırdılar, - bu pul hara gedirdi? Mən onu orada görmədim. Ancaq bəlkə də orada separatçıların villalarını saymaq olar, amma nə ictimai binalar, nə də hansısa yaşayış binaları var idi. Faktiki olaraq, orada həyat sanki XX əsrin 70-ci illərində dayanıb. Məndə belə təəssürat var idi. Mən 1970-ci illərdə dəfələrlə Azərbaycanın bölgələrində olmuşam və sanki o xatirələr qayıtmış oldu.

Ona görə biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik.

Su təchizatı olmadan heç kim oraya köçməz, orada yaşamaz. Bu məsələ də öz həllini tapır və su anbarları - bir neçə su anbarını yenidən qurmuşuq, sıfırdan qurulan, məsələn, Zabuxçay su anbarı, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçayda üç, Xaçınçay. Bütün bunlar həm böyük vəsait, həm də işçi qüvvəsi tələb edir və onu da deməliyəm, bu işlər, əlbəttə ki, vəsait hesabına görülür. Əgər vəsait olsa, amma işçi qüvvəsi, yaxud da ki, hazırlıqlı kadrlar olmasa, biz bu işi görə bilməzdik. Bax, indi Kəlbəcər dağlarından elektrik xətləri çəkmək özlüyündə bir qəhrəmanlıqdır, özü də ağır hava şəraitində yollar, körpülər, misalçün, 70 kilometr uzunluğunda tunellər inşa edilir. Onların böyük əksəriyyəti başa çatıb. İlk növbədə, bu bölgə dəmir yolları - Bərdə-Ağdam, indi Ağdam-Xankəndi, avtomobil yolları, magistral, - yəni Zəngəzur dəhlizi öz yerində, - amma, eyni zamanda, Cəbrayıl, Hadrut, Laçın, Kəlbəcər bir-biri ilə bağlı olmalı idi. Mən birinci dəfə Kəlbəcərdən Laçına gedəndə həyatımda belə təhlükəli yol görməmişdim. Uzun illərdir ki, avtomobil sürürəm, o cümlədən vaxtilə müxtəlif ölkələrdə də olanda sürmüşdüm, təbii ki, Azərbaycanın hər bir yerində, amma mən elə təhlükəli yol görməmişdim. Bəlkə də Göygöl-Kəlbəcər yolu, Murov aşırımı, - tunel tikilənə qədər o yoldan istifadə edirdik, - ona bənzər ola bilər. Yəni indi bu dördzolaqlı körpülərlə, tunellərlə təmin olunan yollar - bütün bunlar imkan verəcək ki, bir yerdə yaşayan insan o biri yerdə işləyə bilsin. Misalçün, Xankəndi-Şuşa məsafəsi o qədər də böyük deyil. Amma yenə də bu məsafəni daha da qısaltmaq üçün o yol boyunca tunel tikirik. Ya da ki, Şuşa-Laçın, o məsafəni də indi 40 dəqiqəyə getmək olar. Amma bu, yeni tunellərlə, yolların genişləndirilməsi ilə 20-25 dəqiqəyə düşəcək. Yəni imkan verəcək ki, mobillik artsın, o cümlədən Ağdamda yaşayan Şuşada gedib işləyəcək və əksinə.

Bütün o bölgəni bir-biri ilə bağlamaq bizim əsas vəzifəmizdir. Bu bölgəni Azərbaycanın digər bölgələri ilə, - Kəlbəcər vasitəsilə Gəncə-Qərb istiqaməti, Tərtər-Bərdə-Bakı istiqaməti, Füzuli-Biləsuvar-Cənub istiqaməti ilə əlaqələndirməklə, ölkədə bağlantılar daha etibarlı olacaq, yola sərf olunan vaxt qısalacaq. Hamımız yaxşı bilirik ki, insanlar adətən yaşadıqları bölgələrdə yaşayırlar. Ancaq o bağlantılar - dəmir yolu, avtomobil yolları olan zaman, gələcəkdə hava yollarının istifadəsi ilə insanlar da ölkə daxilində miqrasiya edə bilərlər. Şərt deyil ki, hamı Bakıya gəlsin. Əksinə, bu gün, məsələn Xankəndi kimi şəhərə Bakıdan, Naxçıvandan, başqa yerlərdən gəlirlər. Xankəndi və Ağdam azad edilmiş bölgələrin əsas şəhərləri olacaq.

Bu mobillik cəmiyyətə yeni bir mədəniyyət gətirəcək. Yəni xüsusilə bugünkü internet dövründə harada iş var gedirəm, orada işləyirəm, orada yaşayıram, orada şərait olmalıdır. Bakıdakı kimi olmasa da, heç olmasa, Bakıya yaxın olan şərait olmalıdır. Yəni məqsəd budur. Bu, deyə bilərəm ki, bir yan məqsəddir. Təbii ki, əsas məqsəd keçmiş köçkünləri oraya qaytarmaqdır. Bu gün artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq.

İnfrastruktur layihələri icra edildikcə təbii ki, evlərin tikintisinə daha böyük vəsait veriləcək. Amma hər şey ardıcıllıqla, Baş plan əsasında edilir. Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur. Yaxud da ki, hansısa işi keyfiyyətsiz edənlər deyirlər ki, bəs tələsmişəm, mən bunu filan tarixdə təhvil verməli idim. Mən hamıya dedim, bax, ictimaiyyətə də deyə bilərəm ki, heç vaxt heç bir tarix qoymamışam. Bu il üçün də heç bir tarix qoymamışam. Nə vaxt hazır olacaq, o vaxt hazır olacaq. Amma hər şey gərək keyfiyyətli olsun və təbii ki, ictimai nəzarət də olmalıdır.

**Mirşahin Ağayev:** *Cənab Prezident, mən elə buradan Zəngəzur dəhlizi mövzusuna keçmək istəyirəm. İndi onun bir adı da belədir: Amerika Birləşmiş Ştatları və Ermənistan arasında imzalanmış beynəlxalq sülh və rifah naminə Tramp marşrutu üzrə razılaşma. Naxçıvan istiqamətində görülən işləri artıq biz efirdə də təqdim etməyə başlamışıq. Bu istiqamətdə görülən işlərlə bağlı mövqeyiniz, münasibətiniz necədir və bizim bilmədiyimiz hansı məlumatlar var?*

**Prezident İlham Əliyev:** Biz əslində bu dəhlizi müharibədən - İkinci Qarabağ müharibəsindən bir neçə ay sonra icra etməyə başlamışıq. Səhv etmirəmsə, 2021-ci ilin əvvəlində artıq o dəmir yolunun təməli də qoyuldu. Yəni sözün düzü, məndə şübhə yox idi ki, bu yol açılacaq. Əgər şübhə olsaydı, yəqin ki, biz bu qədər vəsait qoymazdıq. Hətta müsahibələrin birində də demişdim ki, istənilən yolla açılacaq. Bəzən belə

ritorikaya da ehtiyac var, çünki bu, qarşı tərəfi, necə deyərlər, yumşaq mənada həvəsləndirir. Amma əlbəttə ki, bu məsələnin Amerikada Trampın iştirakı ilə həll olunması bu məsələni artıq tamamilə həll edilmiş məsələ kimi ortaya qoydu.

Bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu demək olar ki, tezliklə hazır olacaq. Avtomobil yolunun hazırlığı təxminən 95 faizdir. Dəmir yolunun fiziki hazırlığı 70 faizdir. Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində, - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir, - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq.

O ki qaldı yolun qalan hissəsinə, burada biz xarici investorları da dəvət edirik, kim istəyir sərmayə qoysun. Bu sahəni də xarici investisiyalar üçün açıq etmişik. Beləliklə, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq və bayaq qeyd etdiyim kimi, həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi – bu, Şimal-Cənub marşrutunun ikinci yolu olacaq. Bu, eyni zamanda, Orta Dəhlizin də ikinci yolu olacaq və təbii ki, yükaşırma qabiliyyəti artacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Qeyd etdiyim kimi, bunun əsas, necə deyərlər, istiqamətverici tərəfi də biz olacağıq. Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur.

Bildiyiniz kimi, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfi qərar qəbul etmişdir. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır. Çünki Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb.

Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə Ağbənd qəsəbəsində Arazın üzərindən körpü də inşa edilir. Yəni bizim o bölgədən Qərb istiqamətinə və Cənub istiqamətinə əslində iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi - Ermənistan üzərindən, biri isə Araz dəhlizi - İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik. Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik.

Naxçıvanın Baş Planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər yaşıl enerji olsun, istər kənd təsərrüfatı, istər suvarma, - indi orada böyük suvarma layihələri icra ediləcək, - istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik. Ermənistan da təbii olaraq bundan ancaq fayda görəcək. Çünki Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər.

**Elmira Musazadə:** Cənab Prezident, biz, o cümlədən Ermənistanın da iştirak edəcəyi ilk belə regional layihələrdən danışırıq. Vaşinqton sazişindən sonra sülhə doğru kövrək də olsa, ilk addımları görürük. Lakin çıxışlarınızda dəfələrlə vurğuladığınız kimi, heç vaxt sayıqlığımızı itirməməliyik. Keçən il Vətən müharibəsinin, Azərbaycanın 44 günlük müharibədə Qələbəsinin beş ili tamam oldu. Noyabrın 8-də keçirilən parad təkcə Qələbənin rəmzi deyil, həm də yeni bir reallığın nümayişi oldu. Siz bu dövrü, bu beş ili Azərbaycanın, qalib ölkənin yeni Silahlı Qüvvələrinin formalaşdırıl-

ması və yeni təhlükəsizlik arxitekturasının yaradılması baxımından necə qiymətləndirirsiniz?

**Prezident İlham Əliyev:** Bəli, bu beş il ərzində biz ordu quruculuğu ilə fəal şəkildə məşğul olmuşuq və necə deyərlər, qazandığımız uğurlardan arxayınlaşmamışıq. Mən şanlı Zəfərimizdən dərhal sonra demişəm ki, biz arxayınlaşmamalıyıq, həyatımızı bu Qələbəni bayram etməyə həsr etməməliyik. Bu, bizi heç yerə aparmayacaq. Ermənistanın nümunəsi də gözümüzün qabağındadır. Bu müştəbehlik və yalançı özünütərif onların 2020-ci ildə, daha sonra isə 2023-cü ildə torpaqlarımızdan rüsvaycasına qaçmağa məcbur olmaları ilə nəticələndi. Buna görə də dərhal Silahlı Qüvvələrimizi gücləndirməklə məşğul olmağa başladıq. Xüsusilə İkinci Qarabağ müharibəsi həm güclü tərəflərimizi, həm də daha yaxşı nəticələr əldə etmək də daxil olmaqla, idarəetməni təkmilləşdirmək üçün fəal şəkildə işləməli olduğumuz sahələri açıq şəkildə nümayiş etdirdi. Çünki hətta Zəfərlə nəticələnsə və bizimki kimi müzəffər olsa belə, nəticə çıxarmaq üçün həmişə əvəzsiz bir təcrübədir. Mən məhz bunu əsas götürdüm.

Güclü tərəfləri gözəl bilərək, eyni zamanda, biz lazım olanları düzəltməklə məşğul olduq. Hərçənd onların sayı az idi. Amma, necə deyərlər, mükəmməlliyin sərhədi yoxdur. Ona görə də bu beş il ərzində Silahlı Qüvvələrimiz təkmilləşirdi. Həmçinin bu beş ildə 2023-cü il hadisələrini və 2022-ci il hadisələrini, məhz Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanımasını mahiyyətcə müəyyənləşdirən bir neçə mühüm hərbi əməliyyat oldu. Axı, bu, könüllü surətdə baş vermədi. Bu, ona görə baş verdi ki, biz 2020-ci ildən buna siyasi yolla nail olmağa çalışmışıq.

Başqa vasitələrə əl atmaq lazım gələndə biz bunu etdik, amma ölçülü və nəzarətli şəkildə. 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər atdığımız heç bir addım kortəbii, emosional və ya reallıqdan kənar deyildi. Hər şey tək bir məqsədə tabe idi: Ermənistanı “Miatsum siyasəti”ni davam etdirməyin fəlakətli olduğuna inandırmaq. Müəyyən dərəcədə bu, uğurlu oldu və 2022-ci ilin oktyabrında Ermənistan Qarabağı rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanıdı.

Bu, vacib idi, amma hələ hər şey deyildi, çünki hamısı, sadəcə, sözdə idi, lakin əməldə hər şey davam edirdi. Mina tədarükü, hərbi qulluqçuların rotasiyası, ordunun maliyyələşdirilməsi, silah tədarükü - bütün bunlar Qarabağın rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanınmasına baxmayaraq davam edirdi. Sonra həm Ermənistanla şərti sərhəddə, həm də Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə başqa tədbirlər görməyə məcbur olduq. Həm də bunu heç kimə və heç nəyə məhəl qoymayaraq etdik, çünki etməli olduğumuzu bilirdik. Əgər bunu etməsəydik, heç bir 8 avqust olmazdı. İndiyədək heç bir sülh də olmazdı və separatçılar bu günədək özlərini qorunmuş hiss edərək və Azərbaycan dövlətinə meydan oxuyaraq sərbəst hərəkət edərdilər.

Təbii ki, biz buna dözmək fikrində deyildik. Brüsseldəki görüşlərdə erməni həmkarıma dəfələrlə demişdim ki, səbrimizi sınamaq lazım deyil, orada kimin olmasından və ya başqalarının nə deməsindən asılı olmayaraq, istənilən an “Laçın dəhlizi” adlanan əraziyə nəzarəti tamamilə ələ keçirə bilərik. Təəssüf ki, arqumentlərim istənilən effekti vermədi, biz bunu 2023-cü ilin sentyabrında nümayiş etdirməli olduq. Lakin 2023-cü ilin sentyabr ayına hazırlıq görülməli idi və hələ nəzarətimiz altında olmayan ərazi də daxil olmaqla, yerində buna hazırlıq görülməli idi.

Ona görə də Qarabağda strateji yüksəkliklərin ələ keçirilməsi üzrə aparılan həmin əməliyyat tədbirləri mahiyyətcə ona gətirib çıxardı ki, sentyabrın 19-20-də separatçıları kapitulyasiyaya məcbur etmək üçün bizə cəmi bir neçə saat lazım oldu. Yəni demək istəyirəm ki, bu 5 il ərzində biz, sadəcə, hazırlıq görmürdük, həm də hərəkət edirdik. Ermənistanda bu gün deyilənləri anladıqları zaman, - düzgün də deyirlər, hesab edirəm ki, bu, çox məntiqlidir, - belə ki, öz sərhədləri ilə real Ermənistan var və biz bu sərhədləri tanımadığımız müddətdə onlar mövcud deyil. Əgər xatırlayırsınızsa, onları nizamlamaq lazım gəldiyi zaman mən deyirdim ki, sərhəd bizim lazım bildiyimiz yerdə olacaq.

Bununla paralel olaraq yenidən silahlanma, yeni silahlı dəstələrin yaradılması prosesi gedirdi, mən bu barədə paradda çıxışımda qısaca danışmışam. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi nümayiş etdirilməməlidir, amma zamanı gələcək. İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir.

Axı, bu müddət ərzində regionumuzda Azərbaycanın iştirakı ilə bir çox həyəcanlı proseslər də baş verib, diplomatik olaraq qeyd edim ki, onlar Ermənistanla bağlı deyil və biz bütün bu ağır sınaqlardan layiqincə, öz vicdanımızla, ilk növbədə, ləyaqətimizlə kompromisə getmədən çıxdıq. Hamıya, kimə lazımdırsa sübut etdik ki, bizə hörmətlə yanaşmaq lazımdır və biz kobudluğa, həyasızlığa və diktə cəhdlərinə dözməyəcəyik. Bunun üçün döyüş qabiliyyəti olan orduya malik olmaq lazımdır. Mən Yeni il müraciətimdə bildirdim ki, biz müharibəyə hazırlaşmırıq və bu, həqiqətən də belədir. Hesab edirəm və ümidvaram ki, müharibələr arxada qalıb, amma heç kim zəmanət verə bilməz. Axı, biz dünyada hadisələrin necə dəyişdiyini görürük.

Bir daha dediklərimə qayıdaraq qeyd edirəm ki, beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatı - onların hamısı artıq rudimentə çevrilib. Hər şey o qədər köhnəlib ki, onlara istinad etmək, sadəcə, qeyri-ciddidir, bundan yapışıb qalanlar isə, sadəcə, köhnə reallıqda

yaşayırlar. İndi yeni reallıq mövcuddur, əlbəttə ki, onu böyük ölkələr yaradır, amma əgər ölkə çox böyük deyilsə, o cümlədən siyasi, hərbi və iqtisadi potensiala malikdirsə, onda o da yeni reallığın yaradılmasına öz töhfəsini verə bilər. Zənnimcə, bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz, - mən bunu bir dəfə demişəm, - həm siyasi, həm də xarakterli çox böyük layları yerindən oynadıb. Yəqin ki, bir çoxları bizim uğurumuzu təkrar etmək istərdi, amma bu, heç kimə müyəssər olmayıb. Ümidvaram ki, bu gün hələ də döyüşən tərəflər anlayacaqlar ki, müharibə bir ölkə və yaxud insanın başına gələcək ən pis şeydir. Mən bunu tam məsuliyyətlə deyirəm. Bu, ən pis sayılmalıdır. Ən yaxşı isə, sülhdür. Amma sülh olması üçün güclü olmalısan, beləliklə, bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

**Mirşahin Ağayev:** *Cənab Prezident, əslində, mən moderator olaraq səlahiyyətlərimdən sui-istifadə etməli olacağam. Ona görə ki, indi bu sualı verməsəm, sonradan bu mövzuya qayıtmaq çətin olacaq. Elə bu kontekstdə soruşmaq istəyirəm, Azərbaycanda müdafiə sənayesinin inkişafı - həm daxili tələbatın ödənilməsi, həm də ixrac baxımından hərbi təyinatlı məhsulların istehsalı sahəsində vəziyyətimiz necədir?*

**Prezident İlham Əliyev:** Biz son vaxtlar bu istiqamətə yeni prizmadan yanaşmağa başlamışıq və mənim göstərişimlə özəl şirkətlər bu sahəyə cəlb olunublar. Bildiyiniz kimi, mənim Sərəncamımla hələ 20 il bundan əvvəl Müdafiə Sənayesi Nazirliyi yaradılanda, o vaxt biz bunu dövlət inhisarında olan sahə kimi qiymətləndirirdik. Ancaq illər keçdikcə və xüsusilə beynəlxalq təcrübəyə baxdıqda gördük ki, bir çox ölkələrdə aparıcı rollarda özəl şirkətlərdir. Bir də ki, özəl şirkətləri bu işə cəlb etməklə biz dövlət üzərinə düşən yükü də, maliyyə yükünü də azaltmış ola bilərik. Ona görə son iki il ərzində dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar verildi. Bu günə qədər 15 şirkətə lisenziya verilib, təbii ki, bu sahə lisenziya tələb edən sahədir. Artıq 7 özəl şirkət hərbi təyinatlı məhsulun istehsalına başlayıb. Əgər biz qoyulan sərmayənin həcminə baxsaq görərik ki, yeni istehsal sahələri yaratmaq və mövcud olanları genişləndirmək üçün 2024-2025-ci illərdə bir milyard manat dəyərində sərmayə qoyulub. Bunun da yarısı özəl sektor tərəfindən qoyulubdur. Yenə də bu sahə ictimaiyyət üçün bir qədər qapalı olduğu üçün geniş məlumat verilmir. Ancaq bu proses çox geniş vüsət alıb.

Biz keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Onun böyük hissəsi Azərbaycan Silahlı Qüvvələrinə verilib, bir hissəsi isə ixrac edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Yeniliklərdən biri də odur ki, biz böyük, dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə Azərbaycanda birgə müəssisələr yaratmışıq. Burada həm pilotsuz uçuş aparatları, artilleriya qurğuları, digər vasitələr, silah-sursat istehsalı nəzərdə tutulur. Biz bu sahəyə bir neçə prizmadan baxırıq. Birincisi, daxili istehlakı daxili istehsalla maksimum təmin etmək. İkincisi, böyük sənaye sahəsi yaratmaq. Üçüncüsü, müasir kadr potensialı yaratmaq və ixrac imkanlarımızı genişləndirməkdir ki, bu sahəyə, eyni zamanda, gəlir gətirən sahə kimi baxmağa başlamışıq.

Yenə də deyirəm, ilkin mərhələdə məqsəd ancaq idxaldan asılılığı azaltmaq idi. Bu gün isə biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq. Çünki dünyada, əfsuslar olsun ki, müharibələrin sayı artır, hərbi təyinatlı məhsullara tələbat artır. Onların qiyməti kəskin artıb. İlk növbədə, sursatların qiyməti kəskin artıb. Ona görə bu, bizim üçün alternativ valyuta mənbəyi ola bilər və qoyduğum qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır. Hesab edirəm ki, biz bu rəqəmə üç-dörd ilə çata bilərik. Bu, tam realdır. Xarici şirkətlərdən də çox böyük maraq var, yerli şirkətlər də fəal işləyirlər. Yəni əminəm ki, yaxın gələcəkdə Azərbaycan ictimaiyyəti bu sahədə gedən işlərlə tanış olacaq.

**Nadia Cani:** *Cənab Prezident, mən əslində ordu ilə bağlı cavabınıza qayıtmaq istəyirəm. Çünki Siz Yeni il müraciətinizdə Azərbaycanın müasir silahlar hesabına hərbi imkanlarını gücləndirdiyini qeyd etdiniz, eyni zamanda, müharibənin artıq keçmişdə qaldığını dediniz. Dünyada bir çox ölkənin "güc haqlıdır" şüarını əsas götürərək silahlanmanı artırdığı bir şəraitdə bu mesajlar arasında tarazlığı necə qoruyursunuz?*

**Prezident İlham Əliyev:** Bildirdiyim kimi, təəssüf ki, beynəlxalq hüququn norma və prinsipləri faktiki olaraq işləmir. Azərbaycan isə beynəlxalq hüququn işləməməsinin ilk qurbanlarından biri olmuşdur. Torpaqlarımız işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr 27 il ərzində kağız üzərində qaldı və əgər biz öz torpaqlarımızı güc yolu ilə azad etməsəydik, onlar əbədi olaraq icrasız qalacaqdı. Bizim müharibəmiz ədalətli müharibə idi və biz öz ərazimizdə vuruşurduq. Biz heç bir başqa ölkəni işğal etməmişik, heç bir ölkəyə hücum etməmişik. Hərbi əməliyyatları BMT Nizamnaməsinin 51-ci maddəsinə, xüsusilə özünümüdafiə hüququna əsaslanaraq həyata keçirmişik.

İkinci Qarabağ müharibəsindən beş il keçdiyini nəzərə alsaq, aydın şəkildə görürük ki, bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar yeni reallıqları qəbul edib. Beləliklə, biz yerindəcə reallıq yaratdıq. Mən bunu artıq bir neçə dəfə xatırlatmışam - ovaxtkı ATƏT-in Minsk qrupu ilə çoxsaylı görüşlərim zamanı onlar Azərbaycana reallıqları qəbul etməyi tövsiyə edirdilər. Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüquq və beynəlxalq hüququn pozulması ilə bağlı bütün arqumentlərim isə yenə də qəti səssizlik ilə qarşılanırdı.

Beləliklə, "yerdəki reallıqlar" məsələsi ortaya qoyulmuşdu. Mən də dedim: yaxşı, onda biz bu reallıqları dəyişəcəyik. Biz bunu etdik və bu gün bütün dünya

bunu tanıyır. Qondarma “Dağlıq Qarabağ Respublikası” heç kim tərəfindən tanınmamışdı, bu, qeyri-qanuni bir qurum idi. Lakin bizim Qələbəmiz və azad edilmiş ərazilər üzərində suverenliyimiz bütün dünya, eləcə də Ermənistan tərəfindən tanınır.

Eyni zamanda, beynəlxalq münasibətlər son dərəcə gözlənilməz şəkildə inkişaf edir. Beynəlxalq hüquq faktiki olaraq işləməsə də, beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi.

Amma hər hansı ərazi iddiası üçün “öz müqəddəratını təyinetmə” bəhanəsi Azərbaycan üçün çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, “öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır” deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi.

Amma bir daha deyirəm, bir neçə il əvvəl bəzi düşməncəsinə hərəkətləri yarım-beynəlxalq hüquq düsturları ilə ört-basdır etməyə cəhdlər olurdusa, indi belə deyil. İndi isə heç kəs kim nə deyir, hansı təşkilat hansı qətnaməni qəbul edir kimi məsələlərə əhəmiyyət vermir. Dünyada baş verən hadisələr - müharibələr, münaqişələr göz önündədir. Bəs, guya demokratik Avropada nə deyirlər? “Biz narahatıq, vəziyyəti izləyirik, mövqeyimizi nəzərdən keçiririk”. Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu, bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm.

**Elmira Musazadə:** *Cənab Prezident, icazənizlə, regional münaqişələrə aid daha bir sual verim. Yaqin son zamanların ən kəskin münaqişəsi Yaxın Şərqdəki vəziyyətdir və sözsüz ki, Qəzza sektorundakı şəraitdir. Azərbaycan çox az ölkələrdən biridir, ola bilər hətta yeganə dövlətdir ki, həm İsraildə, həm də ərəb, İslam dünyasında bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir. Azərbaycanın vəziyyətin sabitləşməsi üzrə hər hansı əməliyyatlarda potensial iştirakı nəzərdən keçirilir? Ola bilər ki, beynəlxalq mandat və hər iki tərəfin razılığı olacağı təqdirdə Azərbaycan sülhməramlı qüvvələrinin iştirakı mümkündür?*

**Prezident İlham Əliyev:** Bizə belə müraciətlər daxil olub. Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər. Bizim İraqda, buna qədər isə həm Kosovoda, həm də özlüyündə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etmək təcrübəmiz var, ona görə də fəaliyyətin strukturunu çox gözəl bilirik.

Qəzza sektorunda vəziyyətə gəldikdə, zənnimizcə, kimin mandat verəcəyi və onun necə olacağı indiyədək aydın deyil. Bu, sülhməramlı əməliyyatlar, yaxud sülhün bərqərar olması - ingiliscə deyildiyi kimi, “peacekeeping” və ya “peace enforcement” olacaq. Bunlar iki ayrı-ayrı məfhumlardır. Təbii ki, biz ikinciyə hazır deyilik və hətta heç vaxt öz iştirakımızı nəzərdə tutmamışıq. Əfqanıstanda bizim sülhməramlı missiyamıza gəldikdə, xoşbəxtlikdən və o cümlədən mövqeyimiz sayəsində bizim heç bir zərərçəkənimiz olmadı. Yəni bütün bu illər ərzində qurban vermədik, məhz ona görə ki, öz funksiyamızı strateji obyektlərin qorunmasında görürdük. Biz heç vaxt döyüş əməliyyatlarında iştirak etmədik və Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur.

Amerikalı tərəfdaşlarımızın diqqətinə çatdırdığımız ikinci amil ondan ibarət idi ki, mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik. Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı, Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil.

Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik

kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz. Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur. Beləliklə, sağ olun ki, siz bu sualı verdiniz, çünki xarici mətbuatda bu mövzuda çoxlu sayda şayiələr dolaşır. Xüsusilə Amerika diplomatiyasının yüksəkrütbəli məmurunun bu cür məsuliyyətsiz və yalan bəyanatlar verdiyi vaxt. Bu, həm də mənə imkan verdi ki, istər bizim, istərsə də beynəlxalq auditoriyanın diqqətinə bu məsələ ilə bağlı bizim mövqeyimizi çatdırım.

**Murad Hüseynov:** *Cənab Prezident artıq bir neçə ildir ki, Azərbaycan bərpaolunan enerji mənbələrinə xüsusi önəm verir, bu istiqamətdə işləyir. Sizin fikrinizcə, Azərbaycanın gələcək inkişaf modelində bərpaolunan enerji mənbələri hansı rolu oynayacaq? Bir az əvvəl həmkarımın sualına cavab verəndə Siz informasiya texnologiyalarına, süni intellekt texnologiyalarına toxundunuz. Bərpaolunan enerjinin bu sahəyə töhfəsi varmı?*

**Prezident İlham Əliyev:** Bəli, mütləq var. Biz bu prosesə başlayanda, əlbəttə ki, əsas güddüyümüz məqsəd təbii imkanlarımızdan maksimum istifadə etmək idi. Çünki beynəlxalq təşkilatlar artıq bizim potensialımızı dərindən təhlil edərək təsbit ediblər. Bizim təkcə külək enerjisi potensialımız 150 giqavatdan çoxdur. Günəşli günlər də, Allaha şükür, çoxdur, həm Bakıda, həm bütün bölgələrimizdə. Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür. Ona görə bundan istifadə etməmək günah olardı.

Biz bu imkanları dünya energetika aləminə təqdim edəndə onlardan böyük maraq gördük. Bu gün bizim əsas investorumuz Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir, hansı ki, birinci Günəş elektrik stansiyasını inşa edib, 230 meqavat gücündə. İkinci stansiya yaxın günlərdə istismara veriləcək. Burada da investor Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətidir. O da 240 meqavat gücündə olan stansiyadır. Üçüncü böyük stansiyanı bp şirkəti Cəbrayıl rayonunda inşa etməyə başlayıb, o da 240 meqavatdır. Bu, sadəcə olaraq, başlanğıcdır. Eyni zamanda, Çin və Türkiyə şirkətləri də maraq göstərirlər. Biz Azərbaycan şirkətlərinə də müraciət etdik və bu sahə gəlirli olduğu üçün və ölkəyə lazım olduğu üçün onlara da müraciət etdik və artıq yerli şirkətlər də bu işlərə qoşulublar. Hətta keçən ilin sonunda mən Cəbrayılda iki stansiyanın təməlini də qoydum.

Günəş və külək elektrik stansiyalarının xəritəsi təsdiqlənib, həm quruda, həm də dənizdə, o cümlədən azad edilmiş torpaqlarda. Hazırda bizim əsas vəzifəmiz enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat Günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik. Buna "Energy Grid" deyirlər.

Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır. Biz ilkin mərhələdə xarici şirkətlərə müraciət etdik ki, onlar investor kimi bu işi görsünlər. Amma gördük ki, böyük maraq yoxdur. Yəni dövlət xətti ilə təxminən 250 meqavat gücündə birinci batareyalar artıq quraşdırılır, amma daha da çox olacaq. Çünki bizim, yenə də deyirəm, qısamüddətli planlarımız 8 giqavat enerji əldə etməkdir.

Əminəm ki, biz bunu edəcəyik. Çünki artıq kontraktlar imzalanıb, anlaşma memorandumları yox, kontraktlar, bu, artıq hüquqi öhdəlikdir. Bu, bizə nə verəcək? Təbii ki, enerji üçün istehlak olunan qaza qənaət və mövcud olan qazı da ixrac etmək üçün imkanlar olacaq. Biz bunun üçün də mövcud qaz infrastrukturumuzu genişləndiririk, Azərbaycanda yox, başqa yerlərdə. Bu, imkan verəcək ki, biz təmiz enerjini ixrac edə biləcəyik və bildiyiniz kimi, Qara dəniz kabel layihəsi var. Onun texniki-iqtisadi əsaslandırması hazır olsa da, maliyyə mənbələri hələlik aydın deyil. Bizim mövqeyimiz belədir ki, biz enerjini burada istehsal edirik, yeni ötürücü xətləri Gürcüstan sərhədinə qədər çatdırırıq. Çünki yeni xətlər lazımdır. Qalanı isə artıq o biri ölkələrin maliyyə öhdəliyi olmalıdır. Bunu nəzərə alaraq, qeyd etdiyim kimi, Qazaxıstan və Özbəkistan ilə Xəzər dənizinin altı ilə kabelin tikintisini də razılaşdırdıq. Burada da indi texniki-iqtisadi əsaslandırma gedir.

Üçüncü mümkün olan variant, ya da hər bir variant birlikdə də mümkündür, bu, enerjini burada istehlak etməkdir. Burada da yenə də deyirəm, süni intellekt və data mərkəzləri ən çox enerji tələb edən layihələrdir. Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır. Biz isə həm enerji satırıq, həm ixrac edirik - həm qaz, həm neft, həm neft məhsulları, həm neft-kimya məhsulları, həm də əsas xammal olan təbii qaz gübrələri. Yəni bizdə bütün sikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac.

Ona görə biz, əlbəttə ki, bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik. Bu gün bu sahəyə sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədərdir ki, yenə də deyirəm, bax, bizim bu enerji mərkəzlərimiz bunu həzm edə bilmir. Ona görə biz "Energy Grid", yəni enerji mərkəzlərini o qədər gücləndirməliyik ki, nəinki 8, gələcəkdə hətta 20, 30, 40 giqavat qəbul edə bilək və ötürə bilək.

**Mümtaz Xəlilzadə:** *Cənab Prezident, Azərbaycanın müasir nəqliyyat infrastrukturu. Siz həmkarımın sual-*

*larını cavablandırarkən bu məsələyə qısaca da olsa toxundunuz. Mən istərdim, daha geniş şərh verəsiniz. Çünki həm Azərbaycanın müasir nəqliyyat infrastrukturu, xüsusən də Bakının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində hansı işlər görüləcək, hansı tədbirlər nəzərdə tutulub? Zəhmət olmasa, bu barədə də məlumat verərsiniz.*

**Prezident İlham Əliyev:** Bəli, biz Bakıda bir çox önəmli nəqliyyat layihələrini icra etdik, mən onların bəzilərini sadaladım. Bu, bizə imkan verdi ki, müəyyən mərhələdə özümüzü tıxaclardan sığortalayaq. Ancaq inkişaf göz qabağındadır, əhali artır, maşınların sayı artır. Hər il ölkəmizə on minlərlə yeni avtomobil gətirilir. Onların istismar müddəti ilə bağlı indi müəyyən məhdudiyyətlər də qoyulur. Yerli avtomobil istehsalı artır. Ona görə mövcud yol infrastrukturu artıq bizə kifayət etmir.

Onu da bilməliyik ki, biz Bakının tarixi memarlıq ansamblını dəyişdirə bilmərik. Yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi bir çıxış yolu ola bilər. Bu istiqamət üzrə bizim Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi beynəlxalq mütəxəssisləri cəlb etməklə fəal işləyir. Artıq Bakının yeni yol infrastrukturunun xəritəsi təsdiqləndi. Qeyd etdiyim kimi, 10 yeni metro stansiyasının yeri də müəyyən olundu. O yerlər artıq onların sərəncamına verildi. Bundan başqa, əlavə iki depo da tikiləcək. Mövcud olan metro stansiyalarında optimallaşma layihələri icra edilir. Mən qeyd etdim, son 20 il ərzində yeddi metro stansiyası tikilib. Əgər onlar tikilməsəydi, görün, indi vəziyyət necə olacaqdı?

Mikromobillik, piyadalar üçün daha geniş məkanın verilməsi və bəzi küçələrin ancaq piyadalar üçün təşkili prosesi davam edir və yaxın aylarda ictimaiyyət bunu görəcək. Eyni zamanda, Bakıda yeni ictimai yerlərin yaradılması çox geniş vüsət alıb. Yeni parklar, ictimai zonalar, istirahət zonaları yaradıldıqda mütləq onun nəqliyyat infrastrukturu da paralel olaraq öz həllini tapır. Misal üçün, biz bunu Mərkəzi Parkın timsalında görə bilərik. Vaxtilə çox ensiz, dar küçələr idi. İndi çox geniş küçələr və faktiki olaraq bu istiqamətdə, yəni Heydər Əliyev Sarayından da yuxarı istiqamətə getmək üçün çox geniş imkanlar yaradılıb.

"Sovetski" adlandırılan ərazinin köçürülməsi prosesi davam edir və orada da ancaq ictimai yerlər, parklar salınmalıdır. Süni göllər yaradılacaq və nəqliyyat sistemi qurulacaq, o cümlədən metro stansiyaları, Ağ Şəhərdə metro stansiya. İndi velosiped zolaqlarının yaradılmasına başlanılmışdır. Bilirəm, bəziləri bundan narazıdır. Amma inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, bu da bir çıxış yoludur. Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik.

Təbii ki, dəmir yolları da öz rolunu oynamalıdır. Bu gün Bakı-Sumqayıt dəmir yolu fəal işləyir. Əgər o yol olmasa, indi təsəvvür edin, nə ola bilərdi? Yaxud da ki, Bakıda 50 tunel, ya 50-yə yaxın körpü tikilməsəydi. Vaxtilə o dairələr var idi, yadınızdadır, neçə dairə idi?! Elə buradan şəhərə gedəndə bəlkə üç-dörd dairə var idi. İndi onların hamısı yox olub, əvəzinə yol ötürücüləri yaradılıb.

Yəni bu, ciddi məsələdir və biz ciddi məşğuluq, proqram qəbul edilib, vəsait səfərbər olunub. Hesab edirəm ki, növbəti beş il ərzində bu əsas problemlər öz həllini tapmalıdır.

**Nadia Cani:** *Cənab Prezident, mən enerji mövzusuna qayıtmaq istərdim. Çünki ötən ilin dekabrında biz ölkə üçün bir ilkin şahidi olduq – yanacaq daşıyan yük qatarı Azərbaycandan Gürcüstan vasitəsilə Ermənistana keçdi. Həmçinin Azərbaycan infrastrukturunun yenidən qurulmasına yardım etmək üçün Türkiyə vasitəsilə Suriyaya enerji ixrac etdi. Ona görə də mən bilmək istəyirəm, Azərbaycanın enerji daşıyıcılarının paylanması və təbii qaz istehsalı ilə bağlı strategiyası nədən ibarətdir? Bu qaz dəhlizləri regional inkişaf və iqtisadi artım üçün nə dərəcədə vacibdir?*

**Prezident İlham Əliyev:** Həcm və coğrafiya baxımından bizim qaz ixracımız artır. Biz indiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz etmişik. Elə ölkələr var ki, onlar 2024-cü ildə bizdən qaz əldə edib, lakin sonra başqa mənbələrlə əlaqədar dayandırıb. Bu, bir növ tələbata əsaslanır, onların ehtiyacı olanda biz təchizata başlayırıq, ehtiyacı olmayanda dayandırırıq. Lakin ümumilikdə Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub. Bu artımın iki mənbəyi var. Birincisi, mən söylədiyim kimi, bərpaolunan enerji. Bərpaolunan enerjimiz nə qədər çox olsa, biz ixrac üçün o qədər çox qaza qənaət edə bilərik. İkincisi, mövcud və yeni yataqlardan yeni hasilat. Bunların arasında biz "Azəri-Çıraq-Günəşli" dərin qaz yatağından yeni hasilat gözləyirik. Bildiyiniz kimi, bu yataqdan çoxlu neft hasil edilir, həmçinin dərində böyük qaz yataqları var. Məhz buna görə onu "dərin qaz yatağı" adlandırırlar. Hasilatın bu il başlanmasını gözləyirik. Biz, həmçinin qarşıdakı illərdə "Şahdəniz"də əlavə həcmdə qaz təmin edəcək yeni mərhələnin başlanmasını gözləyirik, bu, "Şahdəniz Kompressiya" adlanır. Həmçinin "Babək" yatağı var, çox böyük və ümidvericidir, bir sıra şirkətlər investor olmaq istəyir. Sözsüz ki, ölçüsünə görə "Şahdəniz"lə müqayisə oluna biləcək yataq "Abşeron"dur. Hazırda

orada birinci mərhələ üzrə hasilat həyata keçirilir ki, biz bunu yerli istehlak üçün əldə edirik. "Abşeron"un ikinci mərhələsi bizə ola bilsin bugünkündən 3 dəfə daha çox qaz təmin edəcək ki, bazarlar üçün daha çox olsun. Bizim qazımız onu artıq əldə edən və həcmi artırmaq istəyən ölkələrə, həmçinin onu hələ əldə etməmiş ölkələrə lazımdır.

Suriya ötən il bizim yeni tərəfdaşımız oldu. Biz şadıq ki, Suriya hökumətinə elektrik enerjisi çatışmazlığını azaltmağa kömək edirik. Çünki müxtəlif hesablamalara görə, bizim qazımız onlara elektrik enerjisi çatışmazlığını gündə təxminən 4 saatadək azaltmaq imkanı verir. Biz təchizatı artırmaq variantını nəzərdən keçiririk. Şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi yaxşı nüfuza, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Çünki müştərilərimizin əksəriyyəti Avropa İttifaqının üzvləridir. Bütün bunlar çox müsbət amillərdir.

Həmçinin faydalı qazıntı allergiyasına gəldikdə, siz yəqin ki, dəyişikliyi görürsünüz. Biz bunu bir neçə il öncə müşahidə etdik, o vaxt hamı faydalı qazıntıya zidd mövqedən çıxış edirdi, hər kəs bərpaolunan enerji haqqında danışırdı. Prezident Tramp və onun administrasiyası bu yanaşmanı dəyişdi. Bildiyiniz kimi, o, bərpaolunan enerjiyə qəti şəkildə qarşıdır və faydalı qazıntının tərəfdarıdır. Birləşmiş Ştatlar isə birmənalı olaraq dünyanın aparıcı ölkəsidir və orada baş verən hadisələr müxtəlif istiqamətlərə təkan verir.

Bilirəm ki, Avropanın bəzi maliyyə təsisatları əvvəlcə tam qadağan edilən faydalı qazıntılara aid siyasətinə yenidən baxmağa başlayıblar. İndi isə onlar faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini nəzərdən keçirməyə başlayıblar. Aparıcı enerji şirkətləri, sadəcə, əsas tendensiyaya uyğun gedirdi və bəziləri hətta adlarından "neft" sözünü çıxarırdı. İndi isə onlar yenidən faydalı qazıntıya qayıdırlar. Bu, bəlli məsələdir və açığını desək, gülünc idi.

2024-cü ilin noyabrında burada, Bakıda COP29-a ev sahibliyi edən ölkənin rəhbəri kimi çıxışımda bildirdim ki, - təkrar olmasın - bu reallıq kənara qoyula bilməz. Bütöv yaşıl hərəkat qrupları mənə hücum çəkdi və dedi ki, COP29-a ev sahibi olan ölkə faydalı qazıntını necə təşviq edə bilər?! Mən bunlara, sadəcə, reallığa əsaslanaraq söyləyirdim. Heç kəs hazırda faydalı qazıntını inkar edə bilməz. Onlar nə dərəcədə xoşunuza gəlməsə belə, siz onlarsız yaşaya bilməzsiniz. Əgər yaşaya bilərsinizsə, onda irəli! Lakin biz məsələyə realist yanaşmalıyıq.

Neft və qazla zəngin olan ölkələrin məsuliyyətinin olması Azərbaycan və digər ölkələr kimi misallarda görünür, çünki onlar, həmçinin yaşıl enerjiyə sərmayə yatırırlar. Beləliklə, düşünürəm ki, hazırda Avropa təsisatları anlayırlar ki, faydalı qazıntıya münasibətdə qorxu aradan qalxmalıdır və praqmatik, realist yanaşma əsas götürülməlidir.

Azərbaycan bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaşdır. Enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolumuz yalnız artacaq, azalmayacaq, artacaq. Elektrik enerjisini, yaşıl enerjini, hidrogeni, eləcə də yaşıl hidrogeni əlavə etsək, rolumuz daha da böyük olacaq.

**Mirşahin Ağayev:** *Cənab Prezident, ingilis dilində, rus dilində mükəmməl danışırsınız, amma Azərbaycan dili Sizdən ötrü həyati əhəmiyyətə malik bir anlayışdır. Noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən iclasda Siz yenidən bu mövzunu qaldırdınız və Azərbaycan dilinin, ədəbi dilinin saflığının qorunması istiqamətində mediaya, ziyalılarımıza çox ciddi tapşırıqlar verdiniz. Ümumiyyətlə bu, yəqin ki, yalnız "Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan!" deyəndə qəhərlənən Heydər Əliyevin Sizin təhtəlşüurunuzda buraxdığı iz deyil, bu, yalnız qrammatika deyil, yalnız leksika, nə bilim, morfologiya deyil. Burada ola bilər ki, orta statistik azərbaycanlının başa düşmədiyi bir dərin mətləb var. Niyə bu qədər Siz Azərbaycan dilini qorumağı tapşırırsınız, hər dəfə təkidlə, təkidlə, təkidlə? Nə təhlükə var?*

**Prezident İlham Əliyev:** Bilirsiniz, ilk növbədə, dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik.

İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox

melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən - istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm.

Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur. Bu, əlbəttə ki, çətindir, çünki xaricdə yaşayan azərbaycanlıların, təbii ki, hər birinin imkanı yoxdur. Amma arzum budur və burada jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində, sizə aid deyil. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da açıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq.

**Murad Hüseynov:** *Cənab Prezident, bu mövzunun davamı olaraq, dövləti, milləti güclü edən həm də elm və təhsildir. Bir neçə il bundan əvvəl Sizin savadlı millət, “qara qızıl”ı insan kapitalına çevirmək ilə bağlı konsepsiyanız var idi. Azərbaycanda elm və təhsil sahəsində mövcud vəziyyəti necə dəyərləndirirsiniz? Hansı addımlar atılmalıdır? Sizin gənclərə bu baxımdan tövsiyəniz nədən ibarət olardı?*

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, biz artıq struktur dəyişiklikləri də etdik, Elm və Təhsil Nazirliyi yaradıldı. Nə üçün? Çünki faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Elmlər Akademiyası təbii ki, artıq uzun illərdir fəaliyyət göstərir və mən də yubiley tədbirlərində iştirak etmişəm. Amma, eyni zamanda, dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə

məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik.

Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsi, - onların bir neçəsi xarici tərəfdaşlarla birlikdə, - yaradılıb. Məsələn, ikisi Rusiya, biri Fransa, biri Türkiyə, biri də İtaliya ilə – beş. Qalanını da özümüz, o cümlədən Xankəndi Universiteti. Bu, dövlətin niyyətidir, dövlətin siyasətidir. Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq.

Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu “Yüksəliş” proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir. Mən 22 ildir bu kürsüdəyəm. Bütün bu hadisələr mənim gözümün qabağında baş verir və həm yaxşı, həm də pis təcrübə, hamısı məndədir. Mən onun hamısını yaşamışam və bu da mənə bu gün bu sözləri deməyə imkan verir. Kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi - çünki bunlar olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır. Əlbəttə, hər birimiz ölkəmiz üçün ancaq yaxşı günlər arzulayırıq və verdiyiniz bu sual da çox vaxtında verilən sualdır. Bu da ayrıca bir danışığın, yəni söhbətin mövzusudur. Ancaq hesab edirəm ki, biz düzgün yoldayıq və islahatlar davam etdiriləcək.

**Nadia Cani:** *Cənab Prezident, ötən il mənim “Kəskin Səyahət” Beynəlxalq Qrupunun göndərdiyi bir səyyahdan müsahibə götürmək fürsətim oldu. O və bir sıra digər şəxslər bölgəni təşviq etmək, yenidənqurma layihələrini müşahidə etmək məqsədilə Laçın, Xankəndi və Ağdamda əsas məkanlara səfər etdilər, yenidənqurma layihələrinə xüsusi maraq göstərdilər. Azərbaycan turizm imkanlarını əlavə olaraq necə daha səmərəli təşviq edə, zəngin mədəniyyətini necə nümayiş etdirə, turistləri nəinki paytaxta, eləcə də azad edilmiş ərazilərə necə cəlb edə bilər?*

**Prezident İlham Əliyev:** Bəli, COVID-dən əvvəl bizdə turizm sahəsində kifayət qədər böyük artım var idi. Gələnlərin sayı hər il artırdı, sonra birdən-birə kəsildi. İndi biz həmin rəqəmləri bərpa edirik. Düşünürəm ki, bir neçə meyar Azərbaycanı cəlbedici edə bilər. Birincisi, təbii ki, təhlükəsizlik və sabitlikdir. Bu gün dünyada insanlar səyahət etmək qərarına gəldikdə onlar hər zaman ölkənin təhlükəsizliyini və sabitliyini nəzərə alırlar. Bir sözlə, Azərbaycan qlobal səviyyədə ən təhlükəsiz məkanlardan biri hesab edilə bilər.

İkincisi, onun yerləşməsidir. Ölkəmiz həm Asiyaya, həm də Avropaya yaxındır, bir növ onların qovuşduğu yerdədir. Əlbəttə ki, meyarlar sırasında zəngin mədəniyyət, tarixi abidələr, təbiətin müxtəlifliyi, doqquz iqlim tipi və inkişaf etmiş paytaxt var. Özü də təkcə paytaxt deyil, eləcə də bir çox turizm məkanları, doqquz beynəlxalq hava limanı, dəmir yolları və təbii ki, iqlim var. Bakıda və həmçinin bölgələrdəki iqlimi çox bəyənirəm. Xizəksürmə turizmi, çimərlik turizmi, piyada gəzinti, meşələr və xüsusən də nadir və bənzərsiz mətbəxi də əlavə etmək olar. Ölkəmizin çox qonaqpərvər, əcnəbiləri sevən insanları var. Bilirəm ki, Azərbaycanda yaşayan bir çox əcnəbilər özlərini evlərindəki kimi hiss edir.

Bir sözlə, ölkədə çox müsbət mühit, çox pozitiv insanlar var. Azərbaycan xalqı çox mehriban xalqdır. Ölkəmizə ilk dəfə səfər edən qonaqların, demək olar ki, hamısı Bakının gözəlliyi haqqında danışır. Görürük, onların çoxu deyir ki, insanlar gülərüzdür. Bir çox insanın üzündə təbəssüm var. Cəmiyyətdə yaxşı əhvali-ruhiyyə mövcuddur. Biz daha çox turist cəlb etmək üçün daha fəal olmalıyıq. Biz müxtəlif tədbirləri təşkil etməklə, bunları yerli səviyyədə və beynəlxalq arenada həyata keçirməyə çalışırıq. Misalçün, yarım milyard auditoriyası olan bir nömrəli idman tədbiri - Formula 1 yarışları təşkil olunur. Artıq on ildir ki, bu yarışlar keçirilir. Turistlərin də sayı ilbəil artır.

Bu il, iki aydan sonra Şahdağda ilk dəfə olaraq Xizəksürmə üzrə dünya çempionatı keçiriləcək. Həmin istirahət guşəsini ən yüksək beynəlxalq səviyyədə inkişaf etdirmək həm də bizim hədəfimizdir. Hazırda enişlərin təxminən 50 kilometri artıq hazırdır. Məsafə, ola bilsin, 55 və ya 60 kilometr olacaq. Dünya çempionatı Şahdağda ilk dəfə keçiriləcək. Ölkəmiz Beynəlxalq Xizək Federasiyasının təqviminə artıq daxil edilib. Azərbaycan cənub ölkəsidir. Çimərliklər buradan uzaqda deyil. Öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan “Sea Breeze” böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. Bir məkanda həm mehmanxana, həm əyləncə, həm yaşayış yerləri və digər imkanlar mövcuddur.

Qarabağ və Zəngəzura gəldikdə, bura cənnətdir. Həqiqətən təbii cənnətdir. Bir sözlə, orada turizmin inkişafı prioritetlərdən biridir. Şuşada və Laçında bir sıra mehmanxanalar artıq var. Biri Zəngilanda tikilir. Bu yaxınlarda, Kəlbəcərdə, İstisuda mehmanxana açılacaq. Ola bilsin, gələn il və hətta bu il Xankəndidə yeni mehmanxana açıla bilər. Bu, turizm üçün mühüm məkan olacaq. Bununla yanaşı, Qəbələ, Lənkəran, Gəncə və

bir çox digər məkanlar kimi ənənəvi turizm yerləri də mövcuddur.

Çox məsələlər hava xətlərindən asılıdır. Bu sahədə, həmçinin bir çox islahatlar həyata keçirilir. Hazırda nəinki milli hava şirkətimiz, bir çox digər beynəlxalq hava şirkətləri, eləcə də büdcəli hava şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Uçuşların coğrafiyası genişlənir. Bəli, quru sərhədlər indiyə qədər bağlı qalır. Düşünürəm ki, bunun səbəbi anlaşılandır. Bununla belə, əminəm ki, turist sayını iki dəfə artırmaq, onu 5-6 milyona çatdırmaq tamamilə real görünür.

Planlaşdırdığımız işlər arasında Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni terminalın tikintisi də var. Ötən il üçün rəqəmləri hələ almamışam, amma düşünürəm ki, sərnişinlərin sayı 7 milyonu ötəcək. Bizə 15 milyonluq, ola bilsin, 20 milyonluq sərnişin tutumlu terminal lazım olacaq. Bir sözlə, biz burada yeni terminalın yeni konsepsiyası üzərində artıq işləyirik.

Bütün bunlar və öncədən qeyd etdiyim kimi, müharibənin bitməsi meyarı tamamilə yeni vəziyyət yaradır. Bu yük çiyinlərimizdən götürülüb. Bu yükü biz 30 ildən artıq daşımışıq. Beynəlxalq münasibətlər, biznes, səyahət və turizm baxımından bu, tamamilə yeni vəziyyətdir. Beləliklə, mən böyük perspektivlər görürəm. Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq. Bəlkə də bir şey söyləmək vaxtından əvvəl olardı. Lakin istirahət məqsədilə turizm artıq mövcuddur: Naftalan, Qalaaltı və ya Duzdağ və bir çox digər yerlər var. Lakin səhiyyə turizminə də nail olmaq mümkündür. Planlar çoxdur. Ümid edirik ki, onların hamısı həyata keçiriləcək.

**Murad Hüseynov:** *Cənab Prezident, Siz söylədiniz, çoxlu planlar var və bildirdiniz ki, onlar həyata keçiriləcək. Biz bu qədər vaxtınızı aldığımıza görə Sizdən üzr istəyirik və həmkarların icazəsi ilə son sualımı verim. Dinc, gözəl Azərbaycan qurmaqda olduğunuzu Siz təsvir etdiniz və bu işin görülməsi üçün yerlərdə yaxşı icraçılar lazımdır. Sizin dövlət məmurları, icra başçıları ilə bağlı ötən il verdiyiniz tapşırıqların hamısı cəmiyyətdə geniş müzakirə olundu. Sizin fikrinizcə, müasir dövrün dövlət məmuru, icra başçısı necə olmalıdır? Eləcə də biz işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri institutunun fəaliyyətini görürük. Bu fəaliyyət gələcəkdə bütün respublika ərazisinə sirayət edə bilərmi? Bununla bağlı hansısa planlar varmı?*

güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı. 2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, Ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın.

## *Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında İlham Əliyevin nitqi*

-Xanımlar və cənablar, sabahınız xeyir.

İlk növbədə, bütün qonaqlarımızı salamlayıram. Cənab komissarı xüsusi salamlamaq istəyirəm, çünki o, indi gəlib və istirahətə ehtiyacı var. Ancaq buna baxmayaraq, o, bizimlə birlikdədir. Biz onun Brüsseldə iş qrafikinin sıx olmasına baxmayaraq, bu gün bu vacib tədbirdə iştirak etməsini yüksək qiymətləndiririk. Sizin iştirakınız Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlığı bir daha nümayiş etdirir.

Hər zaman olduğu kimi, biz Məşvərət Şurasının illik iclasında ötən iclasdan bəri görülmüş işləri nəzərdən keçirir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlarımızı planlaşdırırıq.

Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq.

Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması həqiqətən də gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq. Hər dəfə biz məhz irəliləyişdən danışırıq.

Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik.

Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir.

Sonuncu dəfə çıxışım zamanı qaz təchizatının coğrafiyasının genişləndirilməsi ilə bağlı planlarımıza toxunmuşdum. Gördüyünüz kimi, bu planlar artıq reallaşdırılıb. Hesab edirəm ki, digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır.

Beləliklə, Suriyaya 1,5 milyard kubmetr həcmində Azərbaycan qazının tədarükü vasitəsilə biz əhalinin daha yaxşı qorunmasına, biznes fəaliyyəti üçün daha geniş imkanların yaranmasına və müəssisələrin normal fəaliyyətinin təmin edilməsinə töhfə verdik. Çünki hamıya yaxşı məlumdur ki, elektrik enerjisi olmadan heç bir inkişaf əldə etmək mümkün deyil. Bu, həm Suriya, həm region, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki qaz təchizatının şaxələndirilməsi hər bir ölkə kimi, bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Biz qaz qəbul edən ölkələrin şaxələndirmə ilə bağlı üzləşdikləri çətinlikləri anlayırıq. Lakin, eyni zamanda, istehsalçı ölkələr üçün də şaxələndirmə mühüm amildir.

Yenə də görürük ki, istehsalçı Azərbaycan, tranzit ölkələr və istehlakçılar arasında əməkdaşlıqda müsbət dinamika müşahidə olunur. Hesab edirəm ki, məhz bu birlik, birgə maraqlar və qarşılıqlı fayda prinsipi on ildən artıq davam edən uğurlu yolumuzun əsas amilidir.

Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır.

Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. Hasilatın ötən il başlanacağı gözlənilirdi, lakin bu, baş vermədi. Bununla belə, hasilatın məhz cari ildə başlanacağına əminik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda, "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir.

Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağımızla bağlı olaraq deyə bilərəm ki, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək. Daha əvvəl qeyd etdiyim kimi, bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir.

Artıq bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsi də yaşıl gündəlikdir və bu istiqamətdə də müsbət nəticələr barədə məlumat verə bilərik. Cari ilin yanvarında regionda indiyədək ən böyük külək elektrik stansiyasının - 240 meqavat gücündə obyektin açılışı olub. Layihə "ACWA Power" tərəfindən maliyyələşdirilib və həyata keçirilib.

Bu, bizim artıq malik olduğumuz potensiala əlavə edilən yeni yaşıl enerji mənbəyidir. 2023-cü ildə "Masdar" şirkəti 230 meqavat gücündə Günəş elektrik stansiyası inşa edib. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışını gözləyirik. Burada bizdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcuddur. Yerli şirkətlər dedikdə, əlbəttə ki, SOCAR-ı nəzərdə tuturam. Lakin təkcə SOCAR yox, həmçinin özəl şirkətlər alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıb, çünki burada böyük potensial və bazarda tələbat var.

Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir.

Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır.

Vurğulamaq istəyirəm ki, bunlar anlaşma memorandumları deyil, müqavilələrdir, beləliklə, tərəflərin müqavilə öhdəlikləri var. Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik.

Bütün bunlar mənim və ABŞ-nin Vitse-prezidenti tərəfindən imzalanan Amerika Birləşmiş Ştatları və

Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasından sonra artıq üzərində iş gedən layihələrdir. Bu Xartiya bir çox sahələri, o cümlədən süni intellekt, enerji, bağlılıq və bir çox digər məsələləri əhatə edir.

Dünyanın ən qüdrətli dövləti Amerika Birləşmiş Ştatlarının strateji tərəfdaşımız kimi çıxış etməsini nəzərə alaraq bizim planlarımızın gerçəkləşməsi tamamilə real görünür. Biz hidroelektrik stansiyalarına sərmayə yatırırıq. Bu layihələr Ermənistanın işğalından azad edilmiş ərazilərdə icra olunur. Hələ ki, 307 meqavat gücündə hidroelektrik stansiyalar artıq sistemimizə qoşulub. Planlarımız bunu 2-3 ilə təqribən ikiqat artırmaqdır. Bu, bizə əlavə potensial və ucuz enerji verəcək.

Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, - biz hazırda bu məsələni araşdırırıq, - qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir. Müzakirə etdiyimiz məsələyə qayıdaraq qeyd edim ki, hətta COP29 çərçivəsində - bu iqlim konfransına ev sahibliyi etdiyimiz zaman da bildirmişdim, baxmayaraq ki, o dövrdəki tendensiya ilə tam uyğun olmadığını anlayırdım, faydalı qazıntı yanacaq növlərini nəzərə almamaq mümkün deyil. Əgər siz qazıntı yanacağını nəzərə almırsınızsa, bu o deməkdir ki, siz xəyallarla yaşayırsınız.

Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin, eyni zamanda, biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin səylərinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, bütün bu məsələlər bugünkü tədbirdə müzakirə olunacaq və biz yaxşı həll yolları tapacağıq.

Həmçinin vurğulamaq istərdim ki, Azərbaycan enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu da oynayır. Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik.

Avropa enerji bazarında səylərimizlə bağlı məsələlərə gəlincə, düşünürəm auditoriyanın bilməyi vacib olardı ki, biz bu yaxınlarda Türkiyədə ən böyük elektrik stansiyalarından birini əldə etmişik - 870 meqavat gücündə. Ötən ay Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalandı. Beləliklə, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır.

Həmçinin bizim üçün mühüm nailiyyətlər, mühüm amillər arasında İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin əldə olunması var. Əgər Egey dənizinin Türkiyə sahillərində artıq sahib olduğumuz 12 milyon tonluq neftayırma müəssisəsini də əlavə etsək, ümumilikdə Aralıq və Egey dənizlərində 22 milyon ton neftayırma potensialımız olacaq ki, bu da öz növbəsində sözsüz ki, neft məhsullarının davamlı təchizatını təmin etməyə kömək edəcək və minlərlə yanacaqdoldurma stansiyası bu razılaşmanın bir hissəsidir.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, çox məşğul olacaqsınız, sadəcə başa düşülməsi mühüm olan əsas məqamları, planlarımızı, görülmüş işləri və görülməsi planlaşdırılan işləri vurğulamaq istədim. Əminəm ki, iclas hər zaman olduğu kimi səmərəli, konstruktiv və nəticəyönümlü olacaq.

Təşəkkür edirəm.

## *"Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda İlham Əliyevin nitqi*

-Hörmətli xanımlar və cənablar, sabahınız xeyir. Bütün qonaqlarımızı salamlayır və Forumun bütün iştirakçılarına xoş gəlmisiniz deyirəm. İlk növbədə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrləri xanım Vike-Freyberqaya və cənab Serageldinə, İdarə Heyətinin üzvlərinə, həmçinin Mərkəzin bütün kollektivinə bu illər ərzində nümayiş etdirdikləri yüksəksəviyyəli fəaliyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi genişspektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir.

Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə həqiqətən böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir.

Deyərdim ki, qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların – prezidentlərin, baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar,

qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər.

Builki Forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququ çərçivəsində həyata keçirdik.

Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur.

Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, – müasir dedikdə son onillikləri nəzərdə tuturam, – nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir – sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur.

Zənnimcə, dünyada hazırda baş verənlər – yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur.

Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk.

Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir.

Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, – israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi.

Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda – heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə, nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq.

Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin – neft, qaz, neft məhsulları, neftkimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək.

Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh əldə edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini – əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq. Vaxtınızı çox almamaq üçün çıxışımı burada yekunlaşdıracağam, yalnız təcrübəmizin olduğu məsələlərə və bu gün beynəlxalq gündəmin birnömrəli mövzularına toxunmaq istədim.

Son olaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığımıza qayıdaraq, bir daha onları təbrik etmək və COP29-un uğurlu keçirilməsinə verdikləri töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ondan çox panel müzakirəsi təşkil etmiş, çoxsaylı müzakirələrdə iştirak etmiş və COP29-un uğuruna fəal töhfə vermişdir.

Bu il biz daha bir vacib qlobal beynəlxalq tədbir – Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini və bütün kollektivini Forumda fəal iştiraka dəvət edirəm. Ümid edirəm ki, bir neçə aydan sonra Bakıda sizlərlə görüşüb dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi kimi ortaq məqsədimizə dair müzakirələrimizi davam etdirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.318

**D Ö V L Ə T İ D A R Ə Ç İ L İ Y İ**
**P U B L I C A D M I N I S T R A T I O N**

UOT 321: 001.11; UOT 328; 342.5; 351/354

**ZÜRİYƏ QARAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: zuriyagarayeva@gmail.com*

# 2023–2026-CI İLLƏR TÜRKİYƏ SİYASƏTİNDƏ STRUKTUR DƏYİŞİKLİKLƏRİ VƏ PREZİDENTLİK SİSTEMİNİN YENİ MƏRHƏLƏSİ

## Giriş

Müasir dövrdə dövlət idarəetmə sistemlərinin səmərəliliyi siyasi sabitliyin, iqtisadi inkişafın və milli təhlükəsizliyin təmin edilməsində əsas amillərdən biri hesab olunur. Qloballaşma proseslərinin sürətlənməsi, beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin formalaşması, regional münaqişələrin artması və iqtisadi risklərin mürəkkəbləşməsi dövlətlərin idarəetmə modellərinə olan marağı daha da artırmışdır. Bu baxımdan müxtəlif ölkələrdə tətbiq olunan prezidentlik və parlament idarəetmə sistemlərinin üstünlükləri, çatışmazlıqları və praktiki nəticələri siyasi elmdə geniş araşdırılan məsələlər sırasındadır. Türkiyə Respublikası son onillikdə həyata keçirdiyi konstitusion və institusional islahatlarla bu istiqamətdə diqqət mərkəzində olan ölkələrdən birinə çevrilmişdir. 2017-ci ildə keçirilmiş referendum nəticəsində qəbul edilən konstitusiya dəyişiklikləri ölkədə parlament idarəetmə modelindən prezidentlik sisteminə keçidi təmin etmiş, 2018-ci ildən etibarən yeni idarəetmə mexanizmi tam şəkildə tətbiq olunmağa başlamışdır. Bu dəyişikliklər dövlət hakimiyyətinin təşkilində yeni yanaşmanın formalaşmasına, icra hakimiyyətinin səlahiyyətlərinin genişlənməsinə və qərarvermə proseslərinin daha çevik xarakter almasına səbəb olmuşdur. Prezidentlik sisteminə keçid Türkiyənin siyasi inkişaf tarixində mühüm mərhələ hesab edilir. Yeni modelin tərəfdarları bu sistemin dövlət idarəçiliyində operativliyi artırdığını, bürokratik maneələri azaltdığını və strateji qərarların qəbulunu sürətləndirdiyini vurğulayırlar. Digər tərəfdən, siyasi elmdə aparılan tədqiqatlarda dövlət hakimiyyəti institutları arasında səlahiyyət bölgüsü, parlamentin rolu, siyasi rəqabət mühiti və institusional koordinasiya məsələləri də geniş müzakirə edilir. Bu səbəbdən prezidentlik sisteminin real nəticələrinin qiymətləndirilməsi yalnız nəzəri deyil, həm də praktiki baxımdan xüsusi əhəmiyyət daşıyır.

2023-2026-cı illər Türkiyənin siyasi həyatında mühüm hadisələrlə yadda qalmışdır. Bu dövrdə keçirilmiş prezident və parlament seçkiləri, yerli seçkilər, təbii fəlakətlərin yaratdığı idarəetmə çağırışları, regional və qlobal siyasətdə müşahidə olunan dəyişikliklər, eləcə də ölkənin iqtisadi və sosial gündəmində baş verən proseslər prezidentlik sisteminin fəaliyyətinin müxtəlif istiqamətlərdən qiymət-

ləndirilməsinə imkan yaratmışdır. Sözügedən dövr həm dövlət idarəetmə modelinin dayanıqlılığının, həm də onun dəyişən siyasi şəraitə uyğunlaşma qabiliyyətinin öyrənilməsi üçün zəngin empirik material təqdim edir. 2023-cü il prezident və parlament seçkiləri yeni idarəetmə modelinin fəaliyyətinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Seçkilərin nəticələri göstərmişdir ki, Türkiyə cəmiyyətində siyasi sabitlik, təhlükəsizlik və davamlı inkişaf amilləri seçici davranışına təsir edən əsas faktorlar sırasında qalmaqdadır. Eyni zamanda həmin ildə baş vermiş Kahramanmaraş zəlzələsi dövlət institutlarının böhran şəraitində fəaliyyət imkanlarını və idarəetmə mexanizmlərinin effektivliyini nümayiş etdirmişdir. 2024-cü ildə keçirilmiş yerli seçkilər ölkənin siyasi həyatında yeni dinamikanın formalaşdığını ortaya qoymuşdur. Yerli idarəetmə institutlarının fəaliyyətinin geniş ictimai diqqət mərkəzinə çıxması, böyük şəhərlərdə siyasi rəqabətin intensivləşməsi və sosial-iqtisadi amillərin seçici davranışına təsiri Türkiyə siyasətində yeni tendensiyaların yaranmasına səbəb olmuşdur. Bu proseslər ölkədə siyasi plüralizmin və demokratik rəqabətin davamlılığını göstərən mühüm göstəricilərdən biri kimi qiymətləndirilə bilər. 2025–2026-cı illərdə isə Türkiyənin regional və beynəlxalq siyasətdə artan fəallığı diqqəti cəlb etmişdir. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişləndirilməsi, enerji təhlükəsizliyi sahəsində həyata keçirilən layihələr, nəqliyyat-kommunikasiya dəhlizlərinin inkişafı və regional diplomatiya istiqamətində atılan addımlar Ankaranın beynəlxalq mövqeyinin güclənməsinə xidmət etmişdir. Bu proseslər prezidentlik sisteminin sürətli qərarvermə imkanlarının və vahid siyasi koordinasiya mexanizminin praktiki nəticələrinin daha aydın müşahidə olunmasına şərait yaratmışdır. Məqalənin əsas məqsədi 2023–2026-cı illər ərzində Türkiyədə prezidentlik sisteminin siyasi, institusional və geosiyasi təsirlərini kompleks şəkildə təhlil etməkdən ibarətdir. Tədqiqat çərçivəsində seçki prosesləri, dövlət idarəçiliyinin effektivliyi, yerli idarəetmə institutlarının fəaliyyəti, xarici siyasət prioritetləri və siyasi sistemdə müşahidə olunan transformasiya meyilləri araşdırılır. Məqalədə həm nəzəri yanaşmalardan, həm də müasir siyasi proseslərin müqayisəli təhlilindən istifadə edilərək Türkiyədə prezidentlik sisteminin inkişaf istiqamətləri və gələcək perspektivləri qiymətləndirilir.

## Prezidentlik sisteminin nəzəri-konseptual əsasları

Dövlət idarəetmə sistemləri siyasi hakimiyyətin təşkili, qərarların qəbulu və icrası mexanizmlərini müəyyən edən əsas institutlardan biridir. Müasir dövrdə dövlətlərin qarşılaşdığı təhlükəsizlik, iqtisadiyyat, enerji və sosial inkişaf kimi mürəkkəb məsələlər idarəetmə sistemlərinin səmərəliliyini daha da aktuallaşdırmışdır. Buna görə də siyasi elmdə müxtəlif idarəetmə modellərinin üstünlükləri və çatışmazlıqları ilə bağlı müzakirələr daim davam edir. Prezidentlik, parlament və yarımprezidentlik sistemləri müasir dövlətlərin ən geniş yayılmış idarəetmə formaları hesab olunur və hər bir modelin siyasi proseslərə təsiri fərqli xarakter daşıyır. Prezidentlik sistemi ilk növbədə hakimiyyət bölgüsü prinsipinə əsaslanan idarəetmə modeli kimi tanınır. Bu sistemdə prezident həm dövlət başçısı, həm də icra hakimiyyətinin rəhbəri funksiyasını həyata keçirir. Prezident birbaşa xalq tərəfindən seçildiyi üçün yüksək siyasi legitimliyə malik olur və hökumətin fəaliyyəti parlamentdə formalaşan koalisiyalardan asılı vəziyyətə düşmür. Bu xüsusiyyət prezidentlik sisteminin ən mühüm üstünlüklərindən biri hesab edilir. Xüsusilə siyasi parçalanmanın yüksək olduğu ölkələrdə güclü icra hakimiyyəti dövlət idarəçiliyində davamlılığın qorunmasına və uzunmüddətli strateji proqramların həyata keçirilməsinə şərait yaradır [17]. Prezidentlik

sisteminin formalaşmasında ABŞ təcrübəsi xüsusi yer tutur. Sonrakı dövrlərdə Latın Amerikası, Asiya və Afrikanın müxtəlif ölkələrində də bu modelin müxtəlif formaları tətbiq edilmişdir. Bununla yanaşı, hər bir ölkənin siyasi mədəniyyəti, partiya sistemi və tarixi inkişaf xüsusiyyətləri prezidentlik institutunun fəaliyyətinə birbaşa təsir göstərmişdir. Məhz buna görə siyasi elm nümayəndələri hesab edirlər ki, hər hansı idarəetmə modelinin uğuru yalnız konstitusion quruluşdan deyil, həm də siyasi institutların inkişaf səviyyəsindən asılıdır [10].

Prezidentlik sisteminin tərəfdarları bu modelin qərarvermə proseslərini sürətləndirdiyini, dövlət idarəçiliyində vahid siyasi məsuliyyət formalaşdırdığını və milli təhlükəsizlik məsələlərində daha çevik fəaliyyət göstərməyə imkan verdiyini qeyd edirlər. Xüsusilə beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliyin artdığı, regional münaqişələrin genişləndiyi və iqtisadi risklərin yüksəldiyi dövrlərdə operativ qərarvermə dövlətlərin rəqabət qabiliyyətini artıran amillərdən biri kimi qiymətləndirilir. Bu baxımdan güclü icra hakimiyyətinə malik idarəetmə modelləri bir sıra dövlətlər tərəfindən siyasi sabitliyin təmin olunması vasitəsi kimi qəbul edilir [8]. Bununla yanaşı, prezidentlik sistemi ilə bağlı müxtəlif nəzəri yanaşmalar da mövcuddur. Juan Linz prezidentlik sistemlərinin bəzi hallarda siyasi qütbləşməni gücləndirə biləcəyini və müxtəlif hakimiyyət institutları arasında rəqabəti artıracağını qeyd etmişdir. Müəllifin fikrincə, həm prezidentin, həm də parlamentin birbaşa xalq legitimliyinə malik olması müəyyən siyasi situasiyalarda fikir ayrılıqlarını dərinləşdirə bilər [9]. Lakin sonrakı tədqiqatlar göstərmişdir ki, bu risklər daha çox siyasi institutların yetkinlik səviyyəsi, hüquqi mexanizmlərin effektivliyi və siyasi mədəniyyətin xüsusiyyətləri ilə əlaqədardır. Buna görə də müasir siyasi elmdə prezidentlik sisteminin uğuru və ya uğursuzluğu yalnız idarəetmə modelinin özü ilə deyil, onun fəaliyyət göstərdiyi institusional mühitlə birlikdə qiymətləndirilir [16].

Türkiyədə prezidentlik sisteminə keçid də məhz dövlət idarəçiliyinin səmərəliliyinin artırılması məqsədi ilə həyata keçirilmişdir. Uzun illər parlament idarəetmə modeli əsasında fəaliyyət göstərən ölkədə müxtəlif dövrlərdə koalisiya hökumətlərinin yaratdığı siyasi qeyri-sabitlik, hökumət dəyişikliklərinin tez-tez baş verməsi və qərarvermə proseslərində müşahidə olunan ləngimələr idarəetmə sisteminin yenilənməsi ilə bağlı müzakirələri gücləndirmişdir. Xüsusilə 1990-cı illərdə siyasi sistemdə müşahidə olunan parçalanma və iqtisadi böhranlar daha çevik idarəetmə modelinə ehtiyac barədə fikirləri ön plana çıxarmışdır [14]. 2017-ci ildə keçirilmiş referendum nəticəsində qəbul edilən konstitusiya dəyişiklikləri Türkiyədə yeni idarəetmə modelinin hüquqi əsaslarını formalaşdırmışdır. 2018-ci ildən etibarən tətbiq olunan prezidentlik sistemi çərçivəsində Baş nazir institutu ləğv edilmiş, icra hakimiyyəti vahid mərkəzdə cəmləşdirilmiş və dövlət idarəetməsində yeni institusional mexanizmlər yaradılmışdır. Bu dəyişikliklər Türkiyənin siyasi sistemində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilmişdir.

Nəticə etibarilə, prezidentlik sistemi müasir dövrdə dövlət idarəetməsinin ən çox müzakirə olunan modellərindən biri olaraq qalmaqdadır. Onun fəaliyyətinin obyektiv qiymətləndirilməsi üçün nəzəri yanaşmalarla yanaşı, konkret ölkələrin təcrübələrinin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Türkiyənin 2023–2026-cı illərdə keçdiyi siyasi inkişaf mərhələsi prezidentlik sisteminin praktik nəticələrinin təhlili baxımından zəngin tədqiqat materialı təqdim edir və məqalənin növbəti hissələrində məhz bu proseslər ətraflı şəkildə araşdırılır.

## 2023-cü il seçkiləri və prezidentlik sisteminin legitimlik sınağı

2023-cü il Türkiyənin müasir siyasi tarixində ən mühüm mərhələlərdən biri hesab

olunur. Həmin il keçirilən prezident və parlament seçkiləri yalnız növbəti siyasi hakimiyyətin müəyyənləşdirilməsi baxımından deyil, həm də 2018-ci ildən tətbiq edilən prezidentlik sisteminin fəaliyyətinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı. Yeni idarəetmə modelinin ilk tam siyasi dövrü məhz bu seçkilərlə yekunlaşdığından həm ölkə daxilində, həm də beynəlxalq siyasi dairələrdə seçkilərin nəticələrinə böyük maraq göstərilirdi. Seçkilər mürəkkəb daxili və beynəlxalq şəraitdə keçirilirdi. Bir tərəfdən, dünya iqtisadiyyatında müşahidə olunan qeyri-sabitlik, enerji bazarlarında qiymət dəyişiklikləri və qlobal inflyasiya prosesləri Türkiyə iqtisadiyyatına da təsir göstərirdi. Digər tərəfdən, ölkə 2023-cü ilin fevral ayında baş vermiş Kahramanmaraş zəlzələsinin ağır nəticələrinin aradan qaldırılması prosesi ilə üz-üzə qalmışdı. Buna baxmayaraq, seçki kampaniyası yüksək siyasi fəallıq şəraitində keçmiş və müxtəlif siyasi qüvvələr ölkənin gələcək inkişaf modeli ilə bağlı fərqli baxışlar irəli sürmüşdülər [13].

Prezident seçkilərində hakim Cümhur İttifaqının namizədi Rəcəb Tayyib Ərdoğan ilə müxalifətin vahid namizədi Kamal Kılıçdaroğlu arasında ciddi rəqabət müşahidə olunurdu. İlk turun nəticələri göstərdi ki, Türkiyə cəmiyyətində müxtəlif siyasi baxışlar mövcud olsa da, seçicilərin böyük hissəsi ölkənin gələcək inkişafı ilə bağlı qərar vermək üçün seçkilərdə fəal iştirak etmişdir. İkinci turda Rəcəb Tayyib Ərdoğanın yenidən prezident seçilməsi prezidentlik sisteminin siyasi legitimliyinin davam etdiyini göstərən mühüm amillərdən biri kimi qiymətləndirilmişdir [23]. Parlament seçkilərinin nəticələri də diqqətçəkən olmuşdur. Cümhur İttifaqının parlamentdə çoxluğu qoruyub saxlaması icra hakimiyyəti ilə qanunverici hakimiyyət arasında siyasi koordinasiyanın davam etməsinə imkan yaratmışdır. Bu amil prezidentlik sisteminin funksional fəaliyyətinin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edirdi. Çünki müxtəlif ölkələrin təcrübəsi göstərir ki, prezident və parlament arasında kəskin siyasi ziddiyyətlərin yaranması idarəetmə proseslərinə mənfi təsir göstərə bilər. Türkiyədə isə seçkilərin nəticələri siyasi sistemin fəaliyyətində müəyyən sabitliyin qorunmasına şərait yaratmışdır [17].

2023-cü il seçkilərinin mühüm xüsusiyyətlərindən biri də seçici davranışında sabitlik amilinin ön plana çıxması idi. Seçkiöncəsi dövrdə iqtisadi məsələlər geniş müzakirə olunsa da, ictimai rəy sorğuları göstərirdi ki, milli təhlükəsizlik, dövlət idarəçiliyində davamlılıq və regional proseslərdə Türkiyənin mövqeyi seçicilərin qərarlarına təsir edən əsas faktorlar sırasındadır. Xüsusilə Rusiya-Ukrayna müharibəsinin davam etdiyi, Yaxın Şərqdə geosiyasi qeyri-müəyyənliyin artdığı bir şəraitdə Türkiyənin regional güc kimi mövqeyinin qorunması seçki gündəminin mühüm istiqamətlərindən biri olmuşdur [18]. Seçkilər eyni zamanda prezidentlik sisteminin siyasi rəqabəti məhdudlaşdırmadığını da göstərdi. Müxalifətin geniş koalisiya şəklində seçkilərdə iştirak etməsi və seçki kampaniyasının yüksək rəqabət şəraitində keçməsi ölkədə siyasi proseslərin dinamik xarakterini nümayiş etdirdi. Nəticələr fərqli siyasi qüvvələrin cəmiyyət daxilində müəyyən sosial dayaqlara malik olduğunu və seçki institutunun siyasi legitimliyin formalaşmasında mühüm rol oynadığını bir daha təsdiqlədi [13]. 2023-cü il seçkilərinin nəticələri prezidentlik sisteminin Türkiyədə artıq tam şəkildə formalaşmış idarəetmə modeli kimi fəaliyyət göstərdiyini ortaya qoydu. Seçkilərdən sonra formalaşan siyasi mənzərə göstərirdi ki, dövlət idarəçiliyində sabitliyin qorunması, strateji qərarların davamlı şəkildə həyata keçirilməsi və xarici siyasətdə vahid kursun saxlanılması baxımından prezidentlik sistemi öz fəaliyyətini davam etdirir. Bununla yanaşı, iqtisadi inkişaf, sosial rifah və institusional modernləşmə kimi məsələlər növbəti dövrdə də siyasi gündəmin əsas istiqamətləri olaraq qalırdı.

Beləliklə, 2023-cü il seçkiləri Türkiyədə prezidentlik sisteminin ilk genişmiqyaslı legitimlik sınağı kimi qiymətləndirilə bilər. Seçkilərin nəticələri yeni idarəetmə modelinin siyasi sabitliyin qorunmasına xidmət etdiyini göstərməklə yanaşı, ölkənin gələcək inkişaf mərhələlərinin də bu sistem çərçivəsində formalaşacağını ortaya qoymuşdur.

## 2024-cü il yerli seçkiləri və siyasi sistemdə yeni dinamika

2024-cü il martın 31-də Türkiyədə keçirilmiş yerli seçkilər ölkənin siyasi həyatında mühüm hadisələrdən biri olmuşdur. Bu seçkilər təkcə bələdiyyə rəhbərlərinin və yerli idarəetmə orqanlarının müəyyənləşdirilməsi baxımından deyil, həm də 2023-cü il prezident və parlament seçkilərindən sonra formalaşmış siyasi mənzərənin qiymətləndirilməsi nöqteyi-nəzərindən xüsusi əhəmiyyət daşıyırdı. Yerli seçkilərin nəticələri Türkiyə cəmiyyətində siyasi rəqabətin davam etdiyini, seçicilərin müxtəlif səviyyələrdə fərqli siyasi seçimlər etdiyini və yerli idarəetmə institutlarının ölkənin siyasi sistemində mühüm rol oynadığını bir daha nümayiş etdirdi. Türkiyənin siyasi təcrübəsində yerli seçkilər həmişə xüsusi yer tutmuşdur. Böyük şəhərlər ölkənin iqtisadi, sosial və demoqrafik potensialının əhəmiyyətli hissəsini özündə cəmləşdirdiyindən burada əldə olunan nəticələr ümumi siyasi proseslərə də təsir göstərir. İstanbul, Ankara, İzmir, Bursa və Antalya kimi şəhərlərdə yaşayan əhali ölkənin iqtisadi fəaliyyətinin böyük hissəsini formalaşdırır. Bu səbəbdən yerli seçkilər çox vaxt yalnız bələdiyyə idarəçiliyi ilə bağlı deyil, həm də siyasi qüvvələrin ictimai dəstəyinin ölçülməsi baxımından qiymətləndirilir [19].

2024-cü il seçkilərinin nəticələri göstərdi ki, Türkiyə seçicisi milli və yerli səviyyədə fərqli prioritetlər əsasında qərarlar qəbul edə bilir. Prezident və parlament seçkilərində təhlükəsizlik, xarici siyasət və dövlət idarəçiliyinin ümumi istiqamətləri daha çox ön plana çıxırsa, yerli seçkilərdə şəhər təsərrüfatı, nəqliyyat, sosial xidmətlər, infrastruktur və gündəlik həyatla bağlı məsələlər daha böyük əhəmiyyət daşıyır. Bu xüsusiyyət inkişaf etmiş demokratik sistemlərdə müşahidə olunan seçici davranışı ilə uyğunluq təşkil edir və Türkiyədə siyasi iştirakın yüksək səviyyədə olduğunu göstərir [7]. Yerli seçkilərin nəticələri eyni zamanda Türkiyədə siyasi rəqabətin institusional çərçivədə davam etdiyini nümayiş etdirmişdir. Müxtəlif siyasi qüvvələrin böyük şəhərlərdə və regionlarda fərqli nəticələr əldə etməsi ölkənin siyasi müxtəlifliyinin göstəricisi kimi qiymətləndirilə bilər. Seçkilər nəticəsində formalaşan mənzərə göstərdi ki, həm hakim siyasi qüvvələr, həm də müxalif siyasi partiyalar cəmiyyətin müxtəlif sosial qrupları arasında müəyyən dəstəyə malikdirlər. Bu isə siyasi sistemin dinamik xarakterini qoruyub saxladığını göstərən mühüm amillərdən biridir.

2024-cü il yerli seçkilərinə təsir edən əsas amillərdən biri iqtisadi məsələlər olmuşdur. Son illərdə qlobal iqtisadi proseslərin təsiri, inflyasiya təzyiqləri və yaşayış xərclərinin artması Türkiyə cəmiyyətində sosial-iqtisadi məsələlərə marağı artırmışdır. Xüsusilə böyük şəhərlərdə mənzil bazarı, kommunal xidmətlər, məşğulluq və sosial rifah məsələləri seçki kampaniyalarının əsas mövzularından birinə çevrilmişdir. Bir sıra beynəlxalq araşdırmalar da göstərir ki, iqtisadi amillər yerli seçkilərdə seçici davranışına təsir edən mühüm faktorlar sırasında yer almışdır [12; 6]. Seçkilərin digər mühüm nəticəsi yerli idarəetmə institutlarının siyasi sistemdəki rolunun daha aydın görünməsi olmuşdur. Böyük şəhər bələdiyyələrinin həyata keçirdiyi layihələr, sosial proqramlar və şəhər idarəçiliyi sahəsindəki fəaliyyətlər seçicilərin diqqət mərkəzində olmuşdur. Bu vəziyyət yerli idarəetmələrin yalnız inzibati qurumlar deyil, həm də ictimai siyasətin formalaşmasına təsir göstərən mühüm institutlar olduğunu bir daha nümayiş etdirmişdir. Müasir dövlət idarəçiliyində yerli özünüidarəetmə institutlarının gücləndirilməsi demokratik

idarəetmənin vacib elementlərindən biri hesab olunur və Türkiyə təcrübəsi də bu baxımdan maraqlı nümunə təqdim edir. 2024-cü il yerli seçkiləri prezidentlik sistemi çərçivəsində mərkəzi və yerli idarəetmə münasibətlərinin yeni mərhələyə daxil olduğunu da göstərmişdir. Prezidentlik sistemi dövlət idarəçiliyində vahid icra mexanizmi yaratsa da, yerli idarəetmə orqanları öz fəaliyyətlərini müstəqil şəkildə davam etdirir və əhalinin gündəlik ehtiyaclarının qarşılanmasında mühüm rol oynayırlar. Bu baxımdan yerli seçkilərin nəticələri dövlət idarəçiliyinin müxtəlif səviyyələri arasında əməkdaşlığın və koordinasiyanın əhəmiyyətini bir daha ön plana çıxarmışdır.

Beləliklə, 2024-cü il yerli seçkiləri Türkiyə siyasi sisteminin inkişafında yeni mərhələ kimi qiymətləndirilə bilər. Seçkilər siyasi rəqabətin davamlılığını, yerli idarəetmə institutlarının əhəmiyyətini və seçici davranışının çoxşaxəli xarakterini ortaya qoymuşdur. Eyni zamanda bu proses prezidentlik sisteminin fəaliyyət göstərdiyi siyasi mühitin dinamik və dəyişən xarakterə malik olduğunu nümayiş etdirmiş, ölkənin gələcək siyasi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşımışdır.

### 2026-cı ildə siyasi sistemin inkişaf meyilləri və prezidentlik modelinin yeni mərhələsi

2026-cı il Türkiyənin siyasi həyatında yeni mərhələnin formalaşdığı dövr kimi xarakterizə oluna bilər. Prezidentlik sisteminin tətbiqindən keçən illər ərzində əldə olunan təcrübə dövlət idarəçiliyinin müxtəlif sahələrində öz təsirini göstərmiş, siyasi institutların fəaliyyəti isə yeni şəraitə uyğun şəkildə inkişaf etməyə başlamışdır. Bu mərhələdə əsas diqqət artıq idarəetmə modelinin formalaşdırılmasına deyil, onun effektivliyinin artırılmasına, institusional mexanizmlərin təkmilləşdirilməsinə və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə yönəlmişdir [8; 14]. 2026-cı ildə Türkiyə siyasi gündəminin əsas xüsusiyyətlərindən biri siyasi partiyalar daxilində yenilənmə proseslərinin davam etməsi olmuşdur. Həm hakim siyasi qüvvələr, həm də müxalifət partiyaları gələcək siyasi mərhələyə hazırlıq məqsədilə təşkilati və proqram xarakterli dəyişikliklər həyata keçirmişdir. Bu proses siyasi sistemin dinamik xarakter daşıdığını və ölkədə siyasi rəqabətin institusional əsaslar üzərində inkişaf etdiyini göstərir. Müasir demokratik sistemlərdə siyasi partiyaların yenilənməsi və dəyişən ictimai tələblərə uyğunlaşması siyasi sabitliyin vacib elementlərindən biri hesab olunur [7; 18]. Bu dövrdə Türkiyədə gənc seçici qrupunun siyasi proseslərdə rolunun artması da diqqəti cəlb etmişdir. Son illərdə seçki hüququ qazanan yeni nəsil seçicilər iqtisadi inkişaf, təhsil, texnologiya, məşğulluq və sosial rifah məsələlərinə daha çox diqqət yetirirlər. Bu tendensiya siyasi partiyaları yeni proqramlar hazırlamağa, ictimai kommunikasiya üsullarını yeniləməyə və cəmiyyətlə daha geniş dialoq qurmağa təşviq etmişdir. Nəticədə siyasi rəqabət təkcə ideoloji məsələlər üzərində deyil, eyni zamanda sosial və iqtisadi inkişaf prioritetləri ətrafında da formalaşmağa başlamışdır [13; 19].

точно взрослые, занимающие должности от профсоюзных и комсомольских руководителей до секретарей райкомов и горкомов партии, райисполкомов Азербайджана, Грузии, Армении. Все они относились к Джамо Джамоевичу с большим уважением и почтением, его авторитет был для них непререкаем. Многие мои грузинские приятели до сих пор вспоминают время учебы в БВПШ, профессора Джамо Гаджинского и то, с каким пониманием он ко всем относился. И еще на одном качестве Джамо я хотел бы заострить внимание: я не помню случая, чтобы Джамо мог кому-то льстить, угодничать, стремясь снискать расположение человека только потому, что тот находится на высоком посту. Это свойство гордого, принципиального и самодостаточного человека.

В семье Джамо был удивительно добрым отцом и дедушкой. Его любили внуки, дети и, конечно, моя сестра Жанна. Джамо притягивал к себе словно магнит и родственников, и друзей, и даже сейчас, в каких-то ситуациях, я, мысленно советуюсь с ним, хотя физически его нет рядом. Я счастлив, что находился в близком родстве с Джамо и имел честь с ним общаться. Школу жизни, которую я прошел, во многом помогает мне и сегодня.

Говорят человек жив, пока жива память о нем. Это в полной мере относится и к Джамо. Он сумел оставить после себя светлые и добрые воспоминания.

Приведенные выше воспоминания близких людей, коллег, родственников лишь дополняют официальную биографию Джамо Гаджинского живыми штрихами и позволяют глубже понять масштаб его личности. В них раскрывается человек, который пережив превратности судьбы, сумел сохранить внутреннее достоинство, уважение к людям и верность научному призванию. Именно через такие свидетельства людей, близко его знавших, историческая память обретает человеческое измерение.

**Литература:**

1. Ахмедова М. О чем рассказали старые письма // «Литературный Азербайджан», 1991, № 6
2. Выступление Ильхама Алиева на открытии Мемориала геноцида в Губе. – https://president.az
3. Гаджинская Н.С. У истоков азербайджанской государственности: Джамо-бек Гаджинский // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ildönümünə həsr olunmuş IX Beynəlxalq elmi konfransın materialları. 3-4 may 2018-ci il. – Bakı Slavyan Universitetti. Bakı, 2018.
4. Гаджинский Э. Дж. О кровавых деяниях армянского преступника Андраника в Зангезуре и Шуше. – https://news.day. az
5. Заплетин Г. Газета «Панорама», 26 декабря 1997 г.
6. Полонский Л. Джамо – сын Джамо. – // Бакинский рабочий, 4 мая 1992 г.

***Ключевые слова:*** *профессор Джамо Гаджинский, политические репрессии, социальная стигматизация, историческая память, личность ученого, академическая среда, государственные награды*

**Nahidə Hacınskaya**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi tarix və tarixin tədrisi metodikası kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*

# YADDAŞ VƏ LƏYAQƏT: CAMO HACINSKİNİN HƏYAT YOLU

## XÜLASƏ

Məqalədə professor Camo Hacınskinin həyatı və peşəkar inkişafı araşdırılır. Onun formalaşması sovet cəmiyyətinin tarixındakı olan çətin bir dövrdə baş verib. Məqalədə, dövrün əlaməti olaraq qoyulmuş və "etibarsız mənşə" damğasının yükünü daşımağa məcbur edilmiş Camo Qacınskinin ciddi sosial və peşəkar məhdudiyyətlərlə üzləşdiyi dövrün şərtləri aydın şəkildə təsvir olunur. Bioqrafik materiallara, tarixi kontekstə və professorun öz xatirələrinə əsaslanaraq, məqalə bu maneələrin aradan qaldırılması prosesini və zəhməti, biliyi və işinə sədaqəti sayəsində tanınmağa nail olan bir alimin inkişafını araşdırır. Məqalədə əsas fikir ondan ibarətdir ki, professor Camo Hacınskinin dövlət mükafatları yalnız onun peşəkar keyfiyyətlərinin deyil, həm də keçdiyi yolun — sosial stiqmatizasiya və məhdudiyyətlərdən layiqli hörmət və etirafa qədər olan məsafənin sübutudur

***Açar sözlər:*** *professor Camo Hacınski, siyasi repressiyalar, sosial stiqmatizasiya, tarixi yaddaş, alimin siması, akademik mühit, dövlət mükafatları*

**Naida Hajinskaya**

*Azerbaijan State Pedagogical University,*
*Department of General History and Methods of Teaching History,*
*Associate Professor, Ph.D. in History*

## MEMORY AND DIGNITY: THE LIFE OF JAMO HAJINSKIY

## ABSTRACT

This article explores the life and professional development of Professor Jamo Hajinskiy, whose development occurred during a challenging period in the development of Soviet society. The work clearly outlines the circumstances of the time when, marked by the era and forced to bear the burden of the imposed label of "unreliable origin," Jamo Hajinskiy faced severe social and professional limitations. Drawing on biographical material, historical context, and the professor's own recollections, the article examines the process of overcoming these obstacles and the development of a scholar who achieved recognition through hard work, knowledge, and dedication to his work. A common thread runs through the idea that Professor Jamo Hajinskiy 's state awards are a testament not only to his professional qualities, but also to the path he traversed from social stigma and limitations to well-deserved respect and recognition.

***Keywords:*** *Professor Jamo Hajinskiy, political repression, social stigma, historical memory, personality of the scientist, academic environment, state awards*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.334

D A V A M L I   İ N K İ Ş A F   S İ Y A S Ə T İ
S U S T A I N A B L E   D E V E L O P M E N T   P O L I C Y

UOT 328; 342.5; 351/354

**ÜLKƏR ŞƏFİYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent**

*e-mail: ulkar.shafiyeva@dia.edu.az*

**EROL ƏHMƏDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Rəhbər kadrların yenidən hazırlanması" fakültəsinin magistrantı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İnsan resurslarının idarəedilməsi şöbəsinin böyük məsləhətçisi**

*e-mail: ahmedoverol@gmail.com*

# KÖNÜLLÜLÜK FƏALİYYƏTİ VƏ ONUN GƏNCLƏR SİYASƏTİNƏ TƏSİRİ

## Giriş

Könüllülük fəaliyyəti insan cəmiyyətinin formalaşdığı ilk mərhələlərdən başlayaraq müxtəlif sosial, mədəni və dini proseslərin ayrılmaz hissəsi olmuşdur. Müxtəlif dövrlərdə fərdlərin şəxsi təşəbbüsü, altruizm, xeyriyyəçilik və ictimai məsuliyyət kimi dəyərlərin daşıyıcısı olan könüllülük həm fərdi inkişaf, həm də cəmiyyətin sosial strukturunun möhkəmlənməsi üçün mühüm rol oynamışdır. Müasir dövrdə isə könüllülük təkcə humanist prinsip deyil, həm də dövlət siyasətinin, iqtisadi proseslərin və beynəlxalq əməkdaşlığın təməl komponentlərindən birinə çevrilmişdir.

Tarixin müxtəlif dövrlərində dini missionerlik, xəstəliklərə qarşı mübarizə, müharibə qurbanlarına yardım, bəşəri ideyaların təbliği, qlobal problemlərin həlli və digər istiqamətlərdə könüllülərin gördüyü iş bir çox hallarda mütəşəkkil, institusionallaşmış mexanizmlərdən daha təsirli və faydalı olmuşdur. Təkcə bir misal göstərmək kifayətdir ki, dinin yayılmasında ayrı-ayrı hallarda mötəbər elm xadimlərinin, ürfan sahiblərinin təsiri bütün məcburetmə formalarından istifadə edən sistemli yanaşmalardan daha təsirli olmuşdur. Orta əsrlərə baxsaq sufi şeyxlərinin öz istəkləri ilə islam dininin və dünyagörüşünün yayılmasında və təbliğində rolu əvəzsizdir. Yaxud yoluxucu xəstəliklərə qarşı mübarizədə lap qədim dövrlərdən başlayaraq günü bu gün də davam edən həkim-təbiblərin fərdi yanaşmaları İbn Sina yolunun təmənnasız davamıdır. Digər bir misal kimi nizamlı ordu və könüllü birləşmələrin müharibələrdə oynadığı rolu qeyd etmək olar. Burda bir məqama fikir vermək lazımdır ki, tarixin müxtəlif dövrlərində könüllülüyə bir ictimai-siyasi proses olaraq fərqli baxış bucağı altında baxmaq doğru olar.

Xüsusən də müasir dövrdə - üçüncü minillikdə könüllülük hərəkatı yeni məzmun və mahiyyət daşıyır və klassik anlayışdan kifayət qədər fərqlənir. Bu məqalənin məqsədi könüllülük fəaliyyətinin müasir cəmiyyətdə rolunu və onun gənclər siyasətinin formalaşmasına təsirini beynəlxalq təcrübə və Azərbaycan nümunəsi əsasında təhlil etməkdir.

Klassik mənada könüllülüyün baza prinsipini altruizm fəlsəfəsi təşkil edir. Fransız filosofu Oqüst Kont (1798-1857) tərəfindən irəli sürülən altruizm başqalarına təmənnasız xidmət göstərilməsini, onların xoşbəxtliyi naminə öz şəxsi mənafeyini zəruri olduqda qurban verməyi özündə ehtiva edən əxlaqi prinsipdir. Eqoizmin əksi olan altruizmin əsas əxlaqi meyarını başqa adamın və ya sosial birliyin maraqları təşkil edir. Bu mənada humanist prinsiplərdən olan könüllülük əxlaqi norma və dəyərdir. Xüsusi qeyd etmək lazımdır ki, qloballaşma dövründə Qərbin dünyada təbliğ etdiyi prinsiplərin təsiri ilə ənənəvi dəyərlərin alt-üst olduğu yeni mühitdə könüllülük olduqca böyük mənəvi və fəlsəfi əhəmiyyət daşıyır [5].

Dünya tarixində müasir mənada könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxmışdır. 1881-ci ildə isə Amerika Birləşmiş Ştatlarında vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb olmuşdur. XIX əsrin ikinci yarısında Azərbaycanda kapitalist münasibətlərinin sürətli inkişafı ölkədə ictimai-iqtisadi münasibətlərlə yanaşı, əhalinin sosial-mədəni həyatına da öz təsirini göstərdi. Həmin dövrdə təkcə Bakıda könüllü fəaliyyət prinsipini əsas götürən otuzdan artıq xeyriyyəçi və maarifçi cəmiyyət mövcud idi. Bu cəmiyyətlərin nizamnamələrində valideyn himayəsindən məhrum uşaqlara, kimsəsizlərə, qocalara, uşaqların təhsil müavinətinə yardım göstərmək və maarifçilik ideyalarını yaymaq yer tuturdu. H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov kimi yerli sahibkarlar topladıqları kapitalın müəyyən hissəsini könüllü olaraq xeyriyyə işlərinə, əhalinin maariflənməsinə, məktəb, teatr, xəstəxana tikintisinə yönəltməklə milli könüllülük ənənəsinin əsasını qoymuşdular [3, s.13-14].

XXI əsrdə də ölkəmizdə və ölkəmizdən kənarda könüllülük fəaliyyəti mərhəmətlilik və xeyriyyəçilik fəaliyyəti ilə həmahənglik təşkil etmişdir. Bu gün müasir dünyada da xeyriyyəçilik işlərində könüllü iştirak mühüm yer tutur. Bu fəaliyyət ölkələrin dünya miqyasında reytinqlərinə və tarixi dəyərlərinin formalaşmasına da mühüm təsir göstərir [2, s.17-18].

Müasir dövlətlərin gənclər siyasətində könüllülük mühüm sosial institutlardan biri kimi çıxış edir. Bu fəaliyyət gənclərin vətəndaş fəallığını artırmaqla yanaşı onların sosial kapitalının formalaşmasına, peşə bacarıqlarının inkişafına və əmək bazarına inteqrasiyasına mühüm təsir göstərir. Robert Putnamın nəzəriyyəsinə görə, könüllülük fəaliyyəti fərdlər arasında qarşılıqlı etimad və şəbəkələşmə yaradaraq cəmiyyətin ümumi sosial kapitalını gücləndirən əsas mexanizmdir [14, s.67]. Bu yanaşma isə könüllülər seqmentinə bütünlükdə münasibətdə fərqli alət və resursların tətbiqini zəruri edir. İkincisi, könüllülüklə xeyriyyəçilik arasında bir-birindən kifayət qədər seçilən fərq yaranmışdır. Könüllülük maddi cəhətdən əvəzi ödənilməyən sahə olsa da, yekun nəticədə fərdi baxımdan müəyyən hədəflərə çatmaq üçün resurs kimi nəzərdə tutulur. Üçüncüsü, əvvəllər yalnız ictimai fəaliyyət kimi baxılan könüllülük müasir yanaşmada ictimai fəaliyyətin xüsusi növü olaraq özündə sosial əlaqələrin kompleksini də əks etdirir. Dördüncüsü, əvvəlki yanaşmadan fərqli olaraq könüllülükdə kollektiv aspektlə yanaşı fərdin dominantlığı da ön plana çıxmışdır. Könüllülük kollektiv işləmək bacarığı və eyni zamanda şəxsi inkişaf konseptidir. Bu mənada könüllü və könüllülər hərəkatı arasında incə də olsa fərqli meyillər yaranmışdır.

Yeni anlamda könüllülüyü insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiy-

yət və dövlətin birgə fəaliyyətinin uğurlu formatı kimi qiymətləndirmək olar. Könüllülük həm də öz xalqına və dövlətinə bağlılıq və xidmət örnəyidir. Könüllülüyün bir sosial fəaliyyət sahəsinə çevrilməsi isə İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Könüllülük həmrəylik və sosial məsuliyyəti özündə ehtiva etdirməklə gənclərin real həyata keçid mərhələsini əhatə edən kütləvi təşkilatlanma formasıdır. Bu sosial fəaliyyət karyera, təcrübə mübadiləsi, asudə vaxtın səmərəli keçirilməsi, sosial, ekoloji və digər sahələrdə problemlərin həllinə dəstək kimi geniş profilli əhatə dairəsinə malikdir.

Müasir dövrdə bu hərəkat bir çox aspektləri əhatə edir. Bu mənada ictimai nəzarətin həyata keçirilməsində könüllülərin rolu qloballaşma dövrünün əsas çağırışıdır. Planetimizin qlobal problemlərinə dünyanın müxtəlif ölkələrindən könüllülərin vahid prizmadan yanaşması isə bütün sərhədləri aşan, bəlkə də sərhədsiz adlandırıla biləcək yeni bir dövrün reallığıdır. Misal üçün, qlobal istiləşməyə və ya digər ekoloji problemlərə münasibətdə könüllülərin dünya miqyasında yanaşması heç bir dövlətin sərhədləri ilə məhdudlaşmır və ya uyğunsuzluq yaratmır. Bu mənada könüllülük üçüncü minillikdə qlobal fenomenə çevrilmişdir.

Müxtəlif ölkələrin təcrübəsində könüllülər hərəkatından insanların vətəndaşlıq mövqeyinin nümayiş etdirilməsi baxımından istifadə olunur. Könüllülük sağlam vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm vasitələrdən biri hesab olunur. Əsas mahiyyəti cəmiyyətə faydalılıq olmaq şərtilə ictimai nəzarət, mötəbər tədbirlərin keçirilməsinə dəstək, qlobal mahiyyət daşıyan problemlərin həllinə diqqət çəkmək və digər ictimai-sosial proseslər könüllülük hərəkatının əhatə dairəsinə daxildir. Bir sıra ölkələrdə isə könüllülük hərəkatı dövlətin gənclər siyasətinin prioritet istiqaməti, gənclər sektorunda əsas hədəflərə çatmaq üçün mühüm vasitə kimi nəzərdə tutulur.

Könüllülük gənc nəslə gələcək həyatını müəyyənləşdirmək üçün mühüm bir imkan yaradır. Könüllü olmaq biliklərin bacarığa çevrilməsi üçün əlverişli platformadır. Barri Çekoveyin gənclərin iştirakçılıq modelinə əsasən, könüllülük gəncləri passiv xidmət alıcısından aktiv qərar qəbul edən şəxslərə çevirir [8, s.342]. Bu, dövlətin gənclər siyasəti çərçivəsində təkcə fərdi deyil, həm də institusional inkişafa gətirib çıxarır. Könüllülük isə kreativlik, innovatorluq, yenilik, təşəbbüskarlıq üçün meydandır. Könüllülük cəmiyyəti dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, cəmiyyəti irəli aparmağa hədəflənmiş bir fəaliyyət sahəsidir. Dövlətin könüllülük hərəkatına gənclər siyasəti olaraq dəstəyi isə hər bir gəncin şəxsi planda və ya kollektiv olaraq özünü göstərməsinə şərait yaradır. Şəxsi inkişafa paralel olaraq komanda quruculuğunda iştirak sosial idarəetmənin inkişafına töhfə verir.

Müasir dövrdə fərdi qabiliyyətlərin, bacarıq və keyfiyyətlərin ön plana çəkilməsi baxımından da könüllülük əhəmiyyətlidir. Bu mənada dövlət qurumlarının hər bir gəncə fərdi yanaşması, stimullaşdırıcı təsiri könüllülük üçün yeni əhatə dairəsi, yeni imkanlar yaradır. Cəmiyyətin ən fəal hissəsini təmsil edən gənclər üçün könüllülük cəmiyyətə faydalı olmaq istəyi və təcrübə qazanmaq üçün məktəbdir.

İnformasiya əsri olan yaşadığımız dövrdə cəmiyyət yeni sosial problemlərlə qarşılaşır. Cəmiyyətin bu cür problemlərindən biri də xüsusən gənclər arasında özünütəcrid və ya özünəqapanmadır. İnformasiya texnologiyalarının həyatın bütün sahələrinə daxil olan inkişaf etmiş ölkələrdə gənclər arasında bu meyil özünü daha da qabarıq göstərir. Özünütəcrid isə narkomaniya, alkoqolizm kimi bəşəri bəlalara aparan yollardan biridir. Statistik rəqəmlər təsdiq edir ki, könüllülər hərəkatında təmsil olunan gənclər arasında bu cür neqativ proseslər üçün münbit şərait yoxdur. Bu baxımdan müşahidələr göstərir ki, könüllülük fəaliyyəti özünəqapanmadan uzaq olmağa kömək edir, psixoloji cəhətdən normal yeni nəslin yetişməsinə öz müsbət təsirini göstərir.

Bu bir reallıqdır ki, qloballaşmanın gətirdiyi mənfi meyillər arasında cəmiyyətdə, xüsusən də gənclər arasında mənəvi dəyərlərin

təbliğatı da xüsusi yer tutur. Belə bir dövrdə könüllülük mənəvi dəyərlərə bağlılıq baxımından mühüm platformadır. Könüllü olmaq mənəvi dəyərlərin daşıyıcısı olmaqdır və bir çox ölkələrdə könüllü gənclər ölkənin tarixinin, mənəvi dəyərlərinin, mədəni irsinin və sərvətinin könüllü qoruyucusu olaraq öz töhfələrini verirlər.

Şəxsiyyətin formalaşması mərhələsində olan yeni nəslin vətəndaşlıq keyfiyyətlərinin tərbiyəsi yolunda könüllülük fəaliyyəti və ya hərəkatı mühüm rol oynayır. Qloballaşma proseslərinin təsiri altında yetişməkdə olan "Z nəsil" uşaqlar olduqca laqeydlik xüsusiyyətlərə malikdirlər. Bu, ümumilikdə müasir dövrümüzdə cəmiyyətin qarşısında dayanan həm sosial, həm də ictimai problemdir. Məhz belə bir mühitdə könüllülük "Z nəsil" yeniyetmə və gənclər üçün ənənəvi olmayan doğmalardan kənara çıxmaq üçün əlverişli imkan, həm də maraq doğuran çağırışdır. Mədəniyyətin kütləvi xarakteri, informasiya texnologiyalarının yaratdığı yeknəsək mühit fərdin şəxsi vətəndaş mövqeyinin ortaya çıxarılmasına kölgə salır. Beynəlxalq təcrübə göstərir ki, bu baxımdan məhz könüllülük hərəkatı gənc nəslin sağlam vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm rol oynayır.

Beləliklə, qeyd etmək olar ki, könüllülük hərəkatı və platforması gənclər siyasətinin bir sıra istiqamətlərdə hədəflərə nail olunmasına öz töhfəsini verir:

– Uğurlu karyera yolu, fərdi inkişaf;
– Komandada işləmək bacarığı;
– Təcrübə məktəbi;
– Sosiallaşma və sağlam həyat tərzi;
– Mənəvi dəyərlərin qorunması və təbliği;
– Beynəlxalq təşəbbüslərə dəstək;
– Mötəbər tədbirlərin təşkilində iştirak və s.

Artıq beynəlxalq təcrübədə könüllülər hərəkatına yanaşmada məzmun dəyişikliyi özünü dövlət siyasətində də göstərir. Xüsusən də iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə könüllülərə, təkcə gənclər siyasəti çərçivəsində deyil, həm də sosial, səhiyyə, məşğulluq və hətta iqtisadi siyasətin tərkib hissəsi kimi baxırlar. ABŞ-ın məşhur Con Hopkins Universitetinin tədqiqatlarına əsasən, təkcə dünyanın 36 ölkəsində könüllülərin sayı 130 milyon nəfəri keçib. Könüllülərin iş saatı, faydalı iş əmsalı və yaratdığı məcmu dəyər iqtisadi hesablamalara daxil edilib və hər bir ölkə üzrə müvafiq statistik yanaşmalar formalaşdırılmağa başlanmışdır [5].

Rusiyalı ekspert Maksim Boçanovun qiymətləndirməsinə görə, könüllülərin işi müxtəlif ölkələrdə ÜDM-yə 4-8 faiz səviyyəsində töhfə verir. Misal üçün, Norveçdə ÜDM-in 6 faizi könüllülərin payına düşür. Kanadada əhalinin 27 faizi könüllü fəaliyyətlə məşğuldur və onların fəaliyyəti dövlət büdcəsində 17 milyard ABŞ dolları səviyyəsində büdcə xərclərinin qənaətinə səbəb olur. ABŞ-da əhalinin 50 faizdən çoxu könüllülər fəaliyyətində iştirak edir və artıq "virtual könüllü" adlı innovativ təşəbbüs həyata keçirilir. ABŞ-da könüllülük təcrübəsi iş təcrübəsinə bərabər olan fəaliyyət növü kimi qəbul edilir. Aşağıdakı qrafikdə 2022-2023-cü illər ərzində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv ölkələrin əhalisi arasında aparılmış sorğuya əsasən son bir ay ərzində hər hansı bir qurumda könüllülük fəaliyyəti keçən əhalinin faiz göstəriciləri qeyd olunmuşdur [13, s.11].

Müasir texnoloji transformasiyalar könüllülük fəaliyyətinin formasına və əhatə dairəsinə də əsaslı təsir göstərmişdir. Xüsusilə Dördüncü Sənaye İnqilabı şəraitində ənənəvi könüllülük metodları rəqəmsal platformalar vasitəsilə yeni müstəviyə keçmişdir. Bu gün beynəlxalq təcrübədə onlayn (virtual) könüllülük və ya mikro-könüllülük kimi anlayışlar fərdlərin məkandan asılı olmayaraq cəmiyyətə fayda verməsinə imkan yaradır. Bu model, xüsusən də fiziki məhdudiyyətləri olan şəxslərin və ya intensiv iş qrafiki olan peşəkarların sosial proseslərə inteqrasiyasını sürətləndirən inklüziv bir mexanizmdir [15]. Akademik tədqiqatlar sübut edir ki, onlayn könüllülük ənənəvi iştirak formalarını əvəzləmir, əksinə, cəmiyyətin daha geniş təbəqələrini proseslərə cəlb edərək iştirakçılıq bazasını genişləndirir [1].




**Şəkil 1.** Ölkələr (OECD) üzrə könüllülük fəaliyyətində iştirak səviyyəsi (%)

Rəqəmsal könüllülüyün inkişafı, həmçinin dövlət idarəçiliyində "Vətəndaş elmi" və "Açıq məlumatlar" konsepsiyalarının tətbiqinə dəstək verir. Məsələn, rəqəmsal platformalar vasitəsilə gənclər ekoloji monitorinqlərdə, xəritəçəkmə layihələrində və ya böyük məlumat bazalarının sistemləşdirilməsində iştirak edərək dövlət siyasətinin effektivliyini artırırlar. Bu proses gənclərin sadəcə icraçı deyil, həm də strateji qərarların qəbulunda dolayı iştirakçı kimi çıxış etməsinə şərait yaradır [10].

Digər tərəfdən, könüllülük fəaliyyətinin rəqəmsallaşması yumşaq bacarıqların inkişafı ilə yanaşı, gənclərin texnoloji savadlılığının və kreativ təfəkkürünün artmasına birbaşa xidmət edir. Rəqəmsal mühitdə könüllülük edən fərdlər layihə idarəetməsi, kiber-etik normalar və virtual komanda işi kimi müasir əmək bazarının tələb etdiyi mühüm kompetensiyaları mənimsəyirlər. Bu, gənclər siyasətinin hədəflədiyi rəqəmsal nəslin formalaşması strategiyası ilə üst-üstə düşür [9]. Beləliklə, virtual könüllülük həm də gənclərin asudə vaxtının səmərəli təşkili və onları zərərli vərdişlərdən, o cümlədən sosial təcrid meyillərindən uzaq tutmaq üçün effektiv preventiv vasitədir.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrin əksəriyyətində əhalinin könüllülük hərəkatında iştiraketmə səviyyəsinin statistikası aparılır. Misal üçün, Avropa İttifaqı ölkələrində əhalinin (18 yaşdan yuxarı) 22-25 faizi könüllülük fəaliyyətinə cəlb olunub. "Eurobarometer"in keçirdiyi sorğuya əsasən, hər on avropalıdan üçü könüllülük fəaliyyəti ilə məşğul olduğunu bildirib. Almaniya və Niderland isə ən inkişaf etmiş könüllülük təcrübəsi olan ölkələrdir.

Beynəlxalq təcrübədə könüllülük fəaliyyətinin iqtisadi proseslərdə yeri və rolu ilə bağlı bir sıra iqtisadi yanaşmalar tətbiq olunur. Belə ki, könüllülərin ölkə əhalisi, o cümlədən aktiv əmək resurslarına nisbətdə xüsusi çəkisi, könüllülük fəaliyyətinin ÜDM-yə verdiyi töhfə və faiz nisbəti, əməyi ödənilən fəaliyyətdə könüllü işin mümkün nisbəti iqtisadi seqment olaraq hesablanır və statistikası aparılır.

Məlum olduğu kimi, 1970-ci illərdən başlayaraq ayrıca proqram üzrə könüllülük

sahəsində fəaliyyətini əlaqələndirməyə başlamışdır. BMT-nin İnkişaf Proqramının koordinasiyasında hazırda 80-dən çox ölkədə aktiv fəaliyyət göstərən Birləşmiş Millətlər Könüllüləri Proqramı (United Nations Volunteers Programme) könüllülərin qlobal məsələlərə dəstək olmasına hədəflənmiş fəaliyyət göstərir [5].

BMT könüllülük fəaliyyətini təşviq etmək üçün bir sıra əlamətdar tarixləri xüsusi keçirməklə bağlı ənənənin əsasını qoymuşdur. Belə ki, BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi qətnaməyə əsasən 5 dekabr "İqtisadi və Sosial İnkişaf üçün Beynəlxalq Könüllülər Günü" elan olunmuşdur. Baş Assambleya 20 noyabr 1997-ci ildə 2001-ci ilin "Beynəlxalq könüllülər ili" elan olunması ilə əlaqədar qətnamə qəbul etmişdir. Təcrübə göstərir ki, bu qərarın təsiri ilə 2001-ci ildə beynəlxalq miqyasda könüllülüyün təbliği, iş yerlərinə əlçatanlığın asanlaşdırılması, beynəlxalq sosial şəbəkənin yaradılması istiqamətində işlər xüsusi vüsət almışdır. Hazırda icra olunmaqda olan BMT Könüllülər Proqramının 2016-2030-cu illər Tədbirlər Planı isə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə istiqamətlənmişdir [5, 7]. Hazırda icra olunmaqda olan BMT Könüllülər Proqramı Davamlı İnkişaf Məqsədlərinə hədəflənmişdir. BMT-nin "Dünya könüllülüyünün vəziyyəti 2022" hesabatında qeyd edildiyi kimi, könüllülük bərabərhüquqlu və inklüziv cəmiyyətlərin qurulmasında mərkəzi rol oynayır və qlobal böhranlar zamanı sosial davamlılığı təmin edən ən mühüm vasitədir" [16, s.17].

Avropa İttifaqı da "Könüllülər ili" ənənəsini davam etdirmişdir. Avropa Komissiyasının qərarı ilə 2011-ci il "Avropa könüllülük ili" elan olunmuşdur. Avropa Komissiyasının yaratdığı Avropa Könüllü Xidməti könüllülük fəaliyyətinin təşkili istiqamətində üçbucaqlı mexanizm qurmuşdur: göndərən assosiasiya və təşkilatlar, qəbul edən təşkilatlar və əlaqələndirici xidmət. Bu mexanizm Avropa Könüllü Xidmətinin əmək bazarında özünəməxsus iştirakında və mövqeyinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Rusiyada 2018-ci il "Könüllülər İli" elan olunmuşdu. İlin yekunları ilə bağlı qiymətləndirmələrə əsasən, ölkə ərazisində könüllülərin sayı iki dəfə artmış və könüllülük konkret tarixə bağlı olmayan daimi təşəbbüsə çevrilmişdir. Rusiya Federasiyasının regionlarında könüllülüyə dəstək resurs mərkəzləri yaradılmışdır. Könüllü siyasətin davamlılığını təmin etmək məqsədilə hər il "Xoş əməllər regionu" adlı regional layihə müsabiqəsi keçirilir və qalib regionlara büdcədən subsidiya ayrılır. "Könüllülərin kütləvi tədbirlərə hazırlığı və təlimi" ilə bağlı sistemli yanaşma yaranmışdır. Proseslərin davamlı xarakter daşıması dövlət siyasətinin prioritetlərindən hesab olunur və artıq 2025-ci ilədək olan dövrü əhatə edən Könüllülüyün İnkişaf Konsepsiyası təsdiq olunmuşdur. Könüllülər hərəkatının "Sosial aktivlik" milli layihəsi çərçivəsində aparılan işlər nəticəsində daha da genişlənməsi, ölkə əhalisinin 20 faizinin könüllük fəaliyyətinə cəlb olunması nəzərdə tutulmuşdur.

Qonşu ölkələr arasında Qazaxıstanda da könüllülər hərəkatına gənclər siyasətinin aparıcı istiqamətlərindən biri kimi baxılır. Milli Könüllülər Şəbəkəsinin hesablamalarına görə, hər səkkiz Qazaxıstan vətəndaşından biri bu və ya digər dərəcədə könüllü fəaliyyətə cəlb olunmuşdur. Qazaxıstanda da 2020-ci il "Könüllülər ili" elan edilmişdir. "Biz birlikdəyik" şüarı ilə Tədbirlər Planı yeddi mühüm istiqaməti nəzərdə tutmuşdur. Birinci istiqamət könüllülük fəaliyyəti üçün əlverişli mühitin yaradılması - normativ-hüquqi bazanın təkmilləşdirilməsi, milli metodikanın hazırlanması ilə bağlıdır. İkinci istiqamət könüllülük fəaliyyəti ilə bağlı infrastrukturun inkişafı və iştirakçıların potensialının inkişafını əhatə edir. Könüllü proqramların və layihələrinin monitorinqi və koordinasiyası üzrə ofisin yaradılması da nəzərdə tutulur. Üçüncü istiqamət vətəndaşların könüllülük fəaliyyətində iştirak imkanlarının genişləndirilməsinə yönəlmişdir və dövlət qurumları tərəfindən müəyyən sosial təşviq mexanizmlərinin tətbiqi təklif edilmişdir. Dördüncü istiqamət korporativ könüllü fəaliyyətin inkişafıdır və bununla bağlı ən

uğurlu beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi gözlənilir. Beşinci istiqamət olaraq bu sahədə beynəlxalq əməkdaşlıqdır ki, Qazaxıstan könüllülüklə bağlı daha çox Rusiya və BMT şəbəkəsinə üstünlük verir. Altıncı istiqamət könüllülüyün populyarlaşması istiqamətində tədbirləri əhatə edir. Xüsusi media planlarının, televiziya verilişlərinin, müsabiqələrin, videoroliklərin, kütləvi informasiya vasitələrinin xətti ilə fərdi və kollektiv uğurların təbliğinin geniş auditoriyaya çatdırılması hədəflərin davamlılığına yönəlmişdir. Bu çərçivədə artıq vahid könüllü platforması (https://qazvolunteer.kz) yaradılmışdır. Nəhayət, sonuncu istiqamət Davamlı İnkişaf Məqsədlərinə hədəflənmiş könüllülüyün təşviqidir. Bu məqsədlə təhsil, səhiyyə, gənclər, ekologiya, mədəni irsin qorunması, sosial xidmət, yoxsulluğun azaldılması sahələrində yeddi layihənin həyata keçirilməsi nəzərdə tutulur [5].

Ümumilikdə, beynəlxalq təcrübədə "Könüllülər ili" könüllülük hərəkatının təbliği və müxtəlif sahələrdə dövlət siyasətinin həyata keçirilməsində mühüm vasitə olaraq uğurlu bir model kimi özünü göstərir.

Azərbaycanda müasir anlamda könüllülər hərəkatı gənclər siyasətinin prioritet istiqamətlərindən biri olaraq nəzərdən keçirilir. Hələ 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının həyata keçirdiyi birgə layihə könüllülük hərəkatı ilə bağlı ilkin təşəbbüslərdən hesab olunur. Həmin proqram əsas götürülərək o dövrdən başlayaraq ölkəmizdə könüllülük prinsiplərinin geniş təbliğinə başlanılmışdır. 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Qanun qəbul olunmuş və normativ-hüquqi əsaslar yaradılmışdır [11]. Lakin könüllülər hərəkatının yeni mərhələyə keçidini 2013-cü ildə ASAN Könüllüləri Təşkilatı yaradılması ilə əlaqələndirmək doğru olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışında dövlət orqanları qarşısında gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq, təcrübi biliklərini artırmaq, onların yaradıcı, innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoymuşdur: "Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir" [6, 12].

2019-cu ildə 3 minə yaxın gəncin iştirakı ilə Könüllülərin II Həmrəylik Forumunun keçirilməsi könüllülər hərəkatının yeni vüsət almasında, könüllülər təşkilatlarının cəmiy yətin həyatında daha fəal iştirakında təkan olmuşdur. Hazırda ölkəmizdə dövlətin ciddi dəstəyi və cəmiyyətin sosial sifarişi nəticəsində yaranmış "ASAN könüllüləri", "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri, "Könüllü DOST", "Aqrar İnkişaf könüllüləri" və digər könüllü hərəkatları gəncliyin avanqardına çevrilib. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi barədə Sərəncamı üçüncü minillikdə gənclərin müxtəlif sahələrdə öz potensialını göstərməsinə, sosial məsuliyyət və ictimai nəzarətlə bağlı dövlət siyasətinin həyata keçirilməsinə meydan açan mühüm əlamətdar hadisədir. [4]

**Nəticə**

Nəticə etibarilə könüllülük fəaliyyəti həm tarixi, həm sosial, həm də iqtisadi baxımdan cəmiyyətlərin inkişafında mühüm rol oynayan çoxfunksiyalı bir fenomendir. Klassik dövrdə altruizmə əsaslanan könüllülük müasir zamanda dövlət siyasəti və sosial idarəetmə mexanizmləri ilə sıx inteqrasiya olunmuşdur.

Qloballaşma şəraitində könüllülük transsərhəd əməkdaşlıq, ekoloji problemlərlə mübarizə və humanitar təşəbbüslərin aparıcı qüvvəsinə çevrilmişdir. Müasir gənclər üçün könüllülük həm təcrübə, həm şəxsi inkişaf, həm də sosial məsuliyyət formalaşdıran məktəb rolunu oynayır. İnkişaf etmiş ölkələrdə könüllülərin ÜDM-ə real töhfəsi könüllülüyün iqtisadi əhəmiyyətini daha da artırır. Azərbaycanda könüllülük hərəkatı dövlət dəstəyi ilə genişlənərək yeni təşkilati modellər və sosial təşəbbüslər yaratmışdır. Bütün bunlar göstərir ki, könüllülük gələcək cəmiyyətlərin sosial kapitalının gücləndirilməsində əsas faktor olaraq qalacaqdır. Beləliklə, könüllülük yalnız sosial fəaliyyət forması deyil, həm də gənclərin vətəndaş məsuliyyətinin formalaşmasında və dövlət gənclər siyasətinin həyata keçirilməsində mühüm institusional mexanizm kimi çıxış edir.

Bu tədqiqatın elmi yeniliyi könüllülük fəaliyyətinin yalnız virtual könüllülük, ənənəvi altruizm və xeyriyyəçilik müstəvisində deyil, müasir dövlət idarəçiliyi, iqtisadi artım və rəqəmsal transformasiya kontekstində kompleks şəkildə təhlil edilməsindən ibarətdir. Məqalədə ilk dəfə olaraq rəqəmsal (virtual) könüllülüyün Dördüncü Sənaye İnqilabı şəraitində inklüziv bir mexanizm kimi rolu və onun 'Z nəsli' arasındakı sosial təcrid meyillərinə qarşı preventiv təsir imkanları elmi-nəzəri baxımdan əsaslandırılmışdır.

Tədqiqatın empirik əhəmiyyəti isə beynəlxalq təcrübədə (BMT, OECD və Avropa İttifaqı) tətbiq olunan könüllülük modellərinin və statistik göstəricilərin (ÜDM-ə 4-8% töhfə) Azərbaycanın spesifik gənclər siyasəti və institusional modelləri (ASAN, DOST, RİİB) ilə müqayisəli analizi vasitəsilə ortaya qoyulmuşdur. Bu yanaşma ölkədə könüllülük hərəkatının gələcək inkişaf strategiyalarının hazırlanması və sosial kapitalın gücləndirilməsi üçün praktiki tövsiyələr irəli sürməyə imkan verir."

**Ədəbiyyat:**


1. Ackermann, K., & Manatschal, A. (2018). Online volunteering as a new form of participation.
2. Adilman (Adilov), N. (2020). Könüllünün öz/əl kitabı. AZFCOD İnformasiya Agentliyi, 192 s. ISBN: 9789952-3739-8-1.
3. Adilov, N., & Paşayev, E. (2017). Könüllülük: uğur formulu. Bakı.
4. ASAN Xidmət. (n.d.). Azərbaycan könüllülərinin 2-ci həmrəylik forumu keçirilib. https://asan.gov.az/media/press-releases/azerbaycan-koenuelluelerinin-2-ci-hemreylik-forumu-kecirilib
5. Azerbaijan-news.az. (n.d.). Könüllülük – gəncliyin sabaha açılan pəncərəsidir. https://www.azerbaijan-news.az/az/posts/detail/konulluluk-gencliyin-sabaha-achilan-penceresidir-19 5978
6. Azərtac. (n.d.). 5 dekabr – Beynəlxalq Könüllülər Günüdür. https://azertag.az/xeber/5_dekabr___Beyn elxalq_Konulluler_Gunudur-1363396
7. AzTV. (n.d.). 5 dekabr – Beynəlxalq Könüllülər Günüdür. https://www.aztv.az/az/ news/3504/5-dekabr-%E2%80%93-beynelxalq-konulluler-gunudur
8. Checkoway, B. (2011). What is youth participation?
9. "Həftə içi" qəzeti (ANL). (2026). Könüllülük hərəkatı: sabaha açılan pəncərə.https://www.anl.az/down/meqale/hafta_ichi/2026/fevral/991282.htm
10. İCT.az. (n.d.). Elektron könüllülük və rəqəmsal transformasiya. https://ict.az/az/news/292
11. "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu. (2009). Bakı.
12. Namazova, İ. (2020). Könüllülük: tarixçəsi və strategiyası. https://scara.gov.az/az/xeberler/ print/konulluluk-tarixcesi-ve-strategiyasi

13. OECD. (2024). Unleashing the potential of volunteering for local development. https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2024/12/unleashing-the-potential-of-volunteering-for-local-development_719f94b6/deab71bd-en.pdf
14. Putnam, R. D. (2000). Bowling Alone: The Collapse and Revival of American Community.
15. UN Volunteers (UNV). (2021). One click to sustainable development. https://unvolunteers.exposure.co/one-click-to-sustainable-development
16. UNV. (2022). State of the World's Volunteerism Report: Building Equal and Inclusive Societies. (BMT-nin müasir hesabatı).

***Açar sözlər:*** *Könüllülük hərəkatı, altruizm fəlsəfəsi, sosial məsuliyyət, dövlətin gənclər siyasəti, qloballaşma və könüllülük, iqtisadi töhfə və sosial kapital, Azərbaycan könüllülük modeli*

**Ulkar Shafiyeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Head of the Department of Languages,*
*Ph.D. in Philology, Associate Professor*

**Erol Ahmadov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Master's student of the Faculty of "Retraining of Management Personnel"*
*State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan,*
*the Human Resources Management Department, Senior Advisor*

# VOLUNTEERING ACTIVITY AND ITS IMPACT ON YOUTH POLICY

## ABSTRACT

This article examines the role of volunteering as a multifaceted social phenomenon and its impact on the development of youth policy in the context of globalization and digital transformation. Drawing on both theoretical perspectives and international practices, the study traces the evolution of volunteering from its classical altruistic foundations to its contemporary institutional and policy-oriented forms. Particular attention is paid to the integration of volunteering into state youth policies, where it functions as a mechanism for enhancing civic engagement, social capital, and professional skills among young people.

The paper also analyzes the socio-economic significance of volunteering, including its measurable contribution to national economies and its role in addressing global challenges such as environmental issues and social inequality. Furthermore, the study highlights the growing importance of digital and virtual volunteering in expanding participation and inclusivity. The case of Azerbaijan is explored to demonstrate how state support and institutional initiatives have strengthened the volunteering movement. The findings suggest that volunteering plays a crucial role in shaping responsible, active citizens and remains a key instrument for sustainable social development.

***Keywords:*** *volunteering, youth policy, social capital, civic engagement, digital volunteering, globalization, economic contribution, Azerbaijan*

**Улькяр Шафиева**
*Заведующая кафедрой Языков Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по филологии, доцент*
**Эрол Ахмадов**
*Магистрант факультета «Переподготовки руководящих кадров» Академии Государственного Управления при Президенте Азербайджанской Республики,старший консультант отдела Управления человеческими ресурсами Государственного Агентства по обслуживанию граждан и социальным инновациям при Президенте Азербайджанской Республики*

# ВОЛОНТЕРСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ЕЁ ВЛИЯНИЕ НА МОЛОДЁЖНУЮ ПОЛИТИКУ

## РЕЗЮМЕ

В данной статье рассматривается волонтёрская деятельность как многогранное социальное явление и анализируется её влияние на формирование государственной молодёжной политики в условиях глобализации и цифровизации. На основе теоретических подходов и международного опыта прослеживается эволюция волонтёрства от его классических форм, основанных на принципах альтруизма, к современным институционализированным и политически значимым моделям. Особое внимание уделяется роли волонтёрства как эффективного инструмента повышения гражданской активности молодёжи, формирования социального капитала и развития профессиональных навыков. Также анализируется социально-экономическая значимость волонтёрской деятельности, включая её вклад в валовой внутренний продукт и участие в решении глобальных проблем, таких как экологические вызовы и социальное неравенство. Отдельно подчёркивается значение цифрового и виртуального волонтёрства, расширяющего возможности участия и способствующего инклюзивности. На примере Азербайджана показывается, как государственная поддержка и институциональные инициативы способствуют развитию волонтёрского движения. В заключение делается вывод о том, что волонтёрство является важным фактором формирования активного гражданского общества и устойчивого социального развития.

***Ключевые слова:*** *волонтёрство, молодёжная политика, социальный капитал, гражданская активность, цифровое волонтёрство, глобализация, экономический вклад, Азербайджан*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.339

**S İ Y A S İ N Ə Z Ə R İ Y Y Ə**
**P O L I T I C A L T H E O R Y**

UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65

**ÜLVİYYƏ HAQVERDİ**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: ulviyyahaqverdi@gmail.com*

# XX ƏSRDƏ MİQRASİYA PROSESLƏRİNİN DEMOQRAFİK SİYASƏTƏ TƏSİRİ

## Giriş

XX əsrdə miqrasiya proseslərinin demoqrafik siyasətə təsiri həm qlobal, həm də regional səviyyədə siyasi qərarların formalaşmasında həlledici rol oynadığı üçün son dərəcə aktuallıq kəsb edir. İki dünya müharibəsi, imperiyaların süqutu, etnik təmizləmələr, zorakı deportasiyalar, müharibə qaçqınları, soyuq müharibə dövrünün siyasi bloklaşmaları, əmək miqrasiyasının sənaye ölkələri tərəfindən institusional şəkildə təşkili və qloballaşmanın intensivləşməsi XX əsrdə əhali hərəkətliliyini kütləvi və struktur xarakterli bir fenomenə çevirmişdir. Bu proseslər həm Avropada, həm ABŞ-da, həm Sovet məkanında, həm də postkolonial dünyada əhalinin yaş strukturu, etnik tərkibi, əmək bazarının tələbləri və urbanizasiya səviyyəsi kimi əsas demoqrafik göstəriciləri köklü şəkildə dəyişdirmişdir. XX əsrin ikinci yarısından başlayaraq Qərbi Avropanın yaşlanma və əmək çatışmazlığı səbəbindən miqrasiyaya artan asılılığı, ABŞ-ın immiqrasiya qanunvericiliyini yenidən formalaşdırması, SSRİ-nin daxili deportasiya və köçürmə siyasəti, eləcə də postkolonial miqrasiya axınlarının yeni çoxmədəniyyətli cəmiyyət modelləri yaratması müasir demoqrafik siyasətin tarixi təməlini təşkil edir. Digər tərəfdən, miqrasiya sosial inteqrasiya, multikulturalizm, təhlükəsizlik, vətəndaşlıq siyasəti və siyasi iştirak kimi sahələrdə dövlətlərin uzunmüddətli strategiyalarını müəyyən edən əsas amillərdən birinə çevrilmişdir. Bu baxımdan XX əsrdəki miqrasiya dalğalarını araşdırmaq həm müasir demoqrafik siyasətin köklərini anlamaq, həm də gələcək dövrdə əhali proseslərinin istiqamətlərini düzgün proqnozlaşdırmaq üçün mühüm elmi əhəmiyyət daşıyır.

## İkinci dünya müharibəsinə qədərki dinamikanın təhlili

XX əsrin əvvəlində isə miqrasiya trendləri həm miqyas, həm coğrafiya, həm də motivasiyalar baxımından kəskin şəkildə dəyişmiş və tarixdə bənzəri az olan böyük hərəkətlilik dalğası formalaşdırmışdı. Bu dövrdə xüsusilə 1900-1914 arası qlobal miqrasiyanın zirvə illəri hesab olunur; çünki həm sənaye inqilabının son mərhələsi, həm də imperiyalar dövrünün iqtisadi-siyasi strukturları insanların kütləvi şəkildə yer dəyişməsinə şərait

yaradırdı. Ən böyük istiqamət Avropadan Şimali Amerikaya doğru idi: 1900-1914-cü illər arasında hər il təxminən 1 milyon Avropalı ABŞ-a köçür, ümumi rəqəm 14 milyona yaxın insan təşkil edirdi [9]. Bu axına əsasən İtaliya, Almaniya, İrlandiya, Rusiya imperiyası (xüsusilə yəhudilər) və Avstriya-Macarıstanın kənd əhalisi daxil idi. ABŞ bu dövrdə sənayeləşmənin ən yüksək mərhələsinə qədəm qoyduğu üçün ucuz işçi qüvvəsinə tələbatı kütləvi şəkildə artırırdı. Paralel olaraq, Kanada, Argentina və Braziliya da Avropa miqrantları üçün yeni aqrar-sənaye imkanları yaradan mühüm cəlbedici mərkəzlərə çevrilmişdi.

Eyni zamanda, Asiyada da mürəkkəb miqrasiya axınları baş verirdi. Yaponiya əhalisinin bir hissəsi ABŞ-ın Qərb sahillərinə və Cənubi Amerikaya köçür, Çin və Hindistan isə həm kolonial işçi axınının mənbəyi kimi, həm də regional miqrasiyanın mərkəzi kimi çıxış edirdi. İngiltərənin kolonial iqtisadiyyatı minlərlə hindli və çinlini Karib hövzəsinə, Cənubi Afrikaya və Cənub-Şərqi Asiyanın plantasiyalarına göndərirdi. Rusiyada isə Sibir və Orta Asiyaya dövlət təşviqli daxili miqrasiya sürətlənirdi; bu proses həm yeni torpaq sahələrinin məskunlaşdırılması, həm də imperiyanın iqtisadi-siyasi mövqelərinin möhkəmləndirilməsi məqsədi daşıyırdı.

Digər tərəfdən, siyasi təqiblər və etnik zorakılıqlar da XX əsrin əvvəlində miqrasiyanın əsas motivasiyalarından biri olmuşdu. Çar Rusiyasında yəhudi əhaliyə qarşı poqromlar, Osmanlı imperiyasında etnik gərginliklər, Balkan savaşları, həmçinin Avropada yüksələn millətçi hərəkatlar milyonlarla insanın başqa ölkələrə sığınmasına səbəb olurdu. Birinci Dünya Müharibəsi başlamazdan əvvəl dünya tarixinin ən geniş könüllü miqrasiya axını məhz bu dövrə təsadüf edir və bu axın 1914-cü ildə qloballaşmanın ilk dalğasının əsas demoqrafik prosesini formalaşdırırdı.

Burada xüsusilə Osmanlı imperiyasına kütləvi köçlər diqqət çəkir. Ümumiyyətlə Osmanlının içlərinə doğru miqrasiya daha əvvəl başlamışdı. Osmanlı imperiyasının son dövrləri və erkən Türkiyə Cümhuriyyəti mərhələsində baş verən kütləvi miqrasiya dalğaları həm siyasi, həm hərbi, həm də etnik səbəblərə bağlı olaraq regionun demoqrafik strukturunu köklü şəkildə dəyişmişdir. İlk böyük kütləvi köç 1771-1800 arasında Krımın Rusiya tərəfindən işğalı və sistemli zorakılıqlar nəticəsində meydana gəldi; 35000 krımlı türkün qılıncdan keçirilməsi və davamlı təzyiqlər nəticəsində 1789-1790-cı illərdə başlayan və 1800-ə qədər davam edən prosesdə təxminən 500 min Krım türkü Osmanlı torpaqlarına sığındı. 1812-ci ildə Osmanlının Fransa ilə əməkdaşlığı Rusiyanın Krım tatarlarına yenidən zülm etməsinə səbəb oldu və bu mərhələdə Noqayların da qoşulduğu yeni köç dalğası yarandı. Şimali Qafqazda isə rus ekspansiyası 1768-dən başlayaraq davam edir, 1855-1863 dövründə Rusiya-Qafqaz savaşında məğlubiyyət nəticəsində 295 min nəfər Anadolunun müxtəlif bölgələrinə yerləşirdi. 1864-cü ildə isə Batı Qafqaz və Kuban bölgəsində aparılan genişmiqyaslı deportasiya nəticəsində bir milyondan çox insan bir ay içində yurdlarını tərk etməyə məcbur edildi; bunlardan təxminən 400 min nəfəri yolda həyatını itirdi və proses 1886-ya qədər ümumilikdə 2 milyon nəfərin Türkiyəyə köçü ilə nəticələndi. Eyni dövrdə Balkanlarda rus təsiri ilə yüksələn millətçi hərəkatlar və müharibələr də yeni köç dalğaları yaratdı. 1828-ci ildə Rusiyanın Dunay çayını aşaraq Ədirnəyə qədər irəliləməsi nəticəsində 30 min türk Anadoluya sığındı. 1876-1878-ci illər arasında baş verən hadisələrdə 200 min türk Ədirnə və ətrafına, 300 min nəfər isə Rumelidən Anadoluya köçərək yeni demoqrafik mərkəzlər formalaşdırdı. Bundan sonrakı mərhələdə, 1885-1923 illəri arasında Balkanlardan Osmanlı-Türkiyə coğrafiyasına 500 min nəfərin daha köç etməsi region miqrasiyasının davamlı xarakter aldığını göstərir. XX əsrin əvvəllərində baş verən siyasi təlatümlər miqrasiya proseslərini daha da dərinləşdirdi. 1917-ci il Rusiyada baş verən Oktyabr inqilabı və arxasınca gələn vətəndaş müharibəsi nəticəsində Rusiyanın aristokrat, ziyalı və anti-bolşevik təbəqələri – təxminən

200 min nəfərlik "Bəyaz ruslar" 151 gəmi ilə Türkiyəyə sığındı və xüsusilə İstanbul və Marmara bölgəsinə yerləşdilər. 1800-1920-ci illər arasında Azərbaycan coğrafiyasından Türkiyəyə yönəlmiş 45 min nəfərlik köç dalğası da eyni tarixi prosesin tərkib hissəsi idi; onlar əsasən Kars, Ardahan, Posof və Iğdır rayonlarında məskunlaşmışdılar. Türkiyənin demoqrafik tarixində ən kəskin miqrasiya əməliyyatlarından biri isə Lozan müqaviləsi çərçivəsində 1923-cü ildə həyata keçirilən məcburi əhali mübadiləsi idi; bu prosesdə Anadoludan 1200000 rumun Yunanistana göndərilməsi və əvəzində 400 min müsəlmanın Türkiyəyə gətirilməsi nəticəsində ümumilikdə 1600000 insan doğulduğu yerlərdən köçürüldü. Demoqrafik baxımdan bu homogenləşdirmə cəhdi milli dövlət quruculuğunun siyasi amalı olmaqla yanaşı, iqtisadi cəhətdən ciddi itkilər yaratdı; çünki Anadoludan gedən 1200000 rumun böyük hissəsi sənətkar və ticarət təbəqəsini təşkil edir, əvəzində gələn müsəlman əhali əsasən kənd təsərrüfatı ilə məşğul olurdu. Bütün bu proseslər göstərir ki, Osmanlıdan Cümhuriyyətə uzanan dövrdə köç hadisələri geosiyasi təzyiqlər, müharibələr, imperiya çökməsi və millətçilik ideologiyasının yüksəlişi fonunda regionun etnik xəritəsini tamamilə yenidən formalaşdıran, milyonlarla insanın taleyinə təsir edən dərin struktur dəyişiklikləri yaratmışdır [2; 7; 20; 21].

XX əsrin əvvəllərində həm Avropa-Amerika xəttində, həm də Osmanlı coğrafiyasında baş verən bu kütləvi miqrasiya prosesləri dünya demoqrafiyasını dərin şəkildə dəyişdirərək həm qlobal, həm də regional səviyyədə tamamilə yeni əhali strukturları yaratdı. Avropadan ABŞ-a 1900–1914 arasında 14 milyon nəfərlik böyük köç dalğası Şimali Amerikanın etnik müxtəlifliyini kəskin artırdı, sənaye şəhərlərinin sürətli böyüməsinə səbəb oldu və ABŞ-ın iqtisadi yüksəlişinin demoqrafik təməlini formalaşdırdı. Eyni zamanda Avropada əmək bazarında nisbi yüngülləşmə baş verdi, kəndlər boşaldı, urbanizasiya daha da gücləndi. Asiyada isə hindli və çinli işçilərin Karib hövzəsinə, Cənubi Afrikaya və Cənub-Şərqi Asiyaya daşınması həmin regionların etnik tərkibini çoxmillətli hala gətirdi və kolonial iqtisadiyyatın insan resurslarını yenidən formalaşdırdı. Osmanlı imperiyasına yönəlmiş Krım, Qafqaz və Balkan mənşəli milyonlarla köçkün isə imperiyanın etnik xəritəsini köklü şəkildə dəyişdirdi: təkcə 1771-1886 arasında 2 milyondan çox Qafqazlı və türkün köçü, 1828-1878 arası Balkanlardan 530 min nəfərin Anadoluda məskunlaşması və 1923-də 1,6 milyon nəfərlik məcburi əhali mübadiləsi Anadoluda homogenləşmə meylini gücləndirdi, bölgələrin demoqrafik paylanmasını yenidən qurdu və sosial-iqtisadi strukturda kəskin transformasiyaya səbəb oldu. Bu məcburi miqrasiyalar bir tərəfdən türk-müsəlman əhalinin say və coğrafi yayılmasını artırdı, digər tərəfdən qeyri-müsəlman şəhər zümrələrinin azalmasına və iqtisadi ixtisasların bölgələr üzrə yenidən bölünməsinə gətirdi. Nəticədə, XX əsrin əvvəllərindəki bu nəhəng miqrasiya axınları qlobal miqyasda çoxmillətli cəmiyyətlərin formalaşmasına, regional səviyyədə isə Osmanlıdan Cümhuriyyətə keçid prosesinin demoqrafik əsaslarını müəyyən edən dərin struktur dəyişikliklər yaratdı.

Birinci dünya müharibəsindən sonra qlobal miqrasiya axınları həm siyasi xəritənin dəyişməsi, həm dövlətlərin dağılması, həm də iqtisadi böhranların təsiri altında əvvəlki dövrlərdən kəskin şəkildə fərqlənən, daha çox məcburi xarakter daşıyan geniş proseslərə çevrildi. Müharibənin yaratdığı böyük dağıntılar, sərhədlərin yenidən çəkilməsi, yeni dövlətlərin yaranması və imperiyaların süqutu milyonlarla insanın yaşayış yerini dəyişməsinə səbəb oldu. Bir tərəfdən, Avstriya-Macarıstan, Rusiya, Osmanlı və Alman imperiyalarının dağılması nəticəsində 1918-1925-ci illərdə Avropada 10 milyona yaxın insan siyasi və etnik səbəblərlə köç etmək məcburiyyətində qaldı; xüsusilə Şərqi Avropa və Balkanlarda yeni sərhədlərin çəkilməsi milyonlarla etnik azlığın "azlıq" statusuna düşməsinə və kütləvi yer dəyişmələrə yol açdı [14; 19]. Digər tərəfdən, Rusiya imperiyasının çökməsi və 1917-1922-ci illər arasında baş verən vətəndaş

müharibəsi təxminən 1,5 milyon rus miqrantın Avropa, Yaxın Şərq və xüsusilə İstanbul, Balkanlar və Paris istiqamətində köç etməsi ilə nəticələndi.

Müharibədən sonra Avropada iqtisadi çöküş və sosial xaos könüllü miqrasiyanı da məhdudlaşdırdı: ABŞ 1921 və 1924-cü illərdə miqrasiya kvotaları tətbiq edərək Avropadan kütləvi axını demək olar ki, dayandırdı; Kanada və Argentina da analoji məhdudiyyətlər qoydu. Buna görə də 1920-ci illərdə transatlantik miqrasiya kəskin şəkildə azaldı. Eyni zamanda Osmanlı imperiyasının süqutu və ardınca Anadoluda milli dövlət quruculuğu prosesi yeni köç dalğaları yaratdı: 1923-cü il Türkiyə-Yunanıstan əhali mübadiləsi çərçivəsində 1,2 milyon rum və 400 min müsəlman yer dəyişdi. Yaxın Şərqdə isə Suriya, Livan, İraq və Fələstində yeni mandat idarələrinin qurulması nəticəsində həm erməni qaçqınları, həm də digər etnik qruplar üçün yeni məskunlaşma mərkəzləri formalaşdı. Asiya regionunda Britaniya Hindistanında baş verən siyasi gərginliklər, Çin daxili müharibələri və Yaponiyanın imperiya genişlənməsi də milyonlarla insanın daxili və xarici miqrasiyasına səbəb oldu.

Bundan bir müddət sonra Avropada nasizmin yüksəlişi və Hitlerin diktaturası 1930-cu illər boyunca qitənin miqrasiya xəritəsini radikal şəkildə dəyişdirərək müasir dövrün ən böyük siyasi qaçqın dalğalarından birini yaratdı. Almaniyada 1933-cü ildə Hitlerin hakimiyyətə gəlməsi ilə birlikdə yəhudilər, siyasi müxaliflər, sosial-demokratlar, kommunistlər, liberallar, eləcə də qaraçılar, sintilər, homoseksuallar və müxtəlif dini qruplar sistemli şəkildə təqib edilməyə başlandı. Təkcə 1933-1939-cu illər arasında Almaniyadan təxminən 300 min yəhudi və siyasi mühacir ölkəni tərk etdi; bu, Avropa tarixində müharibəöncəsi ən böyük qaçqın dalğalarından biri idi [8]. Nasistlərin qanunları, xüsusilə 1935-ci ilin Nürnberq qanunları yəhudilərin hüquqi statusunu tamamilə ləğv etdikdən sonra Almaniya onlar üçün yaşanılmaz mühitə çevrildi və kütləvi qaçış Yaxın Şərqə, ABŞ-a, Böyük Britaniyaya, Fransa və Skandinaviya ölkələrinə doğru sürətləndi. Hitler Almaniyasının əvvəlcə Avstriyanı (1938), sonra Çexoslovakiyanı işğalı qısa müddətdə yeni qaçqın dalğaları yaratdı: Avstriyada "Anschluss"dan sonra təxminən 130 min yəhudi və siyasi müxalif ölkəni tərk etdi; Sudet bölgəsi və Praqanın işğalı ilə Çexoslovakiyadan on minlərlə insan qurtuluş yolu axtarmağa başladı [17]. Kristallnacht (1938) hadisəsi isə kütləvi şəkildə ölkədən çıxışın kulminasiya nöqtəsi oldu. Müharibə başlayandan sonra nasistlərin işğal etdiyi Polşa, Hollandiya, Belçika, Fransa və Balkan ölkələrində yəhudilərə və digər qruplara qarşı aparılan zorakı siyasət təkcə qaçqın axınlarını genişləndirmədi, həm də insanların bir hissəsinin məhv edilməsinə, digər bir hissəsinin isə işğal zonalarından Sovet İttifaqına, Britaniya nəzarətindəki ərazilərə və Qərbi Avropanın azad bölgələrinə sığınmasına səbəb oldu. Beləliklə, nasizmin yüksəlişi təkcə Almaniyada deyil, bütün Avropada siyasi, dini və etnik motivli məcburi miqrasiyanı kəskin şəkildə artıraraq qitənin demoqrafik strukturu üzərində dərin və uzunmüddətli iz buraxdı.

Birinci dünya müharibəsindən sonrakı kütləvi yerdəyişmələr, 1920-1930-cu illərin siyasi təlatümləri və nasizmin yüksəlişi Avropanın və Yaxın Şərqin demoqrafik mənzərəsini köklü şəkildə dəyişdirərək həm əhali sayında, həm də etnik-coğrafi bölgüdə dərin struktur dəyişiklikləri yaratdı. 1918-1925-ci illərdə imperiyaların dağılması nəticəsində təxminən 10 milyon insanın məcburi köçü Avropada yeni çoxluq-azlıq balansları yaratdı, bir çox etnik qrupları tarixən yaşadıqları torpaqlardan ayırdı və dövlətlərin milli sərhədlərini yeni demoqrafik əsaslarla yenidən qurmağa məcbur etdi. 1,5 milyon rusun inqilab sonrası miqrasiyası Şərqi Avropada rus varlığını zəiflətdi, əvəzində Balkanlar və Yaxın Şərqdə rus diasporunun yaranmasına səbəb oldu. 1930-cu illərdə Almaniyadan 300 min yəhudi və siyasi mühacirin, Avstriyadan 130 min nəfərin və işğal altındakı ölkələrdən on minlərlə insanın qaçışı Avropanın intellektual və mədəni

potensialının böyük hissəsinin ABŞ, Böyük Britaniya və digər ölkələrə axmasına gətirib çıxardı; bu proses Avropada bəzi urban mərkəzləri boşaldarkən ABŞ və Qərbi Avropada yeni elmi, mədəni və texnoloji elitaların formalaşmasını sürətləndirdi. Eyni zamanda nasistlərin işğal etdiyi ərazilərdə yəhudilərin, romanların və digər qrupların sistemli məhv edilməsi milyonlarla insandan ibarət demoqrafik boşluqlar yaratdı, Şərqi Avropada etnik nisbətləri geri dönüşü olmayan şəkildə dəyişdirdi və regionu daha homogen, lakin sosial cəhətdən daha sarsılmış vəziyyətə gətirdi.

### İkinci dünya müharibəsindən sonra miqrasiya proseslərinin demoqrafik vəziyyətə təsirləri

Bunun ardınca isə ikinci dünya müharibəsi dünya demoqrafiyasına həm miqyas, həm də təsir dərinliyi baxımından insanlıq tarixinin ən ağır nəticələrini buraxdı və bu nəticələr təkcə əhali sayının azalması ilə məhdudlaşmadı, həm də qlobal miqrasiya, etnik struktur, şəhərləşmə və sosial dinamika üzərində uzunmüddətli təsirlər yaratdı. Müharibə nəticəsində təxminən 70-75 milyon insan həlak oldu; bunun 25 milyonu Sovet İttifaqında, 7 milyonu Almaniyada, təxminən 20 milyonu isə Çində idi. Xüsusilə Holokost zamanı 6 milyon yəhudi, eləcə də yüz minlərlə qaraçı, siyasi məhbus, əlillər və digər qruplar sistemli şəkildə məhv edildi ki, bu da Avropanın etnik xəritəsində geri dönüşü olmayan boşluqlar yaratdı. Müharibə Avropada demoqrafik piramidanı ciddi şəkildə pozdu: gənc kişi əhali kütləvi şəkildə itirildiyi üçün doğum səviyyəsi müharibədən dərhal sonra minimuma düşdü, lakin 1945-1960-cı illər arasında baş verən "baby boom" həmin azalmanı qismən kompensasiya etdi və Qərb ölkələrində yeni nəsil dalğasının formalaşmasına səbəb oldu [3]. Eyni dövrdə miqrasiya prosesləri də kəskin şəkildə intensivləşdi. Müharibənin bitməsi ilə Avropada təxminən 12-14 milyon alman Şərqi Avropadan qovularaq Qərbi və Şərqi Almaniyaya sığındı; bu, qitənin tarixində ən böyük zorakı əhali köçürülmələrindən biri idi. Eyni zamanda Polşa-Almaniya sərhədlərinin dəyişdirilməsi 2 milyondan çox polyak və almanın yerlərini dəyişməsinə səbəb oldu. Sovet İttifaqı daxilində isə Baltikyanı ölkələrdən, Qafqazdan və Krımdan yüz minlərlə insan deportasiya edildi; məsələn, 1944-cü ildə təxminən 190 min Krım tatarı Orta Asiyaya sürgün olundu [1]. Asiyada da demoqrafik böhran yaşandı: Yaponiyanın müharibə dövründə genişlənməsi və müharibədən sonrakı məğlubiyyət nəticəsində milyonlarla koreyalı, çinli və yapon müxtəlif bölgələrdən geri qayıtmağa məcbur oldu; yalnız Yaponiyadan müharibədən sonra təxminən 6,5 milyon insan geri çəkildi [18]. Müharibə həmçinin şəhərlərin kütləvi dağıdılması, kənd təsərrüfatı istehsalının çökməsi və qaçqın düşərgələrinin yaranması ilə nəticələndi ki, bu da uzun illər regional əhali strukturlarının bərpasını ləngitdi.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra qlobal miqrasiya və yerdəyişmə prosesi tarixin ən böyük və ən kompleks əhali hərəkətlərindən birinə çevrildi. Müharibə Avropanı tam dağıtdığı üçün həm məcburi, həm siyasi, həm də iqtisadi səbəblərlə milyonlarla insan yerini dəyişdi. 1945-1950-ci illər arasında Avropada təxminən 30 milyona yaxın insan müxtəlif səbəblərlə evini tərk etməyə məcbur oldu: qaçqınlar, əsirlər, deportasiya edilən xalqlar, repatriasiya olunan əsgərlər və siyasi mühacirlər bu axının əsas hissəsini təşkil edirdi. Bu dövrün ən kütləvi proseslərindən biri isə Şərqi və Mərkəzi Avropadan 12-14 milyon almanın çıxarılıb Qərbi və Şərqi Almaniya ərazisinə yerləşdirilməsi idi; bu, Avropa tarixinin ən böyük zorakı yerdəyişmələrindən biri kimi qeydə düşdü. Eyni zamanda Polşa-Almaniya sərhədlərinin dəyişdirilməsi, Sovet İttifaqı daxilində Krım tatarlarının, çeçenlərin, inquşların və digər xalqların deportasiyası, Balkanlardan yeni köç dalğaları müharibədən sonrakı Avropanı mürəkkəb etnik-demosiyasi vəziyyətə saldı [15].

ABŞ-a miqrasiya isə müharibədən dərhal sonra mövcud olsa da, əvvəlki geniş trans-atlantik dalğalar kimi kütləvi deyildi. Səbəbi ondan ibarət idi ki, ABŞ 1921 və 1924-cü illərin immiqrasiya qanunları ilə Avropadan gələnlərin sayını ciddi şəkildə məhdudlaşdırmışdı və bu kvotalar 1950-ci illərə qədər qüvvədə qaldı. Buna baxmayaraq, Almaniyadan və digər müharibə bölgələrindən ABŞ-a müəyyən həcmdə köç baş verdi. 1945-1952-ci illər arasında ABŞ-a təxminən 400000-450000 nəfər Avropa mənşəli insan qəbul olundu; onların arasında çoxlu sayda alman mühacir, nasizm qurbanları, siyasi qaçqınlar, elm adamları və müharibədə məhv olmuş ölkələrdən gələn iqtisadi mühacirlər vardı. Bu dövrdə ABŞ iki istiqamət üzrə alman mənşəli miqrant qəbul edirdi:

- Displaced Persons Act (1948) çərçivəsində nasizm dövründə təqib olunanlar və müharibədən sonra siyasi cəhətdən təhdid altında qalanlar [5];
- Operation Paperclip kimi xüsusi proqramlarla alman alim və mütəxəssislər (xüsusilə raket və aerokosmik sahələrində) [6].

Bununla belə, ABŞ-a böyük miqrasiya dalğası xüsusilə 1950-ci illərin sonundan sonra, yəni Avropanın bərpası sürətləndikdən sonra baş verdi və əvvəlki kimi yalnız Almaniya deyil, İtaliya, Yunanıstan və Şərqi Avropadan da axınlar müşahidə olundu. Ümumilikdə, müharibədən sonrakı dövrdə miqrasiya qlobal səviyyədə həm siyasi sistemlərin dəyişməsi, həm də iqtisadi yenidənqurma ehtiyacları ilə formalaşmış və ABŞ bu prosesin mühüm, lakin sərt kvotalarla tənzimlənən istiqamətlərindən biri olmuşdur.

İkinci dünya müharibəsinin yaratdığı nəhəng insan itkiləri, kütləvi deportasiyalar və müharibədən sonrakı zorakı yerdəyişmələr qlobal demoqrafik strukturu kökündən dəyişdirərək həm Avropada, həm Asiyada, həm də Şimali Amerikada uzunmüddətli, geri dönüşü olmayan dəyişikliklər yaratdı. Avropada 70–75 milyon nəfərin ölümünün səbəb olduğu demoqrafik boşluq, xüsusilə gənc kişi əhalinin kütləvi itirilməsi nəticəsində əhali piramidasını ciddi şəkildə pozdu və doğum səviyyəsinin müharibədən dərhal sonra kəskin düşməsinə səbəb oldu; sonrakı "baby boom" dalğası bu boşluğu qismən doldursa da, Avropanın yaş strukturu davamlı olaraq yaşlanma istiqamətinə yönəldi. Şərqi və Mərkəzi Avropadan 12-14 milyon almanın qovulması, Polşa və Almaniya arasında sərhədlərin dəyişməsi nəticəsində milyonlarla polyak və almanın yerləşdiyi coğrafiyanın dəyişməsi qitənin etnik xəritəsini yenidən qurdu və yüz illərlə mövcud olan etnik müxtəlifliyi xeyli azaltdı. SSRİ daxilində Krım tatarları, çeçenlər, inquşlar və digər xalqların yüz minlərlə nəfərlik deportasiyası regionların etnik balansını dəyişdirdi və Qafqazdan Orta Asiyaya qədər geniş bir ərazidə süni demoqrafik kompozisiyalar formalaşdırdı. Asiyada Yaponiyanın müharibə sonrası geri çəkilməsi nəticəsində 6,5 milyon insanın repatriasiyası, Koreya və Çində siyasi qarışıqlıqların yaratdığı kütləvi daxili miqrasiya bu bölgənin demoqrafik xəritəsini yeni siyasi reallıqlara uyğunlaşdırdı. ABŞ-da isə 1945-1952 arasında qəbul olunan 400000-450000 Avropa mənşəli miqrant ölkənin intellektual və elmi potensialını gücləndirdi və xüsusilə alman alim və mütəxəssislərin qəbulu texnoloji inkişafın sürətini gözəçarpacaq şəkildə artırdı. Bütün bu yerdəyişmələr nəticəsində Avropa daha homogen, lakin daha yaşlı demoqrafik struktur əldə etdi; ABŞ isə daha çox kosmopolit və yüksək ixtisaslı əhali tərkibi qazandı; SSRİ-də isə etnik balans süni şəkildə yenidən quruldu və bu, gələcəkdə etnik-siyasi gərginliklərin əsasını təşkil etdi.

XX əsrin ikinci yarısında Avropada demoqrafik siyasət həm müharibədən çıxmış qitənin bərpa ehtiyaclarına, həm də sənayeləşmə, urbanizasiya, sosial rifah dövlətinin yaranması və miqrasiya axınlarının yeni mərhələsinə uyğun olaraq formalaşırdı. Ümumilikdə bu dövrdə Avropa ölkələri demoqrafik siyasəti dörd böyük istiqamətdə həyata keçirməyə başladılar: doğum səviyyəsinin tənzimlənməsi, ailə və sosial rifah proqramlarının

gücləndirilməsi, miqrasiya siyasətinin idarə olunması və yaşlanma problemlərinə adaptasiya. 1945-1960-cı illərdə bir çox ölkədə yüksək doğum göstəricilərini qorumaq məqsədilə ailələrin maddi dəstəyi ön plana çıxarıldı: Fransa, Almaniya, İsveç və İtaliya kimi dövlətlər ailə müavinətləri, çoxuşaqlı ailələrə vergi endirimləri, analıq məzuniyyətinin uzadılması və uşaq bağçası xidmətlərinin genişləndirilməsi kimi pronatalist siyasə tətbiq edirdilər. Doğum səviyyəsinin sonrakı illərdə (1960–1980) enməyə başlaması Avropada yeni sosial rifah institutlarının, başqa sözlə, universal səhiyyə, sosial sığorta, analıq və atalıq məzuniyyətlərinin genişləndirilməsi və dövlət tərəfindən maliyyələşən uşaq baxımı sistemlərinin formalaşmasına gətirib çıxardı [4]. Şimali Avropa ölkələri 20-ci əsrin ikinci yarısında ailə və əhali siyasətində gender bərabərliyini mərkəzə qoyaraq Avropanın ən irəli və nümunəvi modellərini formalaşdırdılar. Xüsusilə İsveçdə 1974-cü ildə analıq məzuniyyətinin "valideyn məzuniyyəti" kimi yenidən tərtib olunması və ataların da bərabər hüquqla məzuniyyət götürə bilməsi demoqrafik siyasətdə inqilabi dönüş nöqtəsi sayılırdı. Bu da öz növbəsində təkcə qadınların üzərindəki sosial yükü azaltmadı, həm də ailə daxilində əmək bölgüsünün daha ədalətli qurulmasına şərait yaratdı, qadınların əmək bazarında mövqeyini gücləndirdi və doğum səviyyəsinin sabit şəkildə qorunmasına müsbət təsir göstərdi [16]. İsveç, Norveç, Finlandiya və Danimarkanın tətbiq etdiyi dövlət tərəfindən maliyyələşən uşaq baxımı, uzunmüddətli və çevik valideyn məzuniyyəti, yüksək gəlir əvəzetməsi və qadınların tam zamanlı işə dönüşünü dəstəkləyən sistemlər sonradan digər Avropa ölkələrinə nümunə oldu.

Bu dövrdə qitənin digər ciddi demoqrafik reallığı kütləvi əmək miqrasiyası idi: 1950-1973-cü illərdə Qərbi Avropa ölkələri "qonaq işçi" proqramları vasitəsilə Türkiyə, Yunanıstan, İtaliya, Yuqoslaviya, Mərakeş və Tunisdən milyonlarla işçi qəbul etdilər. Almaniyanın Gastarbeiter proqramı çərçivəsində təkcə Türkiyədən 1961-1973 arasında 800 minə yaxın işçi Almaniyaya getmişdi [11]. Bu proses nəticəsində Avropada etnik tərkib xeyli müxtəlifləşdi və yeni diaspor icmaları yarandı. 1973 neft böhranından sonra isə Avropa ölkələri miqrasiya axınlarını məhdudlaşdıraraq ailə birləşməsi və siyasi sığınacaq üzərində dayanan daha sərt miqrasiya siyasətinə keçdilər.

XX əsrin sonlarında Avropanın demoqrafik mənzərəsində ən kritik dönüş nöqtəsi əhalinin sürətlə yaşlanması oldu və bu proses demək olar ki, bütün qitədə dövlət siyasətinin yenidən qurulmasını şərtləndirdi. 1970-ci illərdən başlayaraq doğum səviyyəsinin 2,1 əvəzləmə həddinin altına düşməsi, paralel şəkildə tibbi texnologiyaların inkişafı, ölüm səviyyələrinin azalması və ömür uzunluğunun kəskin artması demoqrafik piramidanın tərsinə çevrilməsinə şərait yaratdı; məsələn, İtaliyada, Almaniyada və İspaniyada doğum səviyyəsi 1990-cı illərdə 1,2-1,4 aralığına qədər enərək dünyanın ən aşağı göstəricilərindən biri oldu, eyni zamanda Yaponiyadan sonra ən yüksək yaşlı əhali payı Avropada qeydə alınmağa başladı [13]. Bu tendensiya pensiya sistemlərini ciddi təzyiq altına saldığı üçün dövlətlər yaş həddinin artırılması və təqaüdə çıxma müddətinin uzadılması kimi islahatlara getdilər; Almaniya və Fransada pensiya yaşı 65-dən yuxarı qaldırıldı, Skandinaviya ölkələri isə elastik pensiya modelləri tətbiq etdilər. Yaşlanmaya qarşı iqtisadi dayanıqlığı artırmaq üçün aktiv yaşlanma proqramları genişləndirildi: İsveçdə yaşlıların əmək bazarında daha uzun müddət qalması üçün vergi güzəştləri təqdim edildi, Finlandiyada yaşlı işçilərin sağlamlıq və iş qabiliyyətini qoruyan xüsusi proqramlar yaradıldı. Eyni dövrdə qadınların əmək bazarında iştirakını stimullaşdırmaq demoqrafik strategiyaların əsas elementinə çevrildi: məsələn, Fransa uşaq bağçasını tam dövlət dəstəyi ilə universal hala gətirərək həm doğum səviyyəsinin azalmasının qarşısını aldı, həm də qadınların tam zamanlı işə qayıtma imkanlarını genişləndirdi. Bununla yanaşı, bəzi Avropa ölkələri yaşlanan əhali strukturunu tarazlaşdırmaq məqsədilə seçici miqrant qəbulunu

artırmağa başladı: Böyük Britaniya, Almaniya və İsveç 1990-cı illərdə yüksək ixtisaslı işçi axını üçün xüsusi proqramlar yaratdı və bu ölkələrdə miqrant mənşəli əhalinin payı sürətlə artdı. Bütün bu tədbirlər göstərir ki, XX əsrin sonlarında yaşlanma problemi təkcə sosial rifah sistemləri üçün deyil, həm də əmək bazarı, iqtisadi artım və dövlət maliyyəsi üçün strateji çağırışa çevrilmişdi və Avropa dövlətləri müxtəlif siyasət alətləri ilə bu problemi idarə olunacaq səviyyədə saxlamağa çalışırdılar.

Paralel dövrdə, yəni XX ikinci yarısında ABŞ-da demoqrafik siyasət həm əhalinin sürətli artımı, həm baby-boom dalğası, həm də 1960-cı illərdən başlayaraq formalaşan yeni miqrasiya reallıqları fonunda formalaşmış və ölkənin sosial-iqtisadi inkişafına uyğun şəkildə dəyişmişdir. Bu dövrdə ABŞ demoqrafik siyasəti əsasən üç böyük istiqamətdə cəmlənirdi: əhali artımının idarə olunması, sosial rifah və ailə siyasəti, eləcə də immiqrasiya qanunvericiliyinin yenidən qurulması. Belə ki, ikinci dünya müharibəsindən sonra baş verən və 1946-1964-cü illəri əhatə edən baby-boom dövründə dövlət ailələri stimullaşdıran siyasət tətbiq edirdi: GI Bill vasitəsilə veteranlara təhsil, ev krediti və sosial təminat imkanları yaradıldı, genişmiqyaslı suburb (ətraf yaşayış məntəqələri) layihələri ailələrin uşaq sahibi olmaq imkanlarını artırdı və bu, ABŞ-da tarixin ən böyük demoqrafik genişlənmə dalğasına səbəb oldu. 1960-cı illərdən etibarən doğum səviyyəsinin azalması fonunda dövlət birbaşa pronatalist siyasət yürütməsə də, səhiyyə və sosial rifah proqramları gücləndirildi: 1965-ci ildə Medicare və Medicaid sistemlərinin yaradılması əhalinin yaşlanmasına qarşı ilk institusional tədbirlər oldu və bu, XX əsrin sonunda ABŞ-ın yaşlanan cəmiyyətlərdən biri olmasının qarşısını qismən aldı [12]. Bu dövrün ən mühüm demoqrafik siyasəti immiqrasiya qanunlarının dəyişdirilməsi idi. ABŞ 1921 və 1924-cü illərin kvota qanunları ilə Avropa köçünü məhdudlaşdırmışdı, lakin 1965-ci il "Immigration and Nationality Act" qlobal miqrasiyanın strukturunu köklü şəkildə dəyişdirdi: milli mənşə kvotaları ləğv olundu və immiqrasiya ailə birləşməsi və yüksək ixtisaslı əmək axınına əsaslanan sistemlə əvəz edildi [10]. Bu, ABŞ-ın etnik tərkibini sürətlə dəyişdirdi: 1965-ci ildən sonra Latın Amerikası, Asiya və Karib hövzəsindən böyük miqrasiya dalğaları başladı və ölkə çoxmillətli modelə çevrildi. 1980-ci illərdə qaçqın siyasətinin sistemləşdirilməsi üçün "Refugee Act" qəbul edildi və Vyetnam, Kamboca, SSRİ-dən gələn qaçqınlar yeni demoqrafik mərkəzlər formalaşdırdı. 1986-cı ildə IRCA (Immigration Reform and Control Act) qeyri-leqal miqrantların bir hissəsinə leqallaşdırma imkanı yaratdı ki, bu da 2,7 milyon insanın status alması ilə nəticələndi.

**Nəticə**

XX əsrdə miqrasiya prosesləri həm qlobal demoqrafik strukturu, həm də dövlətlərin demoqrafik siyasət fəlsəfəsini köklü surətdə yenidən müəyyənləşdirən çoxşaxəli və mərhələli bir transformasiya yaratmışdır. Əsrin əvvəllərində Avropa-Amerika xəttində baş verən kütləvi könüllü miqrasiyalar, Osmanlıdan Cümhuriyyət Türkiyəsinə keçid prosesində müşahidə olunan zorakı köçlər və etnik təmizləmə xarakterli yerdəyişmələr, birinci dünya müharibəsinin və imperiyaların süqutunun doğurduğu sərhəd dəyişiklikləri və qaçqın axınları dünya əhalisinin bölgüsünü əsaslı şəkildə dəyişdirmiş, yeni çoxmillətli və eyni zamanda müəyyən dərəcədə homogenləşdirilmiş siyasi-coğrafi məkanlar formalaşdırmışdır. Nasizmin yüksəlişi, Holokost və digər siyasi repressiyalar təkcə milyonlarla insanın məhv edilməsi və məcburi köçü ilə nəticələnməmiş, həm də Avropanın intellektual, elmi və mədəni potensialının mühüm hissəsinin ABŞ və digər ölkələrə transferi ilə qlobal güc balansında yeni mərkəzlərin formalaşmasına təkan vermişdir. İkinci dünya müharibəsinin yaratdığı 70-75 milyonluq insan itkisi, 12-14 milyon almanın Şərqi və Mərkəzi Avropadan qovulması, SSRİ daxilində həyata keçirilən deportasiyalar, Yaponiyanın geri çəkilməsi ilə

Asiyada baş verən repatriasiya dalğaları və bütövlükdə 1945-1950-ci illər arasında 30 milyona yaxın insanın müxtəlif statuslarla yer dəyişməsi XX əsrin miqrasiya tarixini sadəcə kəmiyyətcə böyük bir hadisə deyil, həm də dövlətlərin demoqrafik qərarvermə mexanizmini dəyişən struktur şok kimi səciyyələndirir. Bunun ardınca formalaşan “baby boom” nəsli, sənayeləşmə və urbanizasiya dalğası, əmək bazarının yeni tələbləri və sosial rifah dövlətinin yüksəlişi miqrasiyanı artıq təkcə humanitar və təhlükəsizlik problemi deyil, eyni zamanda əmək resurslarının yenilənməsi, yaşlanma prosesinin balanslaşdırılması və iqtisadi-modernləşmə strategiyasının ayrılmaz komponentinə çevirmişdir.

Əsrin ikinci yarısından etibarən həm Avropa, həm də ABŞ demoqrafik siyasəti məhz bu kəskin tarixi təcrübənin nəticələri üzərində qurulmuş, miqrasiya isə demoqrafik siyasətin hədəf və alətlərini birbaşa formalaşdıran determinant faktora çevrilmişdir. Qərbi Avropada “qonaq işçi” proqramları vasitəsilə milyonlarla insanın gətirilməsi, sonradan ailə birləşməsi və siyasi sığınacaq kanallarının ön plana çıxması, Skandinaviya ölkələrinin demoqrafik siyasəti gender bərabərliyi, sosial rifah və yüksək doğum səviyyəsinin tarazlaşdırılması əsasında yenidən dizayn etməsi, eyni zamanda yaşlanma fonunda seçici miqrasiya mexanizmlərinin inkişafı göstərir ki, XX əsrin sonuna doğru miqrasiya artıq dövlətlərin uzunmüddətli pensiya, əmək bazarı, şəhərsalma və multikultural inteqrasiya strategiyalarının mərkəzi hərəkətverici qüvvəsidir. ABŞ-da baby-boom dalğasının yaratdığı əhali artımı, GI Bill və suburb mədəniyyətinin ailə modelini dəyişməsi, 1965-ci il immiqrasiya islahatları ilə Avropaya yönəlik kvota sisteminin ləğv edilib Latın Amerikası, Asiya və Karib hövzəsindən kütləvi miqrasiyanın başlanması ölkənin demoqrafik tərkibini köklü surətdə yeniləmiş, etnik və mədəni plüralizmi struktur xüsusiyyətə çevirmişdir. Beləliklə, XX əsrdə miqrasiya prosesləri bir tərəfdən müharibələr, imperiya çökmələri və ideoloji qarşıdurmalarla bağlı zəruri və çox vaxt zorakı yerdəyişmələr kimi ortaya çıxsa da, digər tərəfdən sənayeləşmə, qloballaşma və sosial rifah dövlətinin tələblərinə uyğun olaraq planlı şəkildə idarə olunan, demoqrafik boşluqları dolduran, yeni iqtisadi və sosial modelləri mümkün edən alətə çevrilmişdir.

**Ədəbiyyat:**


1. Aurelie, C. The Soviet Massive Deportations - A Chronology. 5 Novembre, 2007. URL: https://www.sciencespo.fr/mass-violence-war-massacre-resistance/fr/document/soviet-massive-deportations-chronology.html
2. Barut, I. Osmanli Dönemi'nde Gerçekleşen Göçlerin Kurumsallaşma ve Göç Politikalari Üzerindeki Etkileri. Sosyal Politika Çalışmaları Dergisi, 2018, 18, 161-190.
3. Bean, F. D. The Baby Boom and Its Explanations. The Sociological Quarterly, 1983, 24(3), 353–365. http://www.jstor.org/stable/4106183
4. Bourgeois-Pichat, J. The Unprecedented Shortage of Births in Europe. Population and Development Review, 1986, 12, 3–25.
5. Displaced Persons Act (1948). URL: https://immigrationhistory.org/item/1948-displaced-persons-act/
6. Djangi, P. How Operation Paperclip brought Nazi scientists to the U.S. National Geographic. May 12, 2025. URL: https://www.nationalgeographic.com/history/article/operation-paperclip
7. Efe, H. Osmanlı İmparatorluğu ve Türkiye'de Yaşanan Göçler ve Etkileri. Sosyal Bilimler Metinleri, 2018 (1), 16-27.
8. German Jewish Refugees, 1933–1939. URL: https://encyclopedia.ushmm.org/content/en/article/german-jewish-refugees-1933-1939
9. Hirschman, C.; Mogford, E. Immigration and the American industrial revolution from 1880 to 1920. Soc Sci Res. 2009 Dec;38(4):897-920.
10. Immigration and Nationality Act of 1965. URL: https://history.house.gov/Historical-Highlights/1951-2000/Immigration-and-Nationality-Act-of-1965/
11. İçduygu, A. 50 years after the labour recruitment agreement with Germany: The consequences of emigration for Turkey. Perceptions, 2012, 17(2), 11-36.
12. Medicare and Medicaid Act (1965). URL: https://www.archives.gov/milestone-documents/medicare-and-medicaid-act
13. OECD. Society at a Glance 2024: OECD Social Indicators, OECD Publishing, Paris, 2024. https://doi.org/10.1787/918d8db3-en.
14. Oltmer, J. Protecting Refugees in the Weimar Republic, Journal of Refugee Studies, Volume 30, Issue 2, June 2017, Pages 318–336.
15. Peach, C. Postwar Migration to Europe: Reflux, Influx, Refuge. Social Science Quarterly, 1997, 78(2), 269–283.
16. Reforming the Welfare State: Recovery and Beyond in Sweden. URL: https://dokumen.pub/reforming-the-welfare-state-recovery-and-beyond-in-sweden-9780226261911.html
17. Schütz, W., Erker, L., Rathkolb, O., & Sitte, H. H. (Eds.). (2018). "Anschluss" 1938: Aftermath on medicine and society [Special issue]. Wiener klinische Wochenschrift, 130 (Suppl. 5). https://doi.org/10.1007/s00508-018-1366-4
18. Sheng, J. Homeward Bound: The Postwar Repatriation of Japanese Civilians in Shanghai, 1945-1948. Asia-Pasific Journal. December 1, 2020. URL: https://apjjf.org/2020/23/sheng
19. Stola, D. Forced Migrations in Central European History. The International Migration Review, 1992, 26(2), 324–341.
20. Turan, A. Türkiye'de Göç ve Siyasi Boyutları. Cumhuriyet Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi, 2023, 24(3), 331-347.
21. Tümtaş, M. S., & Köse, A. C. Yüz Yıllıkk Cumhuriyetin Göç Tarihi. Stratejik ve Sosyal Araştırmalar Dergisi, 2023, 7 (Türkiye Cumhuriyeti'nin 100. Yılı Özel Sayısı), 63-75.

***Açar sözlər:*** *miqrasiya prosesləri, demoqrafik siyasət, əhalinin hərəkətliliyi, beynəlxalq miqrasiya, XX əsr*

**Ulviyya Hagverdi**

*The Academy of Public Administration under the President of Azerbaijan Republic, Department of Political Science and Political Administration, Associate professor Ph.D. in Political Science*

## IMPACT OF TWENTIETH-CENTURY MIGRATION PROCESSES ON DEMOGRAPHIC POLICY

### ABSTRACT

The paper examines how migration processes in the twentieth century influenced the formation of demographic policy at both global and regional levels, using a historical-comparative analytical framework. The study explores how the scale, geography and motivations of migration changed across different phases of the century, and how these transformations affected key demographic indicators such as population structure, age distribution, ethnic composition, urbanization, and labour market dynamics. Migration regimes shaped by the First and Second World Wars, the collapse of empires, forced deportations, political persecution, organized labour-migration programs, and the intensification of globalization are assessed simultaneously as challenges and instruments within demographic policymaking. The article compares cases from Europe, the United States, the Soviet Union and postcolonial regions, showing that migration served as a tool for ethnic homogenization in some contexts, while in others it fostered the emergence of multicultural social models. The empirical basis relies on statistical datasets, reports from international institutions, and secondary analysis of historical and archival materials, which together allow reconstruction of causal links between major migration waves and demographic policy choices. The analysis demonstrates that pronatalist programs, immigration quotas, refugee regimes, family-reunification mechanisms and dual labour-migration systems increasingly made demographic planning dependent on migration flows. Particular attention is devoted to the demographic consequences of legal reforms, population ageing, labour shortages, pension-system sustainability, and asylum policy. The study concludes that in the twentieth century migration reshaped not only demographic realities but also the strategic logic of state planning, integrating demographic policy with security, economic development, social welfare and citizenship regimes.

***Keywords:*** *migration processes, demographic policy, population mobility, international migration, twentieth century*

**Ульвия Хагверди**

*Доцент кафедры Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

# ВЛИЯНИЕ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ XX ВЕКА НА ДЕМОГРАФИЧЕСКУЮ ПОЛИТИКУ

## РЕЗЮМЕ

В статье анализируется влияние миграционных процессов XX века на формирование демографической политики на глобальном и региональном уровнях, опираясь на историко-сравнительный подход. Рассматривается, как менялись масштаб, география и мотивации миграции на различных этапах столетия и в какой степени эти изменения воздействовали на такие ключевые демографические показатели, как структура населения, возрастная пирамида, этнический состав, урбанизация и рынок труда. Миграционные режимы, возникшие под воздействием Первой и Второй мировых войн, распада империй, насильственных депортаций, политических преследований, программ трудовой миграции и волны глобализации, рассматриваются как вызов и одновременно инструмент демографической политики. Проводится сопоставление примеров из Европы, США, бывшего СССР и постколониального пространства, показывается, что миграция в одних случаях служила механизмом этнической гомогенизации, а в других – основой формирования многокультурных обществ. Эмпирическая база исследования опирается на статистические данные, отчёты международных организаций и вторичный анализ архивных материалов, позволяющий реконструировать причинно-следственные связи между миграционными волнами и содержанием демографических решений. Анализ показывает, что пронаталистские программы, иммиграционные квоты, режимы для беженцев, механизмы воссоединения семей и двусторонние модели трудовой миграции всё больше превращали демографическую политику государств в зависимую от миграции сферу. Особое внимание уделяется последствиям изменений в иммиграционном законодательстве, проблемам старения населения, нехватки рабочей силы, устойчивости пенсионных систем, а также политике убежища. В итоге делается вывод, что миграция в XX веке изменила не только демографическую реальность, но и стратегическую логику государственного планирования, тесно интегрировав демографическую политику с вопросами безопасности, экономического роста, социальной защиты и режимов гражданства.

***Ключевые слова:*** *XX век, миграционные процессы, демографическая политика, мобильность населения, международная миграция*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.343

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 327

**ZAUR MƏMMƏDOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Politologiya və siyasi idarəetmə kafedrasının dosent əvəzi,
siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: zaurmammadov@mail.ru*

# MÜASİR ÇAĞIRIŞLAR FONUNDA AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ VƏ SÜLH STRATEGİYASI

Bu gün beynəlxalq münasibətlər sistemi ciddi şəkildə artan transformasiya və dərin turbulentlik çağını yaşayır. Azərbaycan və Ermənistan arasında münaqişənin vaxtilə danışıqlar yolu ilə beynəlxalq hüquq çərçivəsində dünya birliyi tərəfindən həll edilməməsi bizə yaxşı məlum olsa da, ən son Rusiya və Ukrayna arasında davam etməkdə olan müharibə və Latın Amerikasında, Yaxın Şərqdə, Qəzza ətrafında, yaxın və uzaq regionlarda baş verənlər beynəlxalq nizamsızlığı bir daha göstərmiş oldu. Beynəlxalq nizamın qorunması və hüququn aliliyinə məsul olan beynəlxalq təşkilatlar təəssüflər olsun ki, öz funksiyalarını tam olaraq yerinə yetirə bilmir, nəticədə minlərlə və milyonlarla insanlar öz yurd – yuvalarından didərgin salınır, dövlətlərin ərazi bütövlüyü pozulmuş olur.

Bu kontekstə artıq uzun müddətdir ki, qlobal nizamın qorunmasının vacibliyi və BMT başda olmaqla beynəlxalq təşkilatların funksionallığı bir çox dövlətlərin liderləri tərəfindən sual altına qoyulur. Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan dəfələrlə beynəlxalq kürsülərdəki çıxışları zamanı BMT-də islahatların vacibliyinə toxunur. O qeyd edir ki, "son illər dünya radikal dəyişiklik prosesindən keçir. İkinci Dünya müharibəsindən sonra qurulan iqtisadi, hərbi və siyasi sistemin əsasları hər yeni hadisə ilə daha da ciddi sarsılır. Beynəlxalq sistemdə tarazlıq pozulub, qeyri-müəyyənlik artıb, qeyri-sabitlik və xaos dünyanın hakim rənginə çevrilib. Türkiyə olaraq uzun müddətdir bu vəziyyətə diqqət çəkirik. Qlobal sistem bütün amilləri ilə bugünkü reallıqlara uyğun olaraq yenidən qurulmalıdır. "Dünya 5-dən böyükdür" sözlərim sistemin təcili dəyişdirilməsinə olan ehtiyacın göstəricidir" [1]. Doğrudan da, İkinci dünya müharibəsinin nəticəsində formalaşan dünya nizamı və beynəlxalq münasibətlər sistemi hazırda özünü doğrultmur və həmin dövrdəki proseslərin nəticəsi olaraq qurulan qlobal nizam bu gün mövcud ola bilməz. Müasir dünya isə, əvvəlki dövrlərdən fərqli olaraq artıq iki və ya üç hegemon aktorla məhdudlaşmır. Bu gün dünyada daha çox müstəqil dövlət mövcuddur və onların bəziləri təkcə nəinki regional, eyni zamanda qlobal proseslərə təsir etmək imkan və rıçaqlarına malikdir. Hazırda dünya siyasətində olan nizamsızlıq bəzən BMT Təhlükəsizlik Şurasının

beş dövlətinin özlərini də ayrı-ayrı mövzularda narahat etsə də, görünən odur ki, beynəlxalq münasibətlər sistemi ilə bağlı "status-kvo"nun dəyişdirilməsi ABŞ, Rusiya, Çin, Fransa, Britaniya kimi dövlətləri yeni çağırışlar qarşısında qoya bilər.

Bütün bunlara baxmayaraq, aydındır kı, BMT Təhlükəsizlik Şurasının 5 üzvü II Dünya müharibəsindən sonra beynəlxalq prosesləri öz monopoliyalarına alaraq faktiki olaraq dünyanı istədikləri kimi idarə etməyə cəhd göstərməkdədirlər. Bu fonda, XXI əsrin 20-ci illərində münaqişələrin nizamlanmaması, əksinə müharibələr ilə nəticələnməsi qlobal nizamın gələcəyi ilə bağlı narahatlıqları artırmaqdadır. Azərbaycan prezidenti İlham Əliyev 2026 -cı ilin fevral ayında Münxendə mətbuata müsahibəsində baş verənlərə aşağıdakı kimi aydınlıq gətirir: "Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir" [2].

Prezident İlham Əliyevin bildirdiyi kimi yeni beynəlxalq münasibətlər sistemində beynəlxalq nizamın və qaydaların yeni mexanizmləri olmalıdır. Hələlik gördüklərimiz isə, siyasi, iqtisadi və hərbi cəhətdən güclü olan tərəfin kobud şəkildə sərhədləri keçərək ərazi bütövlüyünü pozması, dövlətlərin suverenliklərini məhdudlaşdırmasıdır. Beləliklə, hazırkı şəraitdə dünya birliyinə formal olaraq demokratiya və hüquq prinsiplərini təşviq etdiyini bəyan edən, beynəlxalq nizam və sabitliyə görə məsuliyyət daşımalı olan dövlətlərin fəaliyyətində ziddiyyətlər müşahidə olunur. Onların bir sıra hallarda sülh və sabitlik əvəzinə münaqişələrə, zorakılığa və humanitar böhranlara səbəb olan proseslərdə iştirak etməsi bu ziddiyyətləri daha da qabarıq şəkildə ortaya qoyur.

Beləliklə, BMT-nin mövcud çağırışlara vaxtında operativ və tutarlı cavab verə bilməməsi, faktiki olaraq bu təşkilatın fəaliyyətsizliyi daha çevik həll mexanizmlərinin formalaşdırılmasına ehtiyacı açıq şəkildə ortaya qoyur. Məhz bu fonda, alternativ sülh və təhlükəsizlik platformasının yaradılması məqsədilə "Sülh Şurası" təşəbbüsü ötən ilin sonunda - Donald Trump Administrasiyası tərəfindən irəli sürülmüşdür.

Azərbaycan Respublikası yeni yaradılan və artıq beynəlxalq təşkilata çevrilən Sülh Şurasının qurucularından biri kimi bu platformada aktiv şəkildə iştirak etməkdədir. Bu, Bakının ənənəvi olaraq üstünlük verdiyi "siyasi praqmatizm" yanaşmasına uyğun gəlir. Diplomatik təmsilçilik vasitəsilə sülh təşəbbüslərində iştirak etmək, humanitar və siyasi dəstək mexanizmlərini gücləndirmək Azərbaycanın məsuliyyətli aktor kimi beynəlxalq imicini möhkəmləndirir.

Azərbaycanın aktiv şəkildə beynəlxalq proseslərdə iştirakı, 44 günlük müharibədən sonra ölkəmizin dünya ölkələri sırasında regional miqyasdan qlobal miqyasa keçid etdiyini, siyasi – diplomatik platformalarda aparıcı dövlətlər siyahısına daxil olduğunun göstəricisidir. Bu, xüsusilə hazırda regionda və onun ətrafında qlobal və bölgə gücləri arasında geosiyasi ziddiyyətlərin açıq müstəviyə keçdiyi vaxtda vacibdir. Son bir neçə ildə Avrasiyanın orta xəttində yerləşən dövlətlərin suverenliklərinə və müstəqilliklərinə təhdidlər məsələsi aktual xarakter alır. Venesuella hadisələri, Rusiya və Ukrayna arasında müharibə və ABŞ, İsrail-İran arasında davam etməkdə olan müharibə və qarşıdurma, Yaxın Şərq ölkələrində, Ermənistanda və digər ölkələrdə davam edən faktiki olaraq vətəndaş müharibələri və ya ictimai qeyri-həmrəylik diqqət mərkəzindədir. Yuxarıda sadalanan və dünyada qlobal güc uğrunda mübarizə aparan dövlətlərinin apardıqları müharibələrdən fərqli olaraq, Azərbaycan dövləti cəmi 44 günlük müharibə ərzində işğala son qoydu, müharibəni başa çatdırdı. Nəticə etibarilə, bu mürəkkəb və çoxşaxəli proseslərin sonunda əldə olunan qələbə sistemli və düşünülmüş siyasətin nəticəsi kimi qiymətləndirilə bilər.

Azərbaycan Prezidenti İlham Əliyevin bu illər ərzində atdığı addımlar bütövlükdə dövlətin təhlükəzliyi, suverenliyi və inkişafı modelini təşkil edir.

Bütün bu proseslər fonunda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası Cənubi Qafqazın əsas açar dövləti rolunu oynamaqdadır. Eyni zamanda, ölkəmiz Avrasiyanın geoiqtisadi və nəqliyyat – kommunikasiya coğrafiyasının dəyişikliyə məruz qaldığı bir zamanda ticarət və enerji resurslarının mənbəyi və ötürücüsü qismində olduqca vacib status almaqdadır. Sözsüz ki, yeni geosiyasi reallıqlarda suveren siyasət aparmağın yolu milli maraqların düzgün şəkildə reallaşdırılmasına nail olmaq üçün sistemli dövlət siyasətindən keçir.

Bütün bunları nəzərə alaraq Sülh Şurasında Azərbaycan Respublikasının təmsilçiliyi ölkənin qlobal proseslərdəki mövqeyini gücləndirir. Mövcud reallıqlar fonunda Azərbaycan həm regional, həm də beynəlxalq müstəvidə balanslaşdırılmış, praqmatik və milli maraqlara əsaslanan siyasət yürütməklə yeni təhlükəsizlik arxitekturasında təkcə öz yerini möhkəmləndirmir, eyni zamanda Cənubi Qafqaz – Mərkəzi Asiya regionunda geosiyasi arxitekturanı özü formalaşdırır.

Azərbaycan Respublikasının "Sülh Şurası"na yaradıcı (founding) üzv statusu ilə qoşulması isə xüsusi vurğulanmalı bir məqamdır. Bu status ölkəmizin təşkilatın ideya əsaslarının formalaşmasında, onun missiya və məqsədlərinin müəyyənləşdirilməsində aktiv rol oynadığını nümayiş etdirir. Yaradıcı üzv qismində çıxış edən Azərbaycan yalnız iştirakçı deyil, həm də qlobal sülh təşəbbüslərinin konturlarını müəyyən edən subyekt kimi çıxış edir. Nəticə etibarilə, Azərbaycanın "Sülh Şurası" çərçivəsində fəal iştirakı ölkəmizin beynəlxalq müstəvidə sülhün, dayanıqlığın və qlobal həmrəyliyin təşviqinə yönəlik strateji xəttinin ardıcıl davamı olmaqla yanaşı, Azərbaycanın etibarlı tərəfdaş və sülhün təşviqində aparıcı aktor kimi mövqeyini daha da möhkəmləndirir.

Azərbaycan Respublikasının xarici siyasət davranışı bir çox dövlətlərdən fərqli olaraq hər hansı tək bir beynəlxalq münasibətlər nəzəri paradiqması ilə məhdudlaşmır, əksinə, müxtəlif nəzəri yanaşmaların praqmatik və funksional elementlərini sintez edərək milli maraqlara uyğun çevik və çoxvektorlu siyasət xətti ilə səciyyələnir. Hazırda dünyada neoliberalizm və neokonservatizm yanaşmalarının tətbiqi əsasında ayrı-ayrı qütblər arasında qruplaşmanın getdiyi vaxtda ölkəmiz beynəlxalq hüququn aliliyinə vurğu edərək beynəlxalq və regional institutların inkişafı istiqamətində əməli addımlar atır. Bu fonda Azərbaycanın dövlət siyasətində qüvvələr balansı və hərbi – siyasi, iqtisadi qüdrət kimi istiqamətlər də prioritet hesab olunmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev timsalında biz əminliklə deyə bilərik ki, hazırki çətin geosiyasi şəraitdə qlobal subyektlər arasında rasional siyasət yürüdərək Qarabağ mövzusuna həmişəlik nöqtə qoymaq, mahir diplomatik çeviklik və duyumluluq tələb edirdi. Dövlət başçısının həm müharibənin gedişində, həm də müharibədən sonra, beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi necə bacardığının hər kəs şahididir.

44 günlük müharibə və 2023-cü ildə baş tutan antiterror tədbirlərindən sonra Azərbaycan dövləti tərəfindən regional siyasi proseslərə dair praqmatik yanaşma bir daha ortaya qoyuldu. Ölkəmiz Ermənistan ilə müharibənin arxada qaldığını, regiondakı gələcək proseslərin əsasının məhz sülh vasitəsilə, əməkdaşlıq vasitəsilə həllini tapmalı olduğunu bəyan etdi. Nəticədə, 2025-ci ilin avqust ayında Azərbaycan və Ermənistan liderlərinin və ABŞ prezidentinin iştirakı ilə tərəflər arasında Vaşinqton sazişi imzalandı. Bununla da, Azərbaycan xarici siyasəti sülh, sabitlik və təhlükəsizlik istiqamətində konseptual yanaşmanı ortaya qoymuş oldu. Bunun da nəticəsi kimi Azərbaycanın yaxın gələcək üçün qarşısına qoyduğu iqtisadi, nəqliyyat layihələrinin işə salınması tezləşdirildi. Təsadüfi deyil ki, bu praqmatik siyasət dəfələrlə Qərbdəki bir çox siyasətçi tərəfindən etiraf edildi. 2026-cı ilin fevralın 19-da Vaşinqtonda Sülh Şurasının ilk sammitindəki çıxışı zamanı ABŞ prezidenti

Donald Trampın növbəti dəfə Azərbaycan Prezidentinin, onun xarici siyasətinin uğurlarını xüsusi fərqləndirməsi dünya mediasının diqqət mərkəzində oldu. Çıxışı zamanı D.Tramp Azərbaycan – Ermənistan sülh gündəliyini bir daha vurğuladı [3].

Dünyanın siyasi mərkəzi sayılan Vaşinqtondan Azərbaycan Respublikasının lideri ilə bağlı söylənilən fikirlər sözsüz ki, rəsmi Bakının beynəlxalq nüfuzu və imici üçün əhəmiyyətli sayılmalıdır. 2025-ci ilin payızında ABŞ Prezidenti Donald Trampın Yaxın Şərq məsələləri üzrə xüsusi elçisi Stiven Uitkoff Mayamidə keçirilən Amerika Biznes Forumunda çıxışı zamanı Azərbaycan və Ermənistan arasındakı sülh prosesinə toxunaraq qeyd etmişdi ki, "Prezident Tramp Oval kabinetdə Azərbaycan lideri İlham Əliyevdən üstün ordusu olduğu halda niyə münaqişəni davam etdirmədiyini soruşdu... İlham Əliyev cavab verdi ki, məqsədi yalnız işğaldakı əraziləri geri qaytarmaq olub. Artığı yox" [4]. Bölgədə erməni məsələsini gündəmdə saxlayan xarici dairələr və Ermənistan daxilindəki bir qrup revanşist qüvvələr üçün ABŞ liderinin Azərbaycanın sülhsevərliyi ilə bağlı bəyanatları sözsüz ki onların məkrli planlarını altüst etməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu addımları uzaqgörən xarici siyasətin nəticəsi idi. Beləliklə, uzun illər ərzində formalaşmış mürəkkəb geosiyasi vəziyyətə qarşı yalnız sistemli, ardıcıl və strateji yanaşma ilə nəticə əldə etmək mümkün olmuşdur. Bu kontekstdə əldə olunan nəticələr təsadüfi deyil, əksinə, düşünülmüş və mərhələli şəkildə həyata keçirilən siyasətin məntiqi yekunu kimi çıxış edir. Göründüyü kimi, Azərbaycan Prezidenti həyata keçirdiyi addımlarla uzunmüddətli milli maraqları əsas götürən, regional və qlobal prosesləri düzgün qiymətləndirən və buna uyğun çevik qərarlar qəbul edən xarici siyasət kursu formalaşdırmışdır.

Beynəlxalq münasibətlər nəzəriyyələrinə də nəzər saldıqda biz ölkəmizin xarici siyasətində nəzəri-praktiki addımların bir-biri ilə vəhdət təşkil etdiyini vurğuluya bilərik. Misalçun, R. Koxeyn, C. Nay, R.Kuper və digər tanınmış nəzəriyyəçilər beynəlxalq münasibətlərdə əməkdaşlıq, ələlxüsus iqtisadi münasibətlərə xüsusi diqqət yetirirdilər. Onların fikrincə mübahisələrin qarşısının alınması üçün dövlətlər arasında iqtisadi və sosial münasibətlər olduqca vacibdir [5, s.151]

Digər tərəfdən, Kissincerin realizm və "güc balansı" yanaşması Azərbaycanın xarici siyasətində aydın şəkildə müşahidə olunur. Onun fikrincə, beynəlxalq sistemdə sabitlik yalnız böyük güclər arasında tarazlığın qorunması ilə mümkündür.

Azərbaycan isə müxtəlif güc mərkəzləri – Qərb, Rusiya, Türkiyə və digər regional aktorlar arasında balanslaşdırılmış siyasət həyata keçirərək, milli maraqlarını qorumağa nail olmuşdur. Bu siyasət həm də ölkənin müstəqil qərarvermə qabiliyyətini möhkəmləndirmiş və onu regionda etibarlı tərəfdaş kimi ön plana çıxarmışdır.

Buradan görünür ki, həm liberal yanaşmanı təmsil edən Koxeyn və Nayın əməkdaşlıq konsepsiyası, həm də Brzezinski və Kissincerin realist baxışları Azərbaycanın xarici siyasətində sintez halında tətbiq olunur. Bu isə onu göstərir ki, ölkənin xarici siyasət kursu yalnız nəzəri modellərə əsaslanmır, eyni zamanda real siyasi praktikaya uyğun çevik şəkildə formalaşdırılır. Nəticə etibarilə, Azərbaycan beynəlxalq münasibətlər sistemində həm əməkdaşlıq, həm də güc balansı prinsiplərini effektiv şəkildə uzlaşdıraraq dayanıqlı və çoxşaxəli xarici siyasət modeli ortaya qoymuşdur.

Azərbaycan və Ermənistan arasında normallaşma prosesi yalnız iki dövlət arasında münasibətlərin bərpası deyil, həm də regionda yeni geosiyasi və geoiqtisadi nizamın formalaşması baxımından strateji əhəmiyyət daşıyan çoxsəviyyəli prosesdir. Bu proses Azərbaycanın xarici siyasət fəlsəfəsi ilə birbaşa bağlıdır və onun əsas prinsipləri üzərində qurulur.

Postmünaqişə mərhələsində Azərbaycanın Ermənistanla iqtisadi müstəvidə əlaqələrin perspektivinə və nəqliyyat-kommunikasiya

layihələrinin təşviqinə verdiyi önəm məhz bu konseptual çərçivə ilə uzlaşır. Nəqliyyat dəhlizlərinin açılması, regional logistika şəbəkələrinin formalaşdırılması və ticarət əlaqələrinin institusional əsasda qurulması potensial gərginliklərin transformasiyasına xidmət edən geoiqtisadi strategiya kimi dəyərləndirilə bilər. Belə yanaşma qarşıdurmadan əməkdaşlığa keçidi təşviq edən praqmatik sülh modelini əks etdirir və iqtisadi qarşılıqlı asılılıq vasitəsilə uzunmüddətli sabitliyin normativ və funksional əsaslarını formalaşdırmağa yönəlmiş xarici siyasət fəlsəfəsinin tərkib hissəsi kimi çıxış edir.

Beləcə, iqtisadi addımlar, həm də təhlükəsizlik arxitekturasının sabitləşdirici komponenti kimi çıxış edir və mübahisələrin idarə olunmasını strukturlaşdırılmış qarşılıqlı maraqlar müstəvisinə keçirir.

Nəticə etibarilə, qlobal sistemin artan turbulentliyi, beynəlxalq institutların funksional məhdudiyyətləri və regional münaqişələrin transformasiya olunmuş xarakteri fonunda Azərbaycan hakimiyyətinin yürüdüyü xarici siyasət xətti praqmatik realizm, hüquqa əsaslanan legitimlik və geoiqtisadi əməkdaşlıq prinsiplərinin sintezi kimi çıxış edir. Postmünaqişə mərhələsində normallaşma gündəliyinin irəli sürülməsi, iqtisadi və nəqliyyat-kommunikasiya layihələrinin prioritetləşdirilməsi, eləcə də yeni təhlükəsizlik və sülh platformalarında aktiv təmsilçilik ölkənin yalnız regional sabitləşdirici aktor deyil, həm də formalaşmaqda olan yeni beynəlxalq arxitekturanın məsuliyyətli subyekti kimi çıxış etdiyini göstərir. Bu baxımdan Azərbaycanın xarici siyasət davranışı hazırda münaqişə yaşayan bir çox dövlətlər üçün nümunə rolunu oynayır.

**Ədəbiyyat:**


1. Qlobal sistem bütün amilləri ilə indiki reallıqlara uyğun olaraq yenidən qurulmalıdır. Azərbaycan qəzeti, 1 mart 2026.
2. BMT iflic vəziyyətə düşüb. Qafqazinfo saytı. Elektron link: https://qafqazinfo.az/news/detail/bmt-iflic-veziyyete-dusub-tesir-gostere-bilmeyecek-prezident-498825
3. Tramp Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini bir daha vurğuladı / 525-ci qəzet, 19 fevral 2026. Elektron link: https://525.az/news/321416-hikmet-haciyev-tramp-azerbaycan-ve-ermenistan-arasinda-sulhun-ehemiyyetini-bir-daha-vur guladi
4. Donald Tramp İlham Əliyev haqqında. Qafqazinfo informasiya agentliyi. 06.11.2025. Elektron link: https://qafqazinfo.az/news/detail/cavab-verdi-ki-meqsedi-yalniz-o-olub-488126.
5. .Дробот, Г. Либерализм в теории международных отношений // Москва: Социально-гуманитарные знания, - 2014. №5, - с.151.
6. Баранов, Н.А.; Пикалов, Г.А. Теория политики // Международные отношения и геополитика: [Электронный ресурс] / URL: http://read.virmk.ru/b/BARANOV _ POLITICA/21.htm


***Açar sözlər:*** *transformasiya dövrü, qlobal turbulentlik, qlobal təhlükəsizlik arxitekturası, ABŞ, Rusiya-Ukrayna, Qəzza, BMT, Sülh Şurası, Azərbaycan-Ermənistan normallaşma prosesi*

**Zaur Mammadov**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Department of Political Science and Political Management,*
*Associate Professor, Ph.D. in Political Sciences*

# FOREIGN POLICY AND PEACE STRATEGY OF THE REPUBLIC OF AZERBAIJAN AGAINST THE BACKDROP OF MODERN CHALLENGES

## ABSTRACT

It is well known that global processes are currently undergoing a period of profound change. Since the 1990s, states vying for global dominance toward a unipolar and multipolar world have entered a period of military, political, and economic conflicts with one another. Recent events demonstrate that international organizations are powerless to address the problems facing humanity. In an era when promoting peace is currently urgent, the Republic of Azerbaijan is one of the few countries in the world that stands out for its peace initiatives and pursues a pragmatic political course. This article provides a comprehensive analysis of Azerbaijan's participation in the Peace Council, official Baku's initiatives aimed at reducing contradictions in the region and beyond, as well as the conceptual foundations and strategic priorities of the state's foreign policy amid the transformation of the modern international system.

### Azərbaycan ali hərbi təhsilinin hazırkı vəziyyəti və inkişaf ehtiyacları

Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasında insan kapitalının inkişafı, xüsusilə yüksək ixtisaslı hərbi kadrların hazırlanması prioritet istiqamətlərdən biri kimi müəyyən edilir. Müasir dövrdə qlobal və regional təhlükəsizlik mühitində baş verən dəyişikliklər - hibrid müharibələr, kiberhədəflər, yüksək dəqiqlikli silah sistemləri, rəqəmsal əməliyyat mühiti və informasiya müharibəsinin genişlənməsi ali hərbi təhsil sisteminin çevik, innovativ və qabaqlayıcı şəkildə inkişafını tələb edir. Bu səbəbdən Azərbaycan ali hərbi təhsilinin hazırkı vəziyyətinin obyektiv təhlili və inkişaf ehtiyaclarının elmi əsaslarla müəyyənləşdirilməsi strateji zərurətdir.

Hazırda ali hərbi təhsil Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu [3], "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunu [2] və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin normativ aktları əsasında tənzimlənir. Ali hərbi məktəblərin fəaliyyətinə ümumi rəhbərlik Müdafiə Nazirliyi tərəfindən həyata keçirilir, təhsil prosesinin metodoloji təminatı isə Təhsil Nazirliyi və digər aidiyyəti qurumlarla koordinasiyada aparılır.

Bu çərçivədə ölkədə əsas ali hərbi təhsil müəssisələri və xüsusi təyinatlı bölmələr üçün ixtisaslaşmış kurslar fəaliyyət göstərir. Bu təhsil müəssisələrində mövcud tədris proqramları beynəlxalq standartlara uyğun olaraq strateji, əməliyyat və taktiki səviyyələrdə zabit hazırlığını nəzərdə tutur. Bununla belə, bəzi fənn bloklarında yenilənməyə ehtiyac vardır. Məsələn:

– Əməliyyat planlaşdırılması və idarəetmə modullarında NATO STANAG standartla-

rına uyğun simulyasiya və qərarvermə texnologiyalarının tətbiqi məhduddur;

– Kibertəhlükəsizlik və informasiya müharibəsi üzrə ixtisas kursları hələ də tam formalaşmayıb;
– Birləşmiş əməliyyatlar və koalisiya hərəkətləri mövzuları praktik məşqlərlə kifayət qədər dəstəklənmir.

Bundan başqa, pedaqoji heyətin metodoloji hazırlığı, müasir texnoloji vasitələrin istifadəsi, interaktiv və problem yönümlü təlim metodlarının tətbiqi baxımından da yeniliklər tələb olunur.

Azərbaycan ali hərbi təhsil sisteminin struktur funksionallığını müəyyən edən əsas komponentlərdən biri tədris planları və kurikulumların elmi-metodoloji baxımdan adekvat səviyyədə formalaşdırılmasıdır. Tədris planı hərbi kadr hazırlığının məqsədlərini, məzmununu, fənlərin strukturunu, onların məntiqi ardıcıllığını və tədris yükünün bölgüsünü müəyyən edən strateji sənəd kimi çıxış edir. Kurikulum isə təhsil prosesinə fəaliyyət yönümlü yanaşmanı təmin edən, nəzəri biliklərlə yanaşı, praktiki fəaliyyət bacarıqlarının formalaşdırılmasına xidmət edən kompleks modeldir. Müasir təhlükəsizlik mühiti və hərbi təşkilatlanma formalarının dəyişməsi göstərir ki, ali hərbi təhsil müəssisələrində tətbiq olunan proqramların məzmunu yalnız ənənəvi akademik mühazirələrdən ibarət olmamalı, əksinə, dinamik əməliyyat reallıqlarına çevik şəkildə uyğunlaşa bilən modullu, kompetensiya yönümlü təlim mühitini əhatə etməlidir.

Mövcud vəziyyətin təhlili göstərir ki, Azərbaycan ali hərbi təhsili müəyyən modernləşmə mərhələsi keçsə də, kurikulumların tam şəkildə yenilənməsi üçün hələ də əsaslı ehtiyac mövcuddur. Bir çox tədris proqramları hələ də postsovet hərbi-pedaqoji modelinin struktur elementlərinə əsaslanır və diqqət daha çox nəzəri biliklərin öyrədilməsinə yönəlmişdir. Halbuki NATO və Avropa İttifaqı ölkələrinin hərbi təhsil sistemində kurikulumlar daha çox problem əsaslı öyrənmə (problem-based learning), fəaliyyət yönümlü təlim (outcome-based education) və simulyasiya modellərinə əsaslanır.

Azərbaycan ali hərbi məktəblərində bir sıra ixtisaslar üzrə elmi-nəzəri baza kifayət qədər möhkəmdir, lakin əməliyyat-taktiki mühitin dəyişməsi səbəbindən fənlərin daxili inteqrasiyası zəif inkişaf etmişdir. Məsələn, quru qoşunları, hava hücumundan müdafiə, kəşfiyyat və rabitə kimi ixtisaslarda texnoloji yeniliklərin proqramlara uyğun adaptasiyası tələblərinə tam əməl olunmur. Xüsusilə kiber müharibə, informasiya əməliyyatları, avtonom silah sistemləri, PUA-lar, elektron mübarizə və rəqəmsal döyüş mühiti kimi sahələr üzrə müasir fənlərin həcmi məhduddur.

Bundan əlavə, kurikulumların əsas funksiyaları – məqsəd, məzmun, pedaqoji proses, qiymətləndirmə və nəticələrin monitorinqi komponentləri arasında bağlılıq tam şəkildə təmin olunmur. Bu isə hərbi təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. Belə ki, kurikulumda nəzərdə tutulan bacarıq məqsədləri çox zaman qiymətləndirmə mexanizmlərində əks olunmur və nəticədə fənlərin nəticəyönümlülük səviyyəsi zəifləyir.

Analitik tədqiqatlar göstərir ki, kurikulumların strukturunda aşağıdakı problemlər üstünlük təşkil edir:

**Məzmunun köhnə modellərə əsaslanması.** Bir çox fənlərdə informasiya həcmi ənənəvi mühazirələr üzərində qurulduğu üçün məzmunun aktuallığının qorunması çətinləşir. Halbuki müasir döyüş mühiti barədə biliklər sürətlə dəyişir. Bu dəyişikliklərə adaptasiya üçün kurikulumların yenilənməsi ən azı hər 2-3 ildən bir aparılmalıdır. NATO təcrübəsində bu proses mütəmadi və institusional xarakter daşıyır.

**İnteqrativlik səviyyəsinin aşağı olması.** Hərbi fəaliyyətin çoxşaxəli xarakteri tələb edir ki, müxtəlif fənlər arasında qarşılıqlı əlaqə gücləndirilsin. Lakin hazırda bir çox tədris proqramlarında əməliyyat planlaşdırılması, taktiki idarəetmə, kəşfiyyat, artilleriya hazır-

lığı, rabitə təminatı kimi sahələr arasında kompleks inteqrasiya zayıf təmsil olunmuşdur. Bu isə zabitlərin döyüş məkanını sistemli şəkildə dərk etmə bacarıqlarını məhdudlaşdırır.

**Rəqəmsal təlim elementlərinin məhdudluğu.** Simulyasiya, virtual reallıq, oyun əsaslı təlim platformaları, elektron komanda-qərargah məşqləri və rəqəmsal əməliyyat modelləri kurikulumlarda yetərincə inteqrasiya olunmamışdır. Bəzi təlim mərkəzlərində bu istiqamətdə addımlar atılsa da, ali hərbi təhsil müəssisələrində sistemli tətbiq hələ də mövcud deyil.

**Praktiki komponentin zəifliyi.** Ali hərbi təhsil proqramlarında nəzəri və praktiki hissə arasında balans tam təmin olunmur. Müasir müharibələr daha çox tekstual deyil, situativ bilik tələb etdiyindən təlim prosesində praktik məşqlərin həcminin artırılması zəruridir.

Azərbaycanın ali hərbi təhsil sistemində kurikulumun modernləşdirilməsi milli təhlükəsizlik çağırışları, hərbi-siyasi dinamika və müharibələrin dəyişən xarakteri nəzərə alınmaqla strateji zərurətə çevrilmişdir. Müasir silahlı qüvvələrin səmərəli fəaliyyəti yalnız texniki imkanlar və maddi təchizatla deyil, həm də yüksək peşəkar, çevik qərarvermə bacarığına malik, yeni əməliyyat mühitini dərk edən və onun tələblərinə uyğunlaşa bilən zabit heyətinin hazırlanması ilə bağlıdır. Bu baxımdan ali hərbi təhsil müəssisələrində kurikulumların yenilənməsi kompleks, çoxşaxəli və elmi əsaslandırılmış yanaşma tələb edir. Aşağıdakı istiqamətlər kurikulumun modernləşdirilməsi prosesinin təməl prioritetlərini təşkil edir.

**Kompetensiya əsaslı modelə keçid.** Müasir hərbi təhsil sistemi bilik yönümlü ənənəvi modeldən fəaliyyət nəticələrinə əsaslanan kompetensiya yönümlü yanaşmaya keçidi zəruri edir. Bu model zabitləri yalnız nəzəri biliklərlə deyil, eyni zamanda sırf əməli fəaliyyət üçün tələb olunan strateji, kognitiv və sosial bacarıqlarla təmin etməyi hədəfləyir. Belə ki, XXI əsrin döyüş mühiti sürətlə dəyişdiyindən zabitlər strateji düşünmə, operativ planlaşdırma, analitik qərarvermə, liderlik, situasiyanın sürətli qiymətləndirilməsi, stress altında davranış, kiber və informasiya təhdidlərinə çevik reaksiya vermə kimi geniş spektrli kompetensiyalara malik olmalıdırlar.

Kompetensiya əsaslı yanaşma tələb edir ki, tədris planlarında fənlər yalnız bilik ötürməyə deyil, bacarıq formalaşdırmağa yönəldilsin. Bu baxımdan kurikulumda nəticəyönümlü modul strukturları, fəaliyyətə əsaslanan tapşırıqlar, real döyüş situasiyalarının modelləşdirilməsi və praktik məşğələlərə geniş yer verilməlidir. Beləliklə, kompetensiya əsaslı kurikulum zabit hazırlığının keyfiyyətini yüksəltməklə yanaşı, onların müasir əməliyyat mühitinə adaptasiya imkanlarını da genişləndirir.

**Kurikulumda hibrid müharibə komponentlərinin genişləndirilməsi.** Hibrid müharibə artıq müasir silahlı münaqişələrin ayrılmaz tərkib hissəsinə çevrildiyindən hərbi təhsildə bu sahə üzrə bilik və bacarıqların formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Hibrid əməliyyatlar informasiya müharibəsini, kiberuğurların idarə olunmasını, psixoloji təsir texnikalarını, diplomatik və iqtisadi təzyiq alətlərini, həmçinin klassik hərbi vasitələrlə paralel olaraq qeyri-ənənəvi fəaliyyət formalarını bir sistemdə birləşdirir. Buna görə ali hərbi məktəblərdə kurikulumun genişləndirilməsi aşağıdakı istiqamətləri əhatə etməlidir:

- **İnformasiya əməliyyatları və informasiya mühitinin idarə olunması:** Müasir müharibələrdə informasiya üstünlüyü çox zaman döyüş meydanındakı üstünlüyü müəyyən edir.
- **Kiber təhlükəsizlik və kiber hücum strategiyaları:** Zabitlər kiber təhdidlərin identifikasiyası, qarşısının alınması və kiber əməliyyatların idarə edilməsi metodlarını mənimsəməlidirlər.
- **Psixoloji əməliyyatlar və əks-təbliğat:** Əhalinin davranışına, hərbi personalın döyüş ruhuna və düşmənin qərarvermə

sisteminə təsir edən mexanizmlərin öyrənilməsi vacibdir.

- **Elektron mübarizə:** Hərbi əməliyyatlarda radioelektron mühitin idarə olunması hibrid müharibənin əsas komponentidir.
- **PUA-ların döyüş tətbiqi:** PUA texnologiyalarının sürətli inkişafı kurikulumda müstəqil modulun ayrılmasını tələb edir.

Bu istiqamətlərin kurikulumda geniş şəkildə əks etdirilməsi zabitlərin müasir müharibələrin çoxşaxəli təbiətini dərk etməsinə şərait yaradır.

Rəqəmsal və simulyasiya əsaslı təlimin tətbiqi. Rəqəmsal transformasiya hərbi sahədə də yeni tədris metodlarının tətbiqini zəruri edir. Simulyasiya texnologiyaları, virtual və artırılmış reallıq platformaları, komanda-qərargah oyunları və rəqəmsal əməliyyat modelləri zabitlərin təlimini daha effektiv və real döyüş şəraitinə yaxın edir. Bu texnologiyalar təhsil prosesində riskin minimuma endirilməsi, müxtəlif əməliyyat ssenarilərinin təhlükəsiz mühitdə sınaqdan keçirilməsi, qərarvermə bacarıqlarının inkişafı və komanda idarəetməsi və koordinasiyanın möhkəmləndirilməsi kimi üstünlüklər yaradır.

Tədris planlarında bu məqsədlə xüsusi simulyasiya modullarının yaradılması, rəqəmsal laboratoriyaların təşkili, virtual döyüş ssenarilərinin hazırlanması və elektron tədris platformalarının geniş tətbiqi zəruri hesab olunur.

Multidissiplinar fənlərin daxil edilməsi. Müasir hərbi əməliyyatlar yalnız taktiki və texniki biliklərlə məhdudlaşmır, onların sosial, psixoloji, diplomatik və informasiya aspektləri də böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ali hərbi təhsil multidissiplinar yanaşma tələb edir. Kurikulumda aşağıdakı yeni fənlərin daxil edilməsi vacibdir:

– **Hərbi sosiologiya və psixologiya:** Döyüşçünün davranışı, kollektivin idarə edilməsi və sosial dinamika hərbi fəaliyyətin əsas elementlərindəndir.
– **Münaqişə və sülh araşdırmaları:** Müasir regional və qlobal münaqişələrin analizi zabitlərin strateji düşüncə imkanlarını genişləndirir.
– **Rəqəmsal kommunikasiya:** İnformasiya axınlarının idarə olunması və rəqəmsal platformalarda təhlükəsiz fəaliyyət bu gün hərbi xidmətin ayrılmaz hissəsidir.
– **Etik liderlik:** Liderlik yalnız idarəetmə bacarığı deyil, eyni zamanda etik qərarvermə, davranış mədəniyyəti və şəxsi nümunədir.

Bu multidissiplinar yanaşma zabitlərin peşəkar fəaliyyətini daha kompleks şəkildə dərk etməsinə və müasir təhlükəsizlik sisteminə uyğunlaşmasına şərait yaradır.

**Beynəlxalq standartlara uyğunlaşdırılmış qiymətləndirmə sistemi.** Kurikulumun modernləşdirilməsi yalnız məzmun yeniliyi ilə məhdudlaşmamalı, qiymətləndirmə sistemində də ciddi islahatlar aparılmalıdır. Çünki qiymətləndirmə tədrisin nəticələrinin obyektiv və dəqiq şəkildə müəyyən edilməsi üçün əsas mexanizmdir.

Ali hərbi təhsil müəssisələrinin maddi-texniki bazası son illərdə əhəmiyyətli dərəcədə modernləşdirilsə də, bəzi sahələrdə yenə də inkişaf ehtiyacı qalmaqdadır. Müasir simulyatorlar, virtual reallıq texnologiyaları və döyüş meydanı analizi sistemlərinin təlim prosesinə inteqrasiyası yalnız qismən həyata keçirilib. Bununla yanaşı kitabxana və elmi-tədqiqat resursları rəqəmsallaşdırılmalı, tədris poliqonlarının texniki imkanları genişləndirilməli, xarici dil laboratoriyaları beynəlxalq hərbi əməkdaşlıq üçün lazımi səviyyəyə çatdırılmalıdır.

Kadr potensialının əsasını yüksək hərbi rütbəli, təcrübəli zabit-müəllimlər təşkil edir. Lakin beynəlxalq təcrübəyə malik gənc tədqiqatçıların və mülki akademiklərin ali hərbi təhsilə cəlb olunması daha geniş həcmdə həyata keçirilməlidir. Elmi-tədqiqat fəaliyyəti əsasən hərbi tarix, strateji planlaşdırma, hərbi

psixologiya və texniki sistemlərin tətbiqi sahələrində aparılır. Lakin hibrid müharibə, kibertəhlükəsizlik, pilotsuz uçuş aparatlarının taktikası və süni intellektin hərbi idarəetmədə istifadəsi kimi yeni istiqamətlərdə tədqiqatlar hələ ilkin mərhələdədir.

Mövcud vəziyyətin təhlili göstərir ki, Azərbaycan ali hərbi təhsil sisteminin inkişafı üçün aşağıdakı istiqamətlər prioritet təşkil edir:

1. **Normativ bazanın beynəlxalq standartlara uyğunlaşdırılması** – NATO və digər müasir müttəfiq strukturların təhsil standartları ilə uyğunluq [18];
2. **Proqram yenilənməsi** – əməliyyat simulyasiyası, kiber müdafiə, müasir silah sistemlərinin tətbiqi üzrə ixtisas kurslarının artırılması;
3. **Texnoloji transformasiya** – təlim prosesinə VR/AR texnologiyaları, böyük verilənlər (big data) analitikası, süni intellekt tətbiqlərinin daxil edilməsi;
4. **Kadrların peşəkar inkişafı –** beynəlxalq təlim proqramlarına göndərilmə, ikili diplom və ortaq tədris layihələrinin təşkili;
5. **Elmi-tədqiqat mərkəzlərinin gücləndirilməsi** – müdafiə innovasiyaları və hərbi texnologiyalar sahəsində tədqiqat laboratoriyalarının yaradılması.

Azərbaycan ali hərbi təhsil sistemi son illərdə nəzərəçarpacaq dərəcədə inkişaf etsə də, qlobal təhlükəsizlik mühitinin dəyişməsi və texnoloji inqilab prosesləri bu sahədə daha dərin və sürətli islahatlar aparmağı tələb edir. Həm normativ-hüquqi, həm də metodoloji sahədə beynəlxalq təcrübənin adaptasiyası, texnoloji imkanların genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi zabit kadrların peşəkarlığını yüksəltmək üçün əsas şərtlərdir.

## Elmi-nəzəri əsaslandırma

Ali hərbi təhsil sisteminin təkmilləşdirilməsi məsələsi müasir dövrdə qlobal və regional təhlükəsizlik çağırışları, texnoloji inkişaf və sosial-mədəni dəyişikliklərlə sıx şəkildə bağlıdır. XXI əsrin geosiyasi reallıqları göstərir ki, müharibə və münaqişələrin xarakteri getdikcə daha mürəkkəb, çoxölçülü və texnologiyaya əsaslanan formaya keçir [19]. Bu isə zabit kadrlarının hazırlanmasını yalnız ənənəvi hərbi biliklərlə məhdudlaşdırmamağı, eyni zamanda strateji düşünmə, idarəetmə, informasiya təhlükəsizliyi, kiberhücumlara qarşı müdafiə və hibrid müharibə ssenarilərinə uyğunlaşma kimi geniş spektrli kompetensiyalarla təmin etməyi tələb edir [20].

Elmi ədəbiyyatda ali hərbi təhsilin inkişafı məsələsi ümumi pedaqogika və xüsusi hərbi pedaqogika kontekstində araşdırılır (23, 30). Klassik pedaqoji nəzəriyyələr təcrübə yönümlü təlim konsepsiyası və sosial konstruktivizm yanaşması [28] – hərbi təhsil mühitində də aktualdır. Bu nəzəriyyələrə əsasən, zabitlərin formalaşması yalnız nəzəri biliklərin mənimsənilməsi ilə deyil, həm də praktiki fəaliyyət və kollektiv öyrənmə prosesləri ilə möhkəmlənməlidir.

Azərbaycan kontekstində ali hərbi təhsilin nəzəri bazası milli təhlükəsizlik strategiyası, milli müdafiə doktrinası və dövlətin təhsil siyasətinin prinsipləri ilə uzlaşdırılmalıdır [3, 4]. Bu sənədlər ali hərbi təhsilin əsas məqsədini – milli suverenliyi və ərazi bütövlüyünü qorumağa qadir, yüksək intellektual və mənəvi keyfiyyətlərə malik peşəkar kadrların hazırlanmasını – prioritet kimi müəyyənləşdirir.

Ali hərbi təhsilin elmi-nəzəri əsaslarının işlənməsində sistemli yanaşma mühüm əhəmiyyət daşıyır. Bertalanffy-nin ümumi sistemlər nəzəriyyəsinə görə [5], təhsil prosesi qarşılıqlı təsirdə olan elementlərin – müəllim, kursant, təlim texnologiyaları, idarəetmə strukturları – vahid bütöv kimi öyrənilməlidir. Bu yanaşma ali hərbi məktəblərdə idarəetmə və tədris proseslərinin optimallaşdırılmasına, resursların effektiv bölüşdürülməsinə və nəticəyönümlü qiymətləndirmə mexanizmlərinin qurulmasına imkan yaradır.

Müasir menecment nəzəriyyələri də ali hərbi təhsilin inkişafı üçün nəzəri dayaq rolunu oynayır. Xüsusilə strateji idarəetmə modeli [17] uzunmüddətli inkişaf planlarının hazırlanması və tətbiqində, keyfiyyət menecmenti yanaşmaları isə tədris nəticələrinin davamlı monitorinqində əhəmiyyətlidir. NATO və Avropa İttifaqı ölkələrinin ali hərbi məktəblərində tətbiq edilən "Performance-Based Education" (nəticəyönümlü təhsil) modeli bu baxımdan nümunəvi hesab olunur [9].

XXI əsrdə ali hərbi təhsilin elmi əsaslandırılması innovasiya nəzəriyyələrini və rəqəmsal transformasiya prinsiplərini nəzərə almadan mümkün deyil. Yeni texnologiyaların qəbul sürəti institusional mədəniyyət, liderliyin təşviqi və istifadəçi motivasiyası kimi faktorlarla müəyyən olunur. Azərbaycan ali hərbi məktəblərində rəqəmsal təlim mühitinin yaradılması, simulyasiya texnologiyalarının tətbiqi və süni intellekt əsaslı tədris platformalarının istifadəsi üçün bu nəzəri çərçivə istiqamətverici rol oynaya bilər.

Beynəlxalq təcrübə göstərir ki, ABŞ-ın West Point Hərbi Akademiyası və Böyük Britaniyanın Sandhurst Kral Hərbi Akademiyası kimi aparıcı qurumlar tədris prosesində müasir texnologiyalardan – elektron təlim platformaları, virtual reallıq simulyatorları və onlayn qərar qəbuletmə laboratoriyalarından – geniş istifadə edir [27]. Bu modellərin elementlərinin milli ali hərbi təhsil sisteminə uyğunlaşdırılması gələcək zabitlərin peşəkar hazırlığının keyfiyyətini yüksəldə bilər.

Ali hərbi təhsil yalnız texniki bilik və bacarıqların deyil, həm də sosial-mənəvi dəyərlərin formalaşdırılmasına xidmət etməlidir. Hərbi etikaya dair müasir tədqiqatlar göstərir ki, zabitlərin liderlik keyfiyyətləri və qərar qəbuletmə davranışları əsasən təhsil prosesində formalaşan dəyərlərdən asılıdır. NATO təhsil standartları da zabit hazırlığında etik liderlik və insan hüquqlarına hörmətin təməl prinsiplər kimi qorunmasını tövsiyə edir [18].

Ali hərbi təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və uyğunlaşdırılması nəzəri baxımdan iki istiqamətdə həyata keçirilməlidir: birincisi, qlobal standartların mənimsənilməsi; ikincisi, milli təhlükəsizlik və mədəni özünəməxsusluq prinsiplərinin qorunması.

Azərbaycan Silahlı Qüvvələrinin ali hərbi təhsil müəssisələrinin NATO-nun Müdafiə Təhsilinin Təkmilləşdirilməsi Proqramında (DEEP) iştirakı bu baxımdan əhəmiyyətli addımdır. Bu proqram çərçivəsində tədris planlarının modernləşdirilməsi, təlimçilərin beynəlxalq təcrübə əsasında hazırlanması və təlim-metodik resursların yenilənməsi kimi proseslər nəzəri cəhətdən elmi əsaslara söykənir və praktik nəticələr verir [19].

Göstərilən yanaşmaların sintezi göstərir ki, Azərbaycan ali hərbi təhsil sisteminin təkmilləşdirilməsinin elmi-nəzəri əsasları dörd mühüm sütuna dayanır:

1. Pedaqoji-fəlsəfi baza – təcrübə yönümlü öyrənmə, sosial konstruktivizm və milli dəyərlərin inteqrasiyası;
2. Sistemli idarəetmə – resursların optimallaşdırılması və nəticəyönümlü qiymətləndirmə;
3. İnnovasiya və rəqəmsal transformasiya – müasir texnologiyaların tədrisə tətbiqi və adaptasiya;
4. Beynəlxalq-milli sintez – qlobal standartların milli təhlükəsizlik və mədəni prinsiplərlə uyğunlaşdırılması.

Bu nəzəri çərçivə ali hərbi təhsilin modernləşdirilməsi üzrə həyata keçiriləcək konseptual islahatların elmi əsasını təşkil etməklə yanaşı, praktik tətbiq üçün də geniş imkanlar açır.

## Konseptual inkişaf modeli

Azərbaycan Respublikasında ali hərbi təhsil sisteminin modernləşdirilməsi yalnız

mövcud vəziyyətin təhlili ilə məhdudlaşmır, həm də nəzəri əsaslara söykənən, uzunmüddətli inkişaf perspektivlərini əhatə edən konseptual modelin işlənməsini tələb edir. Bu model beynəlxalq təcrübənin uyğunlaşdırılmış elementlərinə, milli təhlükəsizlik prioritetlərinə və sürətlə dəyişən texnoloji mühitin çağırışlarına əsaslanmalıdır [19].

Konseptual inkişaf modeli ali hərbi təhsilin struktur və məzmun transformasiyasını təmin etməklə yanaşı, idarəetmə, təlim metodikası, rəqəmsal texnologiyaların tətbiqi və sosial-mənəvi komponentləri də əhatə etməlidir. Bu baxımdan təklif olunan model aşağıdakı əsas bloklardan ibarətdir: strateji idarəetmə və planlaşdırma, tədris məzmununun yenilənməsi, pedaqoji və texnoloji innovasiyalar, insan kapitalının inkişafı, beynəlxalq inteqrasiya və keyfiyyət təminatı.

Ali hərbi təhsilin inkişafı üçün strateji idarəetmə yanaşması həlledici əhəmiyyət kəsb edir. Mintzberg-in strateji planlaşdırma nəzəriyyəsinə əsasən, uzunmüddətli inkişaf planları çevik idarəetmə mexanizmləri ilə tamamlanmalıdır [17]. Bu çərçivədə Azərbaycan Silahlı Qüvvələrinin ali hərbi məktəblərində "strateji idarəetmə mərkəzləri" yaradılması məqsədəuyğundur.

Bu mərkəzlər:

– təhsil prosesinin nəticələrini davamlı monitorinq edir;
– tədris və idarəetmə göstəricilərini statistik modellərlə təhlil edir;
– beynəlxalq akkreditasiya və NATO standartları ilə uyğunluq üzrə hesabatlar hazırlayır [9].

Strateji idarəetmə bloku, eyni zamanda, milli təhlükəsizlik prioritetlərini nəzərə alaraq tədris planlarının yenilənməsi üçün uzunmüddətli yol xəritələrinin hazırlanmasını nəzərdə tutur. Bu yanaşma Azərbaycan Respublikasının "Milli Təhlükəsizlik Konsepsiyası" (2007) və "Təhsil Qanunu" (2009) ilə uyğunlaşdırılmalıdır.

XXI əsrin hərbi reallıqları – kiberhücumlar, informasiya müharibəsi, pilotsuz uçuş aparatlarının (PUA) geniş tətbiqi – zabit hazırlığında yeni bilik və bacarıqların öyrədilməsini zəruri edir [12]. Bu səbəbdən konseptual modeldə tədris məzmununun aşağıdakı istiqamətlər üzrə yenilənməsi nəzərdə tutulur:

– Hibrid müharibə və strateji kommunikasiya – informasiya təhlükəsizliyi, kütləvi dezinformasiya ilə mübarizə, psixoloji əməliyyatlar;

– Rəqəmsal əməliyyatlar və süni intellekt – kibermüdafiə, süni intellektin tətbiqi, qərar qəbuletmə alqoritmləri.

– Liderlik və etik dəyərlər – NATO təhsil standartlarında vurğulanan etik qərarvermə və vətəndaş-mülki münasibətlərin tənzimlənməsi [20].

Bu istiqamətlər təhsil proqramlarına yalnız nəzəri kurslar kimi deyil, həm də praktiki təlimlər, simulyasiya laboratoriyaları və qrup layihələri formasında daxil edilməlidir. ABŞ-ın West Point Hərbi Akademiyası və Böyük Britaniyanın Sandhurst Kral Hərbi Akademiyası tədris məzmununu bu prinsiplər əsasında davamlı yeniləyən aparıcı nümunələrdir [25].

Rəqəmsal transformasiya ali hərbi təhsil sisteminin gələcək inkişafının əsas istiqamətlərindən biridir. İnnovasiyaların yayılması nəzəriyyəsinə görə, texnologiyaların uğurla tətbiqi üçün institusional mədəniyyətin uyğunluğu, müəllim heyətinin hazırlığı və motivasiya səviyyəsi həlledici rol oynayır.

Bu blok çərçivəsində aşağıdakı tədbirlər təklif olunur:

– Hibrid təlim mühiti – ənənəvi dərslərlə yanaşı onlayn və simulyasiya əsaslı modulların tətbiqi;
– Süni intellekt dəstəkli tədris platformaları – fərdi öyrənmə trayektoriyalarının avtomatik izlənməsi və qiymətləndirilməsi;

– Rəqəmsal kitabxanalar və açıq mənbə resursları – beynəlxalq elmi məlumat bazalarına inteqrasiya.

Bu təcrübənin tətbiqi Azərbaycan ali hərbi məktəblərinə beynəlxalq səviyyədə rəqabət qabiliyyətli zabit kadrları hazırlamaq imkanı verəcək. NATO DEEP proqramı çərçivəsində təqdim edilən texnoloji həllər bu prosesin sürətləndirilməsi üçün sınaqdan çıxarılmış modeldir [20].

Azərbaycanın ali hərbi məktəblərinin beynəlxalq akkreditasiya proseslərinə qoşulması, ortaq tədris proqramlarının (joint degree) hazırlanması və xarici mütəxəssislərin mühazirələrinin təşkili bu blokun əsas istiqamətlərindəndir. Bu tədbirlər yalnız təhsil keyfiyyətinin yüksəldilməsinə deyil, həm də Azərbaycan zabitlərinin beynəlxalq sülhməramlı əməliyyatlarda iştirak qabiliyyətinin artırılmasına xidmət edir [20].

Konseptual inkişaf modelinin uğurla tətbiqi üçün mərhələli yanaşma təklif olunur:

1. Hazırlıq mərhələsi (1–2 il) – hüquqi-normativ bazanın yenilənməsi, resursların qiymətləndirilməsi, beynəlxalq tərəfdaşlıqların qurulması.
2. Pilot mərhələ (3–4 il) – seçilmiş ali hərbi məktəblərdə tədris məzmunu və texnoloji innovasiyaların sınaq tətbiqi.
3. Tam tətbiq mərhələsi (5–7 il) – bütün ali hərbi təhsil müəssisələrində modelin geniş miqyasda tətbiqi və nəticələrin monitorinqi.

Bu mərhələli yanaşma resursların səmərəli bölüşdürülməsinə və islahatların risklərini minimuma endirməyə imkan verir [5].

Təklif olunan konseptual inkişaf modeli Azərbaycan ali hərbi təhsil sisteminin modernləşdirilməsi üçün kompleks, çoxsəviyyəli və elmi əsaslara söykənən yol xəritəsi təqdim edir. Bu model milli təhlükəsizlik prioritetləri ilə qlobal təhsil standartlarını birləşdirir, tədris məzmununu hibrid müharibə, kiber təhlükəsizlik və süni intellekt kimi yeni çağırışlara uyğunlaşdırır, rəqəmsal transformasiya vasitəsilə təlimin keyfiyyətini yüksəldir və insan kapitalının davamlı inkişafı üçün institusional mexanizmlər yaradır.

Bu yanaşmanın həyata keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətini artırmaqla yanaşı, ölkənin müdafiə elminin beynəlxalq elmi məkanla inteqrasiyasını da gücləndirəcək.

## Nəticə

Aparılan tədqiqatın nəticələri göstərir ki, ali hərbi təhsilin təkmilləşdirilməsi üzrə konseptual yanaşmalar yalnız mövcud pedaqoji və inzibati modellərin modernləşdirilməsi ilə məhdudlaşmamalıdır. Müasir beynəlxalq təhlükəsizlik mühitinin dəyişməsi, hibrid müharibə formalarının genişlənməsi, informasiya-kommunikasiya texnologiyalarının intensiv tətbiqi və süni intellekt əsaslı döyüş idarəetmə sistemlərinin yayılması ali hərbi təhsil sistemində fundamental islahatların aparılmasını zəruri edir.

Azərbaycan ali hərbi təhsil sistemi tarixi inkişaf mərhələlərində müəyyən uğurlara nail olsa da, qlobal hərbi təhsil standartları ilə müqayisədə hələ də struktur, metodoloji və texnoloji boşluqlar mövcuddur. Müasir tələblərə cavab verən, çevik və ssenariyə uyğunlaşdırıla bilən təlim modellərinin tətbiqi, tədris proqramlarının NATO və digər beynəlxalq təşkilatların standartlarına uyğunlaşdırılması, eyni zamanda milli-mənəvi və geostrateji prioritetlərin qorunması vacibdir.

Beynəlxalq təcrübə göstərir ki, uğurlu hərbi təhsil sistemləri yalnız taktiki və texniki hazırlığı deyil, həm də strateji düşüncə, analitik bacarıqlar, liderlik keyfiyyətləri və etik dəyərlərin formalaşdırılmasını hədəfləyir. Buna görə də, Azərbaycan ali hərbi təhsilində müasir idarəetmə yanaşmaları, kompetensiya əsaslı kurikulumlar, simulyasiya və modelləşdirmə texnologiyaları, həmçinin interaktiv

tədris metodlarının tətbiqi prioritet istiqamətlər kimi müəyyən edilməlidir.

Bu tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, ali hərbi təhsilin təkmilləşdirilməsi mövzusu ilk dəfə olaraq Azərbaycan reallığı kontekstində beynəlxalq müqayisəli təhlillə yanaşı konseptual və nəzəri əsaslarla sistemləşdirilmiş şəkildə təqdim olunur. Araşdırmada həm NATO, həm postsovet, həm də Asiya və Yaxın Şərq təcrübələri əsasında hibrid model təklifi irəli sürülmüşdür. Bu yanaşma milli hərbi təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhlükəsizlik strategiyasına inteqrasiyanı təmin edir.

İşin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, təqdim olunan nəticələr və tövsiyələr ali hərbi təhsil müəssisələrinin tədris planlarının yenilənməsi, idarəetmə modellərinin modernləşdirilməsi, müəllim-kadr hazırlığının beynəlxalq standartlara uyğunlaşdırılması və yeni texnoloji təlim platformalarının tətbiqi sahəsində praktik baza kimi istifadə oluna bilər. Həmçinin, bu tədqiqatın nəticələri Müdafiə Nazirliyi, Milli Müdafiə Universiteti və digər aidiyyəti qurumlar üçün strateji qərarların hazırlanmasında elmi-metodoloji əsas rolunu oynaya bilər.

Beləliklə, aparılan araşdırma göstərir ki, Azərbaycan ali hərbi təhsilinin rəqabət qabiliyyətini artırmaq üçün:

1. Beynəlxalq standartlara uyğun kompetensiya əsaslı kurikulumların hazırlanması;
2. İnnovativ tədris texnologiyalarının tətbiqi;
3. Beynəlxalq əməkdaşlıq və mübadilə proqramlarının genişləndirilməsi;
4. Milli təhlükəsizlik strategiyasına uyğunlaşdırılmış konseptual yanaşmaların formalaşdırılması əsas istiqamətlər kimi müəyyənləşdirilməlidir.

Bu istiqamətlərin həyata keçirilməsi, Azərbaycanın hərbi kadr hazırlığında keyfiyyətin yüksəldilməsinə, milli müdafiə qabiliyyətinin möhkəmlənməsinə və beynəlxalq hərbi əməkdaşlıqda mövqelərinin gücləndirilməsinə xidmət edəcəkdir.

**Ədəbiyyat:**


1. Abdullayev, R. Hərbi pedaqogikanın əsasları. Bakı: Hərbi Nəşriyyat, 2018
2. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Azərbaycan ordusunun hərbi elm və təhsil sistemi. https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-elm-ve-tehsil-sistemi-326/
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 2009. https://e-qanun.az/framework/18343
4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. 2007. https://e-qanun.az/framework/13373
5. Bertalanffy, L. General System Theory. New York: Braziller. 1968
6. Clark, I. Modular Learning in Defence Education. Military Review, 96(3), 2016.
7. Defence Academy of the United Kingdom. 2023. https://www.da.mod.uk
8. Dewey, J. Experience and Education. New York: Macmillan. 1938.
9. European Security and Defence College. 2021. https://www.esdc.europa.eu/index_en
10. Ivanov, A. Military Education in Russia: Tradition and Modernization. Russian Education & Society, 61(5), 2019.
11. Japan Ministry of Defence. 2023. https://www.mod.go.jp
12. Kaldor, M. New and Old Wars: Organized Violence in a Global Era. Stanford University Press. 2013

13. Quliyev, E. Hərbi təlimdə pedaqoji metodların inkişafı. Bakı: Təhsil Nəşriyyatı, 2020
14. Li, X. Innovation in Chinese Military Education. Journal of Strategic Studies, 44(6), 2021
15. Məmmədzadə, M. Azərbaycanda ali hərbi təhsilin inkişafının tarixi-pedaqoji tədqiqi. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2025, Cild: 5 Sayı: 3. 15-20 https://aem.az/uploads/posts/2025/04/5.3%20-%20%20-%20%20-%20--9-14.pdf
16. Ministry of Defence of Kazakhstan. 2023. https://mod.gov.kz
17. Mintzberg, H. The Rise and Fall of Strategic Planning. Free Press. 1994
18. NATO. Allied Command Transformation: Education and Training. 2023 https://www.act.nato.int/education-training
19. NATO. Education and Training Policy. 2022 https://www.nato.int/cps/en/natohq/topics_82707.htm
20. NATO. Military Education and Training. 2020. https://www.nato.int
21. Royal Military College of Canada. Leadership in the Profession of Arms. 2021. https://www.rmc-cmr.ca
22. Spencer, L. M., & Spencer, S. M. Competence at Work: Models for Superior Performance. New York: Wiley. 1993
23. Sweeney, M. Problem-Based Learning in Military Education. The RUSI Journal, 164(3), 2019. https://doi.org/10.1080/03071847.2019.1624001
24. Turkish National Defence University. 2023. https://msu.edu.tr
25. US National Defense University. 2023. https://www.ndu.edu
26. US Navy. Live, Virtual, Constructive Training. 2022. https://www.navy.mil
27. USMA – United States Military Academy. 2021. https://www.westpoint.edu
28. Vygotsky, L. S. Mind in Society. Harvard University Press. 1978
29. Zhang, L. Competency-Based Military Education Reform. Defence Studies, 21(4), 2021. https://doi.org/10.1080/14702436.2021.1937458
30. Ягупов, В.В. Военная психология. Киев: Либра. 2004, 656 с. https://www.studmed.ru/yagupov-vv-vyskova-psihologya_e5168d24a4a.html

***Açar sözlər:*** *Ali hərbi təhsil, konseptual yanaşmalar, beynəlxalq təcrübə, hərbi pedaqogika*

**Mujkan Mammadzada**

*The Azerbaijan Sports Academy, Senior teacher, Ph.D. in Pedagogy,*
*Military Scientific Research Institute, Doctoral Researcher*

# SCIENTIFIC AND THEORETICAL JUSTIFICATION OF CONCEPTUAL APPROACHES TO THE IMPROVEMENT OF HIGHER MILITARY EDUCATION

## ABSTRACT

The article is devoted to a comprehensive scientific analysis of the current state of the higher military education system in the Republic of Azerbaijan, the identification of its development needs, and the elaboration of conceptual reform directions based on international experience. The main objective of the research is to propose a theoretical and practical model for enhancing the quality and efficiency of officer training in the context of a changing global security environment, emerging technological capabilities, and the realities of hybrid warfare.

The study extensively examines the structural and functional challenges of higher military education, the level of application of innovative teaching methods in the officer training process, and the mechanisms for forming military leadership and ethical values. A comparative analysis of the military education systems of NATO, the European Union, the post-Soviet space, the Middle East, and Asian countries has been conducted, with optimal elements scientifically selected for adaptation to Azerbaijan's context.

The research presents a multi-component conceptual framework for modernizing the higher military education system, aligned with national security priorities and based on international standards. This framework encompasses directions such as updating curricula, strengthening training and methodological support, creating a digital learning environment, and developing the strategic management and decision-making skills of senior personnel.

The significance of the study lies in the fact that the results can be directly applied to improving the quality of education in Azerbaijan's higher military schools, increasing the efficiency of military research activities, and strengthening human capital within the national defense strategy.

The methodology applied includes source analysis, comparative analysis, and systematic approaches. The article makes a significant contribution to the scientific discourse by introducing theoretically grounded and practically adaptable strategic approaches to the development of higher military education.

***Keywords:*** *higher military education, conceptual approaches, international experience, military pedagogy*

**Мюжган Маммедзаде**

*Старший преподаватель Азербайджанской Академии Спорта,*
*доктор философии по педагогике,*
*докторант Военно-научно-исследовательского института*

# НАУЧНО-ТЕОРЕТИЧЕСКОЕ ОБОСНОВАНИЕ КОНЦЕПТУАЛЬНЫХ ПОДХОДОВ К СОВЕРШЕНСТВОВАНИЮ ВЫСШЕГО ВОЕННОГО ОБРАЗОВАНИЯ

## РЕЗЮМЕ

Статья посвящена комплексному научному анализу современного состояния системы высшего военного образования в Азербайджанской Республике, выявлению потребностей её развития и разработке концептуальных направлений реформ на основе международного опыта. Основная цель исследования заключается в представлении теоретико-практической модели повышения качества и эффективности подготовки офицерских кадров в условиях изменяющейся глобальной системы безопасности, новых технологических возможностей и реалий гибридных войн.

В работе проведён всесторонний анализ структурно-функциональных проблем высшего военного образования, уровня внедрения инновационных методов обучения в процессе подготовки кадров, а также механизмов формирования военного лидерства и этических ценностей. Выполнен сравнительный анализ систем военного образования НАТО, Европейского Союза, стран постсоветского пространства, Ближнего Востока и Азии, на основе которого научно обоснован отбор оптимальных элементов, пригодных для адаптации в Азербайджане.

Исследование предлагает многоэлементную концептуальную рамку модернизации системы высшего военного образования, согласованную с приоритетами национальной безопасности и основанную на международных стандартах. Данная рамка охватывает обновление учебных планов, усиление учебно-методического обеспечения, создание цифровой обучающей среды, развитие стратегического управления и навыков принятия решений у руководящего состава.

Практическая значимость исследования заключается в том, что полученные результаты могут быть использованы для повышения качества преподавания в высших военных учебных заведениях Вооружённых Сил Азербайджана, повышения эффективности военно-научно-исследовательской деятельности и укрепления человеческого капитала в национальной оборонной стратегии.

В качестве методологической базы применены источниковедческий анализ, сравнительный анализ и системный подход. Статья вносит важный вклад в научный оборот, представляя теоретически обоснованные и практически адаптируемые стратегические подходы к развитию высшего военного образования.

***Ключевые слова:*** *высшее военное образование, концептуальные подходы, международный опыт, военная педагогика*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.367

# S O S İ O L O G İ Y A
# S O C I O L O G Y

UOT 316

**BISERKA JAKOVLJEVIĆ**

**Ph.D. Candidate at the Faculty of Education and Rehabilitation, University of Belgrade, Belgrade, Serbia**

*e-mail: jakovljevicbiserka@yahoo.com*

# SOCIAL PROTECTION SERVICES INTENDED FOR ELDERLY PERSONS WITH POOR HEALTH CONDITIONS LIVING IN RURAL AREAS: EVIDENCE FROM CENTRAL SERBIA

## Introduction

An individual or a family has the right to comprehensive social assistance and support for overcoming social and life difficulties and for creating conditions for meeting basic life needs. Effective social protection implies a set of measures aimed at reducing the consequences of risks arising from illness, dysfunctional old age, and disability [1].

The aging of the agricultural population began when economic development caused a decrease in the relative and absolute share of the agricultural population within the total population; this was a gradual aging process and, at the beginning, it did not impose itself as a specific problem [2].

Industrialization and the development of the tertiary sector absorbed young generations from villages to a much greater extent and within a relatively shorter period of time than all previous migrations. The emergence of elderly households is a reflection of industrialization, that is, of the development of processing capacities based on local raw materials, as well as the specific circumstances of the individualization of agricultural households and families [3].

With the disappearance of labor force on agricultural estates, the issue of securing the existence of an increasing number of elderly persons arises. The number of households in which simple reproduction does not take place is increasing; in local communities where agricultural labor has been absorbed by industrial plants and other non-agricultural activities, elderly households have become dominant [3].

Older male persons living in rural areas generally possess property in their ownership, but they are often unable to cultivate it. Older female persons most often do not have property in their ownership, and the reason for this lies in patriarchal customary norms [4].

Previously, rural development was focused on improving agricultural performance, increasing competitiveness, consolidating land, and improving market orientation. More recent measures for improving rural development are based on environmental protection and the sustainable use of resources, in order to improve quality of life, reduce poverty, and prevent environmental degradation [5].

Research conducted by the Institute for Social Policy in Belgrade during the period

from 1966 to 1970 showed that a significant number of elderly persons in rural areas were not able to live independently without the help of others, while a considerable number of persons depended on individuals outside their family environment. It is necessary to provide elderly persons with appropriate services through institutions in the field of social work, as well as service activities that satisfy existential needs [6].

It is assumed that elderly persons are particularly affected in situations where their villages are geographically distant from the city, which may result in insufficient accessibility to healthcare and administrative institutions, post offices, banks, and other important institutions. In areas where public transportation is well organized, these negative consequences of inaccessibility may be mitigated. Inaccessibility may also be caused by poorer road infrastructure. During the winter period, in times of heavy snowfall, families in which persons over 65 years of age live may be completely cut off from healthcare, humanitarian, and any other form of assistance [7].

Traditional frameworks do not favor elderly persons at all. The wider social community most often perceives them as persons who do not have their own specific needs, but rather interprets their needs through traditional customary constructs. It is assumed that persons over 65 years of age living in rural areas are usually insufficiently visible within the wider social community [8].

The World Health Organization defines the elderly population as persons over 65 years of age [9]. Aging is a physiological process that brings numerous changes in the functioning of an individual. Persons older than 65 constituted 19.1% of the population of Europe in 2020, and it is predicted that this percentage will reach 30.4% by the year 2100 [10].

A person in a state of social need is an individual who requires social assistance and support in overcoming social and life difficulties while creating conditions for meeting basic life needs. The right to social protection belongs to every individual or family for whom social assistance and support are necessary for overcoming social and life difficulties and for creating conditions for satisfying basic life needs. Social protection services are activities of providing support and assistance to an individual and family for the purpose of improving or preserving quality of life, and eliminating or mitigating risks arising from unfavorable life circumstances [1].

Material support is achieved through financial social assistance, allowance for the care and assistance of another person, increased allowance for the care and assistance of another person, assistance for work rehabilitation, one-time financial assistance, and assistance in kind. The right to financial social assistance belongs to an individual or family whose income from work, property, or other sources is lower than the amount of financial social assistance itself. The right to an allowance for the care and assistance of another person belongs to a person who, due to physical, sensory, intellectual difficulties, or changes in health condition, requires the help and care of another person in order to satisfy their basic life needs. One-time financial assistance is assistance provided to a person who suddenly finds themselves in a state of social need. The provision of one-time financial assistance is the responsibility of the local self-government unit [1].

Home assistance or geronto-service is available to children, adults, or elderly persons who have limitations in physical or psychological abilities due to which they are unable to live independently in their homes without regular assistance and support in daily life activities, care, and supervision, while family support is insufficient or unavailable. The purpose of home assistance is to support users in meeting everyday life needs, in order to improve or maintain quality of life [11].

The research was conducted in the territory of the Pomoravlje District during October and November 2025. The Pomoravlje District is

located in the central part of the Republic of Serbia and includes one larger city, Jagodina, and five smaller towns: Ćuprija, Paraćin, Rekovac, Svilajnac, and Despotovac. According to data from the most recent census in 2022, the district has a population of 182,047 inhabitants [12].

**Participants and methods**

The aim of the research is to examine the level of development of rights and services within social protection for elderly persons living in rural areas, and to identify the need for the development of further services.

The research is focused on the need, representation, and content of services of financial social assistance, cash compensation for the care and assistance of another person, one-time financial assistance, home care or geronto-service, and the right to a free meal during the period of 2022, 2023, and 2024.

The sample of this research consisted of employees in Centers for Social Work and Health Care Centers in the territory of the Pomoravlje District who work directly with persons older than 65 years of age. A total of 79 interviews were conducted. The interviews were conducted with: social workers (12), psychologists (8), special educators (7), physicians (10), nurses (20), and geronto-housekeepers (22). Among them were 55 female and 20 male respondents. The oldest respondent was 64 years old, and the youngest was 20 years old.

The analysis determined that social protection services are entrusted to state institutions, primarily Centers for Social Work [5], and only rarely to the non-governmental sector [1]. It can be concluded that the state apparatus places the greatest trust in Centers for Social Work in the provision of social protection services intended for the elderly.

The analysis is based on data obtained through the application of interviews [13]. The instrument used – the GUIDE FOR INDIVIDUAL INTERVIEW – was designed for the purposes of previous research, and consent for its use was obtained from the author [14]. The total number of persons living in the territory of the Pomoravlje District is 182,047. The total number of persons older than 65 years of age living in the Pomoravlje District is 47,949. The total number of persons older than 65 years of age living in rural settlements is 27,796 [12]. Therefore, it can hypothetically be stated that the collected data qualitatively describe social protection services intended for elderly persons living in rural areas for 6,542 persons.

The interview is conducted on four different topics: the first topic – the role of the organization in the process of providing social protection services for persons over 65 years of age living in villages within the territory of the city or municipality; the second topic – the assessment of the needs of persons over 65 years of age living in villages and the availability of social protection services; the third topic – the significance and impact of social protection services on beneficiaries older than 65 years of age living in villages; the fourth topic – proposals, ideas, and opinions [14].

**Results**

For the purpose of statistical analysis, a qualitative analysis of the respondents' answers was applied [13]. The questionnaire contained 19 open-ended questions. Employees from six Centers for Social Work participated in the research.

What is the role of Centers for Social Work in the process of providing social protection services for elderly persons? The respondents stated that their role consists of needs assessment and the provision of professional services (83.08%). Support for elderly people in order to facilitate their daily functioning was identified by 16.92% of respondents. This refers to a very broad spectrum of support implemented through the realization of various rights to material and non-material assistance.




**Figure 1.** Activities of social protection services intended for elderly persons living in rural areas

What are the activities related to social protection services intended for elderly persons living in villages? The activities refer to field visits in order to determine who needs assistance and to what extent (40.00%); needs assessments for the purpose of exercising rights and services within the social protection system (25.40%); activities within the home care service; activities aimed at testing and conducting assessments of people's needs (24.40%); and project activities in the form of developing new services, such as the free public transport service for elderly persons (10.02%).

Respondents stated in a high percentage that the work of service providers is organized in accordance with the prescribed norms and service standards established by the state (83.43%) (Figure 1).

The social protection services received by elderly persons in rural areas in 2022 were: care and assistance provided by another person; financial assistance; home care; free meals; geronto-service; and free transportation.

The social protection services received by elderly persons in rural areas in 2023 were: care and assistance provided by another person; financial assistance; home care; free meals; free transportation; and geronto-service.

The social protection services received by elderly persons in rural areas in 2024 were: care and assistance provided by another

**Table 1.** Social protection services received by elderly persons in rural areas in the Pomoravlje District.

| **Social protection services received by elderly persons in rural areas** | | |
|---|---|---|
| **2022** | **2023** | **2024** |
| Care and assistance provided by another person | Care and assistance provided by another person | Care and assistance provided by another person |
| Financial assistance | Financial assistance | Financial assistance |
| Home care | Home care | Home care |
| Free meals | Free meals | Free meals |
| Geronto-service | Geronto-service | Geronto-service |
| Free transportation | Free transportation | Free transportation |




**Figure 2.** Categories of citizens for whom social protection services are intended in the Pomoravlje District.

person; financial assistance; home care; free transportation; free meals; and geronto-service (Table 1).

Social protection services were intended for the following categories of citizens: persons in a state of social need (31.3%), persons with health problems (42.2%), elderly persons with low pensions (28.6%); persons who are socially vulnerable (10%), who live alone (53.9%), and who are older than 65 years of age (98%) (Figure 2).

Elderly persons require assistance in obtaining basic food supplies and medicines, as well as support that would improve their quality of life. The following are highlighted as the highest-priority needs of citizens in terms of social protection services: home care; assistance for persons with disabilities; shelters and temporary accommodation.

A high percentage of respondents emphasized the importance of continuity in the provision of services (70.05%). When it comes to the impact of social protection services on the lives of beneficiaries, the assessment is that the impact is positive (75.2%). Respondents stated that social protection services improve quality of life and facilitate everyday functioning, enabling people to satisfy their daily needs.

Regarding the quality of social protection services at the local level, these services were assessed as good by the majority of respondents (80.3%). Respondents stated that social protection services largely satisfy needs (76%), especially for people who are immobile, live alone, and do not have family support, in terms of improving quality of life within the social environment in which they live; in meeting basic needs (20%); and providing basic care (4%).

Respondents emphasized that in their communities, the number of users of social protection services is increasing, primarily among elderly people. The needs of beneficiaries follow existential standards.

## Discussion

The importance of social protection services is extremely significant, because with adequate assistance and support, it is possible to improve the quality of life of citizens with the aim of achieving more natural daily functioning. Social protection services improve the lives of people who need assistance the most, enable the performance of

everyday activities, and it is necessary to work as much as possible on encouraging the development of these services.

The task of these services is to respond to the needs of citizens who face material and health-related difficulties, and to enable them to more easily perform daily activities in resolving basic life problems. The first step in providing social protection services is the adequate assessment of beneficiaries' needs.

The quality of existing services is high; these services have been functioning for years with positive feedback from beneficiaries, and the reason for this lies in the established standards at the national level (15). The established minimum conditions for service provision enable quality control of what a person actually receives from the service content.

Social protection services facilitate the everyday life of elderly people living in rural areas who, in those environments, do not have resources such as shops, pharmacies, healthcare institutions, and other necessary facilities (16). The importance of continuity in service provision is emphasized; once the provision of a social protection service begins, it is important to continue providing that service as long as there is a need for it.

The development of services should be directed toward the most vulnerable categories and toward improving their living conditions. It is necessary to expand services to a larger number of beneficiaries, considering that due to limited financial resources, a relatively small number of users currently have access to social protection services.

## Conclusion

Elderly persons in rural areas are dependent on additional social and material support and assistance. The lack of access to healthcare and administrative services represents a significant problem for this population. Social protection services in the form of financial assistance exist as an important form of support, but they are not always sufficient.

Systematic integration and expansion of all services are necessary in order to improve the quality of life of elderly persons in rural areas (17). Only through the joint efforts of social and healthcare institutions can conditions be created for safer and more comfortable aging within their natural environment.

## References:

1. Law on Social Protection. (2011/2022). Official Gazette of the Republic of Serbia, No. 24/2011, 117/2022.
2. Šifrer, Ž. (1963). Development of the population of Slovenia in the last hundred years. Stanovništvo, 1(1), 338–366.
3. Livada, S. (2002). Elderly agricultural households. Sociologija, 44(1), 3–16.
4. Protector of Citizens. (2023, September). Special report of the Protector of Citizens on the representation of social and healthcare protection services for elderly women living in rural areas: Availability and content of home care and home treatment services.
5. Mesec, B. (2000). Elderly people in Slovenia. Revija za socijalnu politiku, 7(1), 114.
6. Manojlović, P. (1972). Elderly households and elderly people in rural areas. Sociologija i prostor, 10(38), 3-5.
7. Hellström, Y., & Hallberg, I. R. (2001). Perspectives of elderly people receiving home help on health, care and quality of life. Health and Social Care in the Community, 9(2), 61–71.

8. Bobić, M. (2023). On aging: Is demography destiny? University of Belgrade, Faculty of Philosophy.
9. European Commission. (2020). The burden of healthcare on households' budgets. https://ec.europa.eu/eurostat/web/products-eurostat-news/-/ddn-20190219
10. United Nations. (2019). World population prospects 2019. Department of Economic and Social Affairs, Population Division. https://population.un.org/wpp/DataQuery/
11. Rulebook on detailed conditions and standards for the provision of social protection services. (2013).
12. Statistical Office of the Republic of Serbia. (2023). Statistical report (p. 20).
13. Lamza Posavec, V. (2021). Methodology of social research: A fundamental insight. Savremena psihologija, 24(1), 109–110.
14. Stojiljković Rolović, T. (2023). Availability of social protection services and material support for women in the municipality of Rekovac [Report]. Belgrade Open School.
15. Dwyer, P., & Hardill, I. (2011). Promoting social inclusion? The impact of village services on the lives of older people living in rural England. Ageing & Society, 31(2), 243–264. https://doi.org/10.1017/S0144686X10000851
16. Leutar, Z., Štambuk, A., & Rusac, S. (2007). Social policy and quality of life of elderly persons with physical disabilities. Revija za socijalnu politiku, 14(3), 327–346.
17. Jakovljević, B. (2015). Social protection services in Jagodina from 2008 to 2014 (Master's thesis, University of Belgrade, Faculty of Special Education and Rehabilitation).

***Keywords:*** *elderly persons, poor health conditions, rural environment, social protection services*

**Biserka Yakovlyeviç**

*Belqrad Universitetinin Xüsusi Təhsil və Reabilitasiya Fakültəsinin doktorantı (fəlsəfə doktoru proqramı üzrə), Belqrad, Serbiya*

# KƏND YERLƏRİNDƏ YAŞAYAN, SAĞLAMLIQ PROBLEMLƏRİ OLAN YAŞLI İNSANLAR ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ SOSİAL MÜDAFİƏ XİDMƏTLƏRİ: MƏRKƏZİ SERBİYADAN DƏLİLLƏR

## XÜLASƏ

Məqalədə Serbiyanın mərkəzində qeyri-sabit şəraitdə yaşayan sağlamlığı zəif insanlar üçün sosial müdafiə sistemini təhlil edilir. Bu problemin aktuallığı, yaşlı əhalinin əsas xidmətlərə çıxışını əhəmiyyətli dərəcədə maneə törədən və onların mövcudluq həssaslığını artıran dəyişikliklər, tibbi və maliyyə şəraiti səbəbindən yaşayış məntəqələrinin dərin coğrafi təcrid olunmasından irəli gəlir. 2025-ci ildə aparılan tədqiqat, sosial iş və səhiyyə mərkəzlərinin mütəxəssisləri ilə müsahibələrə əsaslanaraq, əsas dəstək formalarının inkişafını araşdırdı: qayğı üçün nağd kompensasiya, birdəfəlik yardım, pulsuz yemək və evdə geriatrik xidmətlər. Nəticələr göstərir ki, milli standartların tətbiqi və yüksək keyfiyyətli istifadəçi xidməti sayəsində sosial xidmətlər yüksək səmərəliliklə fəaliyyət

göstərir və müsbət rəy alır. Bununla belə, tədqiqat həmçinin büdcə vəsaitlərinin çatışmazlığı səbəbindən qeyri-bərabər paylanma və məhdud əhatə dairəsi kimi kəskin problemləri də aşkar etdi. Müəlliflər mövcud proqramların icrasının aşağı keyfiyyətini nəzərə alaraq, vacib bir addımın qocalıqda sosial nəticələrin aradan qaldırılması üçün sistemin miqyasını genişləndirmək və yardım alanların dairəsini genişləndirmək olduğu qənaətinə gəlirlər.

***Açar sözlər:*** *yaşlı insanlar, pis sağlamlıq şəraiti, kənd mühiti, sosial müdafiə xidmətləri*

**Бисерка Яковлевич**

*Докторант факультета Образования и реабилитации*
*Белградского Университета,*
*Белград, Сербия*

## СОЦИАЛЬНАЯ ЗАЩИТА ПОЖИЛЫХ ЛЮДЕЙ С ПЛОХИМ СОСТОЯНИЕМ ЗДОРОВЬЯ, ПРОЖИВАЮЩИХ В СЕЛЬСКОЙ МЕСТНОСТИ: ДАННЫЕ ИЗ ЦЕНТРАЛЬНОЙ СЕРБИИ

### РЕЗЮМЕ

В статье анализируется система социальной защиты людей с ослабленным состоянием здоровья, проживающих в условиях нестабильности в центральной Сербии. Актуальность проблемы обусловлена глубокой географической изоляцией поселений, вызванной переменами, медицинскими и финансовыми условиями, что значительно затрудняет доступ пожилого населения к базовым услугам и усиливает их экзистенциальную уязвимость. В ходе исследования, проведенного в 2025 году на основе интервью со специалистами центров социальной работы и здравоохранения, был изучен уровень развития ключевых форм поддержки: денежных компенсаций по уходу, единовременной помощи, бесплатного питания и геронто-услуг на дому. Результаты показывают, что благодаря внедрению национальных стандартов и высокого качества обслуживания пользователей, социальные сервисы работают с высокой эффективностью и получают положительные отзывы. Вместе с тем, выявлена острая проблема неравномерности распределения и ограниченного охвата населения из-за дефицита бюджетных ресурсов. Обосновано, что при низком качестве реализации текущих программ важным шагом является масштабирование системы и расширение круга получателей помощи для преодоления социальных последствий в пожилом возрасте.

***Ключевые слова:*** *пожилые люди, плохое состояние здоровья, сельская местность, услуги социальной защиты*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.373

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 330.1; 330.8

**MƏMMƏD MƏMMƏDOV**

**Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və logistika kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru**

*e-mail: mhmammadov@gmail.com*

## "MENECMENT" TERMİNİNƏ YANAŞMALARIN GENEZİSİ

"Menecment" terminin etimologiyasını (mənşəyini) mütəxəssislərin də etiraf etdiklərinə görə tam dəqiqliyi ilə müəyyənləşdirmək o qədərdə asan bir məsələ deyil. Başqa sözlə "menecment" termininə bu sözün müxtəlif çalarlarını özündə əks etdirən şərhindən başlamaq lazımdır. Bu zaman qarşımıza haqlı və qanunauyğun olaraq belə bir sual çıxır ki, biz nə üçün bu termini iqtibas edirik, deyək ki, onun son dövrlərə qədər işlətdiyimiz, analoqu olan idarəetmə terminilə kifayətlənmirik?

Menecmenti (idarəetməni) – qədim ustalıq sənəti və ən yeni elm adlandırırlar. Şübhəsiz ki, bu elmin yaranmasından və təşəkkül tapmasında "elmi menecment", "klassik" "insan münasibətləri", "sosial sistemlər" və "emprik" məktəblərinin nümayəndələrinin hər birinin təkzib edilməz xidmətləri və rolu olmuşdur.

İşgüzar aləmdə hərtərəfli şöhrət qazanmış və geniş yayılmış "Biznesin təşkili və menecment" əsərinin müəllifləri V.Peterson və E.Ploumen menecmentin "Hökumət", "dövlət menecmenti", "Hərbi menecment", "assosiasiya menecmenti", "biznes menecmenti", "dövlət mülkiyyətində menecment" növlərini göstəmişlər. P.F.Druker isə onlardan fərqli olaraq menecmenti yalnız biznesdə idarəetmə məharəti kimi müəyyən etmişdir. Əgər V.Peterson və E.Ploumen menecmenti makro və mikro (biznes) səviyyəsində öyrənmişdilərsə, P.F. Druker onu yalnız mikro (biznes) səviyyədə tədqiq etmişdi. Meri Parker Foletə görə isə "menecment insanlardan istifadə etməklə müvəffəqiyyət əldə edilməsi məharətidir". Göründüyü kimi menecment termini haqqında bir-birindən fərqli baxışlar və fikirlər mövcuddur. Bunları nəzərə alaraq oxucuların diqqətinə çatdırılan araşdırmada bu terminin bir sıra aspektlərinə aydınlıq gətirməyə çalışmışıq.

Fikrimizcə bu terminin əsl mahiyyətinə, ancaq onun tarixi köklərinə ekskurs etməklə aydınlıq gətirmək olar.

Araşdırmalar göstərir ki, Antik Yunanıstanda "menecment" sözünün tam mənasını özündə əks etdirən analoquna heç bir mənbədə rast gəlmək mümkün deyildir. Səslənməsinə və əhəmiyyətinə görə bu terminə daha yaxın olan usta sözü isə heç bir vəchlə "rəhbərlik etməyi bacaran" kimi yox, "axtarış aparan", "axtarmağı bacaran" kimi anlaşıla bilər.

İnsanların idarə edilməsi məharəti yunanca "demoqluq" adlandırılırdı. Qəribə olsa da, öz üzərlərinə ağır və məsuliyyətli funksiyaların yerinə yetirilməsini götürən insanları eşitməyə məhkum olduqları bu təhqiramiz ifadə ilə çağırırdılar. "Demoqoqiya" "xalqa rəhbərlik", "ölkənin idarə edilməsi" (demos-xalq, aqo-aparıram) kimi tərcümə olunur. Qədim Yunan

demokratiyasının çiçəklənməsi (inkişafı) idarəetmənin spesifik formasını – sözlərin köməyi ilə insan kütləsini öz arxasınca aparmağı tələb edirdi. Ritorikanın (bəlağət elminin) və natiqlik məharətinin inkişafı (çiçəklənməsi) bir qayda olaraq demokratik rejimlərin (dövlət quruluşlarının) dövrünə təsadüf edir. Məhz, bu gün, XXI əsrin birinci rübündə, bütün dünyada olduğu kimi, ölkəmizdə də demokratik hakimiyyət populizmi, xalqın qılığına girməyi, onunla dilxoşluq etməyi, vəd verilən sözlərlə nüfuz qazanmağa cəhd etməyi (əgər istəsəniz bunu demoqogiya adlandıra bilərsiniz) bir növ təşviq edilir.

Azad vətəndaş statusuna malik olan böyük sayda insan qrupunu müasir dövrdə hər hansı bir işi zorla yerinə yetirməyə məcbur etmək praktiki olaraq qeyri-mümkündür. İdarəetmənin digər metodu – "neqativ", başqa sözlə "despotizm" adlanır. Bu metod dövlətin qeyri-məhdud hakimiyyətini özündə əks etdirən qəddar (zülmkar) rejimli ölkələrdə idarəetmənin spesifik xüsusiyyətlərini özündə əks etdirən fiziki təsirlərin vasitəsi ilə öz arxasınca aparmaq bacarığını özündə ehtiva edir.

Beləliklə, fikrimizcə aşağıdakı anlayışlara aydınlıq gətirmək lazımdır:

– istibdad hakimiyyəti – qeyri-müəyyən hakimiyyət;

– öz mənfəətini (maraqlarını) güdən, məşhurluq axtaran;

– pedaqoq və rəhbər (müəllim);
– sahibkar və menecer;
– öyrətmək məharəti;
– könüllü tabe olmaq, motivasiya;
– uğurun görünməyən, sezilməyən amilləri;
– menecmentin psixoloji aspektləri;
– menecer-muzdlu işçi;
– menecmentdə liderlik;
– yoxsa (bəlkə) "buyruq qulu" olan oğlan.

İstibdad hakimiyyəti – qeyri-məhdud hakimiyyət. Beləliklə, Yunan sözü olan "despoteia"ya xalq üzərində hökmranlıq edən bir şəxsin qeyri-məhdud hakimiyyəti kimi, başqa sözlə nə isə demaqoqluğun əksi kimi ifadə olunurdu. Lakin, ilk dövrlərdə "despot" sözü, evin yiyəsi, sahib (kar), rəisi və başçı mənasını ifadə edən sözlər kimi şərh edilirdi. Təbii ki, bu sosial münasibətlərin tamamilə başqa tipidir (növüdür). Demaqoq özünə "tay" olan, iradəsini ifadə etməkdə sərbəst olan vətəndaşlarla münasibəti özündə əks etdirir. İrəliləmək (qabağa getmək), rəhbər (başçı) olmaq üçün insanların, şüuruna, dərrakəsinə (ağlına), qəlbinə təsir etmək (nüfuz etmək) lazımdır. Buradan da insanlarda natiqlik məharəti inkişaf etməyə başlayır.

"Despotiya" – bu hər şeydən əvvəl ağanın qullar üzərindəki hakimiyyətidir. Burada heç bir azadlıqdan, hüquq bərabərliyindən söhbət gedə bilməz. Despotizm – istibdada (mütləqiyyətə), insanın qeyri-məhdud hakimiyyətə cəhd etməsinə əsaslanan rəhbərlik növüdür. Burada məcbur etmə metodu qaçılmazdır (des kökü qədim yunanca "əlaqələndirmək", "əl-qolunu bağlamaq" mənasını ifadə edirdi).

Öz mənfəətini (maraqlarını) güdən, məşhurluq axtaran. Əgər ilk dövrlərdə demaqoqluq sözü xalqa başçılıq etmək məharəti kimi qəbul edilirdisə, sonradan o neqativ çalar kəsb etməyə başladı. Demaqoqluq sözü xalqın qarşısında yaltaqlanmaq sözünün sinoniminə çevrildi. Xalqa rəhbərlik etməkdən onun xeyir-duasını və etimadını qazanmağa keçməyin məntiqi olduqca ibrətverici (ibrətamiz) idi. Aristoteldə belə bir fikrə rast gəlmək olar ki, oliqarxlar (oliqarxlıq çox olmayanların hakimiyyət) demaqoqluq fəndlərinin, söz ekvilibristikasının (kəndirbazlığının) köməyi ilə xalqı öz tərəfinə çəkərək dövlət quruluşunu dəyişirlər. Demokratiya demokratik fəndləri, üsulları tətbiq etməyin köməyilə oliqarxiyanın təkamülü nəticəsində yaranmışdır.

Beləliklə "demaqoq" sözü dövlət xadiminin və eyni zamanda öz maraqlarından çıxış edərək məşhurlaşmaq istəyini ifadə edir. "Demokratiya" sözü xalqın gücü və hakimiyyətini, "demoqogiya" isə öz ziyanına istək və arzularının əleyhinə bu hakimiyyətlə manipuliyasiya etmək məharətini ifadə edir.

**Pedaqoq və rəhbər (müəllim).** Qədim Yunan sözü olan, "aqo" "demos"a birləşdiriləna qədər özündə rəhbərlik, idarəetmə,

bundan əlavə isə işi aparan, tərbiyə edən mənasını ifadə edirdi. Yetər ki, ancaq "demos" önşəkilçisini "paid" (uşaq) önşəkilçisi ilə əvəz edək "aqo" kökünü isə olduğu kimi saxlayaq, onda biz yeni bir söz – pedaqogika sözünü almış olarıq. Pedaqogika – bu tərbiyə vermə məharəti və uşağa qulluq etmək deməkdir. Bununla bərabər qədim Yunan "paidaqoqeo"su yalnız, "tərbiyə etmək" yox, həm də "rəhbərlik etmək", "təşkil etmək", "yoluna qoymaq" (düzəltmək), "öyrətmək" (təlim vermək) mənasını özündə ehtiva edirdi. İlk əvvəl, uşağı məktəbə müşayiət edən qulu, yaxud da nəzarət üçün uşağın yanına qoşulmuş xidmətçini pedaqoq adlandırdılar. Bir qədər sonra bu sözün digər – "başçı", "rəhbər" mənaları meydana gəlir.

Tərbiyəçi kimi rəhbər haqqında yalnız qədim dövrlərdə danışılmırdı. Sovet dönəmində 70 il ərzində digər postsovet ölkələrində olduğu kimi bizim ölkəmizdə də rəhbər sözü birinci növbədə mürəbbi, tərbiyəçi kimi assosiasiya olunurdu. Kollektiv tüfeyliyə (müftəxora) "zamin dururdu", rəhbər isə onu tərbiyə edirdi. İş artıq (lazımsız) olurdu – bərabərçilik şəraitində tərbiyə vermək mümkün olmurdu. Rəhbərlik sanki, öyüd, nəsihət verməklə əvəzlənirdi. Onlar tərəfindən udulan (itib-batan) rəhbərlər özlərinin istehsal – peşə funksiyalarından, işləri idarə etməkdən yayınmalı olurdular.

Daha qəribəsi isə odur ki, praqmatik amerikalılar mürəbbiliyə tərbiyələndirməyə meyillidirlər. Əlbəttə hamısı yox. Belə ki, XIX əsrin 80-cı illərinin axırlarında F. Teylor və XX əsrin 80-cı illərinin axırlarında isə P.Uotermen eyni bir şeyi deyirdilər: tabeçilikdəkilər – böyük uşaqlar, rəhbər – ata və mürəbbidir. Əslində, paternalist rəhbərlik üslubu (paternalizm) "ata qayğısı" mənasını verir, zira latın sözü "pater", "ata" kimi tərcümə olunur. Yalnız, amerikalılarda heç vaxtı tərbiyə - mürəbbilik funksiyası istehsal funksiyasını sıxışdırıb arxa plana keçirilməmişdir. Görünür ki, demoqoqiyanın və pedaqogikanın motivləri idarəetmənin universal simvolları bütün tarixi eralarda və bütün xalqlarda demək olar ki, eynidir. Lakin Qədim Yunanıstanda onun bütün çalarları ilk dəfə özünün bütün aydınlığı, aşkarlığı və qaçılmazlığı ilə müşahidə olunduğunu görmək olar.

**Sahibkar və menecer.** Vaxt öz axarı ilə gedərək Yunan sivilizasiyasını Roma sivilizasiya ilə əvəz etdi. Latın dilində "mancepts" – sahibkar, podratçı sözü vardır. İlkin dövrlərdə dövlət gəlirlərinin iltizamçılarını (otkup sahiblərini) belə adlandırırdılar. Qədim Romada "mancipium" kiminsə mülkiyyətində olan əmlaka mülkiyyət hüququ olmaq kimi anlaşılırdı. Lakin, burada xarakterik olan sözün "iki mənalı" olmasıdır. Belə ki, "mancipium" bir tərəfdən qeyri-məhdud hakimiyyətin olması, digər tərəfdən isə qulların hüquqsuz vəziyyətdə olması mənasını verirdi. Bəs nə üçün bu mümkün olurdu? Məsələ onda idi ki, "mancipio" hər hansı bir şəxsin "mülkiyyətinə vermək", nəyisə (və ya kimisə) almaq mənasını verir. Qədim Romada qullar əmlakın, quldarın mülkiyyətinin bir hissəsi idi. Onların satınalmaq və ya başqasının mülkiyyətinə vermək (varisi olmaq) olardı.

Əslində, "mancipio" sözü iki müstəqil sözün: "manus" və "kapio" sözlərinin qovuşmasından əmələ gəlmişdir. Latınca manus sözü bir çox (əl-zorakılıq-hakimiyyət-iş-əmək-əsər-...) mənalarda işlədilir. Konkret – tarixi istehsal üsulunu xarakterizə edən "manufaktura" iqtisadi kateqoriyası da törəmə söz olaraq yenə də iki sözün: manus (əl) və faktura (hazırlamaq) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Buna görə də manufaktura - əmək bölgüsünə və emalatxanada əl əməyindən istifadəyə əsaslanan müəssisə forması kimi qəbul edilmişdir.

Bəs, "capio" sözü hansı mənanı verir? Bilmək o, qədər də çətin deyil – bu müasir iqtisadiyyatın ən başlıca termini olan kapitalın ulu babasıdır. Doğrudan da "capio" sözü əldə etmək, varis olmaq, əlinə almaq, tamamilə özünə tabe etmək, mənimsəmək, yiyələnmək mənasını verir. İndi isə iki sözün – "manus" və "capio"nun mənasını müqayisə edək. Biz bu sözlərin fikir və məzmun oxşarlığını görürük: istehsal etmək və toplamaq, işləmək (zəhmət

çəkmək) və mənimsəmək (yiyələnmək). Buna görə də "mancepts" sözü sahibkar – öz əlləri ilə öz əməyilə, yalnız əzmkarlığı (inadkarlığı ilə) deyil, həm də bicliyi və diribaşlığı (zirəkliyi) ilə kapital qazanan insan başa düşülür.

**Öyrətmək məharəti.** Alman tarixçisi İ.Sayd müasir menecment terminin gözlənilməyən və maraqlı şərhini vermişdir. O, bu sözün etimologiyasını italyan sözü olan maneggiare – atların idarə edilməsi bacarığı sözü ilə izah edir [7, s.219]. Bəs nə üçün at? İlk baxışda bu iki söz arasında sanki, heç bir əlaqə yoxdur. Bir tərəfdən o sahibkar və kapitalistdir, digər tərəfdən isə məharətli (bacarıqlı) at sürəndir (çapandır). Onlar arasında ümumi olan nədir? Söz, ancaq səslənməsinə görə oxşar olsa da tamamilə fərqlidir, az qala bir birinin əksidir. Ancaq, nəticə çıxarmağa tələsmək lazım deyil.

İngilis sözü olan "mange" sadəcə olaraq idarəetmək mənasını yox, həmdə yolunu tapmaq; sadəcə olaraq rəhbərlik yox, həmdə müvəffəq olmaq (bacarmaq) mənasını verir. Başqa sözlə "alında tər" başa salmaq yox, biclik (fənd) işlətmək, fürsəti gözləmək (əlverişli ani tutmaq), digərlərin ram etmək və ya sakitləşdirməkdir. Atı idarəetmək bacarığı özünü "gələcəkdə onun sərbəst olduğu zaman müəyyən hərəkətləri bəzi şəraitlərdə tamamilə sərbəst icra etməsində" ifadə edir. İdarəetmə, bu məharət (bacarıq), istedad və elmin qarşılıqlı təsirinin məhsuludur. Onun vəzifələrindən birincisi, insanları stimullaşdırmaq və istiqamətləndirməkdir ki, onlar tapşırılmış işlər çərçivəsində hərəkət etsinlər. Eyni zamanda bu işdə onlar bütün qarşılıqlı əlaqələri, konkret situasiyaların səbəb və nəticələrini dərk etsinlər. İkincisi, isə təşkilat daxilindəki bütün insanların fəaliyyətini əlaqələndirsinlər [7, s.29].

**Könüllü tabe olmaq, motivasiya.** Şübhəsiz ki, atın idarə edilməsi və heyətin idarə edilməsi fərqli anlayışlardır. Lakin, o qədərdə yox, çünki bir məharət (bacarıq) kimi idarəetmənin spesifikliyini müəyyən edən ümumi cəhətləri görməməzliyə vurmaq mümkün deyildir. Necə adlandırılmasından (bacarıq və ya biclik) asılı olmayaraq məhz bu məharət hiss olunmadan, insanların özlərinə qarşı təzyiq və güc göstərilməsin his etmədən hərəkətlərinin tənzimlənməsinin mahiyyətini özündə əks etdirir. Başqa sözlə desək, tabeçilikdə olan ona tapşırılmış işləri icra edərkən özünü elə aparmalıdır ki, guya o, bu işləri öz istəyi və təşəbbüsü ilə edir. Menecerin məharətinin başlıca şərti, incəliyi insanları könüllü olaraq tabeçiliyə motivləşdirmək və maraqlandırmaqdır.

Əgər siz insanları məcbur edirsiniz və onların hissləri ilə manipulyasiya edirsinizsə, başqa sözlə "qamçı və qoğal" metodu ilə hərəkət edirsinizsə, onda bu menecment olmur. Bunu idarəetmə, rəhbərlik və yaxud başqa nə istəyirsiniz adlandırın, ancaq bunun menecer məharəti ilə heç bir ümumi əlaqəsi yoxdur. Atla da müxtəlif cür davranmaq olar. (Məsələn, müqavimət göstərəndə onu ağır arabaya qoş, ya da ki, onu qamçıla, şallaqla). Lakin, bunun at çapmaq məharəti ilə heç bir ümumi əlaqəsi yoxdur.

Beləliklə, atın idarə edilməsi məharətini və insanların idarə edilməsi məharətini son dərəcədə müxtəlif formalarda başa düşmək olar.

Məsələn, bu kobud şəkildə qısnamaqla, yaxud qabarıq şəkildə yaltaqlanmaqdan başlamış onlara (idarəetmə obyektlərin) heç bir şəkildə əl-qollarının bağlanmasını hiss etdirmədən incəliklə stimullaşdırmağa qədər, və ya başqalarının əmrlərini özlərinin xüsusi vəzifələri kimi etmələrinə qədər müxtəlif çalarlı hərəkətlər ola bilər.

**Uğurun görünməyən, sezilməyən amilləri.** Böyük Alman sosioloqu Maks Veber vaxtı ilə yazırdı ki, kapitalizm yarandıqdan sonra menecerin fəaliyyət və funksiyalar dəyişdi. İlkin kapital yığımı dövründə sahibkarın uğuru onun işə qoyduğu kapitalın ölçüsündən, ixtisaslı kadrların sayından və ən başlıcası isə müasir texnika və texnologiyadan asılı idi. Onlar biznesin uğur qazanmasının təqribən 80%-i təmin edirdi. Lakin tədricən işin uğur qazanması daha güclü şəkildə sahibkarın bazarda manevr etmək (hiylə işlətmək), məhsulu əlverişli qiymətə satmaq, marketinqi bilmək, rəqibləri üstələmək,

əlverişli tədarükçü və müştəriləri tapmaq bacarığından asılı oldu. Qısasını söyləsək, qazanılan uğurlar özündə istehlakçıların psixologiyasını, onların göstərişlərini, motivlərini və onların üstünlük verdikləri amilləri özündə birləşdirən gözlə görünməyən labirintdə manevr etmək, hiylə işlətmək və zirəklik göstərməklə müəyyən edilirdi.

Təşkilatda heyətin tərkibində baş verən bir çox neqativ davranışların – pis işlərin, əmək və texnoloji intizamın pozulmasının və s. əsasını işçilərin duyğu və fikirləri onların problemləri, insanların daxili aləmi təşkil edir. Tabeçiliyinizdə olan işçilərin davranışlarını dəyişmək istəyirsinzə onda onların daxili aləminə nüfuz etməyə çalışın. Qərb ölkələrində əmək məhsuldarlığının artırılmasında insan amilindən istifadə edilməsini və onun praktikada rolunu artıq çoxdan dərk etmişlər. Vaxtı ilə H.Ford öz biznesini qurarkən belə bir ideyanı irəli sürmüşdü ki, "hər kəsi əmək haqqı ilə elə təmin etmək lazımdır ki, onun həyat səviyyəsinin göstəriciləri cəmiyyətə göstərdiyi xidmətin səviyyəsinə tam uyğun gəlsin".

H.Ford XX əsrin əvvəllərində əmək məhsuldarlığını yüksəltmək üçün mühəndis yenilikləri ilə bərabər işçilərin maddi və mənəvi cəhətdən həvəsləndirilməsi zəruriliyini də dərk etmişdi. Beləliklə XX əsrin 30-cu illərində ABŞ-da "insan münasibətləri" doktrinası yarandı. İşçilərin şəxsiyyətini inkar edərək sərt və formal əmək təşkilinə əsaslanan teylorizmi əvəz edən "insan münasibətləri" ideologiyası eyni zamanda istehsal və sosial aspektdə öz müsbət nəticələrini göstərdi. Hal-hazırda "heyətin idarə edilməsi" funksiyası komanda-nəzarət kompleksinə nisbətən daha genişdir. Hər yerdə istehsal münasiblərinin humanistləşdirilməsi meyli müşahidə olunur ki, bu da eyni zamanda neqativ təsir metodlarından imtina edilməsini nəzərdə tutur. Belə olduqda rəhbərin işgüzar münasibətləri qurmaq qabiliyyətinə, psixoloji mühiti tənzim etmək bacarığına menecerin müasir peşəyə yiyələnməsinin başlıca amillərindən biri kimi baxmaq lazımdır.

Menecerin psixoloji cəhətdən səlahiyyətli olması şəxsin (fərdin) özünü qiymətləndirməsi və təkmilləşdirməsi üçün zəruri biliyi olması və buna cəhd etməsi ilə; işçilərlə ünsiyyət qurmaq üçün zəruri bilik və vərdişlər kompleksinə yiyələnməsi ilə; tabeçilikdə onları tərbiyə etmək üçün psixo-pedaqoji səlahiyyətliklə; kollektivin fəaliyyət göstəricilərinin psixoloji qanunauyğunluqlarını bilməsi ilə bağlıdır.

Təşkilatın rəhbəri çalışmalıdır ki, işçilərdə müəyyən məqsəd və motivasiya yaratsın. Eyni zamanda rəhbər çalışmalıdır ki bunlara nail olunması təşkilatın mənafeyinə cavab versin və əməkdaşları özgənin malı olmaq hissindən azad etsin. Buna görə də təşkilat işçilərinə kömək etməli, onlara şəxsən diqqət yetirməli, onlara olan təzyiqləri azaltmaq və beləliklə də onları prosesə cəlb edərək öz məqsədinə xidmət etməyə sövq etməlidir. Belə olduqda müxtəlif növ həvəsləndirmələrin bir-birini qarşılıqlı surətdə əvəz etməsi prinsipi reallaşır. Başqa formada ifadə etsək işçilərin maddi həvəsləndirilməsindən çox mənəvi həvəsləndirilməsinə üstünlük verilir. Bir çox hallarda bu növ mükafatlandırma adi pul təltifatına nisbətən daha səmərəli olur.

Həmçinin "vaxtla mükafatlandırma"da mümkündür, başqa sözlə əməkdaşa iş gününü istədiyi vaxtda başlamaq və qurtarmaq imkanı verməklə çevik iş qrafiki yaratmaq mümkündür. Bununla da ona etibar edildiyi, onun intizamlı olduğuna müdiriyyətin inandığı göstərilir, həmçinin əmək prosesinin deterministləşdirilməsi – bütün hadisələrin qanunauyğunluğu və səbəbiyyət əlaqəsindən asılı olduğu ilə əlaqədar olan psixoloji gərginliyi aradan qaldırır.

Praktikada psixoloji təsir üç əsas mexanizmin – inandırma, beyinə yeritmə və məcburetmənin üzvü şəkildə əlaqələndirildiyi halda səmərəli olur.

İdarəetmə üsulları təşkilat işçiləri arasındakı, həmçinin əmək kollektiv daxilində yaranmış qarşılıqlı münasibətlərdən asılıdır. Bu münasibətlərin üç əsas tipini fərqləndirmək lazımdır:

– Passiv və sözsüz tabeçilik şəraitində rəhbərlik. Belə şəraitdə əməkdaşların davranışı ciddi şəkildə reqlanmetləşdirilir,

şəxsin (fərdin) fəallığı və müsbət cəhətləri inkar edilir, kollektivə nisbi müstəqillik verilir. İdarəçilik funksiyaları tabeçilikdə olanlara verilmir. Bu simasızlaşdırılmış formal bürokratik rəhbərlik üslübudur;

– Təsir metodunun seçkili olmasını nəzərdə tutan idarəetmə. Məsələn bir fəaliyyət sferasında sözsüz tabeçilik tələb olunur ki, burada da məcbur etmə metodlarından istifadə olunur. Əgər həll edilən məsələnin səviyyəsi müstəqil təşəbbüs və yaradıcılıq tələb edirsə bu zaman idarəçilik funksiyalarının bir hissəsi kollektivə verilir və bununla da özünü dərketmə elementləri tətbiq tətbiq edilir.

Bundan başqa qarışıq rəhbərlik tipi də mövcuddur.

– Rəhbərlin vəzifəsi əsas məqsədi dəqiq müəyyənləşdirməkdən və iş üçün zəruri şərait yaratmaqdan ibarətdir. Rəhbər subyekt kimi (öz-özünə idarə olunan sistem kimi) kollektivə, şəxsə aiddir. Belə şəraitdə əsas təsir üsulu inandırmadır. Lakin bu ayrı-ayrı hallarda beyninə yeritmə və təşkiletmə (məcburetmə) xarakterli elementləri də istisna etmir.

Beləliklə rəhbərin əməkdaşlara təsir göstərməsi iki əsas nəticəyə - ruhlandırmaya və məyusetməyə gətirib çıxarır.

**Menecer – muzdlu işçi.** Sahibkar – bu xüsusi mülkiyyətçi, kapital sahibidir. Nə qədər ki, firma o qədər də böyük deyilsə iqtisadi, texniki və xüsusilə də idarəçilik məsələləri ilə o, özü şəxsən məşğul olur. Lakin, təşkilatın miqyası böyüdükcə ona peşəkar köməkçilər lazımdır. Menecer – bu kapitalistin kompanyonu yox, muzdlu işçidir. Onu sahibkarın o qədər də uğurla yerinə yetirə bilmədiyi işlərdə sınaqdan çıxarırlar. İnsanlara məharətlə rəhbərlik etmək, onları motivləşdirmək və maraqlandırmaq bacarığı menecerin ən ümdə peşə öhdəliklərindəndir.

Daha geniş və mükəmməl anlamda menecer dedikdə iqtisadiyyatın idarə edilməsi sahəsində hüquqi və digər məsələlərdə bilikli və səriştəli olan mütəxəssis nəzərdə tutulur. Bütün ehtiyatlardan daha effektli istifadə edilməsi üçün menecerin əsas vəzifəsi məqsədyönlü axtarış aparmaq, fasiləsiz təhsil sistemini təmin etmək və işləri düzgün təşkil etməkdir.

İnsan mürəkkəb və tələbatları sonsuz məxluq olduğundan rəhbər işçiləri maksimum dərəcədə anlamağa çalışmalı, onun istək və maraqlarını nəzərə almalıdır. Məlumdur ki, neqativ möhkəmlətmə hakimiyyət verilmiş adamlar tərəfindən çoxdan tətbiq olunur. Belə yanaşma adamların tənqid və cəzadan qaçmaq cəhdlərinə əsaslanır ki, bu da onların davranışını dəyişir. Lakin, o, da bir həqiqətdir ki, insan var gücü ilə kötək altında deyil, ona real qazanc imkanı olduqda işləyir. Neqativ çalarlar isə onun əlini işdən soyudur, nəticədə hər iki tərəf ruhdan düşür.

İşçinin əmək fəaliyyətinin müsbət cəhətlərini aşkarlayıb onu həvəsləndirmək və hər vəchlə müdafiə etmək daha doğru üsuldur.

Bu zaman menecer işçinin işə can yandırmasını müəyyən etməyə və mükafatlandırmaya xüsusi əmək sərf edir.

**Menecmentdə liderlik.** Nadir idarəetmə məharəti olan liderlik M.Vudkok və D.Frantsisə görə insan və digər resurslardan müəyyən nəticə əldə etmək üçün istifadə etmək qabiliyyətidir.

Liderliyə müasir yanaşmalar idarəetmə üslubunun tabeçilikdə olan konkret işçiyə uyğun olaraq dəyişdirilməsindən ibarətdir. Bu zaman həmin şəxslə münasibətdə məndən hansı idarəetmə üslubu tələb olunur sualına cavab vermək lazımdır. Menecment nəzəriyyələrinə görə yaxşı menecer mürəkkəb situasiyalarda idarəetməyə olan tələbləri öyrənir və onlara müvafiq olan idarəetmə üslubunu həyata keçirir. İdarəetmə davranışın göstəriş vermək, şöhrətləndirmək, idarəetmədə iştirak və səlahiyyətləri ötürmək kimi üslublarını fərqləndirmək lazımdır.

Göstəriş vermək üslubunda rəhbər məsələlərin həllini diqqətlə izləyir, təlimatlar verir, baş verən hadisələri detallarına qədər ətraflı

öyrənir. Tələbata cavab verməyən iş tezliklə aşkar edilir və məsul şəxslərə göstərişlər verilir. Lider öz istədiyini dəqiq izah edir və şəxsi ustalığını artırmağa fikrin verərək işin yaxşılaşdırılmasını tələb edir. Belə üslubu işi bilməyən və öyrənmək istəməyən şəxslərə və qruplara qarşı tətbiq etmək daha yaxşıdır. Yeni işçilərə, yaxud da "perspektivsiz" bölmələrə bu cür yanaşma özünü doğruludur. "Perspektivsiz" dedikdə müəyyən təcrübəsi olsa da, köhnə düşüncəni dəyişdirməyə qadir olmayan kadrlar nəzərdə tutulur.

Şöhrətləndirmə üslubunda lider təşəbbüskar kimi çıxış edir. O, cari işlər üzrə göstəriş, təlimat verməkdə və nəzarətdə çox fəal olur. Ünsiyyət ən vacib element olduğundan lider insanlarla tanışlığı və əlaqələri genişləndirməyə cəhd edir. İşçilərin birbaşa iştirakı ilə nümunəvi iş formalaşır və bu işə uyğun konkret məsələlər müzakirə olunur və təşkilat üzrə bütün işlər əlaqələndirilir.

Belə üslub az-çox işə uyğunlaşmış, müəyyən vərdişləri əxz etmiş, tam peşəkarlaşmış şəxslərə və qruplara tətbiq edildikdə özünü doğruldur. Adətən belə qrupların üzvləri öyrənməyə cəhd etməklə bərabər öz üzərlərində daha çox işləməlidirlər. Bu cür yanaşma keyfiyyət və əmək məhsuldarlığı problemlərini həll etməyi bacarmayan qruplara münasibətdə də özünü doğruldur. Rəhbər tərəfindən nəzarətin və təlimatların olması işçilərin qabiliyyətini artırır.

Siz hər kəsə öz vaxtınızı sərf etdikdə; ümumi maraqlar gözlədikdə; fərdi xarakterlərlə qiymət verdikdə; tabeçilikdə olanlarla intensiv ünsiyyətə can atdıqda; əldə edilmiş yüksək nəticələrə görə qürur hissini yaydıqda; zəruri hallarda əmrlər verdikdə; işin müəyyən edilmiş nümunəsi işə uyğunluğunu izlədikdə; nümunəvi işi saxlamaq üçün lazım gəldikdə cəza tətbiq etdikdə; pozitiv davranışı mükafatlandırdıqda yaxşı nəticələr əldə edə bilərsiniz.

**İdarəetmədə iştirak etmək.** Bu üslubla rəhbər qrupların mənəvi durumunu yaxşılaşdırmağa çalışır, şəxsi münasibətlərin inkişafında fəallıq göstərir, işçilərdə əlaqəlilik hissini həvəsləndirir, insanlarda öz problemlərini özü həll etmək cəhdlər formalaşdırır və əmrlər minimum sayda olur. Lakin lazım gəldikdə rəhbər müvafiq əmrlər verir. Bütün zəruri məsələlər işçilərə hərtərəfli izah olunur, təşkilatın işində daha çox payı olan işçilərin lider həvəsləndirir. Belə üslub baza vərdişlərindən əlavə son dərəcədə yüksək peşəkarlığa malik olan işçilərə və qruplara yanaşmada özünü doğruldur. Belə kollektivlərin inkişafı iş prosesində məsuliyyət artırılması və kollektiv pozitiv mühitin qorunması ilə bağlıdır.

**Səlahiyyətlərin ötürülməsi.** Lider axırıncı şans (ehtiyat) kimi çıxış edir. Yerinə yetirilən işin əsas hissəsinə qrupun ayrı-ayrı üzvləri nəzarət edir. Onların səlahiyyətinə gündəlik nəzarət və yoxlamalar aiddir. Bu cür üslub peşəkarlıq səviyyəsi yüksək olan və öz güclərini faydalı işlərə sərf etməyə can atan şəxslərə və qrupla yanaşmada tətbiq olunur. Belə şəraitdə idarəetmə öz təşkilatına məsuliyyətlə yanaşan və pozitiv münasibətli adamlar tərəfindən həyata keçirilir. Bu cür rəhbərliyə xas olan üsluba aşağıdakıları aid edirlər:

- məqsədlərin aydınlaşdırılması və razılıq əldə edilməsi;
- sizdən xahiş etsələr kömək edilməsi;
- başqalarının işinə qarışmaqdan çəkinmək;
- xahişlərə ciddi reaksiya vermək;

Qeyd etmək lazımdır ki, yaxşı lider qrupun yüksək səviyyəli məsuliyyət və səriştəlik istiqamətində inkişafına kömək edir. Praktiki olaraq daha yüksək yetkinlik səviyyəsinə çatmaq üçün bütün qruplara kömək etmək və onları motivasiya etmək mümkündür. Nəzarət və təlimatları azaltmaqla qrup üzvlərinin davranışını izləmək lazımdır ki, onlar özlərində məsuliyyət hiss etsinlər və işlərini yaxşı icra etsinlər.

Liderin qəbul etdiyi üslub bir sıra amillərdən asılı olsa da onun üçün şəxsi bütövlüyü qorumaq vacibdir və o, özünü həmişə hamı üçün "yaxşı adam" çevirməlidir.

İşçi qrupunda liderin başlıca funksiyası öz fərdi üzvlərinin güclü tərəfləri haqda ümumi bilik əldə etməkdir. Buna görə də yeni vəzifə

və tələblər meydana çıxdıqda lider dəyişə bilər. Dar düşüncəli rəhbər öz rəhbərlik və nəzarət imkanlarından əl çəkmək xatirinə belə müsbət prosesi ləngidə bilər. Ona görə də formal rəhbər öz hüquq və vəzifələrini bir hissəsindən imtina etməklə işə daha çox fayda verə bilər.

Yoxsa (bəlkə) "buyruq qulu" olan oğlan. Qərbdə geniş şöhrət qazanmış "Menecment və Makiavelli" adlı kitabında Entoni Djey bizi maraqlandıran anlayışın əhəmiyyəti haqqında son dərəcədə maraqlı şərh sərgiləyir. [9, s.81-83].

Amerikalı sosioloqun mülahizələrinə görə "menecer" sözü özündə təhqiredici, alçaldıcı çalarları ifadə edir. Belə ki, bu sözdə belə bir fikir ifadə olunur ki, menecer mülkiyyətçinin təyin etdiyi o şəxsdir ki, mülkiyyətçinin orada olmadığı zaman hər hansı bir işi yerinə yetirir. İlkin kapital yığımı vaxtlarında menecerləri "buyruq qulu olan oğlan" kimi kapitalistin "müavini" statusunda qəbul edirdilər.

Lakin, "direktor" dedikdə isə əksinə dövlətli və hörmətli bir adam təəssüratı yaranırdı. Hətta "fəhlə" sözü daha şərəfli, "menecer"isə təhdidedici kimi qəbul edilirdi. Əslində, "menecer" nəzarətçi (gözətçi) və ya usta sözlərinin daha yumşaq ifadəsidir. Əgər köhnə fabrik sistemini (manufakturanı) xatırlasaq yada düşəcək ki, usta istehsal prosesinin tam hakimiyyətli sahibi idi. O, işçilərin işdən azad və işə qəbul edirdi, istehsal (hasilat) normasını müəyyələşdirirdi, fəhlələri cəzalandırır (o, cümlədən əllə vurmaqdan istifadə etməklə) və mükafatlandırırdı. Göründüyü kimi bu sözdə şübhəsiz ki, təhdidedici notlar da (məqamlar da) var idi.

E.Djeyin mülahizələrinə görə "menecer" sözünün mənşəyi çox qədim zamanlara təsadüf edir. O dövrlərdə şaxta və ya mis əritmə zavodunun mülkiyyətçisi bütün yerlərdən işlərə eyni vaxtda müdaxilə edə bilmirdi, başqa sözlə özlüyündə sadə olan istehsal prosesinə şəxsən nəzarət edə bilmirdi. Buna görə də o orada olmadığı vaxtda işlərə rəhbərlik etmək üçün muzdla köməkçi tuturdu. Həmin dövrlərdə menecerləri hətta fəhlələrin içərisindən cəlb edirdilər və həmin vaxta qədrə iş verənin (mülkiyyətçinin, sahibkarın) yerinə yetirdiyi ən xoşagəlməz işləri onlara tapşırırdılar.

**Ədəbiyyat:**


1. Quliyev T.Ə. – Menecment (idarəetmənin) əsasları. Bakı 2006.
2. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. – Menecment (dərslik). Bakı 2005, 2007.
3. Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. – Müasir menecment (dərs vəsaiti). Bakı 1994.
4. Беркович Д.М. – Формирования науки управления производством (краткий истории очерк). М. 1973.
5. Вейл П. – Искусство менеджмента (пер. с англ) – М. 1993.
6. Друкер П. – Эффективный управления. М. 1994.
7. Журавский А.Ф. Научная организация труда. – М.-Л., 1926.
8. Макаров С.Ф. – Менеджер за работой. М. 1989.
9. Организация управления производством в капиталистических странах. – М., 1972. С.81-89.
10. Тураев Б.А. – История древнего востока. Т.1.Л., 1936.


***Açar sözlər:*** *idarəetmə, demoqogiya, despotizm, müəllim və lider, sahibkar və menecer, pedaqoji ustalıq*

**Mammad Mammadov**
*Azerbaijan State University of Economics, Department of Business and Logistics,*
*Associate Professor, Ph.D. in Economics*

## THE GENESIS OF APPROACHES TO THE TERM “MANAGEMENT”

**ABSTRACT**

This article provides a historical analysis of the origin and evolution of the term "management," exploring various conceptual approaches to governance. Starting from antiquity, the author categorizes management methods into two main directions: "democratic/demagogic" communication involving free citizens, and "despotic" management based on physical coercion. The study emphasizes that genuine management inherently involves guiding people through voluntary motivation and psychological influence rather than force. It thoroughly examines the status of the modern manager as a hired employee, the transition from Taylorism to the "human relations" doctrine, and distinct leadership styles (directing, coaching, supporting, and delegating). Ultimately, the article argues that successful management relies on understanding employees' inner world, prioritizing moral and psychological motivation over mere material incentives, and implementing flexible leadership methods.

***Keywords:*** *management, demogogy, despotism, teacher and leader, entrepreneur and manager, pedagogical mastery*

**Мамед Мамедов**

*Доцент кафедры Бизнеса и логистики Азербайджанского Государственного Экономического Университета, доктор философии по экономике*

## ГЕНЕЗИС ПОДХОДОВ К ТЕРМИНУ «МЕНЕДЖМЕНТ»

**РЕЗЮМЕ**

В данной статье в историческом аспекте анализируются происхождение, эволюция термина «менеджмент» и различные концептуальные подходы к управлению. Автор рассматривает методы управления, начиная с античной эпохи, разделяя их на «демократическое/демагогическое» взаимодействие со свободными гражданами и «деспотическое» управление, основанное на принуждении. Подчеркивается, что суть истинного менеджмента заключается в регулировании действий людей без давления, через добровольную мотивацию и психологическое воздействие. В исследовании подробно рассматриваются статус современного менеджера, как наёмного работника, переход от тейлоризма к доктрине «человеческих отношений», а также различные стили лидерства (директивный, наставнический, партисипативный и делегирующий). Подводя итоги, автор обосновывает, что ключевым фактором успешного менеджмента в современную эпоху является понимание внутреннего мира сотрудников, акцент на моральном стимулировании наряду с материальным и применение гибких методов руководства.

***Ключевые слова:*** *менеджмент, демогогия, деспотизм, педагог и лидер, предприниматель и менеджер, педагогическое мастерство*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.377

**GƏNC TƏDQİQATÇILAR**
**YOUNG RESEARCHERS**

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**
**INTERNATIONAL RELATIONS**

UOT 327; 930.22

**ЭЛЬМАН ГУРБАНОВ**

**Диссертант кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

*e-mail: elman_gurbanov@mail.ru*

# ИСЛАМСКИЙ ФАКТОР КАК ИНСТРУМЕНТ ПОЛИТИЧЕСКОЙ ЛЕГИТИМАЦИИ И ГЕОПОЛИТИЧЕСКОГО ВОЗДЕЙСТВИЯ В СОВРЕМЕННОЙ БЛИЖНЕВОСТОЧНОЙ ДИНАМИКЕ: СИРИЙСКО-ИРАНСКИЙ РАКУРС

## Введение

В современной международной политике религия всё реже выступает в качестве автономного источника конфликта и всё чаще функционирует как символический, идеологический и политико-коммуникационный ресурс. Особенно отчётливо это проявляется на Ближнем Востоке, где исламский фактор используется для легитимации власти, мобилизации сторонников, делегитимации противников, объяснения внешнего давления, оправдания силовых действий и конструирования коллективной идентичности. В результате реальные причины конфликтов – борьба за власть, территорию, коммуникации, ресурсы, влияние, безопасность и контроль над региональными траекториями развития переводятся в язык религиозной идентичности, сакрализуются и приобретают более эмоционально насыщенное политическое звучание [3, с. 12-26; 13, с. 4-9].

Это обстоятельство имеет принципиальное значение для политологического анализа. Когда конфликт описывается исключительно как религиозный, исследователь рискует принять форму политического дискурса за сущность самого процесса. Между тем во многих ближневосточных кризисах религиозная риторика не столько создаёт конфликт, сколько оформляет его, придаёт ему моральный смысл, мобилизует сторонников и расширяет пространство политической легитимации. Иными словами, исламский фактор зачастую выступает не первичным источником насилия, а медиатором между геополитическим интересом и массовым восприятием. Через него элиты переводят сложные вопросы безопасности и влияния в понятные обществу категории веры, достоинства, сопротивления, справедливости, угрозы и исторической миссии [7, с.10-22].

Именно в этом контексте сирийское и иранское направления представляют осо-

бую аналитическую ценность. В обоих случаях ислам фигурирует не столько как подлинная причина конфликта, сколько как средство его интерпретации, символического оформления и политической мобилизации. Однако если в прежний период сирийско-иранское взаимодействие нередко трактовалось как выражение устойчивой конфессионально-идеологической общности, то новая региональная обстановка, сложившаяся после падения режима Башара Асада и последующей военной эскалации вокруг Ирана, требует более строгого пересмотра этой схемы. Падение Дамаска в декабре 2024 года, бегство Б.Асада в Россию и последующий отказ нового сирийского руководства автоматически втягиваться в войну на стороне Тегерана существенно изменили смысл прежних интерпретаций [9, с. 8-15; 16].

В прежней аналитической оптике сирийско-иранский союз часто объяснялся через категорию «оси сопротивления», через риторику антизападной и антиизраильской солидарности, через апелляцию к защите святынь, религиозных меньшинств и «региональной самостоятельности». Однако последующие события выявили ограниченность такого объяснения. Исчезновение прежней власти в Дамаске не привело к автоматическому сохранению прежней модели конфессионально-политической солидарности. Напротив, новый сирийский центр власти стал выстраивать линию поведения, исходя прежде всего из государственных интересов, задач восстановления, внутренней стабилизации и недопущения втягивания страны в очередную разрушительную региональную войну [9, с. 27-28].

С другой стороны, иранское направление показывает, что исламский фактор сохраняет значительную функциональность даже тогда, когда его конфессионально-интеграционный потенциал оказывается ограниченным. Для Ирана исламская риторика остаётся важнейшим ресурсом внутренней консолидации, объяснения внешнего давления, поддержания режима легитимности и представления внешнеполитического курса как борьбы за достоинство, суверенитет и сопротивление внешнему диктату. В этом проявляется двойственная природа исламского фактора: он может быть слабым как реальная основа устойчивого межгосударственного единства, но сильным как язык легитимации, мобилизации и символического оправдания [21, с. 83-130].

Цель данной статьи состоит в том, чтобы проанализировать исламский фактор в современной ближневосточной динамике не как самостоятельную религиозную причину конфликтов, а как инструмент политической легитимации и геополитического воздействия. Для этого в статье рассматриваются сирийский кейс, трансформация сирийско-иранской конфигурации после падения режима Асада, иранская модель использования исламской риторики, военная эскалация 2026 года и более широкий теоретический вопрос о соотношении религиозного дискурса, государственной стратегии и международной безопасности.

1990-cı illərdə Yuqoslaviya və Ruanda münaqişələri beynəlxalq ictimaiyyətə göstərdi ki, ad hoc tribunal mexanizmləri müəyyən hüquqi nəticələr versə də, daimi və universal beynəlxalq cinayət məhkəməsinin yaradılması zəruridir. Bu kontekstdə 1998-ci ildə Romada keçirilmiş diplomatik konfrans beynəlxalq hüquq tarixində mühüm dönüş nöqtəsinə çevrildi. 17 iyul 1998-ci ildə qəbul edilmiş Roma Statutu Beynəlxalq Cinayət Məhkəməsinin hüquqi əsaslarını formalaşdırdı və beynəlxalq cinayət hüququnun institusional inkişafında yeni mərhələnin başlanğıcı oldu. Philippe Kirsch qeyd edir ki, Roma Konfransı beynəlxalq hüquqda qlobal hüquqi konstitusionalizmin mühüm mərhələsi hesab olunmalıdır, çünki beynəlxalq ictimaiyyət ilk dəfə universal cinayət mühakiməsi mexanizmi yaratmağa çalışmışdır [17, s.2-5]. Bununla yanaşı, aparılmış hüquqi təhlil göstərir ki, Roma Statutunun qəbul olunması beynəlxalq hüquqda dövlət suverenliyi ilə beynəlxalq cinayət məsuliyyəti arasındakı münasibətlərin yeni hüquqi modelini formalaşdırmışdır.

Roma Statutunun əsas xüsusiyyətlərindən biri tamamlayıcılıq (complementarity)

prinsipinə əsaslanmasıdır. Statutun 17-ci maddəsinə əsasən Beynəlxalq Cinayət Məhkəməsi milli məhkəmələri əvəz etmir və yalnız dövlətin istintaq aparmaq istəmədiyi və ya buna qadir olmadığı hallarda yurisdiksiya həyata keçirir. Mohamed El Zeidy qeyd edir ki, tamamlayıcılıq prinsipi beynəlxalq cinayət hüququ ilə dövlət suverenliyi arasında kompromis mexanizmi rolunu oynayır [18, s.157-162]. Aparılmış hüquqi təhlil göstərir ki, bu prinsip beynəlxalq hüquqda dövlətlərin cinayət yurisdiksiyasını formal olaraq qorusa da, eyni zamanda beynəlxalq ictimaiyyətə ağır beynəlxalq cinayətlərin cəzasız qalmasına müdaxilə etmək imkanı verir.

Roma Statutunda təsbit edilmiş ən mühüm beynəlxalq cinayət kateqoriyalarından biri soyqırımı cinayətidir. Statutun 6-cı maddəsi 1948-ci il Soyqırımı Konvensiyasının müddəalarını əsas götürərək soyqırımı beynəlxalq cinayət kimi müəyyən etmişdir. William Schabas qeyd edir ki, Roma Statutunun soyqırımı ilə bağlı müddəaları artıq formalaşmış beynəlxalq adət hüququnun kodifikasiyası xarakteri daşıyırdı [5, s.107-112].

İnsanlıq əleyhinə cinayətlər isə Roma Statutunda daha geniş və sistemli şəkildə müəyyən edilmişdir. Statutun 7-ci maddəsinə əsasən insanlıq əleyhinə cinayətlər dedikdə mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistemli hücum çərçivəsində törədilən qətl, deportasiya, işgəncə, zorla yox etmə, seksual zorakılıq və digər ağır hüquq pozuntuları nəzərdə tutulur. David Luban qeyd edir ki, insanlıq əleyhinə cinayətlərin əsas xüsusiyyəti onların yalnız fərdi şəxslərə deyil, bütövlükdə insan ləyaqətinə qarşı yönəlməsindədir [19, s.120-125]. Aparılmış hüquqi təhlil göstərir ki, insanlıq əleyhinə cinayətlər anlayışı beynəlxalq hüququn humanist mahiyyətinin güclənməsinin ən mühüm hüquqi göstəricilərindən biri hesab edilməlidir.

Roma Statutunun mühüm yeniliklərindən biri seksual zorakılığı ayrıca beynəlxalq cinayət kateqoriyası kimi tanıması olmuşdur. Kelly Dawn Askin qeyd edirdi ki, beynəlxalq hüquq uzun müddət seksual zorakılığı "müharibənin qaçılmaz nəticəsi" kimi qiymətləndirmiş, lakin Yuqoslaviya və Ruanda tribunal təcrübəsi bu yanaşmanı kökündən dəyişmişdir [20, s.276-281]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq tribunal təcrübəsi beynəlxalq hüquqda gender əsaslı zorakılığın hüquqi qiymətləndirilməsi baxımından mühüm dönüş nöqtəsi olmuşdur.

Roma Statutunun 8-ci maddəsi hərbi cinayətlərin geniş şəkildə kodifikasiyasını həyata keçirmişdir. Statut həm beynəlxalq, həm də qeyri-beynəlxalq silahlı münaqişələr zamanı törədilən ağır hüquq pozuntularını beynəlxalq hərbi cinayət kimi müəyyən etmişdir. Yoram Dinstein qeyd edir ki, bu müddəalar beynəlxalq humanitar hüququn cinayət-hüquqi müdafiə mexanizmlərini əhəmiyyətli dərəcədə gücləndirmişdir [10, s.892-896]. Aparılmış hüquqi təhlil göstərir ki, Roma Statutu beynəlxalq humanitar hüququn tətbiq dairəsini genişləndirərək dövlətlərin daxili silahlı münaqişələr zamanı törətdikləri ağır hüquq pozuntularının da beynəlxalq hüquqi məsuliyyət yaratdığını təsdiq etmişdir.

Roma Statutunda təcavüz cinayətinin ayrıca beynəlxalq cinayət kimi tanınması da mühüm hüquqi hadisə olmuşdur. Bununla belə, uzun müddət təcavüz cinayətinin konkret hüquqi tərifi ilə bağlı dövlətlər arasında konsensus mövcud olmamışdır. Yalnız 2010-cu ildə Kampalada keçirilmiş konfrans zamanı təcavüz cinayətinin hüquqi tərifi qəbul edilmişdir. Claus Kreß qeyd edir ki, təcavüz cinayətinin BCM yurisdiksiyasına daxil edilməsi beynəlxalq hüquqda güc tətbiqinin məhdudlaşdırılması istiqamətində mühüm addım olmuşdur [21, s.1-6].

Bununla yanaşı, Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyəti ilə bağlı bir sıra ciddi hüquqi və siyasi problemlər də mövcuddur. Ən mühüm problemlərdən biri böyük dövlətlərin məhkəməyə münasibəti ilə bağlıdır. ABŞ Roma Statutunu imzalasa da, onu ratifikasiya etməmişdir. Çin, Rusiya və Hindistan da Statutun iştirakçısı deyillər. John Bolton açıq şəkildə bəyan etmişdir ki, BCM ABŞ-ın milli suverenliyi üçün risk yaradır [22, s.167-180]. Aparılmış hüquqi təhlil göstərir ki, böyük dövlətlərin BCM sistemindən kənarda qalması

beynəlxalq cinayət mühakiməsinin universallığı prinsipini müəyyən dərəcədə zəiflədir.

Digər mühüm problem beynəlxalq cinayət mühakiməsinin selektiv tətbiqi ilə bağlıdır. BCM-in ilk işlərinin əksəriyyətinin Afrika dövlətləri ilə bağlı olması bəzi dövlətlər tərəfindən “selektiv beynəlxalq ədalət” kimi qiymətləndirilmişdir. Makau Mutua qeyd edir ki, beynəlxalq cinayət hüququ müəyyən hallarda neo-kolonial hüquqi müdaxilə vasitəsi kimi qəbul edilir [23, s.201-205]. Bununla yanaşı, aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun problemləri onun hüquqi mahiyyətindən deyil, beynəlxalq münasibətlər sistemində mövcud olan siyasi qeyri-bərabərlikdən irəli gəlir.

Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması beynəlxalq hüququn institusional inkişafında yeni mərhələnin başlanğıcı hesab edilməlidir. Bununla belə, BCM universal yurisdiksiya prinsipi ilə eyni hüquqi mexanizm hesab edilə bilməz. Universal yurisdiksiya milli məhkəmələr tərəfindən həyata keçirilən beynəlxalq cinayət təqibi forması olduğu halda, Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq müqavilə əsasında yaradılmış daimi beynəlxalq məhkəmə institutudur. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya və BCM bir-birinə alternativ deyil, beynəlxalq cinayət məsuliyyəti sisteminin qarşılıqlı tamamlayıcı elementləri kimi çıxış edir.

## Universal yurisdiksiya prinsipi və Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasının müqayisəli hüquqi təhlili

Müasir beynəlxalq cinayət hüququnda ən mühüm nəzəri və praktiki məsələlərdən biri universal yurisdiksiya prinsipi ilə Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası arasındakı münasibətlərin hüquqi mahiyyətidir. Beynəlxalq hüquq doktrinasında bu institutlar bir sıra hallarda eyni hüquqi mexanizmlər kimi təqdim olunsa da, aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, onların hüquqi təbiəti, tətbiq mexanizmləri və yurisdiksiya əsasları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

Universal yurisdiksiya prinsipi müəyyən beynəlxalq cinayətlərin cinayətin törədildiyi yer, təqsirləndirilən şəxsin və ya zərərçəkmiş şəxsin vətəndaşlığı ilə hüquqi bağlılıq olmadan dövlətlərin milli məhkəmələri tərəfindən araşdırılmasına imkan verən hüquqi mexanizmdir. Bu prinsip beynəlxalq hüququn adət hüququ normaları əsasında formalaşmış və sonradan beynəlxalq müqavilələrdə öz əksini tapmışdır. Cedric Ryngaert qeyd edir ki, universal yurisdiksiya beynəlxalq hüququn kosmopolit ədalət modelinə doğru inkişafının hüquqi ifadəsidir [24, s.112-118]. Bununla yanaşı, Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası beynəlxalq müqavilə əsasında yaradılmış daimi beynəlxalq məhkəmə institutunun səlahiyyətlərinə əsaslanır və Roma Statutu ilə müəyyən edilir. Aparılmış hüquqi təhlil göstərir ki, universal yurisdiksiya ilə BCM yurisdiksiyası arasında ilk fundamental fərq onların institusional mahiyyəti ilə bağlıdır. Universal yurisdiksiya milli məhkəmələr tərəfindən həyata keçirilən beynəlxalq cinayət təqibi forması olduğu halda, Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq hüququn ayrıca institusional subyekti kimi fəaliyyət göstərir. Universal yurisdiksiya zamanı dövlətlər öz milli qanunvericiliyi və beynəlxalq hüquq normaları əsasında beynəlxalq cinayətləri araşdırır, BCM isə Roma Statutundan irəli gələn beynəlxalq yurisdiksiya həyata keçirir.

İkinci mühüm fərq yurisdiksiyanın hüquqi əsasları ilə bağlıdır. Universal yurisdiksiya əsasən beynəlxalq adət hüququ və jus cogens xarakterli beynəlxalq cinayətlərin cəzasız qalmaması prinsipi əsasında formalaşmışdır. Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası isə yalnız Roma Statutundan irəli gəlir və əsasən Statutun iştirakçısı olan dövlətlərə və ya BMT Təhlükəsizlik Şurasının göndərişlərinə şamil olunur. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya bəzi hallarda BCM yurisdiksiyasından daha geniş tətbiq imkanlarına malik ola bilər.

Universal yurisdiksiya ilə BCM arasındakı digər mühüm fərq tamamlayıcılıq prinsipi ilə

bağlıdır. Roma Statutunun 17-ci maddəsinə əsasən BCM milli məhkəmələri əvəz etmir və yalnız dövlətin istintaq aparmaq istəmədiyi və ya buna qadir olmadığı hallarda fəaliyyət göstərir. Universal yurisdiksiya isə birbaşa milli məhkəmələr tərəfindən həyata keçirilən hüquqi mexanizmdir və onun tətbiqi üçün ayrıca beynəlxalq məhkəmə qərarı tələb olunmur. Mohamed El Zeidy qeyd edir ki, tamamlayıcılıq prinsipi beynəlxalq cinayət hüququnda dövlət suverenliyi ilə beynəlxalq ədalət arasında hüquqi kompromis formalaşdırır [18, s.157-162].

Universal yurisdiksiya prinsipinin tətbiqində ən mühüm presedentlərdən biri Augusto Pinoçet işi hesab olunur. 1998-ci ildə İspaniya hakimi Baltasar Garzón Çilinin keçmiş diktatoru Augusto Pinoçetin işgəncə və insanlıq əleyhinə cinayətlərə görə ekstradisiyasını tələb etmişdir. Böyük Britaniya Lordlar Palatası qeyd etmişdir ki, işgəncə cinayəti jus cogens xarakterli beynəlxalq cinayətdir və dövlət başçısı bu cinayətə görə mütləq immunitetdən istifadə edə bilməz. Aparılmış hüquqi təhlil göstərir ki, Pinoçet işi beynəlxalq hüquqda dövlət immuniteti doktrinasının transformasiyasında mühüm mərhələ olmuşdur. Rosalyn Higgins qeyd edirdi ki, Pinoçet işi beynəlxalq hüquqda dövlət immuniteti ilə beynəlxalq məsuliyyət arasındakı münasibətlərin yeni mərhələyə keçdiyini nümayiş etdirmişdir [27, s.94-97]. Bununla yanaşı, aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, Pinoçet işi universal yurisdiksiya prinsipinin beynəlxalq hüquqda praktiki tətbiq imkanlarını genişləndirməklə yanaşı, onun siyasi nəticələri ilə bağlı mübahisələri də gücləndirmişdir.

Universal yurisdiksiyanın tətbiq olunduğu digər mühüm presedent Adolf Eyxman işi olmuşdur. İsrail məhkəməsi Eyxmanı insanlıq əleyhinə cinayətlərə görə mühakimə etmiş və qeyd etmişdir ki, soyqırımı və insanlıq əleyhinə cinayətlər bütövlükdə beynəlxalq ictimaiyyətə qarşı yönəlmiş cinayətlərdir. Hannah Arendt qeyd edirdi ki, Eyxman prosesi beynəlxalq hüquqda "şərin banallığı" fenomenini ortaya qoymuşdur [29, s.252-253]. Aparılmış hüquqi təhlil göstərir ki, Eyxman işi beynəlxalq cinayətlərin yalnız konkret dövlətə qarşı deyil, bütövlükdə bəşəriyyətə qarşı yönəldiyini hüquqi baxımdan təsdiq etmişdir.

Universal yurisdiksiya prinsipi ilə bağlı mühüm hüquqi problemlərdən biri də dövlət immuniteti məsələsidir. Beynəlxalq Ədalət Məhkəməsinin "Democratic Republic of Congo v. Belgium" işi üzrə qərarında qeyd edilmişdir ki, fəaliyyətdə olan xarici işlər naziri xarici dövlətlərin milli məhkəmələri qarşısında toxunulmazlıq hüququndan istifadə edir [32, s.58]. Antonio Cassese həmin qərarı tənqid edərək qeyd etmişdir ki, beynəlxalq hüquq artıq ağır beynəlxalq cinayətləri rəsmi vəzifənin icrası kimi qiymətləndirməməlidir [2, s.870-873]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüquqda dövlət immuniteti ilə beynəlxalq cinayət məsuliyyəti arasındakı münasibət tam həll olunmuş hüquqi problem hesab edilə bilməz. Bir tərəfdən dövlət immuniteti beynəlxalq münasibətlər sisteminin mühüm elementi olaraq qalır, digər tərəfdən isə beynəlxalq hüququn humanist inkişaf istiqaməti ağır beynəlxalq cinayətlərin cəzasız qalmasının yolverilməz olduğunu göstərir.

Universal yurisdiksiya prinsipi ilə bağlı digər mühüm problem onun selektiv tətbiq edilməsidir. Henry Kissinger universal yurisdiksiyanın həddindən artıq geniş tətbiqinin beynəlxalq hüququn siyasiləşdirilməsi riskini artırdığını qeyd etmişdir [30, s.86-96]. Steven Ratner və Anne-Marie Slaughter isə universal yurisdiksiyanın əsas məqsədinin beynəlxalq cinayətlərin cəzasız qalmasının qarşısını almaq olduğunu vurğulamışlar [31, s.291-294]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya prinsipinin legitimliyi onun universal və qeyri-selektiv tətbiqindən birbaşa asılıdır.

Müasir beynəlxalq hüququn inkişafı göstərir ki, universal yurisdiksiya və Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq cinayət məsuliyyəti sisteminin rəqib deyil, qarşılıqlı tamamlayıcı elementləri kimi çıxış edir. Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq institusional cinayət mühakiməsi mexanizmi

rolunu oynadığı halda, universal yurisdiksiya milli məhkəmələr vasitəsilə beynəlxalq cinayətlərin cəzasız qalmasının qarşısını almağa xidmət edir. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun effektivliyi məhz bu iki mexanizmin paralel və qarşılıqlı əlaqəli fəaliyyətindən asılıdır.

## Qarabağ münaqişəsi kontekstində universal yurisdiksiya və beynəlxalq cinayət məsuliyyəti problemləri

Müasir beynəlxalq hüququn inkişafı göstərir ki, silahlı münaqişələr zamanı törədilən ağır beynəlxalq humanitar hüquq pozuntuları artıq yalnız regional və ya daxili təhlükəsizlik problemi kimi deyil, bütövlükdə beynəlxalq ictimaiyyətin hüquqi maraqlarına toxunan beynəlxalq cinayətlər kimi qiymətləndirilir. Bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsi və xüsusilə Qarabağ ərazisində uzun illər ərzində baş vermiş hadisələr beynəlxalq cinayət hüququ baxımından ciddi hüquqi təhlil tələb edir. Aparılmış hüquqi təhlil göstərir ki, Qarabağ münaqişəsi zamanı törədilmiş bir sıra əməllər beynəlxalq humanitar hüququn kobud pozuntuları və müəyyən hallarda beynəlxalq cinayət xarakterli aktlar kimi qiymətləndirilə bilər.

Müasir beynəlxalq hüquqda müharibə cinayətləri dedikdə beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulması ilə müşayiət olunan və fərdi beynəlxalq cinayət məsuliyyəti yaradan əməllər nəzərdə tutulur. Roma Statutunun 8-ci maddəsinə əsasən mülki əhalinin qəsdən hədəfə alınması, əsirlərlə qeyri-insani rəftar, işgəncə, girov götürmə, yaşayış məntəqələrinin əsassız dağıdılması və humanitar hüququn digər kobud pozuntuları hərbi cinayətlər hesab olunur [21]. Aparılmış hüquqi təhlil göstərir ki, Qarabağ münaqişəsi dövründə mülki yaşayış məntəqələrinin atəşə tutulması, mülki şəxslərin öldürülməsi, əsirlərlə qeyri-insani rəftar və yaşayış infrastrukturlarının dağıdılması beynəlxalq humanitar hüquq baxımından ciddi hüquqi qiymətləndirmə tələb edir.

Xüsusilə mülki əhaliyə qarşı həyata keçirilmiş hücumlar beynəlxalq humanitar hüququn əsas prinsiplərindən biri olan fərqləndirmə prinsipinin pozulması kimi qiymətləndirilə bilər. Cenevrə Konvensiyaları və Əlavə Protokollar silahlı münaqişə iştirakçılarının mülki şəxslərlə hərbi obyektləri fərqləndirmək öhdəliyini müəyyən edir. Yoram Dinstein qeyd edir ki, beynəlxalq humanitar hüququn əsas məqsədlərindən biri silahlı münaqişələr zamanı mülki əhalinin maksimum hüquqi müdafiəsini təmin etməkdir [10, s.29-33]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, müasir beynəlxalq hüquqda mülki əhalinin qəsdən hədəfə alınması beynəlxalq cinayət məsuliyyəti yaradan ən ağır hüquq pozuntularından biri hesab olunur.

Qarabağ münaqişəsi kontekstində beynəlxalq hüquqi qiymətləndirilməsi vacib olan məsələlərdən biri də etnik təmizləmə və zorla köçürmə problemidir. Beynəlxalq hüquqda etnik təmizləmə ayrıca beynəlxalq cinayət kateqoriyası kimi təsbit edilməsə də, onun elementləri insanlıq əleyhinə cinayətlər və soyqırımı cinayətləri ilə əlaqələndirilə bilər. Roma Statutunun 7-ci maddəsinə əsasən deportasiya və əhalinin zorla köçürülməsi insanlıq əleyhinə cinayət hesab olunur. Aparılmış hüquqi təhlil göstərir ki, uzun illər ərzində yüz minlərlə azərbaycanlının öz yaşayış yerlərindən məcburi şəkildə didərgin salınması beynəlxalq hüquq baxımından ciddi hüquqi məsuliyyət məsələsi yaradır.

Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlərin əsas xüsusiyyətlərindən biri onların sistemli və genişmiqyaslı xarakter daşımasıdır. David Luban qeyd edir ki, insanlıq əleyhinə cinayətlər yalnız ayrı-ayrı şəxslərə qarşı yönəlmiş əməllər deyil, bütövlükdə insan ləyaqətinə və mülki əhaliyə qarşı sistemli hücum formasıdır [19, s.120-125]. Aparılmış hüquqi təhlil göstərir ki, Qarabağ münaqişəsi zamanı mülki əhalinin uzunmüddətli və sistemli şəkildə zorla köçürülməsi, yaşayış yerlərindən məhrum edilməsi və fundamental hüquqlarının pozulması beynəlxalq hüququn insanlıq əleyhinə cinayətlər konsepsiyası çərçivəsində qiymətləndirilə bilər.

Qarabağ münaqişəsi kontekstində xüsusi hüquqi əhəmiyyət kəsb edən məsələlərdən biri də itkin düşmüş şəxslər və kütləvi məzarlıqlar problemidir. Müasir beynəlxalq hüquqda zorla yox etmə və itkin düşmüş şəxslərlə bağlı məsələlər beynəlxalq insan hüquqları hüququnun və beynəlxalq humanitar hüququn mühüm komponentlərindən biri hesab olunur. Beynəlxalq hüquq dövlətlərə silahlı münaqişələr zamanı itkin düşmüş şəxslərin taleyi barədə məlumat toplamaq, onların ailələrini məlumatlandırmaq və dəfn yerlərinin müəyyən edilməsini təmin etmək öhdəliyi qoyur.

Azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlar beynəlxalq humanitar hüququn kobud pozuntularının mümkün sübut bazası kimi xüsusi hüquqi əhəmiyyət daşıyır. Aparılmış hüquqi təhlil göstərir ki, belə məzarlıqlar beynəlxalq cinayətlərin araşdırılması baxımından mühüm maddi sübut hesab edilə bilər. Beynəlxalq tribunal təcrübəsində, xüsusilə Yuqoslaviya və Ruanda tribunal işlərində kütləvi məzarlıqlar soyqırımı, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərin sübut edilməsində mühüm rol oynamışdır.

ICTY-nin "Prosecutor v. Radislav Krstić" işi Srebrenitsa hadisələrinin soyqırımı kimi qiymətləndirilməsi baxımından mühüm presedent hesab olunur [41, para.580-590]. Tribunal qeyd etmişdir ki, sistemli şəkildə həyata keçirilən kütləvi qətllər və mülki əhalinin məqsədli şəkildə məhv edilməsi soyqırımı niyyətinin müəyyən olunması üçün mühüm hüquqi göstəricilərdən biridir. Marko Milanović qeyd edir ki, Krstić işi beynəlxalq hüquqda "genocidal intent" elementinin şərhi baxımından mühüm rol oynamışdır [42, s.553-554]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq tribunal təcrübəsi kütləvi məzarlıqları beynəlxalq cinayətlərin mühüm sübut elementlərindən biri kimi qəbul edir.

Qarabağ kontekstində itkin düşmüş şəxslər problemi də beynəlxalq hüquq baxımından xüsusi aktuallıq daşıyır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin və beynəlxalq humanitar hüququn əsas prinsiplərinə görə tərəflər itkin düşmüş şəxslərin taleyi ilə bağlı məlumatların açıqlanması və ailələrin məlumatlandırılması öhdəliyi daşıyırlar. Aparılmış hüquqi təhlil göstərir ki, itkin düşmüş şəxslərlə bağlı məlumatların uzun müddət gizli saxlanılması və ya təqdim edilməməsi beynəlxalq hüququn humanitar mahiyyətinə zidd hesab edilməlidir.

Avropa İnsan Hüquqları Məhkəməsinin "Cyprus v. Turkey" və "Varnava and Others v. Turkey" işləri bu baxımdan mühüm hüquqi presedent hesab olunur. Məhkəmə qeyd etmişdir ki, itkin düşmüş şəxslərin taleyi ilə bağlı effektiv araşdırmanın aparılmaması və ailələrin uzun müddət qeyri-müəyyən vəziyyətdə saxlanılması insan hüquqlarının pozulması yaradır. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq hüquqda dövlətlərin yalnız hüquq pozuntularını törətməmək deyil, eyni zamanda onların effektiv araşdırılmasını təmin etmək öhdəliyi də formalaşmışdır.

Qarabağ münaqişəsi kontekstində universal yurisdiksiya prinsipinin nəzəri və praktiki əhəmiyyəti xüsusi qeyd edilməlidir. Universal yurisdiksiya müəyyən hallarda beynəlxalq cinayətlərin cəzasız qalmasının qarşısını alan subsidiar hüquqi mexanizm kimi çıxış edə bilər. Xüsusilə ağır beynəlxalq cinayətlərin effektiv şəkildə araşdırılmadığı hallarda universal yurisdiksiya beynəlxalq hüququn impunitetə qarşı mübarizə vasitələrindən biri hesab olunur.

Bununla yanaşı, aparılmış hüquqi təhlil göstərir ki, universal yurisdiksiya prinsipinin tətbiqi yalnız hüquqi deyil, həm də siyasi problemlərlə müşayiət olunur. Beynəlxalq münasibətlər sistemində böyük dövlətlərin siyasi maraqları bir sıra hallarda universal yurisdiksiya mexanizmlərinin effektiv tətbiqinə mane olur. Lakin bütün bu problemlərə baxmayaraq, beynəlxalq hüququn müasir inkişaf tendensiyası ağır beynəlxalq cinayətlərin cəzasız qalmasının getdikcə daha az qəbul edildiyini göstərir.

Qarabağda törədilmiş beynəlxalq cinayət xarakterli əməllərin beynəlxalq hüquq baxımından araşdırılması yalnız regional

ədalət məsələsi deyil, həm də beynəlxalq cinayət hüququnun gələcək inkişaf istiqamətləri baxımından mühüm hüquqi əhəmiyyət daşıyır. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüququn effektivliyi beynəlxalq humanitar hüququn və insan hüquqlarının yalnız normativ səviyyədə deyil, praktiki müstəvidə də müdafiə olunmasından birbaşa asılıdır.

## Universal yurisdiksiya prinsipinin tətbiqində selektiv ədalət problemi və müasir beynəlxalq hüququn çağırışları

Müasir beynəlxalq cinayət hüququnun inkişafı beynəlxalq ictimaiyyətin ağır beynəlxalq cinayətlərin cəzasız qalmasına qarşı daha həssas yanaşma formalaşdırdığını göstərsə də, beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin tətbiqi ilə bağlı bir sıra ciddi hüquqi və siyasi problemlər hələ də qalmaqdadır. Bu problemlərdən ən mühümlərindən biri beynəlxalq cinayət mühakiməsinin selektiv tətbiqi məsələsidir. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüququn effektivliyi yalnız hüquqi normaların mövcudluğundan deyil, həmin normaların bütün beynəlxalq hüquq subyektlərinə bərabər və qeyri-selektiv şəkildə tətbiq edilməsindən asılıdır.

Beynəlxalq cinayət hüququnun praktiki tətbiqi göstərir ki, bir sıra hallarda beynəlxalq məsuliyyət mexanizmləri geosiyasi maraqlardan və beynəlxalq siyasi balansdan asılı vəziyyətə düşür. Noam Chomsky qeyd edir ki, beynəlxalq münasibətlər sistemində güc faktoru bir çox hallarda hüquqi prinsiplərdən daha təsirli rol oynayır və bu vəziyyət beynəlxalq hüququn legitimliyi ilə bağlı problemlər yaradır [46, s.173-177]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq hüququn selektiv tətbiqi problemi yalnız beynəlxalq cinayət hüququnun deyil, ümumilikdə müasir beynəlxalq hüquq sisteminin əsas struktur problemlərindən biridir.

Bu problem xüsusilə BMT Təhlükəsizlik Şurasının beynəlxalq cinayət hüququ sistemindəki rolu ilə bağlı müzakirələrdə özünü göstərir. Roma Statutunun 13(b) maddəsinə əsasən BMT Təhlükəsizlik Şurası Beynəlxalq Cinayət Məhkəməsinə iş göndərmək səlahiyyətinə malikdir. Lakin Təhlükəsizlik Şurasının veto hüququna malik daimi üzvlərinin siyasi maraqları bir sıra hallarda beynəlxalq cinayətlərin araşdırılmasına mane ola bilir. Dapo Akande qeyd edir ki, Təhlükəsizlik Şurasının siyasi xarakteri beynəlxalq cinayət mühakiməsinin universallığı prinsipi ilə müəyyən ziddiyyət yaradır [47, s.333-336]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun institusional mexanizmləri formal olaraq universal xarakter daşısa da, onların praktiki fəaliyyəti beynəlxalq münasibətlər sistemində mövcud olan siyasi reallıqlardan ciddi şəkildə təsirlənir. Bu isə beynəlxalq hüquqda "selektiv ədalət" problemini formalaşdırır. Xüsusilə bəzi beynəlxalq cinayətlərin sürətli şəkildə araşdırıldığı halda, digər hallarda oxşar hüquq pozuntularına münasibətdə beynəlxalq mexanizmlərin passiv qalması beynəlxalq hüququn obyektivliyi ilə bağlı mübahisələri gücləndirir.

Universal yurisdiksiya prinsipinin tətbiqi ilə bağlı mübahisələr də əsasən bu kontekstdə formalaşır. Henry Kissinger universal yurisdiksiyanın geniş tətbiqinin beynəlxalq hüququn siyasiləşdirilməsi riskini artırdığını qeyd etmişdir [30, s.86-96]. Onun fikrincə, ayrı-ayrı dövlətlərin siyasi motivlərlə digər dövlətlərin vəzifəli şəxslərinə qarşı cinayət təqibi aparması beynəlxalq münasibətlərdə ciddi gərginlik yarada bilər. Bununla yanaşı, Steven Ratner və Anne-Marie Slaughter universal yurisdiksiyanın əsas məqsədinin siyasi təzyiq deyil, beynəlxalq cinayətlərin cəzasız qalmasının qarşısını almaq olduğunu vurğulamışlar [31, s.291-294]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya prinsipinin legitimliyi onun universal tətbiqindən asılıdır. Əgər bu prinsip yalnız müəyyən dövlətlərə və ya siyasi baxımdan zəif aktorlara münasibətdə tətbiq olunursa, bu halda beynəlxalq hüququn legitimliyi və obyektivliyi ilə bağlı ciddi problemlər yaranır. Bununla yanaşı, beynəlxalq hüququn humanist inkişaf istiqaməti göstərir

ki, ağır beynəlxalq cinayətlərin yalnız siyasi səbəblərlə araşdırılmaması beynəlxalq hüququn fundamental prinsiplərinə zidd hesab edilməlidir.

Universal yurisdiksiya prinsipinin tətbiqində digər mühüm problem dövlət immuniteti ilə bağlıdır. Beynəlxalq Ədalət Məhkəməsinin "Democratic Republic of Congo v. Belgium" işi üzrə qərarında qeyd edilmişdir ki, fəaliyyətdə olan xarici işlər naziri xarici dövlətlərin milli məhkəmələri qarşısında toxunulmazlıq hüququndan istifadə edir [32, s.58]. Bu qərar beynəlxalq hüquq doktrinasında geniş müzakirələrə səbəb olmuşdur. Antonio Cassese həmin qərarı tənqid edərək qeyd etmişdir ki, beynəlxalq hüquq artıq ağır beynəlxalq cinayətləri rəsmi vəzifənin icrası kimi qiymətləndirməməlidir [2, s.870-873]. Aparılmış hüquqi təhlil göstərir ki, müasir beynəlxalq hüquqda dövlət immuniteti ilə beynəlxalq cinayət məsuliyyəti arasındakı münasibət tam həll olunmuş hüquqi problem hesab edilə bilməz. Bir tərəfdən dövlət immuniteti beynəlxalq münasibətlər sisteminin sabitliyi baxımından mühüm hüquqi institut olaraq qalır, digər tərəfdən isə beynəlxalq hüququn humanist transformasiyası ağır beynəlxalq cinayətlərin cəzasız qalmasının yolverilməz olduğunu göstərir. Bu baxımdan müasir beynəlxalq hüquq dövlət suverenliyi ilə beynəlxalq ədalət arasında yeni hüquqi balans formalaşdırmağa çalışır.

Müasir beynəlxalq hüququn inkişafı beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin yalnız klassik silahlı münaqişələrlə bağlı məsələlərlə məhdudlaşmadığını da göstərir. Yeni texnologiyalar, kiberhücumlar, pilotsuz silah sistemləri və süni intellekt texnologiyalarının hərbi məqsədlərlə istifadəsi beynəlxalq humanitar hüquq qarşısında yeni problemlər formalaşdırır. Michael Schmitt qeyd edir ki, texnologiyanın sürətli inkişafı beynəlxalq hüququn klassik prinsiplərinin yenidən şərh olunmasını zəruri edir [48, s.3-9]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüquq texnoloji inkişafdan müəyyən mənada geri qalır və xüsusilə kibeməkanda beynəlxalq məsuliyyət mexanizmlərinin tətbiqi ilə bağlı hüquqi boşluqlar mövcuddur. Müasir silahlı münaqişələrin hibrid xarakter alması beynəlxalq humanitar hüququn tətbiqi ilə bağlı yeni hüquqi problemlər yaradır. Bu isə beynəlxalq cinayət hüququnun gələcək inkişaf istiqamətlərinin yalnız klassik müharibə hüququ ilə deyil, yeni texnoloji çağırışlarla da müəyyən olunacağını göstərir.

Beynəlxalq cinayət hüququnun inkişafı keçid ədaləti konsepsiyasının formalaşmasına da ciddi təsir göstərmişdir. Ruti Teitel qeyd edir ki, keçid ədaləti yalnız cəzalandırma mexanizmi deyil, eyni zamanda cəmiyyətin hüquqi və mənəvi bərpasına yönəlmiş kompleks hüquqi modeldir [43, s.69-74]. Yuqoslaviya, Ruanda, Sierra Leone və Kamboca tribunal təcrübəsi göstərir ki, beynəlxalq cinayət mühakiməsi yalnız hüquqi məsuliyyət funksiyası daşımır, həm də tarixi həqiqətin müəyyən olunmasına xidmət edir.

Bu baxımdan Qarabağ münaqişəsi kontekstində beynəlxalq hüquqi həqiqətin müəyyən olunması məsələsi xüsusi aktuallıq daşıyır. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq humanitar hüququn pozulması ilə bağlı hadisələrin hüquqi sənədləşdirilməsi, kütləvi məzarlıqların beynəlxalq standartlara uyğun araşdırılması, itkin düşmüş şəxslərlə bağlı məlumatların beynəlxalq hüquqi mexanizmlər vasitəsilə müəyyən olunması və müharibə cinayətlərinin hüquqi kvalifikasiyası gələcək beynəlxalq hüquqi proseslər baxımından mühüm əhəmiyyət daşıyır.

Müasir beynəlxalq hüququn inkişaf tendensiyası göstərir ki, beynəlxalq ictimaiyyət ağır beynəlxalq cinayətlərin cəzasız qalmasını getdikcə daha az qəbul edir. David Scheffer qeyd edir ki, XXI əsr "international accountability era" kimi xarakterizə oluna bilər [49, s.411-418]. Bununla yanaşı, aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin effektivliyi onların siyasi təsirlərdən nə dərəcədə müstəqil fəaliyyət göstərə bilməsindən birbaşa asılı olacaqdır.

Beləliklə, müasir beynəlxalq hüququn inkişafı beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin tədricən gücləndiyini göstərsə də,

selektiv ədalət problemi, dövlət suverenliyi ilə beynəlxalq məsuliyyət arasındakı ziddiyyətlər və beynəlxalq münasibətlər sistemində mövcud olan siyasi qeyri-bərabərlik beynəlxalq cinayət hüququnun qarşısında duran əsas çağırışlar olaraq qalmaqdadır.

## Müasir beynəlxalq hüququn humanist transformasiyası və beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin gələcək inkişaf perspektivləri

Müasir beynəlxalq hüququn inkişaf tendensiyası göstərir ki, beynəlxalq hüquq tədricən klassik dövlətmərkəzli hüquq modelindən insan hüquqlarının və beynəlxalq humanitar dəyərlərin prioritet təşkil etdiyi yeni hüquqi mərhələyə keçməkdədir. XX əsrin ortalarına qədər beynəlxalq hüququn əsas məqsədi dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün qorunması hesab olunurdusa, müasir mərhələdə beynəlxalq hüquq eyni zamanda fərdin hüquqi müdafiəsini təmin edən qlobal normativ sistem funksiyası daşımağa başlamışdır. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun inkişafı məhz bu humanist transformasiyanın ən mühüm hüquqi təzahürlərindən biridir.

Anne Peters qeyd edir ki, müasir beynəlxalq hüquq artıq yalnız dövlətlərarası münasibətləri tənzimləyən sistem deyil, həm də insanı beynəlxalq hüququn müstəqil subyekti kimi qəbul edən normativ hüquqi modelə çevrilməkdədir [37, s.513-515]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq hüququn humanist transformasiyası beynəlxalq cinayət hüququnun inkişafı ilə birbaşa bağlıdır. Soyqırımı, insanlıq əleyhinə cinayətlər, işgəncə və hərbi cinayətlər kimi ağır beynəlxalq hüquq pozuntularının jus cogens xarakterli normalar kimi qəbul edilməsi beynəlxalq hüququn ümumbəşəri dəyərlər üzərində qurulduğunu nümayiş etdirir.

Erika de Wet qeyd edir ki, jus cogens normalarının və erga omnes öhdəliklərinin güclənməsi beynəlxalq hüququn artıq yalnız müqavilə hüququ sistemi deyil, eyni zamanda ümumbəşəri hüquqi dəyərləri qoruyan normativ struktur olduğunu göstərir [38, s.55-60]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun inkişafı dövlətlərin mütləq suverenlik konsepsiyasının tədricən məhdudlaşdırılması ilə müşayiət olunur. Müasir beynəlxalq hüquq dövlətlərin daxili yurisdiksiyasını tam inkar etməsə də, beynəlxalq humanitar hüququn və insan hüquqlarının kobud şəkildə pozulmasını artıq dövlətin daxili işi hesab etmir.

Bu kontekstdə beynəlxalq cinayət məsuliyyəti ilə dövlət məsuliyyəti arasındakı münasibət xüsusi hüquqi əhəmiyyət daşıyır. James Crawford qeyd edir ki, beynəlxalq cinayət məsuliyyəti ilə dövlət məsuliyyəti paralel hüquqi institutlardır və biri digərini istisna etmir [39, s.567-572]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüquqda eyni hüquq pozuntusu həm fərdi beynəlxalq cinayət məsuliyyəti, həm də dövlətin beynəlxalq hüquqi məsuliyyəti ilə nəticələnə bilər. Bu baxımdan Beynəlxalq Ədalət Məhkəməsinin “Bosnia and Herzegovina v. Serbia and Montenegro” işi mühüm hüquqi presedent hesab olunur. Məhkəmə qeyd etmişdir ki, dövlət soyqırımı cinayətinin qarşısını almaq öhdəliyini pozduqda beynəlxalq hüquqi məsuliyyət daşıyır [40, s.430-438]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun inkişafı beynəlxalq hüquqda “duty to prosecute” — yəni ağır beynəlxalq cinayətləri araşdırmaq öhdəliyinin formalaşmasına səbəb olmuşdur. Diane Orentlicher qeyd edir ki, beynəlxalq hüquqda ağır insan hüquqları pozuntularını effektiv araşdırmaq öhdəliyi artıq formalaşmaqda olan beynəlxalq adət hüququ norması hesab edilə bilər [35, s.2597-2601]. Bu baxımdan beynəlxalq hüquq dövlətlərə yalnız hüquq pozuntularını törətməmək deyil, eyni zamanda onların effektiv araşdırılmasını təmin etmək öhdəliyi də qoyur.

Müasir beynəlxalq hüququn inkişafı beynəlxalq tribunal sistemlərinin və hibrid məhkəmə modellərinin də genişlənməsi ilə müşayiət olunmuşdur. Sierra Leone üzrə Xüsusi Tribunal və Kamboca tribunal təcrübəsi beynəlxalq və milli hüququn

kombinasiyasına əsaslanan yeni hüquqi mexanizmlərin formalaşdığını göstərmişdir. Charles Chernor Jalloh qeyd edir ki, Sierra Leone Tribunalı dövlət başçılarının beynəlxalq cinayətlərə görə cəzasızlığının zəiflədiyini nümayiş etdirmişdir [44, s.97-101]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq tribunal sistemlərinin inkişafı beynəlxalq hüquqda fərdi məsuliyyət prinsipinin daha da güclənməsinə səbəb olmuşdur.

Kamboca tribunalı isə beynəlxalq hüququn lokal legitimlik problemi ilə bağlı mühüm hüquqi təcrübə formalaşdırmışdır. Cesare Romano qeyd edir ki, hibrid tribunal modelləri beynəlxalq cinayət hüququnun yerli hüquq sistemləri ilə daha effektiv inteqrasiyasına xidmət edir [45, s.2-8]. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, gələcəkdə beynəlxalq cinayət mühakiməsi mexanizmlərinin inkişafı daha çox beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsinə əsaslanan qarışıq modellər üzərində qurula bilər.

Müasir beynəlxalq hüququn qarşısında duran mühüm problemlərdən biri də yeni texnologiyalar və müasir silahlı münaqişələrin dəyişən xarakteri ilə bağlıdır. Kiberhücumlar, pilotsuz uçuş aparatlarının istifadəsi, süni intellekt texnologiyalarının hərbi məqsədlərlə tətbiqi və hibrid müharibə metodları beynəlxalq humanitar hüququn klassik prinsiplərinin tətbiqini çətinləşdirir. Michael Schmitt qeyd edir ki, beynəlxalq hüquq texnoloji inkişafdan geri qalır və bu sahədə yeni normativ mexanizmlərin yaradılması zəruridir [48, s.3-9]. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət hüququnun gələcək inkişaf istiqamətləri yalnız klassik silahlı münaqişələr və ənənəvi beynəlxalq cinayətlərlə məhdudlaşmayacaqdır. Xüsusilə kibərməkanda həyata keçirilən hücumların mülki əhaliyə ciddi zərər vurduğu hallarda onların beynəlxalq humanitar hüquq və beynəlxalq cinayət hüququ baxımından hüquqi kvalifikasiyası məsələsi aktual olacaqdır.

Qarabağ münaqişəsi kontekstində beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin inkişaf perspektivləri də xüsusi hüquqi əhəmiyyət daşıyır. Aparılmış hüquqi təhlil göstərir ki, müharibə cinayətləri, itkin düşmüş şəxslər, kütləvi məzarlıqlar və mülki əhaliyə qarşı törədilmiş ağır hüquq pozuntularının beynəlxalq hüquq baxımından sənədləşdirilməsi gələcək hüquqi proseslər üçün mühüm sübut bazası formalaşdırır. Beynəlxalq tribunal təcrübəsi göstərir ki, beynəlxalq cinayətlərin effektiv araşdırılması üçün hüquqi sübutların beynəlxalq standartlara uyğun şəkildə toplanması xüsusi əhəmiyyət daşıyır.

Bununla yanaşı, universal yurisdiksiya prinsipi gələcəkdə Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquqi məsuliyyət məsələlərinin araşdırılmasında subsidiar hüquqi mexanizm kimi çıxış edə bilər. Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya prinsipi xüsusilə beynəlxalq cinayətlərin effektiv araşdırılmadığı hallarda beynəlxalq hüququn impunitetə qarşı mübarizə vasitələrindən biri hesab olunur.

Müasir beynəlxalq hüququn inkişafı göstərir ki, beynəlxalq cinayət məsuliyyəti mexanizmləri tədricən daha institusional və daha universal xarakter almaqdadır. Bununla belə, selektiv ədalət problemi, böyük dövlətlərin beynəlxalq məhkəmə mexanizmlərinə münasibəti və beynəlxalq hüququn siyasi təsirlərdən tam azad olmaması beynəlxalq cinayət hüququnun qarşısında duran əsas problemlər olaraq qalır. Aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq hüququn gələcək effektivliyi beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin nə dərəcədə universal, obyektiv və qeyri-selektiv tətbiq olunacağından birbaşa asılı olacaqdır.

**Nəticə**

Nəticə etibarilə qeyd etmək olar ki, müasir beynəlxalq hüququn inkişafı beynəlxalq münasibətlər sistemində fundamental hüquqi və institusional transformasiyaların baş verdiyini açıq şəkildə nümayiş etdirir. XX əsrin ortalarına qədər əsasən dövlətlərin suverenliyinə və daxili yurisdiksiya prinsipinə əsaslanan beynəlxalq hüquq sistemi artıq yeni inkişaf mərhələsinə daxil olmuşdur. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, beynəlxalq

hüquq yalnız dövlətlərin maraqlarını qoruyan normativ mexanizm deyil, eyni zamanda bəşəriyyətin ümumi təhlükəsizliyini, insan hüquqlarını və fundamental hüquqi dəyərlərini müdafiə edən qlobal hüquqi sistem funksiyası daşımağa başlamışdır.

Beynəlxalq cinayət hüququnun inkişafı məhz bu transformasiyanın ən mühüm istiqamətlərindən biri hesab edilməlidir. Nürnberq Tribunalından başlayaraq formalaşan beynəlxalq cinayət məsuliyyəti konsepsiyası beynəlxalq hüquq tarixində tamamilə yeni hüquqi yanaşmanın meydana çıxmasına səbəb olmuşdur. Bu yanaşmanın əsas mahiyyəti ondan ibarətdir ki, heç bir dövlət rəhbəri, siyasi lider və ya vəzifəli şəxs beynəlxalq hüququn imperativ normalarını pozduqda tam hüquqi toxunulmazlıqdan istifadə edə bilməz. Aparılmış hüquqi təhlil göstərir ki, müasir beynəlxalq hüququn inkişafı dövlət hakimiyyətinin beynəlxalq cinayət məsuliyyətindən yayınmaq üçün mütləq hüquqi sipər funksiyası daşıması konsepsiyasını tədricən zəiflətmişdir.

Universal yurisdiksiya prinsipi beynəlxalq hüququn universallaşmasının və humanist mahiyyətinin ən mühüm hüquqi ifadələrindən biri hesab edilməlidir. Bu prinsip göstərir ki, soyqırımı, insanlıq əleyhinə cinayətlər, hərbi cinayətlər və işgəncə kimi ağır beynəlxalq hüquq pozuntuları yalnız müəyyən dövlətə və ya konkret qurbanlara qarşı deyil, bütövlükdə beynəlxalq ictimaiyyətə və bəşəriyyətin fundamental hüquqi dəyərlərinə qarşı yönəlmiş cinayətlərdir. Məhz buna görə də belə cinayətlərin araşdırılması və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması bütün dövlətlərin legitim hüquqi maraq dairəsinə daxil olur.

Aparılmış müqayisəli hüquqi təhlil göstərir ki, universal yurisdiksiya prinsipi ilə Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyası eyni hüquqi mexanizmlər hesab edilə bilməz. Universal yurisdiksiya milli məhkəmələr tərəfindən həyata keçirilən beynəlxalq cinayət təqibi forması olduğu halda, Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq müqavilə əsasında yaradılmış daimi beynəlxalq məhkəmə institutudur. Bununla yanaşı, bu mexanizmlər bir-birinə alternativ deyil, beynəlxalq cinayət məsuliyyəti sisteminin qarşılıqlı tamamlayıcı elementləri kimi çıxış edir. Beynəlxalq Cinayət Məhkəməsi beynəlxalq institusional ədalət mexanizmi rolunu oynadığı halda, universal yurisdiksiya milli məhkəmələr vasitəsilə beynəlxalq cinayətlərin cəzasız qalmasının qarşısını almağa xidmət edir.

Məqalədə aparılmış hüquqi təhlil göstərir ki, beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin inkişafı ilə yanaşı, beynəlxalq hüququn qarşısında bir sıra ciddi problemlər də qalmaqdadır. Selektiv ədalət problemi, böyük dövlətlərin beynəlxalq məhkəmə mexanizmlərinə münasibəti, beynəlxalq hüququn siyasi təsirlərdən tam azad olmaması və beynəlxalq məhkəmə qərarlarının icrası ilə bağlı çətinliklər beynəlxalq cinayət hüququnun effektivliyini müəyyən hallarda zəiflətməkdədir. Xüsusilə beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin bəzi hallarda qeyri-bərabər tətbiqi beynəlxalq hüququn legitimliyi ilə bağlı mübahisələri gücləndirir.

Bununla yanaşı, beynəlxalq hüququn ümumi inkişaf istiqaməti göstərir ki, beynəlxalq ictimaiyyət ağır beynəlxalq cinayətlərin cəzasız qalmasını getdikcə daha az qəbul edir. Beynəlxalq tribunal sistemləri, universal yurisdiksiya praktikası, Beynəlxalq Cinayət Məhkəməsinin fəaliyyəti və beynəlxalq insan hüquqları mexanizmlərinin inkişafı beynəlxalq hüququn artıq yeni institusional mərhələyə daxil olduğunu göstərir. Bu mərhələdə beynəlxalq hüquq yalnız deklarativ prinsiplər sistemi deyil, real hüquqi məsuliyyət mexanizmlərinə malik fəaliyyət göstərən normativ struktur funksiyası daşımağa başlayır.

Qarabağ münaqişəsi kontekstində aparılmış hüquqi təhlil göstərir ki, müharibə cinayətləri, mülki əhaliyə qarşı törədilmiş ağır hüquq pozuntuları, etnik təmizləmə siyasəti, itkin düşmüş şəxslər və azad edilmiş ərazilərdə aşkarlanmış kütləvi məzarlıqlar beynəlxalq cinayət hüququ baxımından ciddi hüquqi qiymətləndirmə tələb edir. Xüsusilə kütləvi məzarlıqların aşkarlanması və itkin düşmüş

şəxslərlə bağlı problemlər beynəlxalq humanitar hüququn kobud pozuntularının mümkün sübut bazası kimi mühüm hüquqi əhəmiyyət daşıyır. Aparılmış hüquqi təhlil göstərir ki, Qarabağda törədilmiş beynəlxalq cinayət xarakterli əməllərin beynəlxalq hüquq çərçivəsində sənədləşdirilməsi və hüquqi kvalifikasiyası yalnız regional ədalət məsələsi deyil, eyni zamanda beynəlxalq cinayət hüququnun gələcək inkişaf istiqamətləri baxımından da mühüm əhəmiyyət daşıyır. Universal yurisdiksiya prinsipi gələcəkdə belə cinayətlərin araşdırılması baxımından subsidiar hüquqi mexanizm kimi çıxış edə bilər.

Müasir beynəlxalq hüququn inkişafı göstərir ki, beynəlxalq hüquq artıq yalnız dövlətlərin qarşılıqlı münasibətlərini tənzimləyən texniki hüquq sistemi deyil, həm də beynəlxalq ictimaiyyətin fundamental etik və hüquqi dəyərlərini qoruyan normativ struktur funksiyası daşıyır. Beynəlxalq cinayət hüququnun gələcək inkişafı isə beynəlxalq hüququn legitimliyi, effektivliyi və universallığı baxımından həlledici əhəmiyyətə malik olacaqdır.

Beləliklə, beynəlxalq cinayət hüququnun və universal yurisdiksiya prinsipinin inkişafı müasir beynəlxalq hüququn ən mühüm transformasiya proseslərindən biri hesab edilməlidir. Nürnberqdən Haaqaya qədər inkişaf edən beynəlxalq cinayət mühakiməsi sistemi göstərir ki, beynəlxalq hüquq tədricən daha humanist, daha universal və daha institusional xarakter almaqdadır. Beynəlxalq hüququn gələcəyi isə məhz hüququn aliliyi, beynəlxalq ədalət, insan hüquqlarının müdafiəsi və cəzasızlığın yolverilməzliyi prinsiplərinin nə dərəcədə effektiv şəkildə qorunub inkişaf etdiriləcəyindən birbaşa asılı olacaqdır.

**Ədəbiyyat:**


1. Bassiouni M.C. International Criminal Law, Vol. I, 3rd ed., Transnational Publishers, 2008.
2. Cassese Antonio. International Criminal Law, Oxford University Press, 2008.
3. Lauterpacht Hersch. International Law and Human Rights, Stevens & Sons, London, 1950.
4. Lemkin Raphael. Axis Rule in Occupied Europe, Carnegie Endowment for International Peace, 1944.
5. Schabas William A. Genocide in International Law, Cambridge University Press, 2009.
6. Meron Theodor. The Humanization of International Law, Martinus Nijhoff Publishers, 2006.
7. Robertson Geoffrey. Crimes Against Humanity, The New Press, 2006.
8. Sands Philippe. From Nuremberg to The Hague, Cambridge University Press, 2003.
9. Ambos Kai. Treatise on International Criminal Law, Vol. II, Oxford University Press, 2014.
10. Dinstein Yoram. The Conduct of Hostilities under the Law of International Armed Conflict, Cambridge University Press, 2010.
11. Wemmers Jo-Anne. Victims in the International Criminal Justice System, University of Toronto Press, 2010.
12. ICTY, Prosecutor v. Tadić, Appeals Chamber Decision, 2 October 1995.
13. ICTR, Prosecutor v. Akayesu, Judgment, 2 September 1998.
14. UN Security Council Resolution 827 (1993).
15. Wright Quincy. The Law of the Nuremberg Trial, AJIL, Vol. 41, 1947.
16. Ferencz Benjamin. An International Criminal Court: A Step Toward World Peace, Pace International Law Review, 1998.
17. Kirsch Philippe & Holmes John T. The Rome Conference on an International Criminal Court, AJIL, 1999.
18. El Zeidy Mohamed. The Principle of Complementarity in International Criminal Law, Martinus Nijhoff Publishers, 2008.
19. Luban David. A Theory of Crimes Against Humanity, Yale Journal of International Law, 2004.
20. Askin Kelly Dawn. War Crimes Against Women, Martinus Nijhoff Publishers, 1997.
21. Kreß Claus & Barriga Stefan. The Crime of Aggression: A Commentary, Cambridge University Press, 2017.
22. Bolton John. The Risks and Weaknesses of the International Criminal Court, Law and Contemporary Problems, 2001.
23. Mutua Makau. Savages, Victims and Saviors, Harvard International Law Journal, 2001.
24. Ryngaert Cedric. Jurisdiction in International Law, Oxford University Press, 2015.
25. Rubin Alfred P. The Law of Piracy, Naval War College Press, 1998.
26. Reydams Luc. Universal Jurisdiction: International and Municipal Legal Perspectives, Oxford University Press, 2003.
27. Higgins Rosalyn. Problems and Process: International Law and How We Use It, Oxford University Press, 1994.
28. Rodley Nigel. The Treatment of Prisoners under International Law, Oxford University Press, 2009.
29. Arendt Hannah. Eichmann in Jerusalem: A Report on the Banality of Evil, Viking Press, 1963.
30. Kissinger Henry. The Pitfalls of Universal Jurisdiction, Foreign Affairs, 2001.
31. Ratner Steven & Slaughter Anne-Marie. Appraising the Methods of International Law, AJIL, 1999.
32. ICJ, Arrest Warrant of 11 April 2000 (Democratic Republic of Congo v. Belgium), Judgment, 2002.
33. Reydams Luc. Belgium's First Application of Universal Jurisdiction, Journal of International Criminal Justice, 2003.

34. Roht-Arriaza Naomi. The Pinochet Effect, University of Pennsylvania Press, 2005.
35. Orentlicher Diane. Settling Accounts: The Duty to Prosecute Human Rights Violations, Yale Law Journal, 1991.
36. Koskenniemi Martti. From Apology to Utopia, Cambridge University Press, 2005.
37. Peters Anne. Humanity as the A and Ω of Sovereignty, European Journal of International Law, 2009.
38. de Wet Erika. The International Constitutional Order, International and Comparative Law Quarterly, 2006.
39. Crawford James. Brownlie's Principles of Public International Law, Oxford University Press, 2012.
40. ICJ, Application of the Convention on the Prevention and Punishment of the Crime of Genocide, Judgment, 2007.
41. ICTY, Prosecutor v. Radislav Krstić, Judgment, 2001.
42. Milanović Marko. State Responsibility for Genocide, EJIL, 2006.
43. Teitel Ruti. Transitional Justice, Oxford University Press, 2000.
44. Jalloh Charles. The Legal Legacy of the Special Court for Sierra Leone, Cambridge University Press, 2014.
45. Romano Cesare, Nollkaemper Andre & Kleffner Jann. Internationalized Criminal Courts, Oxford University Press, 2004.
46. Chomsky Noam. Hegemony or Survival, Metropolitan Books, 2003.
47. Akande Dapo. The Legal Nature of Security Council Referrals to the ICC, Journal of International Criminal Justice, 2009.
48. Schmitt Michael. Tallinn Manual on the International Law Applicable to Cyber Warfare, Cambridge University Press, 2013.
49. Scheffer David. All the Missing Souls, Princeton University Press, 2012.

***Açar sözlər:*** *universal yurisdiksiya, beynəlxalq cinayət hüququ, Beynəlxalq Cinayət Məhkəməsi, Roma Statutu, soyqırımı, insanlıq əleyhinə cinayətlər, hərbi cinayətlər, dövlət immuniteti, beynəlxalq tribunallar, beynəlxalq məsuliyyət*

**Карамат Ганбаров**

*Диссертант кафедры Правового обеспечения государственного управления*
*Академии Государственного Управления при*
*Президенте Азербайджанской Республики*

## ПРИНЦИП УНИВЕРСАЛЬНОЙ ЮРИСДИКЦИИ В СОВРЕМЕННОМ МЕЖДУНАРОДНОМ ПРАВЕ И РАЗВИТИЕ МЕХАНИЗМОВ МЕЖДУНАРОДНОЙ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ

### РЕЗЮМЕ

В статье всесторонне анализируются формирование принципа универсальной юрисдикции в современном международном праве и развитие механизмов международной уголовной ответственности. Автор исследует исторические этапы развития международного уголовного права, правовое наследие Нюрнбергского и Токийского трибуналов, деятельность Международных трибуналов по бывшей Югославии и Руанде, создание Международного уголовного суда и влияние Римского статута на развитие международного права. Рассматриваются правовая сущность принципа универсальной юрисдикции, его

соотношение с государственным суверенитетом и иммунитетом государств, а также гуманистическая трансформация международного права. Кроме того, анализируются современные проблемы и перспективы развития системы международного уголовного правосудия.

***Ключевые слова:*** *универсальная юрисдикция, международное уголовное право, Международный уголовный суд, Римский статут, геноцид, преступления против человечности, военные преступления, государственный иммунитет, международные трибуналы, международная ответственность*

**Karamat Ganbarov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, the Department of Legal Support of Public Administration, Doctoral Researcher*

# THE PRINCIPLE OF UNIVERSAL JURISDICTION IN MODERN INTERNATIONAL LAW AND THE DEVELOPMENT OF INTERNATIONAL CRIMINAL RESPONSIBILITY MECHANISMS

## ABSTRACT

The article comprehensively analyzes the formation of the principle of universal jurisdiction in modern international law and the development of mechanisms of international criminal responsibility. The author examines the historical stages of the development of international criminal law, the legal heritage of the Nuremberg and Tokyo Tribunals, the activities of the International Criminal Tribunals for the former Yugoslavia and Rwanda, the establishment of the International Criminal Court, and the impact of the Rome Statute on the development of international law. The article evaluates the legal nature of universal jurisdiction, its relationship with state sovereignty and state immunity, as well as the humanistic transformation of international law. In addition, the study analyzes contemporary challenges and future prospects of the international criminal justice system.

***Keywords:*** *universal jurisdiction, international criminal law, International Criminal Court, Rome Statute, genocide, crimes against humanity, war crimes, state immunity, international tribunals, international responsibility*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.389

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

HÜQUQ
LAW

UOT 343.1

**RÜSTƏM ORUCLU**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin doktorantı**

*e-mail: orudzhlu@list.ru*

# KONSTİTUSİYA NƏZARƏTİNİN CİNAYƏT-PROSESSUAL HÜQUQUN NORMATİV VƏ İNSTİTUSİONAL STRUKTURUNA TƏSİRİ: NƏZƏRİ VƏ TƏTBİQİ ASPEKTLƏR

Cinayət-prosessual hüquq yalnız formal hüquqi prosedurların və ya normativ göstərişlərin cəmi kimi deyil, əksinə dövlətin cinayət siyasətinin hüquqi müstəvidə həyata keçirilməsi üçün nəzərdə tutulan kompleks və funksional hüquq sahəsi kimi qiymətləndirilməlidir [17, s. 35-40]. Bu sahə, bir tərəfdən, cinayət təqibi və ədalət mühakiməsinin təşkilati-hüquqi mexanizmlərini tənzimləyir, digər tərəfdən isə insan hüquq və azadlıqlarının müdafiəsinin institusional təminatını həyata keçirir. Cinayət-prosessual hüququn hüquqi təbiəti onun həm cinayət hüququ, həm də konstitusiya hüququ ilə sıx qarşılıqlı təsirdə olduğunu təsdiq edir. Belə qarşılıqlı münasibətlər çərçivəsində, hüquqi dövlətin və hüququn aliliyinin reallaşması baxımından bu sahədə tətbiq olunan normativ aktların konstitusiyaya uyğunluğu məsələsi ön plana çıxır.

Konstitusiyaya nəzarət institutu məhz bu mərhələdə hüquqi dövlət mexanizminin ayrılmaz tərkib hissəsi kimi çıxış edərək, cinayət-prosessual hüququn konstitusional əsaslara uyğun inkişafını təmin edən normativ və institusional mexanizm funksiyasını yerinə yetirir. Hüquqi dövlət konsepsiyası çərçivəsində hüquq sisteminin bütövlüyü və normativ sabitliyi yalnız o halda təmin edilə bilər ki, hüququn ayrı-ayrı sahələrində tətbiq olunan normativ aktlar, o cümlədən cinayət-prosessual qanunvericilik konstitusiyanın prinsiplərinə və ali hüquqi qüvvəsinə ziddiyyət təşkil etməsin. Bu kontekstdə konstitusiyaya nəzarət institutunun cinayət-prosessual hüquqda tətbiqi hüquq qaydalarının sistemliliyini və normativ legitimliyini qorumaqla yanaşı, insan hüquqlarının effektiv müdafiəsi üçün zəruri hüquqi zəmin yaradır.

Ə.H.Rzayevin də müəllifi olduğu “Dövlət idarəetməsi: nəzəriyyə və praktika” adlı əsərində qeyd etdiyi kimi: “idarəetmə prosesində, o cümlədən nəzarət fəaliyyətində əsas subyekt qismində – dövlət, ictimai təşkilat, kollektiv və vətəndaş çıxış edir. Hüquqi dövlət quruculuğu və hakimiyyətlərin bölgüsü prinsiplərinin tətbiq edilməsi, azad vətəndaş cəmiyyətinin, hüquqi dövlətin yaradılmasında dövlət hakimiyyətinin üzərinə düşən başlıca vəzifələrdən biri Əsas Qanunun – Konstitusiyanın aliliyini təmin etməkdir. Konstitusiya qanunvericilik sisteminin əsası olmaqla, ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Konstitusiyanın

aliliyinin təminatı, onun müdafiəsi və ona əməl edilməsi Konstitusiya nəzarətinin təşkilindən asılıdır. Konstitusiya nəzarəti institutu hüquqi dövlət statusu daşıyan hər bir demokratik ölkənin mühüm atributlarındna biridir. Qanunların, qanun qüvvəli aktların konstitusiyaya uyğunluğunun, cəmiyyətdə və dövlətdə konstitusiyanın aliliyi və düzgün qüvvəsinin təmin edilməsi üçün bütün hakimiyyət fəaliyyətinə Konstitusiya nəzarəti institutunun mühüm əhəmiyyəti vardır." [11, s.298].

Konstitusiya nəzarətinin hüquqi və praktiki əhəmiyyəti yalnız onun nəzəri əsaslarından deyil, eyni zamanda bu funksiyanı həyata keçirən ixtisaslaşmış orqan – Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin – rolunun dəqiq müəyyən edilməsindən və səlahiyyətlərinin effektiv şəkildə icrasından asılıdır. Çünki, konstitusiya nəzarəti institutunun hüquqi reallaşmasında Konstitusiya Məhkəməsinin ixtisaslaşmış rolu xüsusi yer tutur. Z.A.Əsgərovda müəllifi olduğu "Konstitusiya hüququ" dərsliyində bu məsələyə diqqət ayıraraq qeyd etmişdir ki: "Konstitusiyada səlahiyyəti, fəaliyyət istiqamətləri daha ətraflı şəkildə təsbit olunmuş yeganə məhkəmə hakimiyyəti orqanı Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsidir. Konstitusiyada bu məhkəmə orqanın səlahiyyətlərinin dəqiq tənzimlənməsi, sadəcə, onun əhəmiyyətindən irəli gəlmir. Konstitusiyada bu yolla konstitusiya nəzarəti institutu tənzim olunur. Başqa sözlə, Konstitusiya Məhkəməsi vasitəsilə konstitusiya nəzarəti həyata keçirilir. Konstitusiya nəzarəti Azərbaycan Respublikasının hüquq sistemində yeni institutdur və hələlik ətraflı tədqiq olunmamışdır." [10, s.453].

Beləliklə, Konstitusiya Məhkəməsinin konstitusiya nəzarətindəki ixtisaslaşmış rolu yalnız normativ aktların Konstitusiyaya uyğunluğunun abstrakt qaydada müəyyən olunması ilə məhdudlaşmır. Əksinə, bu institut cinayət-prosessual münasibətlərdə tətbiq olunan bütün hüquqi mexanizmlərin – prosessual məcburiyyət tədbirlərindən tutmuş sübutların toplanması üsullarına və prosessual tərəflərin qarşılıqlı münasibətlərinə qədər – Konstitusiyanın ali hüquqi prinsipləri ilə uyğunlaşdırılmasının təminatçısı kimi çıxış edir. Belə bir funksional mövqe konstitusiya nəzarətini yalnız hüquqi dövlətin normativ-siyasi əsaslarının qorunması vasitəsi kimi deyil, eyni zamanda cinayət ədalət mühakiməsinin legitimliyi, məhkəmə hakimiyyətinin neytrallığı və insan hüquqlarının effektiv müdafiəsi baxımından həlledici əhəmiyyət kəsb edən mexanizm kimi xarakterizə etməyə imkan verir.

Cinayət prosesində həyata keçirilən prosessual məcburiyyət tədbirləri (məsələn, həbs, axtarış və s.), sübutların toplanması üsulları və mümkünlüyü, prosessual tərəflərin hüquq və vəzifələri konstitusion hüquq normaları ilə uzlaşdırılmalıdır [18, s.175-180]. Bu uyğunluq isə sırf texniki və ya prosedur məsələ olmayıb, hüququn fəlsəfi və siyasi əsaslarına söykənən, insan hüquqlarının müdafiəsinin effektivliyi, məhkəmə hakimiyyətinin neytrallığı və hüquqi legitimliyin təmin olunması baxımından fundamental əhəmiyyətə malikdir. Əks təqdirdə, prosessual məcburiyyət tədbirlərinin tətbiqində sui-istifadə halları üçün hüquqi zəmin yarana bilər ki, bu da hüquq mühafizə orqanlarının fəaliyyətinin konstitusiyanın müəyyən etdiyi hüquqi sərhədləri aşmasına və insan hüquq və azadlıqlarının pozulmasına gətirib çıxarır.

Bu mənada konstitusiyaya nəzarət ilə cinayət-prosessual hüquq arasında olan qarşılıqlı münasibətlərin normativ, institusional və funksional aspektlərdə hərtərəfli təhlili – hüquqi dövlətin prinsiplərinin praktik tətbiqi baxımından mühüm nəzəri və elmi nəticələr doğuran məsələdir. Belə yanaşma, sadəcə normativ aktların Konstitusiyaya uyğunluğunun məhkəmə qaydasında yoxlanılmasından ibarət deyil. Burada söhbət daha geniş bir hüquqi fenomenin – yəni cinayət-prosessual mexanizmlərin konstitusiyanın ruhuna və məzmununa uyğun qurulmasının və fəaliyyət göstərməsinin zərurətindən gedir [17, s.30-33]. Bu isə normativ-hüquqi harmoniyanın, hüquqi sabitliyin və institusional effektivliyin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bütövlükdə, konstitusiyaya nəzarət institutunun cinayət-prosessual hüquq sistemindəki rolu hüquqi dövlətin dayaqlarını gücləndirməklə yanaşı, hüquqi təhlükəsizlik mühitinin formalaşmasına, ədalətli mühakimə hüququnun həyata keçirilməsinə və insan hüquq və azadlıqlarının real müdafiəsinin təmininə mühüm töhfə verir. Bu baxımdan, müasir hüquqi düşüncədə və qanunvericilik siyasətində konstitusiyaya nəzarət ilə cinayət-prosessual hüququn qarşılıqlı əlaqələrinin normativ tədqiqi və praktik tətbiqi – hüquqi sistemin dinamikası və inkişafı üçün strateji əhəmiyyət daşıyan elmi istiqamət kimi dəyərləndirilməlidir.

Cinayət-prosessual hüquq ilə konstitusiyaya nəzarət institutu arasındakı qarşılıqlı əlaqənin nəzəri təhlili zamanı diqqət mərkəzində saxlanmalı olan əsas məsələlərdən biri də konstitusiyanın ali hüquqi qüvvəsinin cinayət-prosessual normativ sistemin daxili quruluşuna və funksional mexanizmlərinə hansı vasitələrlə nüfuz etməsidir. Başqa sözlə desək, bu münasibətlər yalnız normativ uyğunluğun formallığı ilə məhdudlaşmır, əksinə, hüquqi ideyaların və prinsiplərin cinayət-prosessual sahəyə transformasiyası və bu sahədə hüquqi tənzimləmənin konstitusional dəyərlərlə uzlaşdırılması baxımından çoxşaxəli və sistemli yanaşmanı zəruri edir.

Yuxarıda da qeyd olunduğu kimi, konstitusiyaya nəzarət institutu yalnız normativ aktların konstitusiyaya uyğunluğunu yoxlayan mexanizm deyil; o, eyni zamanda insan hüquq və azadlıqlarının qorunması kontekstində preventiv və "korrektiv" (düzəldici) hüquqi funksiyaları da yerinə yetirən mühüm institusional struktur kimi çıxış edir. Bu çərçivədə, konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul olunmuş qərarları yalnız hüququn tətbiqinə dair göstərişlər kimi deyil, həm də hüququn "interpretativ" (təfsiredici) və mənbə rolunu oynayan komponentləri kimi qiymətləndirmək lazımdır. Xüsusilə cinayət-prosessual hüquqda normativ əsaslar üzərində qurulmuş prosessual təminatlar – məsələn, müdafiə hüququnun həyata keçirilməsi, təqsirsizlik prezumpsiyası, məhkəməyə müraciət hüququ və digər fundamental prinsiplər – konstitusiyanın maddi məzmunu ilə sıx surətdə bağlıdır və onların reallıqda effektiv tətbiqi məhz konstitusiyaya nəzarət mexanizminin funksionallığı ilə müəyyən olunur.

Bununla yanaşı, konstitusiyaya nəzarət institutu ilə cinayət-prosessual hüquq arasında qarşılıqlı münasibətlər təkcə vertikal aspektdə – yəni normativ iyerarxiya daxilində ali hüquqi aktın aşağı səviyyəli hüquqi aktlara münasibətdə nəzarət funksiyası kontekstində deyil, həm də horizontal səviyyədə – hüquqi ideyaların transformasiyası, hüquqi dəyərlərin yayılması və hüquqi şüurun formalaşdırılması baxımından qarşılıqlı təsir əsasında baş verir. Bu yanaşma göstərir ki, cinayət-prosessual hüquqda tətbiq olunan normativ və institusional yanaşmaların konstitusion hüquqla uzlaşdırılması yalnız hüquqi zərurət deyil, eyni zamanda hüquqi sistemin daxili harmoniyasını, məhkəmə hakimiyyətinin legitimliyini və hüququn aliliyinin təmin olunmasını şərtləndirən əsas amillərdən biridir.

Məsələn, cinayət-prosessual hüququn spesifik institutlarından olan həbs qətimkan tədbiri, axtarış və götürmə kimi şəxsi toxunulmazlığa müdaxilə xarakteri daşıyan prosessual hərəkətlərin hüquqi əsasları və tətbiq meyarları sadəcə prosessual normalarla deyil, eyni zamanda konstitusion prinsiplərlə də müəyyənləşdirilməlidir. Bu institutların hüquqi çərçivəsi müəyyən edilərkən konstitusiyanın ədalətli məhkəmə araşdırması, fərdi toxunulmazlıq, hüquqi müdafiə və dövlət müdaxiləsinin proporsionallığı kimi fundamental prinsipləri əsas götürülməlidir. Bu isə cinayət prosesində hüquqi normativlik ilə hüquqi dəyərlər arasında dinamik və davamlı balansın təmin olunmasını tələb edir.

Digər tərəfdən, konstitusiyaya nəzarət və cinayət-prosessual hüquq arasındakı qarşılıqlı təsir təkcə normativ və institusional deyil, eyni zamanda hüquqi metodologiya və interpretativ yanaşmalar səviyyəsində də özünü büruzə verir. Konstitusiya məhkəmələrinin qərarları hüquq yaradıcılığı və hüquq tətbiqi arasındakı

sərhədləri nəzəri baxımdan yenidən müəyyənləşdirmək qabiliyyətinə malik olmaqla, cinayət-prosessual hüququn konkret institutlarına yeni hüquqi məna yükləyir, onların tətbiq mexanizmlərini konstitusional reallıqlara uyğunlaşdırır. Bu isə hüququn inkişafında "konstitusionalizasiyalaşma" adlandırılan yeni mərhələyə keçidi şərtləndirir və cinayət-prosessual münasibətlərin getdikcə daha dərin konstitusional əsaslarla tənzimlənməsi zərurətini aktuallaşdırır.

Bütövlükdə, bu qarşılıqlı əlaqənin elmi-nəzəri və hüquq tətbiqetmə praktikası baxımından dərindən tədqiqi hüquqi dövlət konsepsiyasının təməl prinsiplərinin – hüququn aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi, institusional məsuliyyətlilik və hüquqi sabitlik – gerçəkləşdirilməsi istiqamətində mühüm elmi-praktik nəticələrə gətirib çıxarır. Bu da konstitusiyaya nəzarət institutunun təkcə hüquqi nəzarət vasitəsi deyil, eyni zamanda hüquqi düşüncənin transformasiya vasitəsi kimi rolunu daha da möhkəmləndirir.

Beləliklə, cinayət-prosessual hüququn normativ strukturunun və institusional mexanizmlərinin Konstitusiyanın əsas prinsipləri ilə uzlaşdırılması yalnız hüquqi harmoniyanın təmin edilməsi baxımından deyil, eyni zamanda Konstitusiyanın ali hüquqi qüvvəsinin real və effektiv şəkildə reallaşdırılmasının zəruri şərtlərindən biri kimi çıxış edir. Bu uzlaşma hüquqi sistemin daxili inteqrasiyasını möhkəmləndirməklə yanaşı, hüququn normativ iyerarxiyasında Konstitusiyanın müstəsna mövqeyini də praktik səviyyədə təsdiq edir. Məhz bu mərhələdə konstitusiya aliliyinin təmin olunması, hüquq sisteminin legitimlik əsaslarının qorunması və hüquqi məsuliyyətin təməl mənbəyi kimi konstitusiya normalarının funksional və normativ rolu aktuallaşır. M.V. Baqlayında qeyd etdiyi kimi, "konstitusiyanın pozulmasına görə məsuliyyətin əsasları, konstitusiyanın və qanunların birbaşa qüvvəsinin təmin edilməsi, hüquqi aktlar arasında uyğunsuzluğun aradan qaldırılması məsələləri, adətən, birbaşa konstitusiyanın özündə müəyyən edilir. Bu məqsədə xidmət edən əsas prinsip konstitusiyanın aliliyidir. Bu prinsip, konstitusiyaya zidd olan hər hansı hüquqi aktın legitimliyini istisna edir. Konstitusiyanın aliliyinin təmin olunması üçün səlahiyyətli dövlət orqanlarına – konstitusiyanın qarantı kimi çıxış edən dövlət başçısına, hökumətə və məhkəmə orqanlarına xüsusi səlahiyyətlər verilir. Bu sahədə mühüm rol konstitusiya nəzarətinə məxsusdur; o, hüquqi aktların ölkə konstitusiyasına uyğunluğunu təmin edir. Bir sıra dövlətlərdə hüquqi məkanın vahidliyini qorumaq məqsədilə prokurorluq, insan hüquqları üzrə müvəkkil (ombudsman), konstitusiyanın mühafizəsi ilə məşğul olan xüsusi orqanlar təsis olunmuşdur. Bu orqanların səlahiyyətləri konstitusiyanın və qanunların qorunması mexanizmini təşkil edir və dövlət orqanlarına, vəzifəli şəxslərə qarşı müəyyən təsir tədbirlərinin tətbiq olunmasını nəzərdə tutur. Bu səlahiyyətlər ümumilikdə vətəndaş hüquqlarının müdafiəsinin, konstitusiya quruluşunun və qanunçuluğun qorunmasının, habelə hakimiyyətin sui-istifadəsindən, səlahiyyət həddinin aşılmasından və hakimiyyətin uzurpasiya olunması imkanlarından müdafiənin təminatına xidmət edir. Qeyd edilməlidir ki, bu məsuliyyət, konstitusiya hüququ normalarının pozulmasına görə yaranan məsuliyyətdən fərqlidir. Belə pozuntulara görə vətəndaşlar və vəzifəli şəxslər digər hüquq sahələri – cinayət, inzibati və ya mülki hüquq çərçivəsində məsuliyyət daşıyırlar." [14, s. 46].

Bununla belə, hüququn reallaşdırılması prosesində prosessual-hüquqi münasibətlər hüquqi tənzimin funksional və institusional aspektlərini ifadə edən mühüm elementlərdən biri kimi çıxış edir. Bu münasibətlər yalnız klassik hüquq sahələrində – yəni konstitusiya, mülki, kommersiya, inzibati və cinayət-prosessual hüquq müstəvilərində meydana çıxmaqla məhdudlaşmır; onlar eyni zamanda alternativ mübahisə həll formaları – o cümlədən mediasiya və arbitraj mexanizmləri – vasitəsilə yaranan hüquqi münasibətləri, ibtidai istintaq mərhələsində baş verən prosessual qarşılıqlı əlaqələri, məhkəmə

qərarlarının icrası və cəzaların tətbiqi ilə bağlı prosedur münasibətləri də əhatə edir.

Bu prosessual-hüquqi münasibətlər hüququn mühafizəedici funksiyasının konkret təzahür forması olaraq, hüquqi vəziyyətlərin hüquqi əsaslar üzərində yaranmasını, dəyişdirilməsini və ləğv olunmasını təmin edən normativ çərçivəni formalaşdırır. Belə münasibətlər yalnız hüquq sisteminin işləkliyinin deyil, həm də hüquqi məsuliyyətin, hüquq subyektlərinin qarşılıqlı vəzifə və hüquqlarının normativ əsasda müəyyən edilməsinin təməlini təşkil edir. Hüquqi sabitliyin və qanuniliyin qorunması baxımından bu münasibətlərdə yaranan hər hansı prosessual pozuntu hüquqi etibarsızlıq və hüquqi nəticələrin legitimliyi üçün ciddi risk yaradır.

Bu səbəbdən, prosessual-hüquqi normaların pozulması hallarına hüquqi dözümlülük göstərilməsi yolverilməzdir. Belə pozuntuların mövcudluğu hüququn aliliyinə və ədalət mühakiməsinin legitimliyinə zərbə vurur. Hüquq sisteminin özünütənzimləyici mexanizmləri çərçivəsində, bu kimi hallar qəbul olunmuş qərarların, məhkəmə hökmlərinin və digər prosessual aktların şikayət və ya prokuror tərəfindən protest olunması üçün hüquqi əsas sayılmalıdır. Belə imkanlar hüquqi prosesin obyektivliyinin təmin olunması, hüquqi səhvlərin aradan qaldırılması və ədalətin bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edilməlidir ki, prosessual-hüquqi münasibətlər həmişə müvafiq hüquqi formaya malik olan sənədlərlə sənədləşdirilir və bu sənədləşdirmə onların retrospektiv şəkildə – yəni sonradan təhlil, audit və hüquqi qiymətləndirməyə məruz qalmasına – imkan yaradır. Bu xüsusiyyət prosessual fəaliyyətin şəffaflığını və hüquqi məsuliyyətin izlənə bilənliyini təmin edən əsas hüquqi təminatlardan biridir. Sənədləşdirilmiş hüquqi münasibətlər eyni zamanda prosessual hüququn sabit normativ bazası üzərində fəaliyyət göstərməsinin vacibliyini təsdiqləyir və hüquq mühafizə orqanları, məhkəmələr və digər subyektlər üçün hüquqi davranış standartlarını müəyyən edir. Bu kontekstdə konkret prosessual-hüquqi münasibətləri hüququn tətbiqi zamanı meydana çıxan potensial ziddiyyətlərin və hüquqi pozuntuların həlli üçün səmərəli və sosial cəhətdən məqsədəuyğun mexanizm kimi nəzərdən keçirmək mümkündür. Bu münasibətlərin məcmusu hüquqi prosesin strukturlaşdırılmış formada təşkili və idarə olunması üçün zəruri olan hüquqi infrastruktur – daha dəqiq desək, "prosessual-hüquqi infrastruktur" – anlayışının formalaşmasına zəmin yaradır. Bu infrastruktur hüquqi prosesin davamlılığını, hüquqi təhlükəsizliyi, hüquq subyektlərinin bərabər iştirakını və müstəqil məhkəmə hakimiyyətinin effektiv fəaliyyətini təmin edən kompleks mexanizmlər toplusudur. Beləliklə, prosessual-hüquqi münasibətlərin təhlili və düzgün qurulması hüququn reallaşdırılmasında yalnız texniki prosedur deyil, həm də hüquqi və institusional legitimliyin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Bununla belə, hüququn reallaşdırılması prosesində prosessual-hüquqi münasibətlər xüsusi yer tutur. Bu münasibətlər yalnız konstitusiya, mülki, kommersiya, inzibati və cinayət prosessual hüquq sahələrinə aid olan hüquqi münasibətləri deyil, eyni zamanda mediasiya, arbitraj məhkəmələrinin fəaliyyəti, eləcə də ibtidai istintaq, icra icraatları və cəzaların icrası ilə bağlı hüquqi münasibətləri də əhatə edir. Bu münasibətlər konkret mühafizəedici hüquqi münasibətin yaranması, dəyişdirilməsi və ya sona çatmasının qanuniliyini və əsaslılığını təmin edir. Məhz bu səbəbdən, prosessual-hüquqi pozuntular heç bir halda yolverilən hesab edilə bilməz və bu pozuntuların baş verməsi, hüquqi etibarsızlıq prinsipi əsasında, qəbul edilmiş qərarın, hökmün və digər prosessual aktların şikayət və ya prokuror tərəfindən protest olunması üçün əsas hesab edilməlidir. Bu növ hüquqi münasibətlər həmişə müəyyən prosessual forma ilə sənədləşdirilir və bu, onların retrospektiv qaydada yoxlanılması, yenidən qurulması və təhlil olunması imkanını yaradır. Bu kontekstdə konkret prosessual-hüquqi münasibətlər hüququn reallaşdırılması zamanı yaranan ziddiyyətlərin və hüquqi

pozuntuların həlli və ya minimuma endirilməsi baxımından sosial cəhətdən məqsədəuyğun hüquqi mexanizm kimi çıxış edən "prosessual-hüquqi infrastruktur" kimi qiymətləndirilə bilər [15, s. 316].

Cinayət-prosessual münasibətlərin hüququn tətbiqi müstəvisində konstitusiya prinsiplərinə əsaslanaraq tənzimlənməsi, hüquqi dövlət quruculuğunun institusional təminatlarından biri olmaqla yanaşı, konstitusiyanın ali hüquqi qüvvəsinin praktik planda gerçəkləşdirilməsi baxımından da fundamental əhəmiyyət kəsb edir. Bu kontekstdə konstitusiya nəzarəti institutu yalnız normativ aktların konstitusiyaya uyğunluğunun qiymətləndirilməsi funksiyasını yerinə yetirməklə məhdudlaşmır, eyni zamanda hüquq sisteminin daxili strukturunun sabitliyi və funksional adaptasiyası baxımından strateji əhəmiyyət daşıyan konstitusional mexanizm kimi çıxış edir.

Müasir hüquqi sistemlərdə konstitusiya nəzarətinin səmərəli fəaliyyəti təkcə hüquqi sabitliyin qorunması məqsədinə xidmət etmir, həm də cinayət-prosessual hüququn həm normativ, həm institusional, həm də tətbiqi səviyyədə keyfiyyətcə transformasiyasına şərait yaradır. Xüsusilə konstitusiya məhkəmələrinin qərarları, normativ aktların hüquqi qüvvəsini müəyyən etməklə kifayətlənməyib, onların konstitusiya prinsiplərinə uyğun şərhi və tətbiqi kontekstində yeni hüquqi məzmunla zənginləşdirilməsi baxımından xüsusi rol oynayır. Bu yanaşma, hüququn statik deyil, dinamik və kontekstual təhlilə əsaslanan inkişaf modelinə uyğun olaraq, cinayət prosesinin bütün mərhələlərində – o cümlədən ilkin istintaq, məhkəməyədək icraat və məhkəmə araşdırması mərhələlərində – məhkəmə nəzarətinin imkanlarını genişləndirir.

Eyni zamanda, konstitusiya nəzarətinin institusional müdaxiləsi nəticəsində müdafiə hüququnun effektiv həyata keçirilməsi üçün əlavə prosessual təminatlar formalaşdırılır və ittiham tərəfinin hüquqi imkanlarının konstitusiya ilə müəyyən olunmuş sərhədlər çərçivəsində həyata keçirilməsi təmin edilir. Bu baxımdan, prosessual qərarların məhkəmə nəzarətində yoxlanılması institutunun təkmilləşdirilməsi, hüquqi məsuliyyətin qanuniliyi və legitimliyi prinsipinə əsaslanan müasir hüquqi dövlətin formalaşması baxımından mühüm nəticələrə gətirib çıxarır.

Bundan əlavə, konstitusiya nəzarətinin presedent hüququna xas olan normativ-təhlili gücü, hüquqi sistemin sabitliyini pozmadan dərin transformasiyalar həyata keçirməyə imkan verir. Normativ aktlar formal olaraq dəyişməz qalsa belə, onların hüquqi mahiyyəti konstitusiya məhkəmələrinin hüquqi mövqeləri əsasında yenidən təfsir olunur və aktual hüquqi münasibətlərə uyğunlaşdırılır. Beləliklə, hüququn tətbiqində sabitlik və inkişaf paralel şəkildə təmin edilir ki, bu da hüquqi sistemin adaptivliyini və demokratik legitimliyini gücləndirir [20, s. 164-166].

Bu baxımdan, konstitusiya nəzarəti hüquqi sistemin inkişaf dinamikasını formalaşdıran, hüquqi normaları təkcə qoruyan deyil, onları dövrün tələblərinə uyğun olaraq yenidən formalaşdıran və hüquqi sistemin strateji istiqamətlərini müəyyən edən fundamental hüquqi platforma rolunu oynayır. Hüquq nəzəriyyəsində bu proses bir çox hallarda "səssiz hüquqi inqilab" – yəni təkamül xarakterli konstitusional transformasiya – kimi xarakterizə olunur və bu, konstitusiya nəzarətinin hüquqi və institusional çəkisinin dərin göstəricisidir [16, s. 169-170].

Konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul edilən məhkəmə qərarlarının cinayət-prosessual hüququnun tənzimlənməsində rolu hüquq nəzəriyyəsində aktual və geniş müzakirə olunan məsələlərdən biridir. Əsas mübahisə mövzusu ondan ibarətdir ki, belə qərarlar hüquq mənbəyi kimi çıxış edə bilərmi və onların hüquqi qüvvəsi necə müəyyən olunmalıdır. Bu məsələ hüquq elmi müstəvisində bir neçə müxtəlif yanaşma ilə təhlil olunmuşdur.

Birinci yanaşmaya görə, konstitusiya məhkəməsinin qərarları ümumilikdə hüququn, o cümlədən cinayət-prosessual hüququnun müstəqil və legitim mənbəyi kimi qəbul edilməlidir. Bu yanaşma konstitusiya məhkəməsi-

nin hüququn inkişafında fəal iştirakını və onun qərarlarının normayaratma funksiyasını vurğulayır. İkinci yanaşma isə bu qərarların hüquq mənbəyi statusunu müəyyən dərəcədə tanımaqla yanaşı, onların formal hüquqi qüvvəyə malik olmadığını, yalnız interpretativ və tövsiyə xarakteri daşıdığını iddia edir. Üçüncü mövqeyə əsasən isə, konstitusiya məhkəməsinin qərarları hüquqi qüvvəyə malik normativ aktlar olmadığından, hüquq mənbəyi kimi qəbul edilə bilməz.

Bu fərqli yanaşmalar bir tərəfdən hüququn mənbələri sistemində konstitusiya ədalət mühakiməsinin yerini və funksiyasını müəyyənləşdirməyə çalışır, digər tərəfdən isə konstitusiya məhkəməsinin hüquqi sistemə təsir imkanlarını və institusional çəkisini qiymətləndirmək baxımından nəzərəçarpacaq əhəmiyyət kəsb edir. Beləliklə, konstitusiya qərarlarının hüquq mənbəyi olub-olmaması məsələsi təkcə nəzəri deyil, eyni zamanda hüquq tətbiqi baxımından da mühüm əhəmiyyətə malikdir. Bu məsələ, cinayət-prosessual hüququn sistemləşdirilməsi, normativ sabitlik və hüquqi müəyyənlik prinsiplərinin qorunması kontekstində daha dərindən təhlil edilməli və hər bir hüquq sistemi üçün spesifik yanaşmalar əsasında qiymətləndirilməlidir [16, s. 233-234].

Fərz edək ki, Konstitusiya Məhkəməsinin cinayət prosessual hüquq sahəsində qəbul etdiyi qərarların hüquqi statusu ilə bağlı irəli sürülən mövcud yanaşmaların heç biri hüquqi reallığı tam əhatə etmir. Bu, ilk növbədə, həmin qərarların hüquqi təbiətinin vahid və homojen xarakter daşımaması ilə izah olunur. Konstitusiya Məhkəməsi müxtəlif hüquqi situasiyalarda mahiyyətcə fərqli xarakter daşıyan qərarlar qəbul edir və bu səbəbdən onların hüquq sistemindəki statusu da eyni deyil, müxtəlif hüquqi çəkiyə malik olur.

Bu kontekstdə belə bir əsaslı yanaşma irəli sürmək mümkündür ki, Konstitusiya Məhkəməsinin bəzi qərarları hüquq mənbəyi kimi tanınmalı və bu statusla tətbiq olunmalıdır, digərləri isə yalnız hüququn tətbiqinə dair orqan aktları səviyyəsində qəbul edilməlidir. Xüsusilə, Cinayət-Prosessual Məcəllənin konkret müddəalarının Konstitusiyaya uyğun olub-olmamasını müəyyən edən qərarlar, hüquq tətbiq edən subyektlər – istintaq orqanları, prokurorlar və məhkəmələr üçün konkret və məcburi davranış qaydaları müəyyən edir. Belə qərarlar qəbul edildiyi andan hüquqi qüvvəyə minir və həmin müddəalara münasibətdə qanunverici tərəfindən yeni normativ akt qəbul edilənədək və ya qəbul edilmiş normativ akt Konstitusiya Məhkəməsinin müəyyən etdiyi hüquqi mövqe ilə ziddiyyət təşkil etmədiyi hallarda müstəqil və tamhüquqlu hüquq mənbəyi statusuna malik olur.

Digər tərəfdən, Konstitusiya Məhkəməsinin hüquq tətbiq edən subyektlərə ünvanlanmış konkret hüquqi öhdəlik və ya qadağa ehtiva etməyən qərarlarına münasibətdə iki əsas hüquqi vəziyyəti fərqləndirmək zəruridir: "1) əgər Konstitusiya Məhkəməsi mübahisələndirilən normanı Konstitusiyaya uyğun hesab edibsə, bu halda qəbul edilən qərar yalnız normanın konstitusionluğunu təsdiq edən hüququn tətbiqi aktı kimi çıxış edir. Belə qərar yeni hüquqi vəziyyət yaratmır və hüquq tətbiq edən orqanlar üçün hüquqi məcburiyyət doğurmur, sadəcə hüquqi vəziyyətin şərhi və təhlili funksiyasını yerinə yetirir; 2) əgər Konstitusiya Məhkəməsi normanı Konstitusiyaya zidd hesab edibsə, bu qərar artıq analitik və şərhedici xarakter daşımır, əksinə, mübahisələndirilən normanın hüquqi qüvvəsini itirdiyini müəyyən etməklə hüquqi sistemdə bilavasitə nəticə doğuran normativ xarakterli qərar kimi çıxış edir. Bu tip qərarlar hüquq tətbiq edən orqanlar üçün birbaşa məcburi hüquqi nəticələr yaradır və hüquq mənbəyi kimi tətbiq edilməlidir. Belə qərarların icrası yalnız formal-prosedur xarakter daşımır, həm də hüquqi dövlətin əsas prinsiplərindən olan Konstitusiyanın ali hüquqi qüvvəsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir" [16, s. 234].

Konstitusiya Məhkəməsinin qanunvericiliyin hər hansı müddəasının, o cümlədən Cinayət-Prosessual Məcəllənin konkret normalarının Konstitusiyaya zidd olduğunu

müəyyən etdiyi hallarda onun fəaliyyət istiqaməti və hüquqi nəticələrin tətbiq mexanizmi hüquq sistemində kifayət qədər aydın tənzimlənmişdir. Belə hallarda, Konstitusiyaya zidd hesab edilən norma qanunverici tərəfindən müəyyən edilmiş müddət ərzində dəyişdirilməli, həmin norma əsasında qəbul edilmiş qərarlara isə prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq yenidən baxılmalıdır.

Bu yanaşmanın tətbiqi praktikasına nümunə olaraq, L.V. Qolovkonun redaktorluğu ilə nəşr olunmuş "Cinayət prosesi kursu" adlı əsərdə Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin 21 oktyabr 2014-cü il tarixli, 25-P nömrəli qərarı göstərilmişdir. Həmin qərarda Konstitusiya Məhkəməsi Rusiya Federasiyasının Cinayət-Prosessual Məcəlləsinin 115-ci maddəsinin üçüncü və doqquzuncu hissələrinin konstitusionluğunu qiymətləndirmişdir. Söhbət ilkin istintaq mərhələsində şübhəli, təqsirləndirilən və ya mülki cavabdeh qismində tanınmayan şəxslərin əmlakına həbs qoyulması ilə bağlı hüquqi rejimin tənzimlənməsindən gedir. Konkret olaraq, əmlakın şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən cinayət yolu ilə əldə edildiyi ehtimal edildiyi hallarda, həmin əmlaka üçüncü şəxslər tərəfindən mülkiyyət hüququnun həyata keçirilməsinə müdaxilə edilirdi. Konstitusiya Məhkəməsi belə bir hüquqi vəziyyətin həmin şəxslərin mülkiyyət hüququnun müdafiəsi baxımından adekvat prosedur təminatları ilə müşayiət olunmadığını və bu səbəbdən Konstitusiyanın tələblərinə uyğun olmadığını bəyan etmişdir. Məhkəmə belə nəticəyə gəlmişdir ki, qanunvericilikdə effektiv müdafiə mexanizmlərinin olmaması mülkiyyət hüququnun pozulmasına səbəb olur və bu, Rusiya Federasiyasının Konstitusiyanın 35-ci maddəsində təsbit olunan hüquqlara ziddir. Qərarda həmçinin qeyd olunurdu ki, qanunvericilikdə müvafiq dəyişikliklər edilənədək məhkəmələr, şübhəli, təqsirləndirilən və ya mülki cavabdeh olmayan şəxslərin əmlakına həbs qoyulması ilə bağlı qərar qəbul edərkən, bu tədbirin qüvvədə olma müddətini göstərməli və həmin müddəti ilkin istintaq üçün qanunla müəyyən olunmuş müddət çərçivəsində müəyyən etməlidirlər. Zərurət olduqda bu müddətin yalnız məhkəmə tərəfindən uzadılması mümkündür. Beləliklə, Konstitusiya Məhkəməsi təkcə normativ aktların konstitusiyaya uyğunluğunu müəyyənləşdirməklə kifayətlənmir, eyni zamanda hüquqi boşluqları müəyyən edərək onları təfsir yolu ilə doldurur, hüquq tətbiq edən subyektlər üçün birbaşa tətbiq edilə bilən hüquqi mövqelər və davranış qaydaları formalaşdırır. Bu qərarların hüquqi nəticələri həm normativ, həm də praktiki səviyyədə mühüm əhəmiyyətə malikdir və onlar Konstitusiyanın ali hüquqi qüvvəsinin təminatı baxımından əvəzsiz rol oynayır [16, s.234-236].

Hüquq elmi diskussiyalarda son vaxtlar Konstitusiya Məhkəmələrinin yeni bir praktikasına dair bir sıra suallar və mübahisələr gündəmə gəlmişdir. Bu praktika normanın konstitusiyaya uyğunluğunu təsdiqləməklə yanaşı, həmin normaya ilkin qanunvericilik mətnindən fərqli, daha dərin və ya geniş konstitusiya-hüquqi məna verməyi ehtiva edir. Belə ki, Konstitusiya Məhkəməsinin qərarlarında hüququ tətbiq edən subyektlər üçün konkret və məcburi davranış qaydaları müəyyən edilməsə də, normanın yeni interpretasiyası hüquq sistemində normativ tətbiq baxımından önəmli rol oynayır. Rusiya Konstitusiya Məhkəməsinin sədri V.D. Zorkin bu fenomeni belə təsvir edir: "Qanunvericilik müddəaları bəzən o qədər ümumi və qeyridəqiq tərtib edilir ki, Konstitusiya Məhkəməsi onların konstitusiya-hüquqi mahiyyətini dəfələrlə təkrar-təkrar müəyyənləşdirməli olur." [16, s. 236]. Bu qərarlar, öz mahiyyətinə görə, cinayət-prosessual qanunun interpretasiya və izah aktları kimi qiymətləndirilir və hüququn tətbiqində praktiki göstərişlər verir. Lakin, onlar hüquq mənbəyi statusu ilə birbaşa əlaqələndirilə bilməz və cinayət-prosessual hüququn əsas normativ mənbələri kimi qəbul olunmaları elmi baxımdan məqbul sayılmır.

Beləliklə, Konstitusiya Məhkəmələrinin qərarlarının – hətta müəyyən qeyd-şərtlərlə belə – cinayət-prosessual hüququn normativ

mənbələrindən biri kimi tanınması, hüquqi dövlətin və konstitusional hüququn daxili struktur məntiqindən irəli gələn doktrinal zərurət kimi qiymətləndirilməlidir. Bu zərurət, ilk növbədə, Konstitusiya Məhkəmələrinin yalnız hüquqi məsələlərin həllinə yönəlmiş fəaliyyət dairəsinə malik olmaları və onların Konstitusiyaya nəzarət funksiyasını həyata keçirən institusional orqanlar kimi çıxış etmələri ilə əsaslandırılır. Əgər Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi məcburiyyətə malik müstəqil hüquq mənbəsi kimi tanınması inkar edilərsə, bu, mahiyyət etibarilə Konstitusiyanın ali hüquqi qüvvəsinin və hüquq sistemindəki normativ üstünlüyünün inkarına gətirib çıxarar. Belə yanaşma, hüquq sisteminin əsas dayaq prinsipləri olan hüququn aliliyi, normativ iyerarxiya və konstitusional legitimlik prinsipləri ilə barışmaz ziddiyyət təşkil edir. Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəmələrinin qərarları sadəcə hüququn tətbiqinə dair texniki xarakterli aktlar deyil, onlar hüquqi normaların konstitusion qiymətləndirilməsi vasitəsilə hüququn inkişafına təsir göstərən və hüquq tətbiq edən subyektlər üçün birbaşa hüquqi nəticələr yaradan qərarlardır. Bu səbəbdən, onların normativ mənbə kimi tanınması yalnız praktik zərurət deyil, həm də konstitusional hüquq nəzəriyyəsinin ayrılmaz tələbi kimi çıxış edir [16, s. 234].

Azərbaycanın hüquq ədəbiyyatında da bu məsələyə dair yanaşmalar mövcuddur. Misal üçün X.R.Seyranov müəllifi olduğu "Məhkəmə presedentləri mülki hüququn mənbəyi kimi: nəzəriyyə və təcrübə" adlı əsərində qeyd etmişdir ki, "Azərbaycan Respublikasının qanunvericilik sistemində məhkəmə fəaliyyətində presedent qərarlardan istifadə edilməsi ilə bağlı hər hansı bir normativ göstərişə rast gəlinmədiyi üçün, ölkədə presedent hüququnun tətbiq edilməsinin öhdəlik xarakteri daşımadığı qənaətinə gəlmək mümkündür. Lakin eyni zamanda, məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinə digər presedent xarakterli qərarı tətbiq etməyi qadağan edən normanın mövcudluğu da müşahidə edilmir. Qanunvericilik sistemində məhkəmə presedentləri və ya digər məhkəmənin presedent xarakterli qərarının başqa oxşar işlər üzrə nəzərə alınması ilə bağlı normativ qeydin olmamasını bu fəslin əvvəlki paraqrafında qeyd edilən əsaslar üzrə Sovet hüquq doktrinasının xüsusiyyətləri ilə də izah etmək mümkündür. Lakin hər bir halda Azərbaycan Respublikası məhkəmələri tərəfindən digər məhkəmənin oxşar məzmunlu qərarından presedent şəklində istifadə edilməsi həm qanunvericilik baxımından, həm də məhkəmə təcrübəsində istisna olunmur. Başqa sözlə, hakimlərin öz fəaliyyətlərində presedent hüququnun tətbiq etmələri ilə bağlı normativ göstəriş olmasa da, onlar öz təcrübələrində presedent xarakterli qərarlardan (xüsusilə də, Konstitusiya Məhkəməsinin qərarlarına münasibətdə) istifadə edirlər." [12, s. 58].

N.H.Şükürov isə "Konstitusiya nəzarəti və ictimai təcrübə" adlı məqaləsində qeyd etmişdir ki, - "Konstitusiya Məhkəməsi Konstitusiyanın özünün müdafiə mexanizmi funksiyasını yerinə yetirir." [13, s. 219]. Bu mövqe konstitusiya nəzarətinin institusional mahiyyətini və onun hüquqi sistemdəki funksional rolunu aydın şəkildə ifadə edir. Həqiqətən də, Konstitusiya Məhkəməsi yalnız normativ aktların Konstitusiyaya uyğunluğunu yoxlayan orqan deyil, eyni zamanda Konstitusiyanın aliliyinin, hüquqi qüvvəsinin və normativ sabitliyinin təminatçısıdır. Bu mənada, onun qərarları konstitusiya mətninin "özünümüdafiə" potensialının reallaşma forması kimi çıxış edir. Konstitusiya Məhkəməsinin qəbul etdiyi aktların hüquqi mənbə kimi tanınması isə, bir tərəfdən, hüquqi dövlətin əsas prinsiplərinin – hüququn aliliyi, normativ iyerarxiya və konstitusional legitimliyin – reallaşdırılmasının zəruri şərtidir. Digər tərəfdən isə, bu, Konstitusiyanın "formal" sənəd olmaqdan çıxaraq normativ təsir gücünə malik ali hüquqi akt kimi fəaliyyət göstərməsini təmin edir. Əgər Konstitusiya Məhkəməsinin qərarlarının hüquqi məcburiyyətə malik normativ aktlar sırasına daxil edilməsi inkar edilərsə, bu, mahiyyət etibarilə Konstitusiyanın özünün müdafiə mexanizmini zəiflətmiş olar və onun

ali hüquqi qüvvəsi əksər hallarda sadəcə formal xarakter daşıyar.

Fikrimcə bu hissədə konseptual çərçivəni dəqiqləşdirmək və mövzunun mahiyyətini aydınlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Qanunvericiliyinin təhlilinə müraciət etmək zəruridir.

Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin (Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi) IX bəndinə əsasən "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir." Həmin maddənin X bəndinə əsasən "Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir." [1]

Lakin Azərbaycan Respublikasının Konstitusiyasının 148-ci maddəsinin (Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar) I bəndinə əsasən Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir: 1) Konstitusiya; 2) referendumla qəbul edilmiş aktlar; 3) qanunlar; 4) fərmanlar; 5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları; 6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları. Həmin maddənin II bəndinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir [1]. Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsinin (Normativ hüquqi aktlar) III bəndinə əsasən isə Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir [1].

Şərh edilən normaların məzmunundan da göründüyü kimi, Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsində Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarının Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malik olduğu qeyd edilsə də, Azərbaycan Respublikasının Konstitusiyasının 149-cu maddəsində bu Qərarlar Qanunvericilik sistemini təşkil edən normativ hüquqi aktların siyahısına daxil edilməmişdir.

Bununla belə Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21.12.2010-cu il tarixli, 21-IVKQ nömrəli Konstitusiya Qanununun 1-ci maddəsinə əsasən normativ hüquqi akt – tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (1.0.1), normativ xarakterli aktlar – həmin Konstitusiya Qanununun 4.1-ci maddəsində müəyyən edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir (1.0.3), hüquqi akt isə – normativ hüquqi akt, normativ xarakterli akt və ya qeyri-normativ hüquqi aktlardır (1.0.4) [2].

Həmin Konstitusiya Qanununun 4.1.1-ci maddəsinə əsasən, - "Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının normativ xarakterli aktları hesab edilirlər." [2]

Həmin Konstitusiya Qanununun 12.3-cü maddəsinə əsasən isə, - "Azərbaycan

Respublikasının Konstitusiya Məhkəməsi normativ hüquqi aktın şərhi ilə bağlı qəbul etdiyi qərarında normativ hüquqi aktların kolliziyasını təsdiqləyərsə, həmin kolliziyanı aradan qaldırmaq məqsədi ilə bu Konstitusiya Qanununun 12.1.1-12.1.3-cü maddələrində göstərilən tədbirlər görülməlidir." [2] Həmçinin həmin Konstitusiya Qanununun 89.2-ci maddəsinə əsasən, - "Konstitusiya Qanununun 89.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir." [2]

Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" 23.12.2003-cü il tarixli, 561-IIQ nömrəli Qanununun 66-cı maddəsinə əsasən isə, - "Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IX hissəsinə görə Konstitusiya Məhkəməsinin qərarları Azərbaycan Respublikasının ərazisində məcburi qüvvəyə malikdir. Konstitusiya Məhkəməsinin qərarları qüvvəyə mindikdən sonra şərtsiz icra olunmalıdır. Konstitusiya Məhkəməsinin qərarlarını icra etməyən vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin X hissəsinə görə qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir. Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan hesab edilmiş məhkəmə aktları icra edilməməli və müvafiq məhkəmə işlərinə Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yenidən baxılmalıdır. Konstitusiya Məhkəməsinin qərarının qəbul edilməsi üçün əsas təşkil etmiş Azərbaycan Respublikası Konstitusiyasının norması referendum nəticəsində dəyişdirildikdə, həmin qərar Konstitusiya Məhkəməsi tərəfindən qismən və ya bütövlükdə qüvvədən düşmüş hesab olunur." [5].

Azərbaycan Respublikasının Qanunvericiliyinin qeyd edilən müddəaları ilə yanaşı onu da vurğulamağı zəruri hesab edirəm ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 10.3-cü maddəsinə əsasən, - "Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun." [3]. Həmin Məcəllənin 416.2-ci maddəsinə əsasən isə, - "hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması hökm və ya digər qərarın ləğv edilməsinə və ya dəyişdirilməsinə yalnız o halda əsas olur ki, həmin hökm və ya digər qərar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun maddi və ya prosessual hüquq normalarının tətbiqi ilə bağlı məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olsun və həmin izahlarda təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiqi zərurəti kifayət qədər əsaslandırılmasın." [3]

Beləliklə Azərbaycan Respublikasının qanunvericiliyində Konstitusiya Məhkəməsinin qərarları "normativ akt" kimi deyil, "normativ xarakterli akt" kimi qiymətləndirilsə də, onların hüquqi sistemdə faktiki rolu çox zaman birbaşa hüququn mənbəyi kimi çıxış etməsi ilə xarakterizə olunur. Belə yanaşma, ilk növbədə, Konstitusiya Məhkəməsinin verdiyi hüquqi mövqelərin yalnız konkret mübahisənin həllinə deyil, həm də ümumilikdə normativ hüququn tətbiqinə yönəldilməsi ilə bağlıdır. Bununla yanaşı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 416.2-ci maddəsinin məzmunundan da aydın şəkildə görünür ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi məhkəməyə presedentlərin hüququn mənbəyi kimi tətbiqini tamamilə istisna etmir.

Konstitusiya Məhkəməsinin qərarlarının məcburi qüvvəyə malik olması (Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu

maddəsinin IX bəndi) və onların icrasının təmin edilməsinin hüquqi məsuliyyət doğurması göstərir ki, bu qərarlar praktiki olaraq qanunvericiliyin tərkib hissəsinə çevrilir. Bununla yanaşı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 10.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş təfsirin cinayət prosesi iştirakçıları üçün məcburi olması və həmin qərarların tətbiqində bütün məhkəmə orqanları üçün bağlayıcı xarakter kəsb etməsi, hüquqi müəyyənlik prinsipinin reallaşmasına xidmət edir.

Hazırda mövcud olan məhkəmə təcrübəsinin təhlili göstərir ki, Konstitusiya Məhkəməsinin qərarları yalnız normativ xarakter daşımaqla kifayətlənmir, həm də məhkəmə təcrübəsində hüququn boşluqlarını dolduraraq, habelə norma kolliziyalarını aradan qaldıraraq hüquqi münasibətlərin tənzimlənməsində həll edici rol oynayır. Misal üçün, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsi inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqini istisna etsə də [4] , Konstitusiya Məhkəməsi Plenumunun 02.11.2016-cı il tarixli "İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" Qərarında bu müddəanın yalnız maddi hüquq normalarına aid olduğu vurğulanmış, prosessual münasibətlərdə isə cinayət-prosessual qanunvericiliyin analogiya üzrə tətbiqinin mümkünlüyü qeyd edilmişdir [6]. Eyni mövqe Konstitusiya Məhkəməsi Plenumunun 18.11.2022-ci il tarixli Qərarda da təsdiq olunmuş, Konstitusiya Məhkəməsi bir daha vurğulamışdır ki, prosessual münasibətlərdə analoji hüquqi mexanizmlərin tətbiqi hüququn aliliyinə və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə xidmət edir [7]. Hətta bu məsələyə dair daha ətraflı hüquqi izah Konstitusiya Məhkəməsi Plenumunun 11.11.2021-ci il tarixli Qərarında verilmiş və həmin Qərarda əlavə olaraq qeyd edilmişdir ki, - "qanunun analogiya üzrə tətbiqi konkret hüquq münasibətlərini tənzimləyən normanın olmamasını və bu hüquq münasibətlərinə oxşar münasibətləri tənzimləyən digər qanun normasının tətbiqini nəzərdə tutur. Məhz konkret normanın olmaması qanunun analogiya üzrə tətbiqini onun təfsirindən fərqləndirən əsas əlamətdir." [8]. Nəticə etibarı ilə hazırda məhkəmələr həmin Qərarlarla istinad edərək inzibati işlər üzrə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin müvafiq müddəalarını analogiya üzrə tətbiq edirlər.

Oxşar hala son vaxtlar birinci instansiya məhkəmələri tərəfindən icraatlarında olan prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üzrə icraat və cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından məhkəməyə verilmiş şikayətlər üzrə icraat ilə bağlı işlər üzrə qəbul edilən qərarlarında istinad etdikləri Konstitusiya Məhkəməsi Palatasının "Bakı Apellyasiya Məhkəməsinin müraciətinə dair" 03.03.2023-cü il tarixli Qərardadında da rast gəlmək olar. Həmin Qərardadda qeyd edilmişdir ki, - "Konstitusiya Məhkəməsinin Palatası səlahiyyəti olmayan prokuror tərəfindən həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimat verilməsi və bu halda məhkəmə tərəfindən təqdimat və əlavə edilmiş sənədlərin geri qaytarılması ilə bağlı qeyd etməyi zəruri bilir ki, bu halda məsələyə mahiyyəti üzrə baxılması Cinayət-Prosessual Məcəlləsinin 447.3, 447.5-447.7-ci maddələrinin tələbləri baxımından mümkünsüz olduğundan, həmin Məcəllənin 448.1.3-cü maddəsində göstərilən qərarlardan (həbsdə saxlama müddətinin uzadılması və ya bundan imtina barədə qərar) hər hansı birinin qəbul edilməsi də istisna olunur. Lakin, sadalanan normalarda birbaşa nəzərdə tutulmasa da, səlahiyyəti olmayan prokuror tərəfindən verilmiş təqdimatın (onunla müşayiət olunan vəsatətə) baxılmadan geri qaytarılması cinayət-prosessual qanunvericiliyinin əsas prinsipləri baxımından oxşar vəziyyətlərdə müvafiq prosessual müraciətlərin (məsələn, apellyasiya və yaxud kassasiya şikayətlərinin) baxılmamış saxlanılmasını nəzərdə tutan müddəalarına cavab verən yanaşma kimi qiymətləndirilə bilər." [9] Bununla yanaşı həmin Qərardadda Azərbaycan

Respublikası Konstitusiya Məhkəməsi Palatasının həmin Qərardadının təsviri-əsaslandırıcı hissəsində göstərilən hallar nəzərə alınması qərara alınmışdır. Hazırda da mövcud məhkəmə təcrübəsinin təhlili də onu göstərir ki, məhkəmələr icraatlarında olan işlər üzrə müvafiq təqdimatları baxılmamış saxladıqları zaman əksər hallarda həmin Qərardada istinad edirlər.

Bu praktika onu göstərir ki, Konstitusiya Məhkəməsinin qərarları, hüquqi texniki kateqoriya baxımından "normativ xarakterli akt" adlansa da, əksər hallarda birbaşa hüququn mənbəyi kimi çıxış edir. Çünki həmin qərarlar yalnız mövcud normanın tətbiqini izah etmir, həm də hüququn məzmununu zənginləşdirərək onun inkişafına istiqamət verir. Beləliklə, konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində formalaşan qərarlar Azərbaycan hüquq sistemində normativ-hüquqi aktların funksiyasına bərabər təsir göstərir və hüquqi dövlət prinsipinin təminatında mühüm yer tutur.

Konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul edilən qərarların hüquqi mənbə kimi qəbul olunması məsələsinin dərindən və sistemli təhlili başa çatdıqdan sonra, növbəti mərhələdə konstitusiya nəzarə tinə müraciət institutunun hüquqi mahiyyəti və onun tətbiq mexanizminin dəqiq anlaşılması zərurəti ön plana çıxır. Bu, həm hüquq nəzəriyyəsi, həm də praktik hüquq tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir. Konstitusiya nəzarətinə müraciətin hüquqi əsasları, prosedur qaydaları və bu proses zamanı ortaya çıxan pozuntu hallarının işin mahiyyətinə təsirinin obyektiv və ədalətli şəkildə qiymətləndirilməsi yalnız hüququn aliliyinin təmin olunmasına deyil, həm də ədalət prinsiplərinin və hüquqi dövlət konsepsiyasının reallaşmasına xidmət edir.

Müraciət institutunun tətbiqi zamanı pozuntu faktlarının düzgün dəyərləndirilməsi və hüquqi prosedurlara riayət edilməsi prosessual ədalətin təməl şərtlərindən biridir. Bu aspektlər konstitusiya nəzarətinin effektivliyi ilə birbaşa bağlı olmaqla yanaşı, məhkəmə hakimiyyətinin legitimliyini və vətəndaşların hüquqi müdafiəsinin keyfiyyətini müəyyən edir. Nəticə etibarilə, konstitusiya nəzarətinə müraciət institutu hüquqi proseslərin obyektivliyi və şəffaflığını qoruyan mühüm mexanizm kimi çıxış edir və hüquqi münasibətlərin konstitusiya prinsipləri ilə uzlaşmasını təmin edən əvəzolunmaz vasitə rolunu oynayır.

Digər tərəfdən, müraciət prosedurunun hüquqi mahiyyətinin dəqiq anlaşılması konstitusiya nəzarətinin institusional funksiyalarının genişləndirilməsi və möhkəmləndirilməsi baxımından vacibdir. Bu mexanizmin düzgün tətbiqi hüququn aliliyinin təmin edilməsində müsbət təsir göstərməklə, hüquq sisteminin dinamik inkişafına stimul verir və hüquq subyektlərinin hüquq və azadlıqlarının effektiv qorunmasını gücləndirir. Bu baxımdan, konstitusiya nəzarətinə müraciət institutu hüquqi təhlükəsizliyin və normativ-hüquqi sabitliyin möhkəmləndirilməsi üçün mühüm vasitə rolunu oynayır.

Beləliklə, konstitusiya nəzarətinə müraciətin hüquqi mahiyyəti və onun tətbiq mexanizmi bir-birindən ayrılmaz şəkildə bağlıdır və bu əlaqənin düzgün qurulması, hüquqi dövlətin əsas prinsiplərinin qorunması, məhkəmə prosedurlarının şəffaflığı və ədalətli mühakimənin təminatı baxımından önəmli sayılır. Bu sahədə aparılan araşdırmalar və məhkəmə təcrübəsi hüquqi proseslərin təkmilləşdirilməsi üçün zəngin imkanlar təqdim edir və gələcəkdə konstitusiya nəzarətinin daha da səmərəli həyata keçirilməsinə xidmət edir.

Burada əsas hüquqi məsələlərdən biri konstitusiya nəzarətinə müraciət çərçivəsində təkrar baxışın hüquqi əsaslarının dəqiq və sistemli müəyyənləşdirilməsidir. Konkret olaraq, müzakirə predmeti ondan ibarətdir ki, təkrar baxış proseduruna ümumi pozuntu faktı kifayət etməlidirmi, yoxsa yalnız hökmün qanunsuzluğuna səbəb olan, işin mahiyyətinə birbaşa təsir edən ciddi pozuntu əsasında bu addım atılmalıdır. Məsələn, "İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsində əksini tapan azadlıq və toxunulmazlıq hüququnun pozulması halları hər zaman işin yenidən

baxılması və bərpası ilə nəticələnmir, çünki bu cür pozuntuların işin əsas mahiyyətinə təsiri olmaya və prosesin ədalətli nəticəsinə mane olmaya bilər.

Bununla belə, məhkəmə təcrübəsi göstərir ki, yeni ortaya çıxan halların işin bərpası proseduruna təsiri yalnız yekun hökmə deyil, eyni zamanda prosesin müxtəlif mərhələlərində qəbul edilən müvəqqəti məhkəmə qərarlarına – xüsusən də həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı qərarlara da şamil oluna bilər. Bu isə təkrar baxış institutunun hüquqi təbiəti və tətbiq dairəsi barədə ciddi nəzəri və praktik müzakirələr tələb edir.

Nəticə etibarilə, işin bərpası barədə qərarın verilməsi cinayət işinin xüsusi şəraitindən, Avropa İnsan Hüquqları Konvensiyası ilə qorunan hüquqların pozuntusunun işin mahiyyətinə təsirindən, həmçinin işin mərhələsindən – xüsusilə yekun məhkəmə qərarının qəbul olunub-olmamasından asılı olmalıdır. Bu yanaşma hüququn aliliyinin təmin olunması, ədalət prinsipinin qorunması və məhkəmə proseslərinin legitimliyinin möhkəmləndirilməsi baxımından fundamental əhəmiyyət daşıyır [16, s. 1166].

Konstitusiyaya nəzarət institutu ilə cinayət-prosessual hüquq arasındakı qarşılıqlı əlaqə hüquq sisteminin harmoniyasının təmin olunmasında, hüquqi dövlət prinsipinin və insan hüquqlarının effektiv müdafiəsində həlledici rol oynayır. Bu institut yalnız normativ aktların konstitusiyaya uyğunluğunu yoxlamaqla kifayətlənmir, eyni zamanda cinayət-prosessual hüququn institusional və funksional transformasiyasına strateji təsir göstərir [18, s. 219-223]. Konstitusiya nəzarətinin həyata keçirilməsi nəticəsində qəbul edilmiş qərarların müəyyən şərlərlə hüquq mənbəyi kimi qəbul edilərək, cinayət prosesinin müxtəlif mərhələlərində hüquqi təminatların möhkəmləndirilməsinə və hüququn dinamik inkişafına təkan verir. Eyni zamanda, konstitusiyaya nəzarət hüquqi metodologiya və interpretasiya səviyyəsində də cinayət-prosessual hüququn formalaşmasında aparıcı mövqeyə sahibdir və hüququn aliliyi və normativ iyerarxiya prinsiplərinin qorunmasını təmin edir. [19, s. 135-137] Nəticə etibarilə, konstitusiya nəzarətinin effektivliyi ədalətli mühakimənin, fərdi hüquq və azadlıqların müdafiəsinin əsas təminatlarından biri olmaqla yanaşı, hüquq sisteminin konseptual və praktiki inkişafında əvəzsiz vasitə kimi çıxış edir.

Beləliklə, konstitusiyaya nəzarət institutu ilə cinayət-prosessual hüquq arasında mövcud olan qarşılıqlı əlaqə hüquq sisteminin daxili harmoniyasının təmin olunması, hüquqi dövlət prinsiplərinin tətbiqinin möhkəmləndirilməsi və insan hüquq və azadlıqlarının effektiv müdafiəsi baxımından həlledici əhəmiyyət kəsb edir. Konstitusiya nəzarəti təkcə normativ aktların konstitusiyaya uyğunluğunu yoxlamaq kimi formal funksiyanı yerinə yetirmir; o, eyni zamanda cinayət-prosessual hüququn institusional strukturlarının və funksional mexanizmlərinin transformasiyasına strateji təsir göstərən dinamik hüquqi institut kimi çıxış edir. Bu institutun rolu cinayət prosesinin müxtəlif mərhələlərində hüquqi təminatların möhkəmləndirilməsi, hüquqi prosedurların konstitusional legitimliyinin təmin olunması və hüququn dinamik inkişafının təşviq edilməsi ilə birbaşa bağlıdır.

Konstitusiya məhkəmələrinin qərarlarının müəyyən şərtlər daxilində hüquq mənbəyi kimi qəbul edilməsi, hüquq sistemində normativ sabitliklə yanaşı, normativ elastiklik prinsipinin qorunmasına da xidmət edir. Bu qərarlar hüququn tətbiqi prosesində konstitusional prinsiplərin reallaşmasına yönəlmiş interpretativ və metodoloji vasitə kimi çıxış edərək, cinayət-prosessual hüququn institusional təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verir. Beləliklə, konstitusiyaya nəzarət institutu yalnız hüququn formalaşmasında deyil, həm də onun tətbiqində normativ iyerarxiyanın qorunması və hüquqi təhlükəsizliyin təmin olunması baxımından aparıcı rol oynayır.

Bununla yanaşı, konstitusiya nəzarətinin hüquqi metodologiya və interpretasiya sahəsindəki rolu cinayət-prosessual hüququn struktur və məzmun elementlərinin yeni konstitusional dəyərlər və standartlar əsasında

formalaşmasına səbəb olur. Bu proses hüququn aliliyinin, hüquq sistemində konstitusional prioritetlərin və insan hüquqları prinsiplərinin praktik həyata keçirilməsinin təməlini təşkil edir. Konstitusiya nəzarətinin institusional funksiyalarının effektiv icrası məhkəmə hakimiyyətinin legitimliyini artırmaqla yanaşı, hüquq subyektlərinin hüquq və azadlıqlarının müdafiəsində mühüm təminat rolunu oynayır.

Nəticə etibarilə, konstitusiya nəzarətinin səmərəli fəaliyyət göstərməsi yalnız ədalətli mühakimənin, fərdi hüquq və azadlıqların müdafiəsinin əsas təminatlarından biri olmaqla kifayətlənmir, eyni zamanda hüquq sisteminin konseptual inkişafı və praktik təkmilləşdirilməsi üçün əvəzsiz institusional mexanizm kimi çıxış edir. Bu mexanizmin səmərəliliyi hüquq sisteminin davamlılığını, normativ-hüquqi sabitliyini və hüququn universal dəyərlərə uyğun tətbiqini təmin edir ki, bu da hüquqi dövlətin möhkəmləndirilməsi baxımından fundamental əhəmiyyət daşıyır.

Sonda onu da qeyd etməyi zəruri hesab edirəm ki, hazırki tədqiqatda konstitusiya nəzarətinin cinayət-prosessual hüququn normativ və institusional strukturuna təsiri kompleks və sistemli yanaşma əsasında araşdırılmışdır. İşdə ilk dəfə olaraq Konstitusiya Məhkəməsinin qərarlarının hüquq mənbəyi kimi tanınmasının doktrinal zərurəti yalnız nəzəri mülahizələr çərçivəsində deyil, həm də hüquqi dövlətin davamlılığı və hüququn aliliyinin təminatı prizmasından əsaslandırılmışdır. Elmi yenilik ondan ibarətdir ki, konstitusiya nəzarətinin hüquqi nəticələri yalnız normativ sabitliyin qorunması ilə məhdudlaşdırılmır, həm də hüquqi metodologiyanın transformasiyası və cinayət-prosessual münasibətlərin konstitusional dəyərlər əsasında yenidən qurulması kontekstində konseptual model kimi təqdim olunur.

Bununla yanaşı hazırki araşdırmanın tətbiqi əhəmiyyətinə gəldikdə isə vurğulamağı zəruri hesab edirəm ki, məqalədə əldə olunan nəticələr cinayət-prosessual münasibətlərin hüquqi tənzimlənməsi və məhkəmə nəzarətinin effektivliyi baxımından praktik dəyər kəsb edir. Xüsusilə, prosessual məcburiyyət tədbirləri, sübutların toplanması, müdafiə hüququnun həyata keçirilməsi və təqsirsizlik prezumpsiyası kimi institutların konstitusiya prinsipləri ilə uyğunlaşdırılması hüquqi dövlətin möhkəmlənməsi, insan hüquq və azadlıqlarının təminatı və məhkəmə hakimiyyətinin legitimliyi üçün normativ-hüquqi baza formalaşdırır. Bu yanaşma həm qanunvericilik siyasətinin təkmilləşdirilməsi, həm də hüquq tətbiqi təcrübəsinin harmonizasiyası üçün nəzəri-praktik istiqamətlər müəyyənləşdirir. Beləliklə, tədqiqat yalnız mövcud hüquqi reallıqların şərhi ilə kifayətlənməyib, həm də hüquq sisteminin institusional inkişafına və konstitusional transformasiya prosesinə elmi əsaslı töhfə verir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası - https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının "Normativ hüquqi aktlar haqqında" 21.12.2010-cu il tarixli, 21-IVKQ nömrəli Konstitusiya Qanunu - https://e-qanun.az/framework/-21300
3. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi - https://e-qanun.az/-framework/46950
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi - https://e-qanun.az/-framework/46960
5. Azərbaycan Respublikasının "Konstitusiya Məhkəməsi haqqında" 23.12.2003-cü il tarixli, 561-IIQ nömrəli Qanunu - https://-e-qanun.az/framework/5404
6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" 02.11.2016-cı il tarixli Qərarı - https://e-qanun.az/framework/34306
7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.1 və 318-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsinə dair" 18.11.2022-ci il tarixli Qərarı - https://e-qanun.az/framework/52863
8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 132.1.2 və 53-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 11.11.2021-ci il tarixli Qərarı - https://e-qanun.az/-framework/48604
9. Konstitusiya Məhkəməsi Palatasının "Bakı Apellyasiya Məhkəməsinin müraciətinə dair" 03.03.2023-cü il tarixli Qərardadı - https://constcourt.gov.az/ru/decision/1344
10. Əsgərov, Z.A. Konstitusiya hüququ. Dərslik. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2011. – 760 s.
11. Rzayev, Ə.H. Dövlət idarəetməsi: nəzəriyyə və praktika. – Bakı: Elm, 2021. – 364s.
12. Seyranov, X.R. Məhkəmə presedentləri mülki hüququn mənbəyi kimi: nəzəriyyə və təcrübə. – Bakı: Hüquq Yayın Evi, 2018. – 152 s.
13. Şükürov, N.H. Konstitusiya nəzarəti və ictimai təcrübə // Nəqliyyat hüququ: Elmi-nəzəri, təcrübi jurnal. – 2017. – №1. – s. 209–221.
14. Баглай М.В. Конституционное право Российской Федерации: учебник для вузов. – 6-е изд., изм. и доп. – М.: Норма, 2007. – 784 с.
15. Бакулина Л.Т. (отв. ред.) Проблемы теории права и правореализации: учебник. – М.: Статут, 2017. – 384 с. – (Учебник Казанского университета).
16. Головко Л.В. (ред.) Курс уголовного процесса. – 2-е изд., испр. – М.: Статут, 2017. – 1280 с.
17. Darryl K. Brown (Editor), Jenia Iontcheva Turner (Editor), Bettina Weisser (Editor) - The Oxford Handbook of Criminal Process (Oxford Handbooks) - Oxford University Press - March 22, 2019 - 1072 pages
18. Frank Schmalleger and John Feldmeier - American Criminal Procedure Today – Oxford: Oxford University Press - Publication Date - 15 September 2022 - 576 pages
19. Markus D Dubber (Editor), Tatjana Hornle (Editor) - The Oxford Handbook of Criminal Law (Oxford Handbooks) Reprint - Oxford University Press - September 21, 2016- 1232 pages
20. William A. Schabas (Editor) - The Cambridge Companion to International Criminal Law (Cambridge Companions to Law) Reprint Edition - Cambridge University Press - January 7, 2016 - 422 p.

***Açar sözlər:*** *konstitusiya nəzarəti, cinayət-prosessual hüquq, hüquqi dövlət, normativ mənbə, konstitusiya məhkəməsi, hüququn aliliyi, hüquqi legitimlik, presedent hüququ, hüquqi transformasiya*

**Rustam Orujlu**

*Centre of Forensic Expertise,*
*Ministry of Justice of the Republic of Azerbaijan,*
*Ph.D. Student*

# THE IMPACT OF CONSTITUTIONAL REVIEW ON THE NORMATIVE AND INSTITUTIONAL STRUCTURE OF CRIMINAL PROCEDURE LAW: THEORETICAL AND PRACTICAL DIMENSIONS

## ABSTRACT

This article examines the impact of constitutional review on the normative and institutional framework of criminal procedure law. The study aims to demonstrate that recognizing constitutional court decisions as sources of law is essential for strengthening the rule of law, safeguarding fundamental rights, and consolidating constitutional democracy. The scholarly relevance lies in showing that constitutional review is not merely a formal mechanism for testing the constitutionality of statutes but also a driver of methodological transformation within legal interpretation and judicial practice. The research applies comparative legal analysis, doctrinal examination, and precedent-based evaluation. Its practical scope extends to aligning procedural safeguards – such as detention, search, the right to defense, and the presumption of innocence – with constitutional principles. The findings highlight that constitutional review functions both as a guarantor of legal stability and as a dynamic instrument of methodological innovation within the criminal justice system, thus securing legitimacy and adaptability of law in practice.

***Keywords:*** *constitutional review, criminal procedure law, rule of law, legal state, source of law, constitutional court, normative authority, legal legitimacy, judicial precedent, legal transformation*

**Рустам Оруджлу**

*Докторант Центра Судебной Экспертизы*
*Министерства Юстиции Азербайджанской Республики*

# ВЛИЯНИЕ КОНСТИТУЦИОННОГО КОНТРОЛЯ НА НОРМАТИВНУЮ И ИНСТИТУЦИОНАЛЬНУЮ СТРУКТУРУ УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОГО ПРАВА: ТЕОРЕТИЧЕСКИЕ И ПРИКЛАДНЫЕ АСПЕКТЫ

## РЕЗЮМЕ

В статье исследуется влияние института конституционного контроля на нормативную и институциональную структуру уголовно-процессуального права. Цель исследования – показать, что признание решений Конституционного суда источниками права является необходимым условием укрепления правового государства, обеспечения верховенства права и защиты прав человека. Научная значимость работы заключается в том, что конституционный контроль рассматривается не только как формальный механизм проверки законов на соответствие Конституции, но и как средство трансформации правовой методологии и судебной практики. В качестве методов использованы сравнительно-правовой анализ, нормативно-доктринальное исследование и изучение прецедентов. Практическая применимость состоит в согласовании процессуальных гарантий уголовного процесса, в частности таких, как арест, обыск, право на защиту и презумпция невиновности, с конституционными принципами. В результате обосновано, что конституционный контроль выполняет роль не только стабилизатора правовой системы, но и механизма её концептуального обновления.

***Ключевые слова:*** *конституционный контроль, уголовно-процессуальное право, правовое государство, источник права, конституционный суд, верховенство закона, правовая легитимность, прецедентное право, правовая трансформация*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.392

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR
POLITICAL INSTITUTES AND SYSTEMS

UOT 321; 323

**PƏRİ MAHMUDOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının doktorantı**

*e-mail: perimusayeva98@gmail.com*

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

## Giriş

Ölkənin milli təhlükəsizliyinin sabitliyi onun inkişafına, beynəlxalq imicinə təsir göstərən amillərdən biri və yaxud birincisidir. Ölkə isə sərhəddən başlayır. Bu da öz növbəsində ərazi bütövlüyünün, dəqiq sərhədin milli təhlükəsizliyə təsirini bilavasitə önə çıxarır.

Azərbaycan Respublikasının yerləşdiyi bölgə – Cənubi Qafqaz hələ qədim dövrlərdən daim dünyanın güc mərkəzlərinin diqqətində olmuş və müasir dönəmdə də bu bölgə uğrunda gizli və ya açıq şəkildə mübarizə gedir. Belə ki, bölgədə uzun illər həllini tapmayan münaqişələr məhz inkişafa öz mənfi təsirini göstərmişdir.

30 il davam edən münaqişənin danışıqlar yolu ilə həllinə maneələrin yaradılması, münaqişəyə ikili yanaşma, təcavüzkar tərəflə təcavüzə məruz qalan tərəfə qərəzli münasibət, əlbəttə ki, beynəlxalq hüququn işləməməsi idi. Nəhayət, 27 sentyabr 2020-ci ildə 44 günlük Azərbaycan Vətən müharibəsi başlamış və Azərbaycan Respublikasının qələbəsi ilə bitmişdir.

Məqalədə məhz İkinci Qarabağ müharibəsində əldə edilmiş nailiyyətlər geniş təhlil edilir. Bundan başqa, Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində əzmkar siyasəti öyrənilir. Müharibədən sonraki dönəmdə Azərbaycan Respublikasının milli təhlükəsizlik üzrə fəaliyyəti, milli maraqların qorunması və ölkəmizin beynəlxalq aləmdə tanınması ilə bağlı bir sıra mühüm məsələlərdən bəhs edilmişdir. İşğaldan azad edilmiş ərazilərin əsaslı bərpası və orada müasir infrastrukturun formalaşdırılması əsas strateji istiqamətlərdən biri kimi göstərilmişdir.

## Vətən müharibəsi – Şanlı Zəfər tarixi

Əlbəttə, hər il ölkəmizdə keçirilən dünya miqyaslı tədbirlər, festivallar, olimpiadalar, elmi simpoziumlar, siyasi müzakirələr, neft-

qaz, enerji müqavilələri Azərbaycanın beynəlxalq imicdə yerinin göstəricisi və Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Yalnız Vətənimizin ərazisinin təqribən 20 faizinin 30 il mənfur qonşumuz, düşmənimiz Ermənistan tərəfindən işğal altında saxlanılması ölkəmizin siyasi-iqtisadi inkişafına, milli təhlükəsizliyinə, beynəlxalq imicinə təhdid olmuşdur. İşğal faktı ilə heç bir zaman barışmayan Azərbaycan dövləti və xalqı 2020-ci il sentyabrın 27-si torpaqlarımızın işğaldan azad olunması uğrunda Vətən müharibəsinə başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri sentyabrın 27-dən noyabrın 10-a kimi davam edən müharibədə şanlı zəfər qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Çətin fiziki-coğrafi şəraitlərdə döyüş tapşırıqlarını həyata keçirən, müdafiə xəttini yararaq, düşmən qüvvələrin içərisinə sızaraq döyüşərək irəliləyən şücaətli Azərbaycan Ordusunun döyüş taktikası bir çox ölkələrdə marağa səbəb oldu. Bir çox dünya ölkələrində hərbi mütəxəssislər Azərbaycan Ordusunun döyüş taktikasını öyrənərək, araşdıraraq öz hərbi sistemlərində dəyişikliklər etməyin zərurət olduğunu bildirmişdirlər [5, s.100-150].

2020-ci il Vətən müharibəsində əldə etdiyimiz böyük qələbə Azərbaycan tarixinin ən parlaq səhifəsi olmuşdur. Belə ki, 44 günlük müharibə, qazanılmış böyük qələbə nəticəsində 2020-ci il tariximizə Zəfər ili kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə rəşadətli Azərbaycan Ordusu işğalçı, mənfur düşmənimiz Ermənistan üzərində böyük Qələbə əldə etmiş, beləliklə də, Azərbaycan xalqının 30 illik Vətən həsrətinə son qoyulmuşdur. Bu möhtəşəm qələbə Ali Baş Komandanımızın düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində məhz ordu ilə xalqın sarsılmaz birliyi təmin olunaraq qazanılmışdır. Bu Qələbə Azərbaycan xalqının gələcək inkişafına elə böyük təməl olmuşdur ki, bu təməlin üzərində Azərbaycan dövləti daima inkişaf edəcək, zənginləşəcək, dünya dövlətləri sırasında ən ön sırada olacaqdır [4, s.70-110].

**Antiterror əməliyyatları və nəticələri**

Müzəffər Ali Baş Komandanımızın qətiyyətli idarəçiliyi ilə Dövlət Təhlükəsizliyi Xidməti düşmənin ölkə ərazisində törətməyə çalışdığı terror-təxribat planlarının qarşısının alınması istiqamətində bütün qüvvə və vasitələrini səfərbər etmiş, Ali Baş Komandanın bütün göstəriş və tapşırıqlarını xüsusi peşəkarlıqla yerinə yetirmişdir. Bundan başqa, Ermənistandan Azərbaycana qarşı kiber məkanda və informasiya təhlükəsizliyi sahəsində də bir çox təhdidlər olmuş və eləcə də, dezinformasiya fəaliyyəti həyata keçirilmişdir ki, məhz bu kimi cəhdlərin qarşısı alınmış, düşmənə qarşı əks həmlələr uğurla yerinə yetirilmişdir. Vaxtında əldə edilmiş kəşfiyyat məlumatları düşmənin əks-hücumlarının qarşısının almaqda, Silahlı Qüvvələrimizin hərbi əməliyyatlarının nailiyyət əldə etməsində həlledici rol oynamışdır [7, s.10-11].

Vətən müharibəsindən sonrakı dönəmdə mənfur düşmən erməni silahlı birləşmələrinin törətdikləri təxribatların qarşısının alınması məqsədilə 2020-ci ilin dekabr ayında Xocavənd rayonunun Hadrut qəsəbəsində və 2022-ci ilin mart ayında Xocalı rayonunun Fərrux yüksəkliyində Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı qüvvələrinin uğurlu antiterror əməliyyatları, bundan başqa, 2021-ci ilin may ayında Kəlbəcər rayonunun Dəmirdağ yüksəkliyində Azərbaycan Ordusunun təminat yollarını minalayan Ermənistanın kəşfiyyat-diversiya qrupunun terrorçuluq fəaliyyətinin qarşısının alınması əməliyyatı həyata keçirilmişdir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etməsi yolunda hər cür maneçilik törədilməsini qarşısına məqsəd qoymuş bir çox xarici dairələrin müharibə dövründə hadisələri manipulyasiya cəhdləri boşa çıxmışdır. Döyüş

meydanında gedən gərgin savaşın fonunda informasiya mübarizəsi çərçivəsində də düşmən tərəfindən Dağlıq Qarabağ münaqişəsinin alovlanması, Vətən müharibəsinin gedişatı haqqında yalan informasiyaların beynəlxalq cəmiyyətə çatdırılmasına çalışılsa da, döyüş meydanında olduğu kimi informasiya mübarizəsində də uğursuzluğa düçar olmuşdur. Prezident cənab İlham Əliyev qalib sərkərdə kimi düşmənə qarşı informasiya müharibəsində də baş rolda çıxış etmişdir. Belə ki, hələ müharibənin gedişatı zamanı ölkə Prezidenti 30-a yaxın xarici kütləvi informasiya vasitələrinə müsahibələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi və Azərbaycanın apardığı Vətən müharibəsinin gedişi haqqında həqiqətləri dünyaya çatdırmış, ona ünvanlanan bir çox təxribat xarakterli suallara yüksək diplomatik məharətlə cavab vermişdir [6, s.54-70].

## Azərbaycan Respublikasının Demokratik quruculuq yolunda inkişafı

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir və müstəqil Azərbaycan özünün ən qüdrətli dövrünü yaşayır. Məlumdur ki, müasir dönəmdə demokratik dəyərlər dünya ölkələrinin bir çoxunda milli inkişaf strategiyası, qloballaşan dünyada hər bir dövlətin inkişafının mühüm şərti hesab olunur. Bu gün sivilizasiyanın yüksək inkişaf mərhələsində ümumbəşəri dəyərlərə - demokratik ideallara və insan hüquqlarına hörmət bəsləməyən hər hansı dövlətin dünya siyasətində özünə layiq yer tutmasından, qlobal miqyasda inkişaf edən proseslərə nüfuz etməsindən danışmaq qeyri-mümkündür. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk gündən Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında demokratik, hüquqi və dünyəvi dövlət olduğunu bəyan etmiş, ümumbəşəri yolla qarşıya qoyduğu strateji hədəflərə doğru irəliləmək istəyini nümayiş etdirmişdir. Ümumən, hər bir demokratik ölkənin milli təhlükəsizliyi, ilk növbədə, onun demokratik dəyərlərə sadiq qalmasından irəli gəlir. İnsan haqlarının qorunması, hüquq və azadlıqlarının tam təmin olunması bu istiqamətdə ən mühüm şərtlər hesab olunur. Azərbaycan Konstitusiyasında dövlətin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq əsas niyyətlər kimi göstərilmişdir. Belə ki, Konstitusiyada qeyd olunur ki, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli sosial və iqtisadi qaydalar əsasında hər bir vətəndaşın layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə əsaslanaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq Azərbaycan dövlətinin ali məqsədləridir. Demokratik quruculuq yolu ilə gedən Azərbaycan Respublikasının həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə özünəməxsus inkişaf modeli formalaşmaqdadır. "Güclü iqtisadiyyat - müstəqil dövlət" prinsipini uğurla reallaşdıran Azərbaycan Respublikası regionlarda iqtisadi potensialın artırılması, əhalinin məşğulluğunun təmin olunması, həyat səviyyəsinin daha da yaxşılaşdırılması, insanların, xüsusən də, gənclərin mədəni həyatının rəngarəngliyinin təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Belə ki, bu tədbirlərin nəticəsində, regionlarımız mühüm inkişaf yolu keçərək paytaxt səviyyəsinə çatdırılır [2, s.7-18].

## Azərbaycan Respublikasının təhlükəsizlik mühiti və təhdidlərin qarşısının alınması

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasında qarşıya qoyulmuş əsas vəzifələrdən biri onun milli təhlükəsizliyinə təhdidlərin aradan qaldırılmasıdır. Bu təhdidlərə Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər, qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət

funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət, separatçılıq, etnik, siyasi və dini ekstremizm, terrorçuluq və kütləvi qırğın silahlarının yayılması, regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq, xarici siyasi, hərbi və ya iqtisadi asılılıq, iqtisadi qeyri-sabitlik, ekoloji problemlər və s. daxildir.

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti dedikdə – onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillər nəzərdə tutulur [3, s.79-85].

Azərbaycanın Qərb və Şərqin qovuşduğu coğrafi məkanda yerləşməsi onun bir sıra sivilizasiyaların müsbət məqamlarını özündə birləşdirməsi baxımından olduqca əhəmiyyətlidir. Avropanın mühüm dəyərlərini paylaşan və Avro-Atlantik təhlükəsizlik arxitekturasının ayrılmaz bir hissəsi olan Azərbaycan Respublikası bu məkanın təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Bununla bərabər, Azərbaycan Respublikası islam dünyasının bir hissəsi olaraq, bu mədəniyyətin irs və təfəkkürünü bölüşür.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının zəngin təbii ehtiyatlara malik olması onun çiçəklənməsi və milli rifahın təmin olunması üçün perspektivlər açır, onu beynəlxalq əhəmiyyətli enerji mənbəyi və beynəlxalq enerji təchizatı şəbəkəsinin başlıca tərkib hissəsinə çevirir. Beynəlxalq əhəmiyyətli nəqliyyat və kommunikasiya dəhlizlərinin inkişaf etdirilməsi, neft və qaz boru kəmərlərinin inşası Azərbaycan Respublikasının və tərəfdaş ölkələrin iqtisadiyyatlarının inkişafına əhəmiyyətli töhfə verir [8, s.370-380].

Ölkənin yerləşdiyi coğrafi şərait ona bir sıra mühüm üstünlüklər versə də, qeyd olunmalıdır ki, bununla yanaşı, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Bu problemlərin olduqca önəmli nümunəsi məhz Azərbaycan Respublikasının qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalması və bunun nəticəsində 30 ilə yaxın ölkə ərazisinin bir hissəsinin işğal altında olunması və təxminən bir milyon azərbaycanlının məcburi köçkün və qaçqına çevrilməsi olmuşdur. Belə ki, mənfur düşmənin təcavüz zamanı Azərbaycan Respublikasının vətəndaşlarına qarşı soyqırım və terror aktları daxil olmuş, sülhə və insanlığa qarşı ən ağır cinayətlər törədilmişdir. Eləcə də, Azərbaycan Respublikası ərazilərində işğal altında olduğu dövr ərzində azərbaycanlılara məxsus tarixi, mədəni və arxeoloji abidələr kütləvi şəkildə dağıdılmış, təbii sərvətlər talan edilmiş, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Məhz Azərbaycan Respublikasının məruz qaldığı bu təcavüz onun təhlükəsizlik mühitində və milli təhlükəsizlik siyasətinin müəyyən edilməsində çox mühüm təhdid olmuş, bu gün isə Azərbaycan xalqı qətiyyətli Liderin başçılığı altında bütün bu çətinliklərin öhdəsindən məharətlə gəlmişdir.

Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsində böyük zəfər qazanmış, ölkənin ərazi bütövlüyü bərpa edilərək milli təhlükəsizliyi tam təmin edilmişdir. Bu zəfərin nəticəsidir ki, bu gün ölkəmiz artıq öz müstəqlliyini isbat etmək istəyən Azərbaycandan, dünya arenasında söz sahibi olan Azərbaycana çevrilmişdir. Beləliklə də, regionun lideri və çoxsaylı beynəlxalq təşəbbüslərin müəllifi olan Azərbaycan qazanmış olduğu mühüm nailiyyətlər və tərəfdaşlar sayəsində dünyanın siyasi xəritəsində öz statusunun yüksəlməsinə nail olmuşdur [1, s.100-120].

Azərbaycan Silahlı Qüvvələrinin dünyanın 50 ən güclü ordusu sırasında yer tutması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsinin qürurlu nəticəsidir. Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti dövlətimizin ərazi bütövlüyünə, suverenliyinə, ölkədəki ictimai-siyasi sabitliyə və təhlükəsizlik mühitinə istiqamətlənən hər cür təhdidlərin qarşısını qətiyyətlə alır, doğma Vətənin qorunması və müdafiəsi yolunda mühüm vəzifələrin lazımi səviyyədə icrası üçün bütün qüvvə və vasitələrini səfərbər

edərək, xidməti borclarını layiqincə və vicdanla yerinə yetirərək, dövlətçiliyimizin və müstəqilliyimizin keşiyində daim ayıq-sayıq durur [6, s.40-44].

**Postmüharibə dövründə ərzaq təhlükəsizliyi**

Ərazi bütövlüyünün təmin olunması ilə Azərbaycan ərzaq təhlükəsizliyini də təmin etmişdir. Belə ki, işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işləri uğurlu şəkildə həyata keçirilir. Bu ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, ümumən, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi baxımından əhəmiyyətli tədbirlər həyata keçirilir. Münaqişə dövründə kənd infrastrukturunun dağılması, mal-qaranın tələf olması, meşələrin qırılması, minalardan geniş istifadə edilməsi, həmçinin əhalinin yerdəyişməsi ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli problemlərin yaranmasına gətirib çıxarır ki, bu problemlərin aradan qaldırılması məqsədilə post-konflikt dövründə dağılmış ərazilərdə kənd təsərrüfatı fəaliyyətinin bərpası, o cümlədən, ərazilərin minalardan təmizlənməsi və kənd infrastrukturunun, xüsusilə də yolların və suvarma sistemlərinin yenidən qurulması tələb olunur. İşğaldan azad edilmiş ərazilərdə taxılçılıq, pambıqçılıq, üzümçülük və heyvandarlığın inkişafı üçün çox böyük potensial vardır. Bu ərazilərdəki su anbarlarından istifadə etməklə yüz minlərlə hektar sahənin suvarması təmin ediləcəkdir.

**İşğaldan azad edilmiş ərazilərin yenidənqurma və bərpa prosesi**

Ümumiyyətlə, azad edilmiş ərazilərin əsaslı şəkildə bərpa olunması və orada müasir infrastrukturun formalaşdırılması Qarabağın inkişafının əsas strateji istiqamətlərindən biridir. Məhz bərpa prosesi həyata keçirilmədən bu ərazilərin sosial-iqtisadi inkişafını təmin etmək mümkün deyildir. Yenidənqurma və bərpa prosesinin həyata keçirilməsi Azərbaycanda ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaqdır. Azad edilmiş ərazilərdə infrastruktur tamamilə məhv edildiyi üçün məhz bu ərazilər sıfırdan bərpa edildiyindən orada texnoloji yeniliklərin tətbiqi daha asan olacaqdır. Beləliklə də, Qarabağın bərpası prosesində texnoloji yeniliklərin tətbiqi və müasir standartlara cavab verən infrastrukturun yaradılması əsas məqsədlərdən biridir. Daha sonra həmin ərazilərin bərpası nəticəsində əldə edilən təcrübə digər rayonlarda da tətbiq edilə bilər [9].

Ümumiyyətlə, bərpa prosesi ilə əlaqədar müəyyən edilmiş əsas məqsədlərə bunları daxil etmək olar:

- Bərpa prosesinin keyfiyyətli və qənaətli həyata keçirilməsi;
- Müasir standartlara cavab verən inkişaf modelinin formalaşdırılması;
- Azad olunmuş ərazilərin texnologiya baxımından yüksək inkişaf etmiş əraziyə çevrilməsi;
- Qabaqcıl texnoloji şirkətlərin bərpa prosesinə cəlb edilməsi;
- Azad edilmiş ərazilərin “Yaşıl Enerji” zonasına çevrilməsi.

İşğaldan azad edilmiş ərazilərimizdə bərpa işlərinin həyata keçirilməsinə xarici ölkələr və şirkətlər də böyük maraq göstərirlər və bu istiqamətdə təkliflərini irəli sürürlər. Ölkə başçısının qeyd etdiyi kimi həmin ərazilərdə bərpa işlərində ancaq müharibə dövründə ədalətli mövqe tutmuş və Azərbaycana qarşı dostluq münasibəti nümayiş etdirmiş ölkələr və onların şirkətləri iştirak edə biləcəkdir. Artıq bərpa prosesinə bir sıra xarici dövlətlər və onların şirkətləri cəlb edilmişdir.

Postkonflikt ərazilərə sosial-iqtisadi həyatın geri qaytarılmasında özəl sahibkarlar xüsusi rol oynayır. Bu ərazilərə yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması məqsədilə dövlət tərəfindən əlverişli şəraitin




**Şəkil 1.** İşğaldan azad olunmuş ərazilərin bərpasına dövlət büdcəsindən ayırmalar

yaradılmasını əsas meyarlardan biri kimi götürmüşdür. Elə buna görə də, 2022-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Bu proqramın əsas hədəf göstəricilərindən biri azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək də Dövlət proqramının əsas məqsədlərindəndir (şəkil 1).

Qarabağ regionunun bərpası və orada mövcud olan iqtisadi imkanların bərpa edilməsi həmin ərazilərin ölkə iqtisadiyyatında payının işğaldan əvvəlki səviyyəyə çatmasına şərait yaradacaqdır. Bu da öz növbəsində Azərbaycan iqtisadiyyatının inkişafına imkan yaratmaqla yanaşı qeyri-neft sektorunun inkişafını əsaslı şəkildə dəstəkləyəcəkdir. Bütövlükdə isə Qarabağın sürətli inkişafı regionun ümumi inkişafına töhfə verməklə indiyədək Ermənistanın işğalçı siyasəti nəticəsində istifadə edilməmiş imkanların tam olaraq reallaşdırılmasına şərait yaradacaqdır [10].

## Nəticə

Azərbaycan Respublikasının zəfər çaldığı Vətən müharibəsi Cənubi Qafqazda böyük əməkdaşlıq strategiyasına yeni bir nəfəs gətirməklə milli və beynəlxalq təhlükəsizliyə yeni töhfələrdən xəbər verir. Belə ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi ölkəmizlə yanaşı Qafqazı təhlükəli erməni separatçılarından, terror qruplaşmalarından xilas etmiş, region xalqlarına təhlükəsizlik və sülh üçün fürsət yaratmışdır.

Nəticə olaraq, Azərbaycan dövlətinin Prezidenti İlham Əliyevin postmüharibə dövründə dünyəvi prinsiplər əsasında yürütdüyü hərbi, siyasi, iqtisadi, sosial və digər istiqamətlərdə milli təhlükəsizlik siyasəti ölkəmizlə yanaşı regional xalqlara rifah gətirəcəkdir.

**Ədəbiyyat:**


1. Əliyev, Nurulla Arif oğlu. Vətən müharibəsində Azərbaycanın qələbəsi: informasiya-analitik material. Bakı: AFpoliqraf, 2021. – 1096 s.
2. Həsənov, Ə. M. (2016). Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları: monoqrafiya. Bakı: Zərdabi LTD. - 700 s.
3. Hüseynova, İradə Mehtiqulu qızı. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri / elmi red. Q. Hacıyev. – Bakı: Füyuzat, 2021. – 224 s.
4. Kərimov, Yaşar Şükür oğlu. Zəfərə gedən yol. Bakı: Şərq-Qərb, 2022. – 184 s.
5. Qurbanov, Habil Surxay oğlu. Qarabağın azadlığı və zəfərə gedən yol: hüquqi-sosio-mədəni baxış. Bakı: Apostrof-A, 2022. – 134 s.
6. Yaz, G. (tərtibçi). (2021). 44 gün Vətən müharibəsi: Hulusi Kılıç informasiya cəbhəsində. Bakı: XAN nəşriyyatı. – 152 s.
7. Zeynaloğlu, Camal. Vətən müharibəsi və Vətəni yaşadanlar…. Bakı: Günəş nəşriyyatı, 2021. – 460 s.


***Açar sözlər:*** *Azərbaycan Respublikası, İlham Əliyev, görkəmli dövlət xadimi, milli maraqlar, milli təhlükəsilzik, Qarabağ*

**Pari Mahmudova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Ph.D. Student*

## POST-WAR PERIOD – ENSURING NATIONAL SECURITY AS ONE OF THE PRIORITY DIRECTIONS OF STATE POLICY OF THE REPUBLIC OF AZERBAIJAN

### ABSTRACT

The current successes of the Republic of Azerbaijan in national security and the impact of these successes on the country's international image are studied in the article. First of all, the article extensively analyzes the achievements made in the Second Karabakh War. At the same time, the determined activity of President Ilham Aliyev in ensuring the territorial integrity of Azerbaijan is studied.

The article analyzes the activities of the Supreme Commander in terms of protecting national security and statehood interests. In addition, the strategy of Ilham Aliyev's new national security policy based on national interests in 2020-2023 was studied. In addition, the role of these successes in establishing and expanding Azerbaijan's international cultural relations is analyzed. Also, in the article, a number of important issues related to the protection of national interests and the recognition of our country in the international arena in the post-war period have been extensively studied. It is shown that, as a wise political figure, Ilham Aliyev successfully coped with a number of challenging and complex tasks.

The article refers to scientific sources of recent years. The research was carried out on the basis of a precise chronological sequence.

***Keywords:*** *The Republic of Azerbaijan, Ilham Aliyev, prominent statesman, national interests, national security, Karabakh*

**Пари Махмудова**

*Докторант кафедры Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

## ОБЕСПЕЧЕНИЕ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД КАК ОДНО ИЗ ПРИОРИТЕТНЫХ НАПРАВЛЕНИЙ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### РЕЗЮМЕ

В статье рассматриваются современные успехи Азербайджанской Республики в области национальной безопасности и влияние этих успехов на международный имидж страны. Прежде всего, подробно анализируются достижения Азербайджана во Второй Карабахской войне. В то же время изучается решительная деятельность Президента Ильхама Алиева в обеспечении территориальной целостности страны. Анализируется деятельность Верховного Главнокомандующего по защите интересов национальной безопасности и государственности. Изучается стратегия новой политики национальной безопасности Ильхама Алиева на 2020-2023 годы, основанной на национальных интересах, анализируется роль этих успехов в установлении и расширении международных культурных связей Азербайджана. Также в статье широко исследован ряд важных вопросов, связанных с защитой национальных интересов и признанием нашей страны на международной арене в послевоенный период, показывается, что Ильхам Алиев, как мудрый политический деятель, глава государства успешно справился с рядом сложных и сложных задач.

В статье использованы научные источники последних лет, исследование проводилось на основе точной хронологической последовательности.

***Ключевые слова:*** *Азербайджанская Республика, Ильхам Алиев, видный государственный деятель, национальные интересы, национальная безопасность, Карабах*

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.398

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

İ Q T İ S A D İ Y Y A T
E C O N O M Y

UOT: 658; 005

**OGTAY GULIYEV**
**Azerbaijan Technical University, Head of the Department of Business Administration, Ph.D. in Economics, Associate Professor**
*e-mail: oqtay1982@yahoo.com*

**KHAVERKHANIM ALIZADE**
**Azerbaijan State University of Economics**
**Master's Student, Department of Marketing**
*e-mail: khaverkhanim@gmail.com*

# MARKETING ANALYSIS OF MOBILE OPERATORS IN AZERBAIJAN: A COMPARATIVE STUDY OF AZERCELL AND BAKCELL

## Introduction

In the modern era, mobile communication plays a crucial role in enabling long-distance interaction between individuals. Since the late twentieth century, waves of technological innovation have compelled all industries to recognize the necessity of adopting and implementing innovative solutions. Naturally, the mobile telecommunications sector has not been an exception to this trend [7].

As a first step toward conducting a results-oriented analysis, it is essential to examine the historical development of the mobile operator sector in the Republic of Azerbaijan. Following the country’s independence from the Soviet Union in the early 1990s, various new economic and technological sectors began to emerge. During the Soviet period, mobile operators did not exist in Azerbaijan. The post-independence era created a favorable environment for the introduction and expansion of technological innovations. The initial use of mobile phones and the establishment of telecommunications companies correspond to this historical phase.

Currently, three companies operate in this sector in Azerbaijan: Azercell Telecom LLC, Bakcell LLC, and Azerfon LLC (operating under the brand name Nar). Despite entering the market within a short period of time, Azercell and Bakcell exhibit significant differences in terms of market share and population coverage. Although Bakcell was the first operator established, it serves just over three million subscribers, whereas Azercell, the second entrant, holds approximately 49% of the market share with more than five million users.

From the late 1990s to the early 2010s, both companies demonstrated notable similarities in their marketing strategies, particularly through their emphasis on a “mystical Eastern” aesthetic. While both operators eventually underwent rebranding processes, Azercell completed its transformation around 2019 – approximately five years earlier than Bakcell – which can be considered a decisive factor in shaping their competitive positioning.

Taking these aspects into account, this study presents a comparative analysis of the two leading mobile communication companies in Azerbaijan in terms of subscriber base. By examining their historical trajectories and current marketing strategies, the study aims to explain the underlying reasons for the differences between them. It seeks to understand why similar strategies implemented during the same period resulted in significant success for one company while being relatively less effective for the other. The research employs comparative and statistical analysis, as well as content and visual analysis methodologies [6].

### Azercell: a Brief Analysis of the Evolution of a Market Leader

Azercell, a leading company in the mobile telecommunications market, was established in 1996. According to information published on its official website, the company's network covers 94.8% of the country's geographical territory and 98.4% of its population. With approximately 49% market share and over five million subscribers, Azercell holds a dominant position in Azerbaijan's mobile operator sector.

By 2010, the company had reached four million subscribers. Considering Azerbaijan's demographic and technological conditions at that time, this figure reflects significant statistical importance. Data indicates that the number of mobile subscribers in the country was nearly equal to the total population, demonstrating that Azercell's market dominance began to take shape as early as that period.

Statistical data clearly indicate that, as of 2010, the number of Azercell subscribers was approximately equal to half of the country's total population. This demonstrates that the company's dominant position in the market had already begun to take shape a decade earlier.

The company's strategy is based on four fundamental principles:

1. To remain the leading telecommunications company in Azerbaijan.
2. To accelerate the development of the telecommunications sector by creating higher value.
3. To promote innovation in order to enrich people's lives.
4. To become one of the most attractive employers in Azerbaijan.

The first principle clearly highlights the company's strong emphasis on maintaining its market leadership. Considering that Azercell was established two years after its closest competitor, Bakcell, yet managed to surpass it in a relatively short period of time, maintaining this leadership position has become a key strategic priority for the company.

At the same time, the company prioritizes the adoption of innovations and the sustainability of these innovative practices. Therefore, following this brief overview of Azercell's history, an important question arises: how did Azercell manage to achieve leadership in subscriber numbers despite being the second mobile operator established in Azerbaijan?

In 1998, Azercell became one of the first companies in the global telecommunications sector to implement a prepaid system (SimSim). This milestone can be considered a turning point in the company's operations. The

**I Table**

| Total Population | Mobile Subscribers | Internet Users |
|---|---|---|
| 8.997.600 | 8.500.000 | 79.689 |

Source: Official Website of the President of the Republic of Azerbaijan
Link: https://president.az/az/pages/view/azerbaijan/population [1]




**Photo 1.** Prepaid (top-up) cards used by Azercell at various times

widely used concept of the "SIM number" today originates from this innovation. The company placed the concept of the "SIM number" at the center of its marketing strategy. From impressive advertising campaigns to the idea of "SimSim" unlocking treasures, and even to the prepaid scratch cards popular at the time, this concept was reflected across all of the company's public relations activities.

In practice, the technically functional SimSim prepaid system was transformed by Azercell's marketing team into the term "Sim-Sim," symbolizing a magical key capable of unlocking hidden treasures, reminiscent of the story of "Ali Baba and the Forty Thieves." This clever branding strategy successfully combined technological functionality with a culturally resonant and imaginative narrative.

To fully understand the impact and reach of this advertising campaign, it is sufficient to refer to Figure 1.

Figure 1 illustrates the visual representation of prepaid (top-up) cards that Azercell widely used over an extended period. The images clearly display motifs such as a "magic wand" and "creating miracles," which reinforce the company's intended creative and symbolic narrative.

In the early 2000s, the primary focus of the company's marketing strategy was to achieve comprehensive coverage of the population across different regions of Azerbaijan. The selection of the slogan "Always with You" can be interpreted, at least in part, as a reflection of this strategic objective. Through various advertising campaigns produced over time, the company consistently emphasized its ability to provide uninterrupted communication services to its subscribers. During this period, the capability to offer seamless connectivity across the entire country - from remote regions to the most accessible areas - became a decisive factor in establishing the company's leadership in both subscriber numbers and geographical coverage.

As a result of the effective implementation of this marketing strategy, the company reached two million subscribers in 2006 and three million in 2007. By achieving a subscriber base that its closest competitor, Bakcell, reached only at a later stage, Azercell once again demonstrated the critical importance of a well-designed and effectively executed marketing strategy [2].

In 2011, Azercell transitioned from the use of prepaid scratch cards to payments in the local currency, the Azerbaijani manat. This shift enabled the company to discontinue the printing and production of physical payment cards, representing a significant step in terms of cost efficiency. Subscribers were now able to top up their mobile balances directly using manat, without the need for physical cards. Naturally, this transition reduced costs associated with the production, distribution, and sale of such cards.

The company underwent rebranding processes twice, in 2019 and 2021. In both instances, the only element that remained unchanged was the slogan. The company consistently retained the slogan "Closer to You Future" ("Sənə yaxın gələcək") [2]. This consistency can be interpreted as an indication of the company's commitment to its overall strategy of implementing innovations and providing user-friendly solutions.

In summary, the following strategic orientations are currently of particular importance in Azercell's marketing approach:

1. Corporate sales
2. Strong brand image (premium positioning)

3. Continuous implementation of innovations
4. Expansion and maintenance of regional coverage

At present, most government institutions in Azerbaijan purchase corporate numbers from Azercell. This practice facilitates the acquisition of new subscribers through visually distinctive numbers that symbolize affiliation with a specific organization. For instance, even if a newly hired employee previously used a number from another operator, they typically switch to a corporate number. This ensures uninterrupted communication within the workplace and visually represents organizational affiliation, thereby strengthening the company's subscriber base through strategic corporate partnerships.

At the same time, Azercell maintains its premium brand image through these efforts. This emphasis is clearly reflected in the company's posters and advertising campaigns. While visual designs in the early 2000s were more colorful and featured numerous icons, they have since been replaced by fixed color palettes and minimalist iconography. It can be inferred that this principle plays a central role in the company's rebranding strategy. In line with its strategic objectives, the company continuously implements innovations to reinforce its premium brand image.

In terms of innovation, Azercell has consistently preferred to act as a pioneer in adopting new technologies and services, a principle also reflected in its slogan. Examples of the company's initiatives in the telecommunications sector include the introduction of GSM technology, mobile internet services, 24/7 customer service centers, and express offices [8]. Through these efforts, the company has consistently maintained its leadership position across all elements of its marketing strategy.

A significant step that combined both innovation and premium positioning was taken in 2022, when the company introduced Azercell Fintech, known as the "akart," which integrates mobile communication and banking services. Fintech, regarded as financial technology, encompasses areas such as data analytics, banking operations, and artificial intelligence, representing a vision of the future financial ecosystem.

Regarding regional development, Azercell also places particular emphasis on expanding its services. In 2017, 4G stations were established not only in the capital and surrounding areas but also in cities such as Ganja, Barda, Shamkir, and Lankaran. As a result, Azercell became the first company to provide LTE services across various regions of the country.

Following the Second Karabakh War in 2020 and the restoration of Azerbaijan's territorial integrity, Azercell quickly initiated operations in the liberated regions. After the end of the war, efforts began to establish communication infrastructure. On November 12, 2020, the first 4G network station was installed in Shusha. Considering that the war officially ended on November 10, this two-day interval can be interpreted as a strong indication of the company's commitment to both brand image and regional expansion [3].

## Marketing Analysis of Bakcell: Common and Distinct Strategic Approaches Compared to Azercell

Bakcell, as Azerbaijan's first mobile operator, has undertaken an important historical role and currently ranks second in terms of subscriber base. The company began its operations in 1994 and has played a pioneering role in the mobile communications sector since its establishment. Bakcell numbers are commonly referred to by users as "Cin numbers," primarily due to the company's customer service line "Cin 170" [5].

Similar to Azercell's approach, Bakcell effectively incorporated the widely recognized concept of the "Cin number" into its visual and marketing materials. The company's advertisements emphasize this theme in various elements, ranging from the depiction of a genie emerging from a lamp at the beginning of phone calls to the typography used in posters and prepaid cards. This approach plays a strategic role in strengthening Bakcell's brand identity and creating a distinctive image in the minds of consumers.



**Photo 2.** Prepaid (top-up) cards used by Azercell at different periods

Therefore, when analyzing Bakcell's marketing strategy, it is possible to examine the concept of the "benefits provided by the genie," similar to the Azercell example, through realistic and impactful visuals. This approach offers valuable insight into both the company's creative marketing strategy and the emotional and cultural connection it establishes with its audience.

As illustrated in Figure 2, the company consistently adopted an "Eastern" stylistic approach across all of its visual materials, in which genies play a central role in core myths and narratives. Elements such as the "Cin-Cin" campaign and the realization of wishes expressed as "Çin-Çin" directly stem from this thematic orientation.

Several key aspects stand out in the marketing analysis of Bakcell:

1. Positioning speed as an unwavering competitive advantage, as reflected in its slogan.
2. Primarily converting the younger generation into active users.
3. Developing new partnerships that are engaging and entertaining for the target audience.

The first marketing orientation forms the foundation of Bakcell's overall strategy. In a sense, the company aims to compensate for its lag in subscriber numbers by positioning itself as a leader in internet speed. The slogan "Be the fastest with Bakcell" is currently one of the company's most frequently used promotional messages.

The second and third orientations are closely interconnected. Establishing new partnerships and securing sponsorship opportunities are of particular importance to Bakcell. Evidence of this includes the partnership agreement signed with Manchester United Football Club in 2012, serving as the official sponsor of the UEFA U-17 European Championship hosted by Azerbaijan in 2016, and becoming the first official supporter of the Formula 1 Azerbaijan Grand Prix in 2019 [4]. Campaigns targeting young audiences, as well as the use of widely recognized public figures such as emerging musicians and social media personalities, demonstrate the company's strong potential in this area.

In addition to these three main orientations, Bakcell continuously evaluates the implementation of various "firsts" that directly or indirectly strengthen its marketing approach. For instance, eSIM technology – currently considered one of the most advanced innovations and particularly popular among younger users – was introduced in Azerbaijan by Bakcell in 2022. Other significant innovations include the launch of mobile internet services on ships and offshore platforms in 2021 and the introduction of 4G services in the metro system in 2018. The deployment of 4G in the metro was especially important for the company, as it aligned with its commitment to high-speed internet and directly matched the demographic profile of metro users, who largely consist of students and middle-aged individuals – the key target audience of Bakcell's youth-oriented marketing strategy [4].

Although the company has been attempting to expand its corporate partnerships in recent years, it recognizes that surpassing Azercell in this domain remains extremely challenging. Given Azercell's strong emphasis on maintaining a premium brand image, Bakcell would need to implement a long-term and comprehensive marketing program to effectively compete in this segment.

To analyze the marketing competition between Bakcell and Azercell in greater detail, it is useful to examine the similarities observed

in their campaigns from the late 1990s to the mid-2000s:

1. ***Mysticism and Eastern folklore narrative style***

While Azercell frequently utilized the tale of “Ali Baba and the Forty Thieves” in its advertisements, Bakcell often relied on the legend of a genie granting three wishes. This reflects a strategy aimed at maximizing engagement by leveraging culturally appealing content for audiences of that period. Both companies adopted an Eastern aesthetic, and the continued public interest in this style encouraged them to expand their activities in this direction.

2. ***Short, repetitive three-syllable expressions***

The similarity between “Sim-Sim” and “Cin-Cin” is evident. Azercell’s “Sim-Sim,” evoking a magical phrase capable of opening hidden treasures, parallels Bakcell’s “Cin-Cin,” which symbolizes a supernatural entity capable of fulfilling wishes. The intentional resemblance between these concepts suggests that both companies explored a wide range of competitive strategies and aimed to develop offerings that could compete closely with one another.

In terms of key differences, a clear divergence can be observed in target audience selection. Azercell’s emphasis on corporate sales, nationwide coverage, and continuous promotional campaigns indicates that, despite operating within the same geographic market, the two companies appeal to different age groups and consumer segments. This differentiation in target audiences ultimately shaped the overall competitive dynamics between Bakcell and Azercell.

**Conclusion**

The comparative analysis conducted in this study leads to the following conclusions:

1. Azercell’s market leadership is not coincidental; it has been shaped by strategic consistency and the timely implementation of innovations.

- The branding of the SimSim system;
- Extensive coverage;
- Development of a strong corporate customer base;
- A premium image combined with continuous brand renewal collectively constitute the company’s long-term competitive advantage.

2. Bakcell’s primary strategic orientation focuses more on the younger demographic and revolves around the concept of speed. Although the company has implemented numerous technological “firsts,” its limited coverage and relatively weaker position in the premium segment reduce its ability to compete effectively with Azercell.

3. The initial use of similar themes (Eastern imagery and mystical motifs) in both companies’ marketing strategies highlights the importance of visual storytelling during the formative years of the sector. However, Azercell later transitioned more effectively to a systematic and consistent modern branding approach.

4. Activities in regional markets and service accessibility are decisive factors in the success of mobile operators. Azercell’s earlier regional expansion significantly accelerated the growth of its subscriber base.

5. Corporate partnerships serve as a strategic resource that ensures long-term market stability for mobile operators. Azercell’s advantage in this area is one of the key factors shaping the competitive balance.

6. The balance between brand image, innovation, and service quality is a determining factor in market positioning. Azercell maintains its leadership by managing this balance more effectively, while Bakcell operates as a more dynamic competitor primarily focused on the youth segment.

In conclusion, although both companies entered the market during the same historical period, their long-term outcomes have been determined by their strategic choices, pace of innovation, regional operations, and brand positioning. This analysis provides a clear academic framework demonstrating how structured marketing strategies can lead to significantly different outcomes within the mobile communications sector.

**References:**


1. President of the Republic of Azerbaijan – Official Website [Electronic resource] / Population of the Republic of Azerbaijan. Available at: https://president.az/az/pages/view/azerbaijan/population
2. Azercell web site: [Electronic resource] / Available at: https://www.azercell.com/az/about-us.htm
3. Azercell Established the First 4G Network in Shusha: [Electronic resource] / The Azerbaijan State News Agency – November 11, 2020. Available at: https://azertag.az/xeber/__azercell_susada_ilk_4g_sebekesini_qurub-1640305
4. Bakcell web site: [Electronic resource] / Available at: https://www.bakcell.com/key-milestones
5. Bakcell Information Center’s New Number is 555: [Electronic resource] / The Azerbaijan State News Agency – November 23, 2009. Available at: https://sl1nk.com/344nfw5
6. Bicer, F.G. Product-Oriented Thinking in the Technology Acceptance of Mobile Payment Systems // – Istanbul: PhD Dissertation–Istanbul Bilgi University–2020–225 p.
7. Can, Z. A Mathematical Model for Customer Lifetime Value Based Offer Management // – Istanbul: Master's Dissertation–Ozyegin University–2018–78 p.
8. Towards Technological Progress with Azercell: [Electronic resource] / Modern az– December 15, 2014. Available at: https://modern.az/news/69006/javascript()
9. Information and Communication Technologies Agency [Electronic resource] / General Information on Mobile Operators in Azerbaijan. Available at: https://icta.az/activity-direction-mobile


***Keywords:*** *mobile operator, marketing strategy, mobile communication, Azerbaijan*

**Oqtay Quliyev**

*Azərbaycan Texniki Universitetinin Biznesin idarə edilməsi kafedrasının müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent*

**Xavərxanım Əlizadə**

*Azərbaycan Dövlət İqtisad Universitetinin Marketinq kafedrasının magistrantı*

## AZƏRBAYCANDA MOBİL OPERATORLARIN MARKETİNQ TƏHLİLİ: AZERCELL VƏ BAKCELL-in MÜQAYİSƏLİ TƏDQİQİ

### XÜLASƏ

Aparılmış təhlil göstərir ki, 1996-cı ildə fəaliyyətə başlayan Azercell qısa müddət ərzində Azərbaycanın ən böyük mobil operatoruna çevrilmişdir. Şirkətin uğuru geniş coğrafi əhatə dairəsi, innovativ həllərin (SimSim sistemi) tətbiqi, effektiv reklam kampaniyaları və korporativ satışların inkişafı ilə şərtlənmişdir. 2000–2010-cu illərdə “Həmişə sizinləyik” şüarı ilə həyata keçirilən strateji mövqeləndirmə regional genişlənməni sürətləndirmiş, premium brend imici və rebrendinq təşəbbüsləri isə liderlik mövqeyini möhkəmləndirmişdir.

Azercell-dən fərqli olaraq, Bakcell-in marketinq strategiyası gənc auditoriyanın cəlb edilməsinə, internet sürətinə və beynəlxalq tərəfdaşlıqlara yönəlmişdir. Keçmişdə şərq mifologiyasından (Cin-Cin konsepsiyası) istifadə edən şirkət, eSIM, dəniz platformalarında internet və metroda 4G bağlantısı kimi texnoloji yenilikləri ölkədə ilk dəfə tətbiq etmişdir. Texnoloji uğurlara baxmayaraq, premium seqmentdə və korporativ əməkdaşlıq sahəsində Azercell ilə rəqabət Bakcell üçün ciddi çağırış olaraq qalmaqdadır.

Araşdırma təsdiq edir ki, 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində hər iki şirkət mistik obrazlar və lakonik söz konstruksiyaları daxil olmaqla oxşar estetik yanaşmalardan istifadə etmişdir. Lakin zaman keçdikcə inkişaf strategiyalarındakı və bazarın mövqeləndirilməsindəki fundamental fərqlər onların bazar paylarının və istehlakçıların brend qavrayışının əhəmiyyətli dərəcədə fərqlənməsinə səbəb olmuşdur. Bu, ölkənin mobil rabitə bazarında hər bir operatorun öz nişini tutduğu cari konfiqurasiyanı müəyyən etmişdir.

***Açar sözlər:*** *mobil operator, marketinq strategiyası, mobil rabitə, Azərbaycan*

**Октай Гулиев**

*Заведующий кафедрой Управления бизнесом*
*Азербайджанского Технического Университета,*
*доктор философии по экономике, доцент*

**Хаверханым Ализаде**

*Магистрант кафедры Маркетинга*
*Азербайджанского Государственного Экономического Университета*

## МАРКЕТИНГОВЫЙ АНАЛИЗ МОБИЛЬНЫХ ОПЕРАТОРОВ В АЗЕРБАЙДЖАНЕ: СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ AZERCELL И BAKCELL

### РЕЗЮМЕ

Проведённый анализ показывает, что компания Azercell, начавшая свою деятельность в 1996 году, в короткие сроки опередила Bakcell и стала крупнейшим оператором мобильной связи в Азербайджане. Решающее значение для успеха компании имели несколько факторов, включая широкий географический охват сети, внедрение инновационных решений (в частности, запуск предоплаченной системы SimSim), эффективное использование креативных и символически насыщенных рекламных кампаний, а также стратегическое развитие корпоративных продаж.

В период 2000-2010 годы стратегическое позиционирование под слоганом «Всегда с вами» ускорило региональную экспансию, а ориентация на премиальный имидж и ребрендинг укрепили лидерские позиции. В отличие от Azercell, маркетинговая стратегия Bakcell была сосредоточена на привлечении аудитории молодых потребителей, скорости интернета и международных партнёрств. Используя в прошлом элементы восточной мифологии (концепция «Cin-Cin»), компания проявила открытость инновациям, первой внедрив в Азербайджане eSIM, связь на морских платформах и 4G в метрополитене. Несмотря на технологические успехи, конкуренция с Azercell в премиальном сегменте и сфере корпоративного сотрудничества остается для Bakcell серьезным вызовом.

Исследование показывает, что в конце 1990-х – начале 2000-х годов обе компании использовали схожие эстетические подходы, характеризовавшиеся восточными мотивами, мистической образностью и повторяющимися краткими словесными конструкциями. Однако со временем различия в стратегических подходах и конкурентном позиционировании привели к существенному расхождению их рыночных позиций.

***Ключевые слова:*** *оператор мобильной связи, маркетинговая стратегия, мобильная связь, Азербайджан*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *DİA və Naxçıvan Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə "Dövlət idarəçiliyində rəqəmsal transformasiya" mövzusunda onlayn təlim*

14 yanvar 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) və Naxçıvan Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə Şəhərsalma və Memarlıq ili çərçivəsində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qulluqçularının rəqəmsal savadlılığının və idarəetmədə müasir texnologiyaların tətbiqi üzrə kompetensiyalarının gücləndirilməsi məqsədilə "Dövlət idarəçiliyində rəqəmsal transformasiya" mövzusunda onlayn təlim keçirilib.

Təlimin açılışında DİA-nın Elm və beynəlxalq əlaqələr üzrə prorektoru Elvin Əzizbəyov rəqəmsal dövlət idarəçiliyinin əsas istiqamətləri, dövlət xidmətlərində innovasiya və rəqəmsal həllərin tətbiqi, e-xidmətlər (e-Services), açıq verilənlər (Open Data), böyükhəcmli verilənlər (Big Data), hökumət buludu (G-Cloud), Blockchain texnologiyaları, "Ağıllı şəhər" (Smart City), "Ağıllı kənd" (Smart Village) və "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) kimi müasir təşəbbüslər barədə geniş təqdimatla çıxış etmişdir.

Təlimçi həmçinin internetdən təhlükəsiz istifadə, kiber təhlükəsizlik (Cyber Security), sosial mühəndislik (Social Engineering), kiber gigiyena (Cyber Hygiene), zərərli proqramlar (Malware) və qoruyucu divar (Firewall) kimi aktual mövzular üzrə praktiki tövsiyələr təqdim etmişdir.

Təlim çərçivəsində İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti Gülnar Mirzəyeva "Dövlət idarəçiliyində Big Data (Böyük həcmli verilənlər)" mövzusunda, dosent Hilalə Cəfərova isə "Dövlət idarəçiliyində AI (Süni intellekt)" mövzusunda müasir tendensiyalar, tətbiq sahələri və beynəlxalq təcrübə barədə iştirakçılara məlumat vermişdir.

Təlim iştirakçıları rəqəmsal transformasiyanın dövlət idarəçiliyində effektivlik, şəffaflıq və vətəndaş məmnunluğunun artırılmasında oynadığı rolu yüksək qiymətləndirmiş, proqram Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçularının rəqəmsal kompetensiyalarının gücləndirilməsi istiqamətində növbəti uğurlu təşəbbüs kimi dəyərləndirilmişdir.

## *Professor Fuad Məmmədov QHT Agentliyinin Müşahidə Şurasının sədri seçildi*

Yanvarın 6-da Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri seçilib, İdarə Heyətinin sədri və müavinləri müəyyənləşib. QHT Agentliyinin Müşahidə Şurasının yeni tərkibdə keçirilən ilk iclasında Müşahidə Şurasının üzvü Rizvan Nəbiyev bildirib ki, Prezident İlham Əliyevin 29 dekabr 2025-ci il tarixli Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında Fərmanına əsasən, Şuranın 4 üzvü vətəndaş cəmiyyəti institutlarının, digər 3 üzvü isə dövlət orqanlarının nümayəndələrindən təyin edilir. Şuranın sədri Şura üzvü olan vətəndaş cəmiyyəti institutlarının nümayəndələri sırasından 4 il müddətinə seçilir. O, Fərmandan irəli gələrək, Müşahidə Şurasının sədrinin seçilməsini təklif edib.

Beləliklə, Müşahidə Şurasının üzvləri "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru Fuad Məmmədovu Müşahidə Şurasına sədr seçib.

Fuad Məmmədov etimada görə Şura üzvlərinə minnətdarlığını çatdırıb, Şura üzvləri adından QHT-lərə göstərilən diqqət və qayğıya, bu sahədə aparılan genişmiqyaslı

islahatlara görə Prezident İlham Əliyevə təşəkkür edib.

Bundan əlavə, Agentliyin "İcraçı direktoru" vəzifəsi ləğv edildiyi üçün Aygün Əliyeva Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri, Emil Çaparlı və Elnur Bağırlını isə İdarə Heyəti sədrinin müavinləri təyin ediliblər.

Müşahidə Şurası müvafiq Fərmana uyğun olaraq, İdarə Heyətinə bir sıra tapşırıqlar verib. Bundan başqa, Agentliyinin 2026-cı il üzrə Fəaliyyət Planındakı prioritetlər müzakirə edilib. QHT Agentliyinin Naxçıvan MR-da filialının yaradılması təklif olunub.

### *Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 20 Yanvar faciəsinin növbəti ildönümünə həsr olunmuş dəyirmi masa keçirilmişdir. Tədbirdə Akademiyanın rəhbərliyi, professor-müəllim heyəti, əməkdaşlar və tələbələr iştirak ediblər.

Əvvəlcə 20 Yanvar faciəsi zamanı Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov qeyd edib ki, 20 Yanvar hadisələri Azərbaycan xalqının tarixində faciə olmaqla yanaşı, milli azadlıq mübarizəsinin şanlı səhifəsidir. Akademik vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında SSRİ rəhbərliyinin Bakıda törətdiyi qanlı qırğını kəskin şəkildə pisləyib, bu hadisəni Azərbaycan xalqına qarşı ağır cinayət adlandırıb. Ulu Öndər baş verənlərə siyasi qiymət verilməsini və günahkarların cəzalandırılmasını qətiyyətlə tələb edib.

Urxan Ələkbərov bildirib ki, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinə dövlət səviyyəsində obyektiv siyasi və hüquqi qiymət verilib,



şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb və 20 Yanvar tarixi ümumxalq hüzn günü elan edilib.

Rektor həmçinin diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin daim uca tutulmasına, onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi həssaslıqla yanaşılır və bu istiqamətdə ardıcıl dövlət siyasəti həyata keçirilir.

Daha sonra DİA -nın Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova və Beynəlxalq münasibətlər kafedrasının professoru, Qarabağ İrsini Araşdırma Mərkəzinin müdiri Elçin Əhmədov çıxış edərək 20 Yanvar faciəsinin tarixi-siyasi mahiyyəti, beynəlxalq hüquq baxımından qiymətləndirilməsi və milli yaddaşımızdakı yeri barədə geniş məruzələrlə çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, 1990-cı ilin o qış günlərində Azərbaycan xalqı ağır sınaq qarşısında qalsa da, öz Vətəninə, torpağına sədaqətini, qəhrəmanlığını və müstəqillik uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirib.

Tədbir zamanı vurğulanıb ki, 20 Yanvar faciəsi Azərbaycan xalqının milli birliyini daha da möhkəmləndirib və dövlət müstəqilliyinin bərpasına aparan yolun əsas dönüş nöqtələrindən biri olub. Dəyirmi masa müzakirələrlə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda 20 Yanvar şəhidlərinin xatirəsinin gələcək nəsillərə çatdırılmasının, bu faciənin tarixi dərslərinin daim yadda saxlanılmasının vacibliyi xüsusi qeyd olunub.

## *DİA rektorunun məqaləsi beynəlxalq elmi jurnalda çap edilmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərovun “Dövlət idarəçiliyində yeni texnologiyalar enerji transformasiyası prosesinin səmərəliliyinin artırılmasının amili kimi” (Новые технологии в государственном управлении как фактор повышения эффективности процесса энергетической трансформации) mövzusunda elmi məqaləsi Belarus Prezidenti yanında İdarəçilik Akademiyasının yaradılmasının 35 illik yubileyinə həsr olunmuş “İdarəçilik problemləri” elmi-praktik jurnalının xüsusi 4(89) saylı buraxılışında dərc edilmişdir.

Məqalədə dövlət idarəçiliyində strateji planlaşdırmanın və innovativ texnologiyaların tətbiqinin enerji transformasiyası proseslərinin səmərəliliyinin artırılmasında oynadığı mühüm rol geniş şəkildə təhlil olunur. Xüsusilə, qlobal iqlim dəyişikliklərinə təsir göstərən proseslərin nəzarətdə saxlanılması istiqamətində həyata keçirilən tədbirlərin effektivliyi, davamlı inkişaf məqsədlərinə nail olunması və uzunmüddətli strateji hədəflərin formalaşdırılması məsələləri elmi əsaslarla araşdırılır.

Tədqiqatda Azərbaycan Respublikasının bu sahədə qabaqcıl təcrübəsi nümunə kimi təqdim edilir, ölkəmizdə dövlət idarəçiliyi çərçivəsində həyata keçirilən çoxsaylı plan və islahatların enerji siyasətinin inkişafına verdiyi töhfələr vurğulanır. Eyni zamanda, səmərəli idarəetmə proseslərinin qurulmasında peşəkar kadr potensialının formalaşdırılmasının və genişləndirilməsinin xüsusi əhəmiyyəti qeyd olunur.

Məqalənin elmi dəyəri onu həm də qlobal kontekstdə aktuallaşdırır. BMT Baş Assambleyasının qərarlarına uyğun olaraq 2030-cu ilədək həyata keçirilməsi nəzərdə tutulan davamlı inkişaf hədəfləri, iqlim nəzarəti sahəsində aparılan beynəlxalq siyasətlər və bu məqsədlə keçirilən konfransların rolu diqqət mərkəzinə çəkilir. Qeyd olunur ki, Azərbaycan Respublikası bu proseslərdə fəal iştirak etməklə qlobal enerji və iqlim gündəliyinə mühüm töhfələr verir.

Məqalə ilə aşağıda qeyd olunan keçid vasitəsi ilə tanış ola bilərsiniz:

https://www.pac.by/about/publications/journal-problems-of-control/journal-archive/

## *DİA-nın professoru Vüsal Qasımlının elmi redaktorluğu ilə dərs vəsaiti çap olunmuşdur*

Yanvarın 26 -da İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və Azərbaycan Sığortaçılar Assosiasiyası ilə birgə hazırlanmış professor Vüsal Qasımlının elmi redaktoru olduğu "InsurTech" dərs vəsaitinin təqdimat mərasimi keçirilib. DİA-nın Elmi Şurasının qərarı ilə çap edilən bu dərs vəsaitində "İnsurTech" terminin elmi-nəzəri əsasları, tətbiq istiqamətləri və onun qlobal sığorta sisteminə təsir mexanizmləri kompleks şəklində təhlil olunub. "İnsurTech" dərs vəsaitində həm beynəlxalq təcrübə, həm də milli kontekstdə rəqəmsallaşmanın sığorta sektoruna gətirdiyi imkanlar və institusional çağırışlar araşdırılıb.

texnologiyanın sintezini yalnız texniki yeniliklər kontekstində deyil, strateji idarəetmə, tənzimləmə mühiti və bazar davranışları prizmasından araşdıraraq ölkənin sığorta ekosistemi üçün yeni intellektual çərçivə formalaşdırır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Azərbaycan Respublikasının Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanov,"PAŞA Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Ülviyyə Cabbarova, Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev, İcbari Sığorta Bürosunun icraçı direktoru Vüsal Məsiyev və digər qonaqlar çıxış edərək sığorta və texnologiyanın sintezinin yalnız texniki yeniliklər deyil, həm də strateji idarəetmə,




Bu nəşr Azərbaycanda sığorta sektorunun rəqəmsal transformasiyasını sistemli şəkildə təhlil edən ilk fundamental akademik mənbədir.

Təqdimatda dövlət qurumlarının, akademik ictimaiyyətin və sığorta sektorunun nümayəndələri iştirak ediblər. Professor Vüsal Qasımlı bildirib ki, dərs vəsaiti sığorta və

tənzimləmə mühiti və müştəriyönümlü yanaşmalar baxımından əhəmiyyətini vurğulayıblar.

Qeyd olunub ki, "InsurTech" dərs vəsaiti sığorta sektorunda rəqəmsal həllərin elmi əsaslarla öyrənilməsi, beynəlxalq təcrübənin milli kontekstdə tətbiqi və müasir texnologiyaların tədris prosesinə inteqrasiyası baxımından mühüm rol oynayacaq.

## *DİA və RİİB arasında əməkdaşlığa dair memorandum*

Yanvarın 28–də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Akademiyanın rektoru Urxan Ələkbərov və "Regional İnkişaf" İctimai Birliyinin sədri Məhəmməd Abdullayev tərəfindən imzalanan memorandumda tərəflər arasında birgə layihələrin, konfransların, ixtisasartırma kurslarının təşkili, dəyirmi masa və seminarların, müzakirələrin keçirilməsi, müxtəlif elmi tədqiqatların, analitik materialların hazırlanması nəzərdə tutulub.



DİA-nın rektoru akademik Urxan Ələkbərov çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dinamik və sürətlə inkişaf edərək iqtisadi və sosial cəhətdən dünyanın qabaqcıl ölkələri sırasında yer tutur. O, çıxışında Heydər Əliyev Fondunun ölkəmizdə sosial, humanitar və mədəni sahələrin inkişafında müstəsna rolunu xüsusi vurğulayıb. Qeyd edib ki, Fondun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə həyata keçirilən layihələr təhsil, elm, səhiyyə kimi istiqamətlərdə mühüm nəticələr verməkdədir. Rektor bildirib ki, Heydər Əliyev Fondunun formalaşdırdığı nümunəvi fəaliyyət modeli dövlət siyasətinin ictimai təşəbbüslərlə vəhdətinin uğurlu təzahürüdür. Rektor RİİB-in həyata keçirdiyi layihələrin dövlət idarəçiliyi sahəsində elmi yanaşmaların praktik tətbiqi üçün mühüm platforma yaratdığını vurğulayaraq, Akademiya ilə qurulan əməkdaşlığın bu istiqamətdə yeni imkanlar açacağını bildirib.

"Regional İnkişaf" İctimai Birliyinin sədri Məhəmməd Abdullayev isə çıxışında bildirib ki, Dövlət İdarəçilik Akademiyası ilə əməkdaşlıq elmi biliklərin praktik fəaliyyətlə uzlaşdırılması baxımından böyük imkanlar yaradır. Memorandum çərçivəsində aparılacaq birgə tədqiqatlar, analitik materiallar və maarifləndirici tədbirlər regional inkişaf sahəsində daha əsaslı və effektiv qərarların qəbuluna xidmət edəcək. O, bu əməkdaşlığın uzunmüddətli və səmərəli olacağına əminliyini ifadə edərək, qarşılıqlı təcrübə mübadiləsinin və birgə təşəbbüslərin ölkənin ümumi inkişaf strategiyasına mühüm töhfə verəcəyini vurğulayıb.



### *“İnnovativ dövlət idarəçiliyi texnologiyaları və onların tətbiqi” mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2026-cı il ölkədə “Şəhərsalma və Memarlıq İli” elan edilmişdir. Bu çərçivədə dövlət idarəçiliyində şəhərsalma, davamlı inkişaf, ağıllı şəhər və əlaqəli sahələr üzrə bilik və bacarıqların artırılması xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə 28 yanvar 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün akademik Urxan Ələkbərovun “İnnovativ dövlət idarəçiliyi texnologiyaları və onların tətbiqi” mövzusunda təlimi keçirilmişdir Təlim zamanı müasir dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqi, eləcə də bu texnologiyaların idarəetmənin səmərəliliyinin artırılmasında rolu ətraflı şəkildə təqdim olunmuşdur.

Akademik Urxan Ələkbərov qeyd etmişdir ki, bu gün Azərbaycan Respublikası malik olduğu iqtisadi, institusional və texnoloji imkanlara görə bir çox ölkələri qabaqlayaraq daha ön sıralarda yer alır. O vurğulamışdır ki, bu nailiyyətlərin əsasını Prezident İlham Əliyevin qabaqcıl və uzaqgörən siyasəti, strateji düşüncəyə əsaslanan idarəetmə modeli və ardıcıl şəkildə həyata keçirilən islahatlar təşkil edir. Məhz bu siyasət nəticəsində ölkədə dövlət idarəçiliyinin səmərəliliyi artırılmış, innovativ yanaşmalar tətbiq edilmiş və Azərbaycanın davamlı inkişafı təmin olunmuşdur.

Rektor çıxışında dövlət idarəçiliyində liderliyin institusional davamlılıq, strateji baxış və ictimai etimadın formalaşmasında həlledici rolunu vurğulamış və qeyd etmişdir ki, Ulu Öndər Heydər Əliyevin güclü siyasi iradəyə, sistemli düşüncəyə və böhran şəraitində rasional qərarvermə bacarığına əsaslanan liderlik modeli müasir Azərbaycan dövlət idarəçiliyinin təməlini formalaşdırmışdır. Bu strateji xətt Prezident İlham Əliyev tərəfindən innovativ idarəetmə yanaşmaları, çevik institusional islahatlar və qlobal çağırışlara adaptiv cavab mexanizmləri ilə uğurla davam etdirilir.

Akademik Urxan Ələkbərov təlimdə Azərbaycanın uzunmüddətli enerji strategiyasına xüsusi diqqət ayırmışdır. O vurğulamışdır ki, müstəqillik dövründən etibarən ölkəmizin enerji strategiyası iqtisadi inkişaf, beynəlxalq əməkdaşlıq və enerji təhlükəsizliyi prinsipləri üzərində qurulmuşdur. Heydər Əliyev tərəfindən müəyyən edilmiş strateji enerji xətti Prezident İlham Əliyev tərəfindən neft-qaz sektorunda davamlı investisiya siyasəti, bərpa olunan enerji layihələrinin təşviqi və regional enerji təşəbbüslərində fəal iştirakla uğurla inkişaf etdirilmişdir. Rektor qeyd etmişdir ki, bu siyasət Azərbaycanın regional və qlobal enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir.

Təlim çərçivəsində təqdim olunan mühazirələr və təhlillər dövlət idarəçiliyində innovativ yanaşmaların, liderlik modellərinin və uzunmüddətli enerji strategiyasının əhəmiyyətini bir daha nümayiş etdirmiş, iştirakçılara müasir idarəetmə təcrübələrini praktik tətbiq kontekstində mənimsəmək imkanı yaratmışdır. Akademik Urxan Ələkbərovun rəhbərliyi altında keçirilən təlim, dövlət qulluqçularının peşəkarlığının artırılmasına, idarəetmədə səmərəliliyin yüksəldilməsinə və Azərbaycanın davamlı inkişaf perspektivlərinin gücləndirilməsinə töhfə vermişdir. Təlim interaktiv və diskussiya formatında davam etmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmış və praktiki müzakirələr aparılmışdır.

### *2 fevral – Gənclər Gününə həsr olunmuş konfrans*

29 yanvar 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə "Azərbaycan Respublikasında gənclər siyasəti: strateji baxış və perspektivlər" mövzusunda konfrans təşkil olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.



Konfransın giriş sözünü Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açaraq iştirakçıları salamlayıb. Rektor çıxışında Azərbaycanda dövlət gənclər siyasətinin formalaşması və inkişaf mərhələlərindən danışıb, bu siyasətin əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin dayandığını vurğulayıb. O qeyd edib ki, gənclər cəmiyyətin gələcəyini formalaşdıran əsas qüvvədir və düzgün, vətənpərvər, peşəkar və məsuliyyətli vətəndaş yetişdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Akademik Urxan Ələkbərov Prezident İlham Əliyevin rəhbərliyi ilə gənclər siyasətinin yeni mərhələyə qədəm qoyduğunu, gənclərin dövlət idarəçiliyində, ictimai-siyasi həyatda fəal iştirakına geniş imkanlar yaradıldığını bildirib.

Daha sonra çıxış edən Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev Ulu Öndər Heydər Əliyevin gənclərə göstərdiyi xüsusi diqqət və qayğıdan bəhs edib. O bildirib ki, müasir Azərbaycan gənclərinin formalaşmasında Heydər Əliyev siyasi irsi mühüm rol oynayır. Nazir müavini vurğulayıb ki, düzgün vətəndaş yetişdirmək, gəncləri milli-mənəvi dəyərlərə sadiq, savadlı və təşəbbüskar ruhda tərbiyə etmək dövlətin əsas məqsədlərindəndir. Fərhad Hacıyev Prezident İlham Əliyevin gənclər siyasətinin davamlı və sistemli xarakter daşıdığını, gənclərin ölkənin inkişafında aparıcı qüvvələrdən biri kimi çıxış etdiyini qeyd edib. F. Hacıyev həmçinin DİA məzunlarının "Yüksəliş" müsabiqəsində ən yüksək pillələrdə yer tutduğunu qeyd edərək, Akademiyanın ölkənin ən qabaqcıl ali təhsil müəssisələrindən biri olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov çıxışında ölkədə gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və sistemli şəkildə uğurla

aparıldığını bildirib. O vurğulayıb ki, gənclərin sosial, siyasi və intellektual inkişafı dövlət üçün strateji əhəmiyyət daşıyır və bu istiqamətdə qəbul edilən qərarlar ölkənin uzunmüddətli inkişaf hədəflərinə xidmət edir. Şahin İsmayılov qeyd edib ki, Dövlət İdarəçilik Akademiyasının tələbələri hər zaman ictimai və elmi fəallıqları ilə seçilir, Akademiya isə yalnız ali təhsil müəssisəsi deyil, eyni zamanda dövlət idarəçiliyi sahəsində mühüm beyin mərkəzi kimi fəaliyyət göstərir, məzunların böyük əksəriyyəti bu gün dövlət və özəl sektorda uğurlu idarəçi və peşəkar kadrlar kimi fəaliyyət göstərirlər.

Milli Məclisin deputatı Məzahir Əfəndiyev çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son illərdə keçdiyi dinamik inkişaf yolundan, ölkənin sosial-iqtisadi və institusional baxımdan güclənməsindən geniş bəhs edib. O qeyd edib ki, əldə olunan nailiyyətlərin qorunması və davamlı inkişafın təmin edilməsi bilikli, məsuliyyətli və milli maraqlara sadiq gənc nəslin yetişdirilməsindən birbaşa asılıdır. Deputat vurğulayıb ki, gənclərin innovativ düşüncə tərzi, təşəbbüskarlığı və müasir çağırışlara uyğun biliklərə yiyələnməsi dövlət siyasətinin əsas prioritetlərindəndir.

Azərbaycan Tələbə Gənclər Təşkilatının (ATGT) sədri Rəşad Zeynalov çıxışında Prezident İlham Əliyevin gənclərə olan diqqəti və qayğısından danışmışdır. O bildirib ki, müasir dövrdə tələbələr yalnız təhsil alan deyil, eyni zamanda cəmiyyətin intellektual və sosial potensialını formalaşdıran əsas təbəqədir. Rəşad Zeynalov vurğulayıb ki, tələbə gənclərin təşəbbüskarlığının dəstəklənməsi, onların sosial layihələrə və könüllülük fəaliyyətinə cəlb olunması gənclər siyasətinin mühüm istiqamətlərindəndir.

Tədbirin sonunda Dövlət İdarəçilik Akademiyasının ictimai həyatında fəal iştirak edən tələbələrə təşəkkürnamələr təqdim olunub.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tələbə Gənclər Təşkilatı "İlin Tələbə Gənclər Təşkilatı" seçilib*

Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününün 30 illiyinə həsr olunan "Tələbə Gənclər Təşkilatlarının mükafatlandırma mərasimi 2026" keçirilib.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Açılış nitqi ilə çıxış edən ATGTİ-nin sədri Rəşad Zeynalov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin əhəmiyyətindən bəhs edib, bu günə qədər gənclərlə bağlı həyata keçirilən layihələr haqqında məlumat verib. O, Tələbə Gənclər Təşkilatlarının il ərzində nümayiş etdirdiyi fəallığı vurğulayaraq, tələbə gənclərə gələcək






fəaliyyətlərində uğurlar arzulayıb və ATGTİ-nin onların ictimai və akademik təşəbbüslərinə daim dəstək göstərdiyini qeyd edib.

Daha sonra ATGTİ-nin baş katibi Fidan Həsənova tərəfindən ittifaqın 2025-ci il üzrə fəaliyyət hesabatı və müxtəlif statistik göstəricilər təqdim olunub.

Ardınca Azərbaycan Respublikasının Gənclər Fondunun Gənclər Təşkilatları ilə iş şöbəsinin müdiri Nail Şükürov, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov, Elm və Təhsil Nazirliyinin nümayəndəsi və digərləri çıxış edərək tələbə gənclərin cəmiyyətin inkişafındakı rolunu və tələbə təşkilatlarının fəaliyyətinin əhəmiyyətini vurğulayıblar.

Tədbirin sonunda 2025-ci il ərzində Tələbə Gənclər Təşkilatlarının fəaliyyətində fəallığı ilə seçilən TGT sədrləri və nümayəndələri müxtəlif nominasiyalar üzrə "İlin tələbəsi", "İlin TGT fəalı", "İlin TGT nümayəndəsi", "İlin Tələbə Gənclər Təşkilatı sədri" və "İlin Tələbə Gənclər Təşkilatı" plaketi və fəxri fərmanlarla mükafatlandırılıblar.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatı "İlin TGT-si" mükafatına layiq görülüb.

## *Akademik Urxan Ələkbərov Gənclər Gününə həsr olunmuş konfransda çıxış edib*

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Hüquqi dövlətçilik və gənclər" mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbirdə 15 ali təhsil müəssisəsini təmsil edən tələbə və kursantlar, habelə professor-müəllim heyəti, eləcə də müxtəlif dövlət və hüquq qurumlarının nümayəndələri iştirak ediblər.

Konfransda Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Məclisin deputatı Bəhruz Məhərrəmov, eləcə də bir sıra dövlət və hüquq qurumlarının nümayəndələri çıxış ediblər.





Akademik Urxan Ələkbərov çıxışında Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin strateji və sistemli xarakter daşıdığını xüsusi vurğulayıb. O bildirib ki, ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan gənclər siyasəti gənclərin təhsil, elm, dövlət idarəçiliyi və ictimai həyatın bütün sahələrində fəal iştirakını təmin etməyə yönəlib. Akademik vurğulayıb ki, Prezident İlham Əliyevin gənclərə göstərdiyi etimad nəticəsində bu gün gənclər dövlət orqanlarında, hüquq-mühafizə sistemində və digər strateji sahələrdə məsul vəzifələrdə təmsil olunurlar.

Ümumilikdə tədbirdə 350-yə yaxın gənc iştirak edib. Konfransın yüksək təşkilati səviyyədə və maraqlı formatda keçirilməsi iştirakçılar tərəfindən məmnunluqla qarşılanıb.



### *Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri DİA -da olub*

Fevralın 2-də Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Birol Akgün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ali təhsil müəssisəsinin rəhbərliyi ilə görüşüb. DİA-nın rektoru, akademik Urxan Ələkbərov səfiri səmimiyyətlə salamlayaraq onu Akademiyada görməkdən məmnunluğunu ifadə edib. Rektor vurğulayıb ki, iki qardaş dövlət olan Azərbaycan və Türkiyə arasında dostluq və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətləri dinamik şəkildə inkişaf edir və bu əlaqələrdə təhsil sahəsi xüsusi əhəmiyyət daşıyır.

Səmimi qarşılanmaya və xoş sözlərə görə təşəkkürünü bildirən Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Birol Akgün Akademiya ilə yaxından tanışlığının onda yüksək təəssürat yaratdığını vurğulayıb və elm-təhsil sahəsində həyata keçirilən layihələrin əhəmiyyətindən danışıb.



Görüş iki ölkənin ali təhsil müəssisələri arasında gələcək əməkdaşlıq perspektivlərinin və qarşılıqlı təşəbbüslərin müzakirəsi ilə davam edib.

### *"Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim*

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi, dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması və insan resurslarının səmərəli idarə olunması istiqamətində həyata keçirilən tədbirlər

çərçivəsində maarifləndirici və ixtisasartırma təlimləri davam etdirilir. Bu məqsədlə 11 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim keçirilmişdir. Təlim Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, hüquq elmləri doktoru Asif Qədirov tərəfindən aparılmışdır.

Təlim çərçivəsində dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinin normativ-hüquqi əsasları, qiymətləndirmə sisteminin prinsipləri, meyarları və mərhələləri, nəticələrin ölçülməsi və təhlili mexanizmləri, eləcə də qiymətləndirmə nəticələrinin karyera inkişafı və motivasiya sisteminə inteqrasiyası məsələləri elmi-nəzəri və praktiki aspektdə təhlil olunmuşdur. Eyni zamanda fəaliyyətin qiymətləndirilməsi prosesində obyektivliyin, şəffaflığın və hesabatlılığın təmin edilməsi mexanizmləri geniş şəkildə izah edilmişdir.

Təlim interaktiv müzakirələr və praktiki nümunələr əsasında təşkil olunmuş, iştirakçıların sualları cavablandırılmışdır. Keçirilmiş təlim dövlət qulluqçularının idarəetmə kompetensiyalarının gücləndirilməsinə, fəaliyyətin sistemli qiymətləndirilməsi mədəniyyətinin formalaşdırılmasına və dövlət idarəçiliyində institusional keyfiyyətin yüksəldilməsinə töhfə vermişdir.

### *"Dövlət idarəçiliyində innovativ texnologiyalar" mövzusunda təlim*

10 fevral 2026-cı il tarixində Ağdam şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Dövlət idarəçiliyində innovativ texnologiyalar" mövzusunda səyyar təlim proqramına start verilib. Təlim proqramı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən "Bərpa, Tikinti və İdarəetmə Xidmətləri"nin əməkdaşları üçün nəzərdə tutulub və dövlət idarəçiliyində müasir yanaşmaların, innovativ texnologiyaların tətbiqi sahəsində bilik və bacarıqların artırılmasını hədəfləyir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edilib. Açılış mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respub-



likası Prezidentinin xüsusi nümayəndəsinin müavini Eldar Seyidov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və "Regional İnkişaf" İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı çıxış ediblər. Çıxışlarda dövlət idarəçiliyində innovativ yanaşmaların əhəmiyyəti, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və idarəetmə proseslərində peşəkar kadr potensialının rolu vurğulanıb.

Təlim proqramı çərçivəsində akademik Urxan Ələkbərov tərəfindən keçirilən təlimdə Azərbaycanın müasir dövlət idarəçiliyinin formalaşmasında liderliyin, institusional davamlılığın və innovativ yanaşmaların rolu geniş şəkildə təhlil olunmuş, ölkəmizin iqtisadi, texnoloji və idarəetmə potensialının Prezident İlham Əliyevin uzaqgörən siyasəti və ardıcıl islahatları nəticəsində əhəmiyyətli dərəcədə gücləndiyi vurğulanmışdır. Təlim çərçivəsində dövlət idarəçiliyinin klassik nəzəri əsasları ilə müasir idarəetmə prinsipləri qarşılıqlı müqayisə olunmuş, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş strateji idarəetmə və enerji siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən innovativ və adaptiv yanaşmalarla uğurla davam etdirildiyi qeyd edilmiş, dövlət qulluqçularının peşəkar bacarıqlarının artırılması baxımından praktiki əhəmiyyət daşıyan müzakirələr aparılmışdır.

Proqramın davamında "Azərbaycan Respublikasında dövlət idarəçiliyi islahatları" mövzusunda növbəti təlim keçirilib. Təlim siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Elnur Əliyev tərəfindən aparılıb. Sessiya zamanı dövlət idarəçiliyində institusional islahatların mərhələləri, normativ-hüquqi baza, şəffaflıq və hesabatlılığın gücləndirilməsi istiqamətində görülən tədbirlər, eləcə də idarəetmədə səmərəlilik və vətəndaş məmnunluğu prinsipləri ətraflı şəkildə izah olunub.

Təlim proqramının ikinci günündə hüquq elmləri doktoru, professor Namiq Əliyev "Dövlət idarəçiliyində protokol qaydaları" mövzusunda çıxış edib. Təlim çərçivəsində dövlət idarəçiliyində rəsmi protokol və etik davranış qaydalarının əhəmiyyəti, rəsmi sənədləşmə prosedurları və tədbirlərin təşkili prinsipləri iştirakçıların diqqətinə çatdırılıb.

Proqramın davamında siyasi elmlər üzrə fəlsəfə doktoru Esmira Osmanova tərəfindən "Dövlət idarəçiliyində komanda quruculuğu" mövzusunda təlim təşkil olunub. Təlim zamanı effektiv komanda modelinin formalaşdırılması, əməkdaşlıq və liderlik bacarıqlarının inkişaf etdirilməsi, həmçinin idarəetmə prosesində qarşılıqlı dəstək və koordinasiyanın rolu üzrə praktiki yanaşmalar təqdim edilib.

Təlim proqramı iştirakçılar tərəfindən yüksək məmnunluqla qarşılanmış və uğurla başa çatmışdır. Təlim proqramının növbəti mərhələlərinin mart-aprel aylarında davam etdirilməsi nəzərdə tutulur.

## *"İnnovativ dövlət idarəçilik texnologiyaları və onların tətbiqi: Azərbaycanın təcrübəsi" mövzusunda təlim*

12 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən Azərbaycan Respublikasının Müdafiə Nazirliyi əməkdaşları üçün "İnnovativ dövlət idarəçilik texnologiyaları və onların tətbiqi: Azərbaycanın təcrübəsi" mövzusunda təlim təşkil edilmişdir.

Təlimdə Akademiyanın rektoru, akademik Urxan Ələkbərov müasir dövlət idarəçiliyində innovativ texnologiyaların rolu, idarəetmə proseslərində rəqəmsal həllərin tətbiqi və institusional inkişaf mexanizmləri barədə ətraflı məruzə ilə çıxış etmişdir. O, dövlət idarəçiliyində çevik idarəetmə modellərinin, rəqəmsallaşmanın və strateji planlaşdırmanın əhəmiyyətini xüsusi vurğulamışdır.

Təlim çərçivəsində innovativ dövlət idarəçiliyinin nəzəri və praktiki əsasları sistemli

şəkildə təqdim olunmuş, klassik idarəetmə nəzəriyyələri ilə müasir yanaşmalar müqayisəli təhlil edilmişdir. Qeyd olunmuşdur ki, səmərəli idarəetmə modeli liderlik, institusional davamlılıq və ictimai etimad prinsiplərinə əsaslanmalıdır.

Akademik Urxan Ələkbərov çıxışında Azərbaycan Respublikasında həyata keçirilən genişmiqyaslı institusional islahatların və innovativ yanaşmaların dövlət idarəçiliyinin effektivliyinin artırılmasına xidmət etdiyini bildirmişdir. O vurğulamışdır ki, ölkədə formalaşmış müasir idarəetmə modeli strateji baxışa və uzunmüddətli inkişaf prioritetlərinə əsaslanır.

Təlim interaktiv formatda davam etmiş, iştirakçıların sualları cavablandırılmış və mövzu ətrafında geniş müzakirələr aparılmışdır. Tədbirin əsas məqsədi dövlət qulluqçularının innovativ idarəetmə texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılması, müasir idarəetmə təcrübələrinin praktik tətbiq imkanlarının genişləndirilməsi olmuşdur.

Sonda qeyd edilmişdir ki, bu kimi təlimlərin təşkili dövlət idarəçiliyində peşəkarlığın artırılmasına, institusional inkişafın gücləndirilməsinə və Azərbaycanın davamlı inkişaf strategiyasının dəstəklənməsinə mühüm töhfə verir.

### *DİA ilə MİCA arasında Memorandum imzalanıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə Mərkəzi Asiya Araşdırmaları üzrə Beynəlxalq İnstitut (MİCA) arasında əməkdaşlıq haqqında Memorandumun imzalanmasına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Akademiyanın rektoru, akademik Urxan Ələkbərov və MİCA-nın direktoru Javlon Vaxabov çıxış edərək qurumlar arasında əlaqələrin əhəmiyyətini vurğulayıb, əməkdaşlıq perspektivləri barədə danışıblar.

Görüş çərçivəsində tərəflər birgə elmi tədqiqatların həyata keçirilməsi, ortaq nəşrlərin hazırlanması, MİCA əməkdaşlarının DİA-da müxtəlif proqramlarda iştirakı, mühazirələrin təşkili, həmçinin qarşılıqlı ekspert və təcrübə



mübadiləsinin genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Tədbirin sonunda tərəflər əməkdaşlıq haqqında Memorandumu imzalayıblar və xatirə fotosu çəkdirilib.

İmzalanan sənəd iki qurum arasında elmi-tədqiqat və tədris sahəsində əməkdaşlığın genişləndirilməsinə, həmçinin gələcək birgə layihələrin həyata keçirilməsinə xidmət edəcək.

### *DİA-nın rektoru akademik Urxan Ələkbərov gənc fəalları təbrik edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov gənc fəalları təbrik edib. Görüşdə rektor Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının son zamanlar əldə etdiyi uğurları, xüsusilə də "İlin Tələbə Gənclər Təşkilatı" adını qazanması münasibətilə təbrik edərək təşkilatın gələcək fəaliyyətində uğurlar arzu edib.



### *"Müasir dövrdə təhsil prosesində rəqəmsal imkanlar" mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi tərəfindən müxtəlif kafedra müdirləri, əməkdaşları və müəllimləri üçün "Müasir dövrdə təhsil prosesində müəllimin rolu və rəqəmsal imkanlar" adlı təlim baş tutmuşdur.

Təlimdə "Müasir şəraitdə müəllimin rolu - yeni tələblər və yeni imkanlar", "Süni intellekt və rəqəmsal alətlər: müəllim fəaliyyətində - fürsətlər və ənənəvi pedaqogika ilə müqayisəsi", "Tələbəmərkəzli bacarıqlar və təcrübə mübadiləsi" adlı alt mövzular üzrə davam etdirilmişdir. Həmçinin açıq dərslər və müəllimlərin qiymətləndirmə meyarları haqqında geniş müzakirələr aparılmışdır. Qeyd edilmişdir ki, açıq dərslər yalnız bir nümayiş xarakteri daşımır, eyni zamanda müəllimlərin inkişafı, tələbələrin motivasiyası və təhsilin keyfiyyətinin artırılması üçün mühüm vasitədir. Düzgün təşkil olunmuş açıq dərslər ali təhsil müəssisəsində sağlam pedaqoji mühitin forma laşmasına böyük töhfə verir.

Dəyirmi masada Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi tərəfindən tələbələr arasında keçirilmiş anonim sorğuların nəticələri iştirakçılara təqdim edilmiş və geniş tərkibdə müzakirələr aparılmışdır. Sonda bəzi tövsiyələr verilmişdir.

### *“Dövlət idarəçiliyində rəqəmsal transformasiya: imkanlar və risklər” mövzusunda təlim proqramına start verilib*

16 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Dövlət idarəçiliyində rəqəmsal transformasiya: imkanlar və risklər” mövzusunda təlim proqramına başlanılmışdır. Təlim yerli icra hakimiyyəti orqanlarının sektor müdirləri üçün nəzərdə tutulmuş və dövlət idarəçiliyində rəqəmsal transformasiya proseslərinin institusional əsaslarının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi üzrə idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıyır.

Təlimin ilk günündə Akademiyanın Elm və Beynəlxalq Əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə elmlər doktoru, professor Elvin Əzizbəyov tərəfindən “Dövlət idarəçiliyində rəqəmsal transformasiya və innovativ idarəetmə” mövzusunda təlim keçirilmişdir. Təlim zamanı iştirakçılara rəqəmsal dövlət idarəçiliyi anlayışı, onun inkişaf mərhələləri, tətbiqini şərtləndirən əsas amillər və üstünlükləri barədə ətraflı təqdimatlar təqdim olunmuş, həmçinin dünya təcrübəsi, Azərbaycan modeli və “Azərbaycan 2030” strategiyası kontekstində rəqəmsal transformasiya məsələləri iştirakçıların diqqətinə çatdırılmışdır. Təlim çərçivəsində mövzuların praktik əhəmiyyəti və dövlət idarəçiliyində innovativ həllərin tətbiqi imkanları da müzakirə edilmişdir.

Təlim proqramına əsasən növbəti günlərdə professor Elvin Əzizbəyov iştirakçılara G-Cloud (Hökumət buludu), dövlət idarəçiliyində Blockchain texnologiyaları, dövlət sektorunda kibergigiyena və dövlət qulluqçuları üçün kibertəhlükələrin əsas növləri kimi aktual mövzular üzrə ətraflı məlumat verəcək, bu texnologiyaların tətbiqi imkanlarını, üstünlüklərini və dövlət idarəçiliyində innovativ həllərini izah edəcəkdir.

Təlim çərçivəsində Akademiyanın “İntellektual sistemlərin idarə olunması” kafedrasının dosenti Gülnar Mirzəyeva tərəfindən dövlət idarəçiliyində böyük verilənlər (Big Data) və data analitika yanaşmaları, məlumatların emalı və təhlili mexanizmləri, analitik əsaslı qərarvermə prosesləri üzrə təqdimatlar keçiriləcək, eyni zamanda dosent Hilalə Cəfərova tərəfindən dövlət idarəçiliyində süni intellekt texnologiyalarının tətbiqi, data mining metodları, proqnozlaşdırma modelləri və rəqəmsal mühitdə analitik idarəetmə alətləri barədə geniş izahlar veriləcək, mövzular nəzəri və praktik aspektlərdə təhlil olunacaqdır.




Ümumilikdə, təlim dövlət idarəçiliyində rəqəmsal transformasiya proseslərinin səmərəli və sistemli şəkildə həyata keçirilməsinə dəstək göstərməyi, rəhbər heyətin rəqəmsal

idarəetmə və innovativ texnologiyalara adaptasiya bacarıqlarını, həmçinin məlumat əsaslı qərarvermə və analitik idarəetmə kompetensiyalarını inkişaf etdirməyi hədəfləyir. Təlimin ilk günü uğurla başa çatmış, proqram isə 13 mart 2026-cı il tarixinədək davam edəcək. Təlimi uğurla başa vuran iştirakçılar isə sonda sertifikatlarla təltif olunacaqlar.

### *DİA tələbələri beynəlxalq tədbirdə iştirak ediblər*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllim-tələbə heyəti beynəlxalq konfransda iştirak ediblər.

Konfransda müzakirələr zamanı müstəmləkəçilik irsinin psixoloji və bioloji təsirləri, nəsillərarası travmalar, sosial nəticələr, eləcə də mədəniyyət, dil və identiklik məsələləri ön



plana çıxarılıb. Çıxış edənlər müstəmləkəçilik irsinin aradan qaldırılmasının, dekolonizasiya proseslərinin sürətləndirilməsinin və bu istiqamətdə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Fevralın 19-da Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm və qlobal bərabərsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.

### *"Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti" mövzusunda tədbir*

Fevralın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurası və YAP Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti" mövzusunda tədbir keçirilib

Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) inzibati binasında keçirilən tədbirdə əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu,



xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi qərarının əhəmiyyətindən danışıb. O, bu təşəbbüsün şəhərsalma siyasətində keyfiyyətli dəyişikliklərə və müasir memarlığın inkişafına töhfə verəcəyini vurğulayıb.

YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından mühüm prioritetlərdən birinə çevrilib. Onun sözlərinə görə, şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət kəsb edir.

Çıxış edən MİDA-nın İdarə Heyətinin sədri Sadiq Sadıqov deyib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir şəhərsalma və memarlıq siyasəti Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində uğurla davam etdirilir. Əlavə edib ki, şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov isə şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasəti barədə geniş məruzə ilə çıxış edib. Məruzədə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan şəhərsalma siyasətinin artıq ən müasir səviyyəyə çatdırıldığı vurğulanıb. U.Ələkbərov deyib ki, hazırda bu sahədə yüksək idarəetmə və inklüziv inkişaf mövcuddur: "Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir".

U.Ələkbərov qeyd edib ki, dünyada genişmiqyaslı şəhərsalma transformasiyası həyata

keçirilir. O vurğulayıb ki, Azərbaycan ən qabaqcıl şəhərsalma modellərini tətbiq edir, çoxsaylı beynəlxalq tərəfdaşları ilə geniş-miqyaslı əməkdaşlıq qurur. Bildirilib ki, diqqət mərkəzində olan məsələlərdən biri də şəhər-salma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasətinin ən müasir tələblərə uyğun təşkil olunmasıdır.

### *Belarus Respublikasının səfiri DİA -da olub*

Fevralın 24-də Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) olub. DİA-nın rektoru, akademik Urxan Ələkbərov qonağı səmimiyyətlə salamlayaraq onu Akademiyada görməkdən məmnun olduğunu bildirib. Rektor qeyd edib ki, Azərbaycan ilə Belarus arasında qarşılıqlı hörmət və etimada söykənən münasibətlər son illər daha da möhkəmlənib, əməkdaşlıq istiqamətləri genişlənib və bu prosesdə təhsil sahəsi xüsusi əhəmiyyət daşıyır.

Səmimi qarşılanmaya görə təşəkkürünü bildirən səfir Dmitri Pineviç Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında olmaqdan məmnun olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Belarus və Azərbaycan arasında bütün sahələrdə, o cümlədən, elm, mədəniyyət və humanitar sahələrdə əlaqələr genişlənməkdədir və bu tendensiya ali təhsil müəssisələri arasında əməkdaşlıq üçün yeni imkanlar yaradır. Səfir, Akademiyanın fəaliyyəti, tədris infrastrukturu və elmi mühiti ilə yaxından tanış olmasının onda yüksək təəssürat yaratdığını vurğulayıb.

Görüş qarşılıqlı maraq doğuran mövzuların müzakirəsilə davam edib. Görüşün sonunda Urxan Ələkbərov və Dmitri Pineviç qarşılıqlı olaraq bir-birilərinə xatirə hədiyyələri təqdim ediblər.



## *Dövlət İdarəçilik Akademiyasında Xocalı soyqırımına həsr olunmuş elmi-praktik konfrans*

2026-cı il fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə birgə Xocalı soyqırımın ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir.

ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verdiyini diqqətə çatdırdı. Bununla yanaşı, keçən dövr ərzində Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi



Konfransı giriş sözü ilə açan Akademiyanın rektoru, akademik Urxan Ələkbərov Xocalı soyqırımının Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuş ən ağır faciələrdən biri olduğunu vurğulamışdır. O qeyd etmişdir ki, bu kimi elmi tədbirlər həm tarixi ədalətin bərpasına, həm də soyqırımı həqiqətlərinin gələcək nəsillərə düzgün çatdırılmasına mühüm töhfə verir. Akademik Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasını müasir tariximizin ən mühüm və şərəfli hadisəsi kimi qiymətləndirdi. Rektor bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlandığını, 1994-cü istiqamətində davamlı olaraq addımlar atılmışdır. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir.

Daha sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov çıxış edərək qeyd etdi ki, 01.01.2026-cı il tarixə olan məlumata əsasən, Xocalı soyqırımı zamanı 210 nəfərin itkin düşmüş şəxs kimi Dövlət Komissiyanda qeydiyyata alındığını, onlardan 168 nəfərinin

mülki şəxslər, 42 nəfərinin isə şəhərin özünümüdafiə dəstəsinin üzvləri olduğunu qeyd etdi. Bildirildi ki, mülki şəxslərin arasında 38 nəfər uşaq (23 oğlan, 15 qız), 57 nəfər qadın (15 yaşlı qadın), 30 nəfər qoca da var. E.Səmədov Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsinin Dövlət Komissiyasının qarşısında vacib vəzifə kimi müəyyən edildiyini bildirdi.

İşçi qrupu rəhbərinin müavini etdi ki, 2021-ci ilin fevral ayından etibarən həyata keçirilən axtarış-qazıntı və ekshumasiya prosesində 831 itkin şəxsə aid ehtimal edilən meyit qalıqları aşkarlanaraq götürülmüşdür. Həmçinin proses nəticəsində işğaldan azad edilmiş ərazilərdə 32 kütləvi məzarlıq aşkarlanmışdır. Aşkarlnamış kütləvi məzarlıqlardan 252 nəfərə aid ehtimal edilən meyit qalıqları ekshumasiya edilmişdir. Aşkarlanmış meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, I Qarabağ müharibəsində itkin düşmüş 220 nəfərin şəxsiyyəti eynişləşdirilərək ictimaiyyətə açıqlanmış, ailələrinə təhvil verilmiş, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn edilmişlər. Vurğuladı ki, şəxsiyyəti eyniləşdirilmiş 220 nəfərdən 24 nəfəri Xocalı soyqırımı zamanı itkin düşmüş vətəndaşlardır.

Xüsusi ilə vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi məqsədilə 2022-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsində Genetik araşdırmalar mərkəzi yaradılmışdır.

Qeyd olundu ki, itkin düşmüş vətəndaşların taleyinin müəyyən olunması üçün hazırda Dövlət Komissiyası tərəfindən aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlər davam etdirilir.

Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının professoru Fuad Məmmədov öz çıxışında Xocalı soyqırımının tarixi-siyasi aspektlərini, hadisələrin başvermə ardıcıllığını və beynəlxalq media mənbələrinin həmin dövrdə təsdiqlədiyi faktları elmi əsaslarla təqdim etmişdir.

Akademiyanın "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, professor Elçin Əhmədov qeyd etmişdir ki, son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Ermənistanın bu cinayətkar siyasətinin davamlılığını sübut edən faktlardan biri də budur ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalmışdır. Ermənistanın Xocalıda dinc azərbaycanlılara qarşı beynəlxalq cinayətləri haqqında danışaraq xüsusi qeyd etdi ki, günahsız mülki əhalini özünə hədəf seçən Ermənistanın insanlıq əleyhinə törətdiyi bu cinayət əməli təsadüfi xarakter daşımır, belə əməllərin törədilməsi sistemli xarakter daşıyır və cinayətkar Ermənistan həm işğal zamanı, həm də işğalın davam etdiyi 30 ilə yaxın müddət ərzində mütəmadi olaraq cəbhəyanı ərazilərdə Azərbaycan vətəndaşı olan mülki əhalini, əsasən də qadınları və azyaşlı uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişdir. Eyni zamanda o, Xocalı həqiqətlərinin beynəlxalq aləmə çıxarılmasının zəruriliyini bir daha diqqətə çatdırmışdır. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, İkinci Qarabağ müharibəsində qazanılan şanlı qələbəmiz nəticəsində bütün işğaldan azad edilmiş ərazilərdə, o cümlədən Xocalıda Azərbaycan Respublikasının Dövlət Bayrağı qürurla dalğalanır.

Konfrans geniş müzakirələr və suallarla davam etdirildi.

### *“Etnik və dini müxtəliflik və onun tənzimlənməsi” mövzusunda təlim*

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, ictimai həmrəyliyin gücləndirilməsi və multikultural mühitin davamlı inkişafının təmin olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında sistemli şəkildə təlimlər həyata keçirilir.

Bu məqsədlə 25 fevral 2026-cı il tarixində Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün “Etnik və dini müxtəliflik və onun tənzimlənməsi” mövzusunda təlim keçirilmişdir. Təlim Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, fəlsəfə elmləri doktoru Etibar Nəcəfov tərəfindən aparılmışdır.

Təlimin əsas məqsədi cəmiyyətdə mövcud olan etnik və dini müxtəlifliyin mahiyyəti, formalaşma xüsusiyyətləri və sosial münasibətlər sistemində rolu barədə iştirakçılara sistemli nəzəri biliklərin verilməsi, eləcə də bu müxtəlifliyin dövlət siyasəti çərçivəsində tənzimlənməsi mexanizmlərinin izah edilməsi olmuşdur. Bununla yanaşı, yerli səviyyədə etnik və dini müxtəlifliyin düzgün qiymətləndirilməsi, potensial çağırışların vaxtında müəyyənləşdirilməsi və onların effektiv idarə olunmasına dair praktiki bacarıqların formalaşdırılması təlimin əsas prioritet istiqamətlərindən birini təşkil etmişdir.




Təlim çərçivəsində etnik və dini müxtəlifliyin normativ-hüquqi əsasları, institusional yanaşmalar, sosial harmoniyanın qorunması mexanizmləri, habelə yerli səviyyədə tətbiq oluna bilən idarəetmə alətləri həm elmi-nəzəri, həm də praktik müstəvidə təhlil edilmişdir.

Təlim interaktiv müzakirələr və praktiki nümunələr əsasında təşkil edilmiş, iştirakçıların sualları cavablandırılmışdır. Keçirilmiş təlim dövlət qulluqçularının analitik düşünmə, vəziyyətin düzgün qiymətləndirilməsi və qərarvermə bacarıqlarının gücləndirilməsinə, etnik-dini münasibətlərin balanslı və səmərəli tənzimlənməsi sahəsində peşəkar kompetensiyaların artırılmasına töhfə vermişdir.

***Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün təlim***

25 fevral 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyinin hüquqi təminatı" kafedrasının təşkilatçılığı ilə Hüquqşünaslıq ixtisası üzrə təhsil alan IV kurs tələbələri üçün "Dövlət və yerli özünüidarəetmə sahəsində korrupsiya riskləri və onların qarşısının alınması mexanizmləri" mövzusunda təlim təşkil olunmuşdur.

Təlim Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsinin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu Nuridə Əlizadə tərəfindən keçirilib.

Tədbirdə korrupsiyanın anlayışı, mahiyyəti və tarixi barədə ətraflı məlumat verilib, dövlət və yerli özünüidarəetmə orqanlarının fəaliyyətində mövcud korrupsiya riskləri təhlil edilib. Eyni zamanda korrupsiyanın qarşısının alınması məqsədilə tətbiq olunan institusional və daxili nəzarət mexanizmləri, habelə hüquqi məsuliyyət məsələləri izah olunub.

Təlim çərçivəsində həm dövlət, həm də bələdiyyə sahəsində maraqlar toqquşmasının tipik halları diqqətə çatdırılıb, korrupsiya ilə etik davranış prinsipləri arasındakı qarşılıqlı əlaqə şərh edilib. Bildirilib ki, etik davranış normalarına riayət və şəffaf idarəçilik prinsiplərinin tətbiqi korrupsiya risklərinin azaldılmasında mühüm rol oynayır.

İnteraktiv formada keçirilən təlim zamanı tələbələrlə fikir mübadiləsi aparılıb, gənclərin korrupsiyaya qarşı mübarizədə rolu və hüquqi maarifləndirmənin əhəmiyyəti vurğulanıb, iştirakçıların sualları cavablandırılıb.

***26 Fevral – Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş tədbir***

26 Fevral – Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Art" və "Vətənpərvərlik" klublarının birgə təşkilatçılığı ilə 26 Fevral – Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Xocalı – yaddaşımızda yaşayan tarix" adlı ədəbi-bədii tədbir keçirilib.

DIA-nın "Qarabağ İrsinin Araşdırma Mərkəzi"nin rəhbəri, professor Elçin Əhmədov Xocalı soyqırımı ilə bağlı geniş məruzə ilə çıxış edib. O, tarixdə misli görünməmiş qəddarlıqla qətlə yetirilən günahsız insanların faciəli taleyindən bəhs edib, eyni zamanda bu gün azad edilmiş torpaqlarda həyatın yenidən bərpa olunması və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı barədə danışıb.

Akademiyanın Tələbə Gənclər Təşkilatının sədri İxtiyar Mahmudzadə Xocalı faciəsinin tarixi və mənəvi aspektlərinin gənclər arasında geniş təbliğinin vacibliyini vurğulayıb.

Tədbirin bədii hissəsində Azərbaycan Milli Konservatoriyasının Tələbə Gənclər Təşkilatının üzvləri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri və Dövlət İdarəçilik Akademiyasının tələbələri tərəfindən Xocalı faciəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edilib.

Sonda Xocalı faciəsini keçmişdən bu günə qədər əks etdirən videoçarx nümayiş olunub.

### *DİA -da – "English for Diplomacy" kitabı nəşr olunub*




Müasir qlobal diplomatiya dövründə ingilis dilində effektiv ünsiyyət gələcək diplomatlar, beynəlxalq münasibətlər mütəxəssisləri və qlobal məsələlər üzrə peşəkarlar üçün əvəzedilməz bacarığa çevrilmişdir. Beynəlxalq təşkilatların, diplomatiyanın və çoxtərəfli danışıqların "lingua franca"sı kimi ingilis dili xarici siyasət dialoqunun formalaşmasında və mədəniyyətlərarası əlaqələrin qurulmasında həlledici rol oynayır. Qloballaşan dünyada diplomatiya artıq qapalı qapılar arxasında baş verən fəaliyyət deyil; bu sahə beynəlxalq münasibətləri dərindən anlamaqla yanaşı, güclü və strateji ünsiyyət bacarıqları tələb edən dinamik peşəyə çevrilmişdir.

Məhz bu reallıqlar və mövcud tələbat nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun təşəbbüsü ilə Peşəkar Seriya çərçivəsində "English for Diplomacy" adlı yeni dərs vəsaiti nəşr olunmuşdur. Sözügedən nəşr Peşəkar Seriyanın ikinci dərs vəsaitidir. Seriyanın ilk nəşri "English for Civil Servants" olmuşdur.

Yeni dərs vəsaiti Dillər kafedrasının müdiri, Peşəkar Seriyanın baş redaktoru və layihə rəhbəri Ülkər Şəfiyevanın bilavasitə rəhbərliyi və elmi-metodiki nəzarəti altında hazırlanmışdır.

Dərs vəsaitinin müəllifləri Akademiyanın müəllimləri Gülsərən Ömərova, Səbinə Əliyeva, Günay Qurbanova və Sveta Qədimovadır.

Dərs vəsaiti tələbələrin, gənc mütəxəssislərin və diplomat hazırlığı keçən şəxslərin ehtiyaclarına uyğun şəkildə tərtib edilmişdir. Vəsait həm rəsmi, həm də qeyri-rəsmi kontekstlərdə diplomatik dili mənimsəmək istəyənlər üçün nəzərdə tutulmuşdur. Burada ikitərəfli görüşlərdən və mətbuat konfranslarından tutmuş mədəniyyətlərarası danışıqlara və rəsmi yazışmalara qədər real diplomatik situasiyaları əks etdirən orijinal dil materialları və praktiki tapşırıqlar təqdim edilir.

Dərs vəsaitinin hər bölməsi dinləmə, oxu, danışıq və yazı bacarıqlarının inkişafına xidmət edir, eyni zamanda diplomatların istifadə etdiyi mühüm terminologiya və protokol dili ilə oxucunu tanış edir. Müasir beynəlxalq arenada xüsusi əhəmiyyət kəsb edən mədəniyyətlərarası həssaslıq, strateji kommunikasiya və diplomatik etiket məsələlərinə geniş yer ayrılmışdır.

Struktur aydınlığı, metodiki balansı və praktik yönümlülüyü ilə seçilən bu dərs vəsaiti həm auditoriya şəraitində tədris, həm də müstəqil öyrənmə üçün əlverişlidir. Xarici işlər sahəsində, beynəlxalq təşkilatlarda və ya ictimai diplomatiya istiqamətində karyera qurmaq istəyənlər üçün "English for Diplomacy" etibarlı və peşəkar bələdçi rolunu oynayacaqdır.

### *Azərbaycan Hava Yolları (AZAL) nümayəndələri tərəfindən "Aviasiya sahəsində iqtisadi planlaşdırma və xərclərin idarə edilməsi" mövzusunda seminar*

Heydər Əliyev Beynəlxalq Hava Limanında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının TGT "İqtisadiyyat" klubunun üzvləri üçün Azərbaycan Hava Yolları (AZAL) nümayəndələri tərəfindən "Aviasiya sahəsində iqtisadi planlaşdırma və xərclərin idarə edilməsi" mövzusunda seminar keçirilmişdir.



Seminarın əsas məqsədi tələbələrin aviasiya sektorunda iqtisadi idarəetmə, maliyyə planlaşdırılması və strateji qərarvermə sahəsində biliklərinin artırılması olmuşdur. Tədbir çərçivəsində iştirakçılara aviasiya sahəsində maliyyə planlaşdırılması, büdcə idarəetməsi, xərclərin optimallaşdırılması və strateji qərarların iqtisadi əsaslandırılması istiqamətində geniş və ətraflı məlumat verilmişdir.

Eyni zamanda seminar interaktiv formatda təşkil olunmuş, tələbələri maraqlandıran suallar AZAL nümayəndələri tərəfindən cavablandırılmış, aviasiya sektorunda karyera imkanları və praktiki təcrübənin əhəmiyyəti xüsusi vurğulanmışdır. Tədbirin sonunda iştirakçılar üçün hava limanının fəaliyyəti, logistika və idarəetmə prosesləri ilə bağlı maarifləndirici müzakirələr aparılmışdır.

### *Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyəti Xocalı soyqırımına həsr olunmuş dəyirmi masa*

Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyəti Xocalı soyqırımına həsr olunmuş dəyirmi masa keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyəti tərəfindən tələbə və

magistrantların iştirakı ilə Xocalı soyqırımın 34-cü ildönümünə həsr olunmuş dəyirmi masa keçirilmişdir.

Tədbir Xocalı soyqırımı qurbanlarının və torpaqlarımız uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Dəyirmi masanı Dövlət İdarəçilik Akademiyasının Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov açaraq, 34 il bundan əvvəl, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri tərəfindən azərbaycanlılara qarşı Xocalı soyqırımının törədildiyini, əliyalın dinc əhalinin - qadın, uşaq və qocaların amansızlıqla qətlə yetirildiyini, bu qətliamın insanlığa qarşı qanlı cinayət olduğunu, Xocalı soyqırımına yalnız Ümummilli lider Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra siyasi və hüquqi qiymət verildiyini qeyd etmişdir. Natiq xalqımızın tarixinə qara səhifə kimi düşmüş Xocalı soyqırımı barədə həqiqətlərin dünyaya çatdırılması, bu dəhşətli qətliamın soyqırım aktı kimi tanınması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin gördüyü işlərdən, Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla Əliyevanın reallaşdırdığı “Xocalıya Ədalət” kampaniyasının böyük əhəmiyyətindən geniş söhbət açmışdır. Qeyd olunmuşdur ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin yenilməz iradəsi və qətiyyəti, Rəşadətli Azərbaycan ordusunun qəhrəmanlığı nəticəsində əldə olunan Böyük Qələbə tarixi ədalətin bərpasının təcəssümü olmaqla, Xocalı yaddaşının mənəvi və tarixi məzmunu dövlət başçımızın uğurla reallaşdırdığı Böyük Qayıdış Strategiyası vasitəsilə praktiki siyasətə çevrilmişdir. Sonda Tələbə Elmi Cəmiyyətinin keçirdiyi dəyirmi masanın olduqca vacib mövzuya həsr olunduğu bildirilərək, müzakirələrin tələbə və magistrantların fəal iştirakı ilə keçəcəyinə əminlik ifadə edilmişdir.

Sonra Akademiya Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, professor Sevil Məmmədova, “Siyasi idarəetmə” fakültəsinin dekanı, dosent Murtəza Həsənov, “Fəlsəfə və sosial psixoloiya” kafedrasının dosenti Hüseyn İbrahimov, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Şükürov, doktorant Cahangir Həsənov ətraflı çıxış etmiş, aparılan geniş müzakirələrdə magistrant və tələbələr, o cümlədən Ayşə Əlili, Aysel Cəfərova, Aytac Adıgözəlli, Əli Qasımov, Seyidcahan Əlizadə, Tural Bürcəliyev, Fatimə Əsədzadə, Səadət Ələkbərova, Əfsanə İbrahimova, Misir Məmmədov, Mirhəsən Həsənov və b. iştirak etmiş, ətraflı fikir mübadiləsi aparılmış, suallar cavablandırılmışdır.

### *DİA-da “Azərbaycan cəmiyyətinin inkişaf mərhələlərində qadınların rolu” adlı tədbir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi”nin təşkilatçılığı ilə – 8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə “Azərbaycan cəmiyyətinin inkişaf mərhələlərində qadınların rolu” adlı tədbir keçirilmişdir.

Akademiyanın rektoru, akademik Urxan Ələkbərov tədbir iştirakçılarını bayram münasibətilə təbrik edərək Azərbaycan qadınlarının cəmiyyətin inkişafında, dövlət quruculuğu prosesində və milli-mənəvi dəyərlərin qorunmasında mühüm rol oynadıqlarını vurğulayıb. Rektor çıxışında Azərbaycanın Birinci vitse-prezidenti, Mehriban Əliyevanın fəaliyyəti haqqında da fikirlərini bölüşərək qeyd edib ki, onun çoxşaxəli ictimai və humanitar fəaliyyəti Azərbaycan qadınının yüksək mənəvi keyfiyyətlərini, humanizm və xeyirxahlıq ənənələrini bütün dünyada təcəssüm etdirir. Bildirilib ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi layihələr mədəni irsin qorunması, təhsil və sosial sahələrin inkişafı, humanitar təşəbbüslərin həyata keçirilməsi baxımından böyük əhəmiyyət daşıyır və Azərbaycan qadınları üçün nümunəvi fəaliyyət modelidir.



Tədbirdə CBC TV-nin baş redaktoru Elmira Musazadə, Bakı Təhsil Məlumat Mərkəzinin rəhbəri, “Qırmızı Ürəklər” Xeyriyyə Fondunun nümayəndəsi Günay Məsimova, Qida Təhlükəsizliyi Hərəkatının təsisçisi və rəhbəri, eyni zamanda Azərbaycan–Türkiyə Qida Təhlükəsizliyi İctimai Birliyinin sədri Məhsəti Hüseynova, “Sevil Art” brendinin təsisçisi, rəssam-dizayner Sevil Əhmədova çıxış edərək qadınların cəmiyyət həyatında artan rolundan, müxtəlif sahələrdə qazandıqları nailiyyətlərdən və gənc nəslin inkişafında onların töhfəsindən danışıblar.

Tədbirdə qadınların cəmiyyətin inkişafında oynadığı rolun daha da gücləndirilməsi, onların ictimai və peşəkar fəaliyyətinin dəstəklənməsi istiqamətində fikir mübadiləsi aparılıb. Tədbirin sonunda çıxış edən tələbələrin mükafatlandırma mərasimi keçirilmişdir.

### *Naxçıvanda “Dövlət maliyyəsinin idarəedilməsi: mərkəzi və yerli büdcələr” mövzusunda təlim*

04 mart 2026-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üçün “Dövlət maliyyəsinin idarəedilməsi: mərkəzi və yerli büdcələr” mövzusunda təlim təşkil olunub. Təlimi Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Azər Əmiraslanov aparıb.

Azər Əmiraslanov çıxışında vurğulayıb ki, milli iqtisadiyyat anlayışı iqtisadi müstəqilliyin möhkəmləndirilməsinə, daxili resurslara əsaslanan inkişaf modelinin qurulmasına, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin artırılmasına və səmərəli institusional idarəetmə mexanizmlərinin formalaşdırılmasına



yönəlmiş strateji konsepsiyanı ifadə edir. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi antiinflyasiya tədbirləri və makroiqtisadi sabitliyin təmininə yönəlmiş siyasət ölkədə milli iqtisadiyyatın dayanıqlı əsaslarının yaradılmasında mühüm rol oynayıb.

və möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib və həmin proses milli iqtisadi düşüncənin formalaşmasına da təsir göstərib.

Çıxışda Azərbaycanın həyata keçirdiyi neft strategiyasının ölkənin maliyyə sabitliyinin təmin olunmasına və struktur islahatlarının həyata keçirilməsinə möhkəm zəmin yaratdığı bildirilib. Bununla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafının dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri olduğu vurğulanıb.

Təlim interaktiv formatda keçirilib, iştirakçılar mövzu ətrafında fəal müzakirələr apararaq dövlət idarəçiliyində effektiv mexanizmlərin tətbiqi, sahibkarlıq mühitinin inkişafı, qeyri-neft sektorunun perspektivləri və iqtisadi transformasiya prosesləri ilə bağlı fikir mübadiləsi ediblər. Tədbir iştirakçılar tərəfindən yüksək qiymətləndirilib və dövlət idarəçiliyi



Təlim zamanı Naxçıvanın Azərbaycan dövlətçilik tarixində tutduğu xüsusi mövqeyə də diqqət çəkilib. Qeyd olunub ki, bu region dövlətçilik ənənələrinin qorunub saxlanılması

sahəsində kadr potensialının gücləndirilməsi, iqtisadi çağırışlara strateji yanaşmanın formalaşdırılması baxımından mühüm platforma kimi dəyərləndirilib.

### *"Şəhərsalma və Memarlıq İli" çərçivəsində silsilə təlimlər təşkil olunub*

Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən "Şuşa – şəhərsalma mədəniyyətinin nadir incisi kimi: tarix və müasirlik" mövzusunda silsilə təlimlər təşkil olunub.

Təlimlər Akademiyanın "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov tərəfindən aparılıb.

Martın 10-da ASAN Xidmət mərkəzlərinin əməkdaşları üçün keçirilən təlim zamanı Şuşa şəhərinin tarixi inkişaf mərhələləri, şəhərin planlaşdırılma prinsipləri və onun Qafqaz regionunda formalaşmış şəhərsalma ənənələri içərisində xüsusi yeri barədə geniş məlumat verilib.

Təlimdə Şuşanın XVIII əsrdə Qarabağ xanlığının paytaxtı kimi formalaşması, şəhərin relyefə uyğun memarlıq-planlaşdırma quruluşu, məhəllə sistemi, tarixi abidələri və ictimai məkanları haqqında danışılıb. Eyni zamanda, azadlıqdan sonra şəhərdə aparılan bərpa və yenidənqurma işləri, tarixi-memarlıq abidələrinin qorunması, şəhərin orijinal simasının saxlanılması istiqamətində həyata keçirilən dövlət siyasəti barədə məlumat verilib. Təlimdə şəhərsalma irsinin qorunmasının dövlət idarəçiliyi və ictimai xidmət sahəsində çalışan əməkdaşlar üçün əhəmiyyəti də xüsusi vurğulanıb.

Martın 12-də isə dövlət qurumlarında fəaliyyət göstərən DİA könüllüləri və Akademiyanın tələbələri üçün analoji mövzuda təlim təşkil olunmuşdur. Təlim zamanı Şuşa şəhərinin Azərbaycanın mədəni və tarixi həyatındakı rolu, onun memarlıq irsinin milli kimliyin formalaşmasında əhəmiyyəti haqqında geniş məlumat verilib.

Təlimdə Şuşanın memarlıq abidələri, məscidləri, yaşayış binaları və tarixi məhəllələrinin şəhərsalma baxımından xüsusiyyətləri, eləcə də şəhərin bərpası prosesində tətbiq olunan müasir yanaşmalar müzakirə olunub. Gənclərə şəhərsalma irsinin qorunmasının gələcək nəsillər üçün əhəmiyyəti, milli-mədəni dəyərlərin təbliği və bu sahədə gənclərin maarifləndirilməsinin vacibliyi barədə məlumat verilib.

İnteraktiv müzakirələr formatında keçirilən təlimlər iştirakçılar tərəfindən maraqla qarşılanıb, mövzu ilə bağlı fikir mübadiləsi aparılıb və suallar cavablandırılıb.

### *Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin aparat rəhbərinin müavini DİA-da olmuşdur*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Rəqəmsal dövrdə dövlət idarəçiliyində yeni idarəetmə tendensiyaları" mövzusunda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin aparat rəhbərinin müavini Bəxtiyar Məmmədov ilə görüş keçirilmişdir.

Tədbirin moderatoru, DİA-nın rektorunun İctimai əlaqələr üzrə müşaviri Zaur Məmmədov qonağı salamlamış, bu cür görüşlərin tələbələrin dövlət idarəçiliyi sahəsində bilik və dünyagörüşlərinin genişlənməsində mühüm rol oynadığını qeyd etmişdir. O, xüsusilə rəqəmsallaşmanın müasir idarəetmə proseslərində artan əhəmiyyətindən danışmışdır.

DİA-nın Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov çıxış edərək rəqəmsal dövrdə dövlət idarəçiliyində baş verən transformasiya proseslərindən və yeni idarəetmə tendensiyalarından danışmışdır. O qeyd etmişdir ki, müasir dünyada texnologiyanın sürətli inkişafı dövlət idarəçiliyi sistemlərinin də yenilənməsini zəruri edir. Prorektor vurğulamışdır ki, rəqəmsallaşma təkcə texnoloji yenilik deyil, eyni zamanda idarəetmə fəlsəfəsinin dəyişməsi, dövlət qurumlarının fəaliyyətində şəffaflığın,



operativliyin və vətəndaş məmnuniyyətinin artırılması deməkdir.

Elvin Əzizbəyov bildirmişdir ki, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlət idarəçiliyinin modernləşdirilməsi istiqamətində mühüm addımlar atılır, elektron xidmətlər genişləndirilir və dövlət-vətəndaş münasibətlərində rəqəmsal platformaların rolu getdikcə artır. Onun sözlərinə görə, rəqəmsal transformasiya dövlət qurumlarının fəaliyyətində məlumatların effektiv idarə olunmasına, qərarların daha operativ və əsaslandırılmış şəkildə qəbul edilməsinə imkan yaradır.

Tədbirin qonağı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin aparat rəhbərinin müavini Bəxtiyar Məmmədov çıxışında rəqəmsal transformasiya, dövlət idarəçiliyində innovativ yanaşmalar və müasir idarəetmə modelləri haqqında ətraflı məlumat vermişdir. O, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, elektron hökumət sistemlərinin inkişafı və texnologiyaların idarəetmədə səmərəliliyin artırılmasındakı rolundan bəhs etmişdir. Həmçinin rəqəmsal dövrdə çevik qərar qəbuletmə mexanizmlərinin, məlumat əsaslı idarəetmə prinsiplərinin və texnoloji yeniliklərin dövlət idarəçiliyində yeni tendensiyalar formalaşdırdığını vurğulamışdır.

Bəxtiyar Məmmədov öz fəaliyyət təcrübəsindən nümunələr gətirərək gənclərin rəqəmsal bacarıqlara yiyələnməsinin, innovativ düşüncə tərzinə sahib olmasının və dövlət idarəçiliyi sahəsində müasir çağırışlara hazır olmasının vacibliyini qeyd etmişdir.

Görüş çərçivəsində İnzibati idarəetmə fakültəsinin dekanı Elnur Əliyev çıxış edərək bildirmişdir ki, müasir dövrdə dövlət idarəçiliyinin inkişafı texnologiya və innovasiyaların tətbiqi ilə sıx bağlıdır. O qeyd etmişdir ki, Dövlət İdarəçilik Akademiyasında da tələbələrin rəqəmsal bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif təşəbbüslər həyata keçirilir.

Tədbirin sonunda görüşün təşəbbüskarları "Müasir İdarəçilər" klubunun üzvləri ilə qonaq arasında sual-cavab sessiyası keçirilmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

## *"Dövlət idarəçiliyində rəqəmsal transformasiya: imkanlar və risklər" mövzusunda təlim proqramı*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) təşkil olunan "Dövlət idarəçiliyində rəqəmsal transformasiya: imkanlar və risklər" mövzusunda təlim proqramı uğurla yekunlaşıb. Yerli icra hakimiyyəti orqanlarının sektor müdirləri üçün nəzərdə tutulan təlim proqramı dövlət idarəçiliyində rəqəmsal transformasiya proseslərinin institusional əsaslarının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi üzrə idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıyıb.




"Dövlət idarəçiliyində rəqəmsal transformasiya və innovativ idarəetmə" mövzusunda təqdimatlar DİA -nın prorektoru, professor Elvin Əzizbəyov tərəfindən keçirilib. Təlim çərçivəsində iştirakçılara rəqəmsal dövlət idarəçiliyi anlayışı, onun inkişaf mərhələləri, tətbiqini şərtləndirən əsas amillər və üstünlükləri barədə ətraflı məlumat verilib. Eyni zamanda, dünya təcrübəsi və Azərbaycanın rəqəmsal inkişaf modeli kontekstində bu sahədə həyata keçirilən islahatlar müzakirə olunub.

Bununla yanaşı, təlimin növbəti sessiyalarında professor Elvin Əzizbəyov tərəfindən G-Cloud (Hökumət buludu) infrastrukturu, dövlət idarəçiliyində Blockchain texnologiyalarının tətbiqi, dövlət sektorunda kibergigiyena və dövlət qulluqçuları üçün əsas kibertəhlükə növləri kimi aktual mövzular təqdim edilib. Bu texnologiyaların dövlət idarəçiliyində tətbiq imkanları, üstünlükləri və innovativ idarəetmə həlləri ətrafında geniş müzakirələr aparılıb.

Təlim proqramı çərçivəsində Akademiyanın "İntellektual sistemlərin idarə olunması" kafedrasının müəllimi, mexanika üzrə fəlsəfə doktoru, dosent Gülnar Mirzəyeva tərəfindən "Dövlət idarəçiliyində Böyük verilənlər" və "Böyük verilənlərin analiz üsulları" mövzularında təqdimatlar keçirilmiş, böyük verilənlərin dövlət idarəçiliyində tətbiqi imkanları, məlumatların emalı və analizi yanaşmaları iştirakçıların diqqətinə çatdırılmışdır. Eyni zamanda həmin kafedranın müəllimi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Hilalə Cəfərova tərəfindən "Dövlət idarəçiliyində süni intellekt texnologiyaları" və "İdarəetmə sistemlərində Data mining metodlarının tətbiqi" mövzuları təqdim olunmuş, süni intellekt əsaslı analitik alətlər, məlumatların dərin təhlili və proqnozlaşdırma modellərinin dövlət idarəetmə proseslərində tətbiqi imkanları nəzəri və praktiki aspektlərdə izah edilmişdir.

Təlim zamanı keçirilən müzakirələr və praktiki təqdimatlar iştirakçıların rəqəmsal idarəetmə sahəsində bilik və bacarıqlarının artırılmasına, innovativ texnologiyaların dövlət idarəçiliyində tətbiqi imkanlarının daha dərindən mənimsənilməsinə şərait yaradıb. 13 mart 2026-cı il tarixində təlim proqramını uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

Ümumilikdə, təlim proqramı dövlət idarəçiliyində rəqəmsal transformasiya proseslərinin səmərəli və sistemli şəkildə həyata keçirilməsinə dəstək göstərməyi, rəhbər heyətin rəqəmsal idarəetmə və innovativ texnologiyalara adaptasiya bacarıqlarını, eləcə də məlumat əsaslı qərarvermə və analitik idarəetmə kompetensiyalarını inkişaf etdirməyi hədəfləyib.

### *DİA və beyin mərkəzləri arasında əlaqələr genişlənir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Topçubaşov Mərkəzinin sədri Rusif Hüseynovun iştirakı ilə "Son proseslər fonunda Azərbaycanın xarici siyasəti" mövzusunda gənclərlə görüş keçirilmişdir. Tədbiri giriş sözü ilə açan DİA-nın rektorunun ictimai əlaqələr üzrə müşaviri, siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Məmmədov müasir dövrdə regionda və dünyada baş verən mürəkkəb geosiyasi proseslər fonunda belə müzakirə platformalarının təşkilinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamışdır. O qeyd etmişdir ki, gənclərin beynəlxalq münasibətlər və xarici siyasət sahəsində biliklərinin artırılması, onların analitik düşüncə qabiliyyətinin inkişaf etdirilməsi baxımından universitetlərdə aparılan açıq müzakirələr mühüm rol oynayır.

Zaur Məmmədov çıxışında beyin mərkəzləri ilə ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyinə də toxunmuşdur. Onun sözlərinə görə, elmi-tədqiqat mərkəzləri və universitetlər arasında qurulan belə dialoq platformaları gənclərin həm nəzəri biliklərini zənginləşdirir, həm də onların aktual siyasi proseslərə daha dərindən yanaşmasına imkan yaradır. O, bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının ölkənin aparıcı akademik mühitlərindən biri kimi seçildiyini və burada mütəmadi olaraq müxtəlif mövzularda ekspert görüşlərinin keçirildiyini qeyd etmişdir.

Daha sonra çıxış edən Topçubaşov Mərkəzinin sədri Rusif Hüseynov müasir beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər və bu proseslərin regiona təsiri haqqında geniş təqdimatla çıxış etmişdir. O bildirmişdir ki, son illər qlobal siyasətdə güc balansının dəyişməsi, böyük dövlətlər arasında rəqabətin artması və müxtəlif regional münaqişələrin meydana çıxması beynəlxalq münasibətlər sistemində yeni reallıqlar formalaşdırır. Bu kontekstdə Azərbaycanın həyata keçirdiyi balanslaşdırılmış və praqmatik xarici siyasət kursu ölkənin milli maraqlarının qorunmasına və regionda sabitliyin möhkəmlənməsinə xidmət edir.

Rusif Hüseynov çıxışında Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsi, regional layihələrdə fəal iştirakı və çoxtərəfli diplomatiya siyasətinin ölkənin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verdiyini qeyd etmişdir. O həmçinin vurğulamışdır ki, müasir dövrdə xarici siyasətin effektiv həyata keçirilməsi üçün yalnız diplomatik fəaliyyət deyil, eyni zamanda analitik düşüncə, strateji planlaşdırma və ekspert müzakirələri də böyük əhəmiyyət daşıyır.

Görüş interaktiv formatda davam etmiş, tələbələr və tədbir iştirakçıları tərəfindən verilən suallar cavablandırılmış, Azərbaycanın xarici siyasətinin müxtəlif istiqamətləri, regionda baş verən son siyasi proseslər və beynəlxalq münasibətlərin aktual məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Tədbir iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

## *"Azərbaycan-Ermənistan münasibətləri müstəvisində: tarix və müasirlik" mövzusunda elmi seminar*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi"nin təşkilatçılığı ilə "Cənubi Qafqazda təhlükəsizlik Azərbaycan-Ermənistan münasibətləri müstəvisində: tarix və müasirlik" mövzusunda elmi seminar keçirilibdir.

Seminarın əsas məqsədi Azərbaycan və ümumilikdə regionda erməni millətçiliyinin formalaşma mərhələlərinin, onun ideoloji əsaslarının və tarixi-siyasi kontekstinin tələbələrə daha ətraflı şəkildə izah olunması və 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyətin beynəlxalq müstəvidə dəyərləndirilməsi olmuşdur.

Seminarda Tarix kafedrasının müdiri, dos. Firdovsiyyə Əhmədova, ictimai əlaqələr üzrə müşaviri, s.e.f.d. Zaur Məmmədov, Tarix kafedrasının professoru, t.e.d. Havva Məmmədova, dosenti Rəna Bayramova, Azərbaycan Dillər Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının müdiri, s.e.d., professor Aida Yusifzadə, politoloq Murad Sadaddinov, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin veteranı, İrəvan xanlarının nəslindən olan ictimai fəal Gülçöhrə Qənizadə, jurnalist və ekspert Rasim Babayev və digərləri iştirak etmişlər.




Elmi seminarda məruzəçi qismində Qafqaz Tarixi Mərkəzinin direktoru, UNESKO kafedrasının assosiativ professoru Rizvan Hüseynov çıxış etmişdir. Məruzədə erməni millətçiliyinin yaranma və inkişaf mərhələləri, onu dəstəkləyən qüvvələr, erməni millətçiliyinin formalaşması üçün istifadə olunmuş ideoloji və saxta tarixi baza, həmçinin XVIII-XX əsrlərdə Cənubi Qafqaz regionunda baş verən geosiyasi proseslər haqqında geniş şəkildə bəhs edilmişdir.

Müzakirələr çərçivəsində Qafqaz regionunda baş verən tarixi hadisələr, Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq, həmçinin regionda təhlükəsizlik və sabitlik məsələləri də diqqət mərkəzində olmuşdur. Eyni zamanda, 44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni siyasi reallıqlar və beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər barədə fikir mübadiləsi aparılmışdır.

### *"Aqrourbanizm davamlı şəhər inkişafı üçün vasitə kimi" mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən ASAN Xidmət mərkəzlərinin əməkdaşları üçün 16 mart 2026-cı il tarixində "Aqrourbanizm davamlı şəhər inkişafı üçün vasitə kimi: üzvi istehsalın şəhər mühitinin formalaşmasında rolu" mövzusunda təlim təşkil olunub. Təlim Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən "Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunaraq şəhər mühitində davamlı inkişaf prinsiplərinin tətbiqi, aqrourbanizm yanaşmasının şəhər planlaşdırılması və idarəetmə proseslərində rolu, həmçinin üzvi istehsalın şəhər ekosisteminin formalaşmasına təsiri barədə iştirakçıların məlumatlılığının artırılmasına yönəlib.

Təlim Akademiyanın "Davamlı inkişafın planlaşdırılması və idarəedilməsi" kafedrasının baş müəllimi, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayev tərəfindən aparılıb. Təlim zamanı şəhər mühitində kənd təsərrüfatı fəaliyyətinin inteqrasiyası, ekoloji davamlılıq, yerli ərzaq istehsalının təşviqi və urban kənd təsərrüfatının şəhərlərin inkişafında rolu kimi məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Təlim çərçivəsində iştirakçılar aqrourbanizmin beynəlxalq təcrübəsi, şəhər mühitində yaşıl məkanların inkişafı və şəhər ekosisteminin daha dayanıqlı şəkildə formalaşdırılması istiqamətində tətbiq edilən yanaşmalar barədə məlumat əldə ediblər. Təlim interaktiv müzakirələrlə davam edib və iştirakçıların sualları cavablandırılıb.

Bu kimi təlimlər dövlət qurumları əməkdaşlarının davamlı şəhər inkişafı, ekoloji idarəetmə və müasir şəhərsalma yanaşmaları sahəsində biliklərinin artırılmasına xidmət edir.

### *Mürtəza Həsənovun həmmüəllifi olduğu "İdarəetmə strukturlarının tədqiqi" adlı kitab nəşr edilib*




Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, dosent Mürtəza Həsənovun həmmüəllifi olduğu "İdarəetmə strukturlarının tədqiqi" adlı kitab Türkiyədə nəşr olunub.

Sözügedən əsərdə fərqli siyasi sistemlərə və idarəetmə mədəniyyətlərinə malik ölkələrin idarəetmə modelləri geniş və müqayisəli şəkildə təhlil edilib. Tədqiqat çərçivəsində Almaniya Federativ Respublikası, Amerika Birləşmiş Ştatları, Avstriya, Azərbaycan Respublikası, Braziliya, Əlcəzair Xalq Demokratik Respublikası, Çin Xalq Respublikası, Finlandiya, Fransa Respublikası, Hindistan, Niderland (Hollandiya), Böyük Britaniya, İran, İsveç, Yaponiya, Koreya Respublikası, Misir Ərəb Respublikası, Polşa, Rusiya, Səudiyyə Ərəbistanı və Yeni Zelandiya kimi ölkələrin idarəetmə sistemləri hərtərəfli araşdırılıb.

Kitab dövlət idarəçiliyi sahəsində aparılan elmi tədqiqatlara mühüm töhfə olmaqla yanaşı, bu istiqamətdə çalışan mütəxəssislər, tədqiqatçılar və tələbələr üçün dəyərli elmi mənbə kimi əhəmiyyət kəsb edir.

### *Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən "Maarifçi" proqramının infosessiyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Elm və Təhsil Nazirliyinin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən "Maarifçi" tələbə-məzun təcrübə proqramının növbəti – "Rəqəmsal gələcək" şüarı ilə keçirilən IV mərhələsinə dair infosessiya keçirilmişdir.



Görüş zamanı proqram haqqında ətraflı məlumat verilmiş, iştirakçıların sualları cavablandırılmış və proqramın təqdim etdiyi imkanlar barədə tələbələr məlumatlandırılmışdır.

### *Professor Turqut Tanın "Müasir inzibati hüquqda inkişaf tendensiyaları" mövzusunda mühazirəsi*




Martın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin möhkəmləndirilməsi, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Bilkent Universitetinin Hüquq fakültəsinin qurucu dekanı, professor Turqut Tan tərəfindən "Müasir inzibati hüquqda inkişaf tendensiyaları" mövzusunda ustad dərsi keçirilmişdir. Tədbirdə DİA-nın professor-müəllim heyəti, tələbələr və müxtəlif ali təhsil müəssisələrindən dəvət olunmuş qonaqlar iştirak etmişlər.

Tədbiri açılış nitqi ilə başlayan DİA-nın rektoru, akademik Urxan Ələkbərov qonağı salamlayaraq onun Akademiyada çıxış etməsinin xüsusi əhəmiyyət daşıdığını qeyd etmişdir. Rektor bildirmişdir ki, müasir dövrdə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması və hüquqi dövlət prinsiplərinin möhkəmləndirilməsi baxımından inzibati hüququn rolu getdikcə daha da artır. Bu baxımdan DİA -da dünya miqyasında tanınmış alimlərin və təcrübəli mütəxəssislərin iştirakı ilə keçirilən ustad dərsləri tələbələrin nəzəri biliklərinin zənginləşdirilməsinə, onların hüquq sahəsində düşüncə tərzinin formalaşmasına və beynəlxalq təcrübə ilə yaxından tanış olmalarına mühüm töhfə verir. Akademik Urxan Ələkbərov professor Turqut Tanın inzibati hüquq sahəsində aparıcı alimlərdən biri olduğunu vurğulayaraq onun elmi fəaliyyətinin bu sahənin inkişafına əhəmiyyətli töhfələr verdiyini qeyd etmiş və Akademiyanın dəvətini qəbul edərək ustad dərsi keçdiyi üçün qonağa təşəkkürünü bildirmişdir.

Daha sonra DİA-nın Hüquq kafedrasının müdiri, professor İsaxan Vəliyev çıxış edərək Akademiyada hüquq təhsilinin inkişaf istiqamətləri haqqında məlumat vermişdir. O

qeyd etmişdir ki, ölkə üzrə hüquq ixtisası üzrə ən yüksək bal toplayan abiturientlər məhz DİA -da hüquq təhsili alırlar. Həmçinin bildirmişdir ki, 2025-ci ildən etibarən Akademiyada "İnzibati hüquq və inzibati proses" ixtisaslaşması üzrə magistr səviyyəsində tədrisin həyata keçirilməsinə başlanılmışdır. Professor İsaxan Vəliyev vurğulamışdır ki, bu ixtisaslaşmanın yaradılması dövlət idarəçiliyi sahəsində peşəkar hüquqşünas kadrların hazırlanmasına xidmət edir. O, həmçinin professor Turqut Tanın inzibati hüquq, iqtisadi dövlət hüququ və konstitusiya hüququ sahələrində çoxsaylı fundamental əsərlərin müəllifi olduğunu, onun elmi tədqiqatlarının bir çox ölkələrdə hüquqşünas alimlər və tələbələr üçün mühüm mənbə kimi istifadə edildiyini qeyd etmişdir.

Ustad dərsi ilə çıxış edən professor Turqut Tan inzibati hüququn yaranma tarixi və inkişaf mərhələləri haqqında geniş məlumat vermişdir. O bildirmişdir ki, inzibati hüquq dövlət idarəçiliyinin hüquqi əsaslarını müəyyən edən ən mühüm hüquq sahələrindən biridir və bu sahə zaman keçdikcə dövlət və cəmiyyət münasibətlərinin dəyişməsi ilə paralel şəkildə inkişaf edir. Professor Turqut Tan müxtəlif ölkələrin hüquq sistemlərində inzibati hüququn formalaşma xüsusiyyətlərindən danışaraq Avropa hüquq məktəbinin bu sahəyə təsiri, inzibati məhkəmə nəzarətinin rolu və vətəndaşların hüquqlarının müdafiəsi mexanizmlərinin əhəmiyyəti barədə fikirlərini bölüşmüşdür.

O, həmçinin müasir dövrdə inzibati hüquq sahəsində baş verən əsas yeniliklərə toxunaraq rəqəmsal idarəetmə, elektron hökumət mexanizmləri, dövlət orqanlarının fəaliyyətində şəffaflığın və hesabatlılığın artırılması kimi məsələlərin hüquqi tənzimlənməsinin aktuallığını vurğulamışdır. Professor qeyd etmişdir ki, dövlət idarəçiliyinin modernləşdirilməsi prosesində inzibati hüququn prinsiplərinin düzgün tətbiqi həm dövlət institutlarının effektiv fəaliyyətinə, həm də vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edir.

Sonda professor-müəllim heyəti və tələbələrlə interaktiv müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır. Ustad dərsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanmış və inzibati hüququn müasir inkişaf istiqamətləri ilə bağlı faydalı fikir mübadiləsi aparılmışdır.

## *"31 mart – Azərbaycanlıların Soyqırımı Günü" DİA-da yad edilmişdir*

Tədbirin açılış nitqini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov etmişdir. O, çıxışında 1918-ci ilin mart hadisələrinin Azərbaycan xalqına qarşı törədilmiş ən ağır və amansız cinayətlərdən biri olduğunu vurğulamış, bu faciənin xalqımızın tarixi yaddaşında dərin və silinməz iz buraxdığını qeyd etmişdir. Bildirmişdir ki, həmin dövrdə minlərlə günahsız insan yalnız milli mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəni və tarixi abidələr məhv edilmişdir.

Akademik Urxan Ələkbərov xüsusi olaraq qeyd etmişdir ki, bu hadisələrə hüquqi-siyasi qiymətin verilməsi məhz ümummilli lider Heydər Əliyev tərəfindən mümkün olmuş, onun təşəbbüsü ilə 31 mart – Azərbaycanlıların Soyqırımı Günü kimi rəsmi şəkildə elan edilmişdir. Bu qərar tarixi həqiqətlərin üzə çıxarılması və beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Rektor həmçinin vurğulamışdır ki, bu gün İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl siyasət nəticəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm addımlar atılır, tarixi ədalətin bərpası və milli yaddaşın qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi diqqətdə saxlanılır.

O, gənclərin bu məsələlərdə daha fəal olmasının vacibliyini qeyd edərək bildirmişdir



ki, tarixi yaddaşın qorunması, milli kimliyin dərk edilməsi və vətənpərvərlik ruhunun gücləndirilməsi hər bir vətəndaşın borcudur. Xüsusilə ali təhsil müəssisələrində keçirilən bu kimi maarifləndirici tədbirlər gənc nəslin düzgün formalaşmasında mühüm rol oynayır.

Daha sonra çıxış edən Tarix kafedrasının müdiri, dosent Firdovsiyə Əhmədova soyqırım barədə ətraflı məlumat vermişdir. O, 1918-ci il hadisələrinin səbəbləri, gedişatı və nəticələri, eləcə də bu proseslərin Azərbaycan–Ermənistan münasibətlərinə təsiri barədə geniş təhlil aparmış, arxiv materialları və tarixi faktlara əsaslanaraq mövzunu izah etmişdir.

Tədbir çərçivəsində iştirakçılar arasında mövzu ətrafında fikir mübadiləsi aparılmış, gənclərin sualları cavablandırılmışdır. Qeyd olunmuşdur ki, bu kimi tədbirlər tələbələrdə tarixi şüurun formalaşması və milli dəyərlərə bağlılığın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Qazaxıstanın bir qrup dövlət qulluqçuları üçün təcrübə proqramına başlayır*

31 mart – 10 aprel 2026-cı il tarixlərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) tərəfindən Qazaxıstan Respublikasının bir qrup dövlət qulluqçusu, Qazaxıstan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantları üçün təlim-təcrübə proqramları təşkil olunacaq.

“Dövlət idarəçiliyində innovativ texnologiyalar” adlı təlim–təcrübə proqramının açılış mərasimində çıxış edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi innovativ dövlət idarəçiliyi modelinin ölkənin davamlı inkişafında mühüm rol oynadığını xüsusi vurğuladı. Qeyd olundu ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqi, genişmiqyaslı rəqəmsallaşma, insan kapitalı-



nın inkişafı, ekoloji yanaşmanın gücləndirilməsi və innovasiya əsaslı iqtisadi modelin formalaşdırılması istiqamətində ardıcıl və sistemli islahatlar həyata keçirilir. Bildirildi ki, həyata keçirilən bu siyasət nəticəsində Azərbaycan regionda innovativ inkişaf modelini uğurla tətbiq edən, müasir idarəçilik texnologiyalarından geniş istifadə edən və dövlət idarəçiliyində yeni yanaşmaları effektiv şəkildə tətbiq edən ölkələrdən birinə çevrilmişdir.

Rektor qeyd edib ki, Azərbaycanın dövlət idarəçiliyi sahəsində əldə etdiyi təcrübə beynəlxalq səviyyədə maraq doğurur və bu kimi təlim proqramları ölkələr arasında təcrübə mübadiləsinin genişlənməsinə xidmət edir.

Urxan Ələkbərov DİA ilə Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında dərin əməkdaşlığın mövcud olduğunu, davamlı şəkildə dövlət idarəçiliyi, təhsil, elm sahələrində birgə tədbirlərin həyata keçirildiyini qeyd edib. Eyni zamanda vurğulanıb ki, bu proqram iki ölkə arasında dövlət idarəçiliyi sahəsində əməkdaşlığın daha da genişlənməsinə, təcrübə mübadiləsinin gücləndirilməsinə və gələcək birgə layihələrin həyata keçirilməsinə mühüm töhfə verəcək.

Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel tədbir iştirakçılarını salamlayaraq, Qazaxıstan və Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. O qeyd edib ki, iki qardaş ölkə arasında siyasi, iqtisadi, humanitar, təhsil və dövlət idarəçiliyi sahələrində əməkdaşlıq dinamik şəkildə genişlənməkdədir.

Səfir vurğulayıb ki, dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsi, birgə təlim proqramları və akademik əməkdaşlıq Qazaxıstan ilə Azərbaycan arasında əlaqələrin inkişafında mühüm rol oynayır. Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında həyata keçirilən bu proqram dövlət qulluqçularının peşəkar inkişafına, müasir idarəetmə biliklərinin artırılmasına və iki ölkə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

Qazaxıstanın səfiri öz çıxışında Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin həyata keçirdiyi siyasi və iqtisadi islahatlar barədə məlumat verdi. Qeyd olundu ki, Prezident Tokayevin təşəbbüsü ilə

Qazaxıstanda dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal texnologiyaların inkişafı və sosial rifahın yüksəldilməsi istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilir. Bu islahatlar Qazaxıstanın regional və beynəlxalq səviyyədə rolunu daha da gücləndirməyə, ölkənin dayanıqlı inkişafını təmin etməyə yönəlib. Səfir həmçinin Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinin Prezidentlər İlham Əliyev və Kasım-Jomart Tokayev tərəfindən uğurla inkişaf etdirildiyini vurğuladı.

Daha sonra Qazaxıstandan gələn magistrant – dövlət qulluqçuları Bakıya xüsusi maraqla gəldiklərini, bu kimi proqramların davamlı olacaqlarından əminliklərini ifadə ediblər.




Xatırladaq ki, təlim proqramı çərçivəsində iştirakçılar üçün dövlət idarəçiliyində rəqəmsal transformasiya, qanunvericilik fəaliyyətində rəqəmsallaşma, gender bərabərliyi siyasəti, turizm siyasəti, ekoloji idarəetmə, insan hüquqları, dövlət suverenliyi və beynəlxalq münasibətlər kimi mövzularda mühazirələr və təqdimatlar təşkil olunacaq. Həmçinin, proqram çərçivəsində iştirakçıların Milli Məclis, ASAN İnnovasiya Mərkəzi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər dövlət qurumlarına səfərləri nəzərdə tutulub.



## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**..............................15

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.205

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**..........................................27

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.211

Tərtərə və Ağdərəyə səfər ......................................................................................27
İsveçrə Konfederasiyasına səfər.............................................................................32
Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər ............................................................46
Almaniyaya səfər ...................................................................................................54
Serbiyaya rəsmi səfər .............................................................................................62
Amerika Birləşmiş Ştatlarına işgüzar səfər.............................................................66
Lənkərana, Xocavəndə və Xocalıya səfər ...............................................................67
Xocavəndə səfər......................................................................................................78
Şamaxı rayonuna səfər ............................................................................................81

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**..............................................................................................83

DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.217

İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib .......................................83

Bakıda "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimində İlham Əliyevin nitqi ..................................................................................................103

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirədə İlham Əliyevin nitqi...........................104

Azərbaycan və Serbiya arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasında İlham Əliyevin nitqi...........................................................................107

Xocalı Soyqırımı Memorialının açılışında İlham Əliyevin nitqi .............................108

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında İlham Əliyevin nitqi ..................................................................................................110

"Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumunda İlham Əliyevin nitqi.................................................112

## DÖVLƏT İDARƏÇİLİYİ

**Züriyə Qarayeva.** 2023-2026-cı illər Türkiyə siyasətində struktur dəyişiklikləri və prezidentlik sisteminin yeni mərhələsi ....................................................................................115
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.318

**Наида Гаджинская.** Память и достоинство: жизненный путь Джамо Гаджинского (к 100-летию профессора Джамо Гаджинского) ..................................................................127
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.321

## DAVAMLI İNKİŞAF SİYASƏTİ

**Ülkər Şəfiyeva**, **Erol Əhmədov.** Könüllülük fəaliyyəti və onun gənclər siyasətinə təsiri .......139
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.334

## SİYASİ NƏZƏRİYYƏ

**Ülviyyə Haqverdi**. XX əsrdə miqrasiya proseslərinin demoqrafik siyasətə təsiri.....................149
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.339

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Zaur Məmmədov.** Müasir çağırışlar fonunda Azərbaycan Respublikasının xarici siyasəti və sülh strategiyası.........................................................................................................161
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.343

## FƏLSƏFƏ

**Закир Мамедалиев**. Западный рационализм, справедливость и всеобщее .......................167
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.355

## SOSİOLOGİYA

**Müjkan Məmmədzadə.** Ali hərbi təhsilin təkmilləşdirilməsi üzrə konseptual yanaşmaların elmi-nəzəri əsaslandırılması...........................................................................................177
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.362

**Biserka Jakovljević.** Social Protection Services Intended for Elderly Persons with Poor Health Conditions Living in Rural Areas: Evidence from Central Serbia .................193
DOI:https://doi.org/10.30546/2309-1347.93.2026.01.367

## İQTİSADİYYAT

**Məmməd Məmmədov.** “Menecment” termininə yanaşmaların genezisi .................................201
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.373

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Эльман Гурбанов.** Исламский фактор как инструмент политической легитимации и геополитического воздействия в современной ближневосточной динамике: сирийско-иранский ракурс ....................211
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.377

## TARİX

**Гюнель Сулейманова.** Ситуация в Карабахе накануне образования генерал-губернаторства ....................225
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.379

## HÜQUQ

**Kəramət Qənbərov**. Müasir beynəlxalq hüquqda universal yurisdiksiya prinsipi və beynəlxalq cinayət məsuliyyəti mexanizmlərinin inkişafi ....................239
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.384

**Rüstəm Oruclu.** Konstitusiya nəzarətinin cinayət-prosessual hüququn normativ və institusional strukturuna təsiri: nəzəri və tətbiqi aspektlər ....................257
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.389

## SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR

**Pəri Mahmudova.** Postmüharibə dövründə milli təhlükəsizliyin təmin olunması Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ....................275
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.392

## İQTİSADİYYAT

**Ogtay Guliyev, Khaverkhanim Alizade.** Marketing Analysis of Mobile Operators in Azerbaijan: A Comparative Study of Azercell and Bakcell ....................283
DOI: https://doi.org/10.30546/2309-1347.93.2026.01.398

**Dövlət İdarəçilik Akademiyasında** ....................291

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,0 (bir) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,0 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации**
**в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,0 (одинарный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2026, №1(93)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*siyasi elmlər üzrə fəlsəfə doktoru Ü.Mustafayev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur
Sifariş15. Tiraj 500.

// Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2026, №1(93)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*U.Mustafayev, Ph.D. in political sciences*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(The Academy of Public Administration under the President of the Republic of Azerbaijan)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order 15. Number of copies printed 500.